# İSLAMDA OLANLAR OLDUĞU KİMİ

**I VƏ II CİLDDƏN MÖVZULAR**

**Famil Şirvanov**
**Təbriz Qasımov**

**Tbilisi - 2023**

# İSLAMDA OLANLAR OLDUĞU KİMİ

**Müəlliflər:** Famil Şirvanov
Təbriz Qasımov

**Redaktor:** Vüsal Hətəmov

***Gürcüstan Müsəlmanları İdarəsi 2023***

***Bismillahir-Rəhmanir-Rəhim***

## Giriş

Quran bütün zamanlar və insanlar üçün göndərilmiş bir kitabdır. Dili sadə və anlaşılan olan bu səmavi kitab insanları doğru yola yönəltmək üçün göndərildiyi halda, təəssüf ki, ondan insanları doğru yoldan sapdırmaq üçün də istifadə edənlər tapılır. Allah-taala "Bəqərə" surəsinin 26-cı ayəsində bu həqiqəti belə ifadə edir: "Allah (zahirən kiçik olan) ağcaqanadı və ya ondan daha kiçiyini misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər. Küfr yolunu tutanlar isə (bəhanə olaraq): "Allah bu məsəllə nə demək istəyir?" – deyirlər. (Bəli!) Allah bununla bir çoxlarını azdırır, bir çoxlarını isə doğru yola yönəldir. Amma onunla fasiqlərdən başqasını azdırmaz".

İslam ümmətinin ən böyük problemi bu müqəddəs kəlamın öz müəllimlərindən, Allahın göstəriş verdiyi, Peyğəmbərin (s) vəsiyyət edib tanıtdırdığı şəxslərdən əxz edilməməsidir. Müsəlmanlar arasında bu qədər ixtilafın, fikir ayrılıqlarının, hətta düşmənçiliklərin olması Qurana subyektiv yanaşmalar, məqsədyönlü izahlar, kontekstdən çıxarmalar, çaşdırıcı manevrlər və sofistik polemikalardan irəli gəlir.

Qurana ən yanlış yanaşmalardan biri hər hansı qənaətə, mövqeyə, subyektiv yanaşmaya sahib olub onun təsdiqini Quranda axtarmaqdır. Bu, Qurana ayrı-ayrı elm sahələrindən yanaşanlara da aiddir.

Ümumiyyətlə isə dinin ən böyük bəlası Quranın Peyğəmbər (s) və Əhli-beyt (ə) xəttindən təcrid edilməsi və bütün məsələlərə "Quran təklikdə yetərlidir" iddiası ilə yanaşmaqdır. Əslində, azacıq diqqətli olsaq, görərik ki, heç bu iddia özü belə, qeyd olunan şəkildə Quranda mövcud deyil. Quranın heç bir surəsində və ya ayəsində "Quran təklikdə yetərlidir" məzmunlu bir ifadə yoxdur. Qeyd olunan iddiaya iki aspektdən – ağıl və Quran aspektindən cavab verməyə çalışacağıq:

**1. Ağıl aspekti**

Qeyd etməliyik ki, Quran və hədisə istinad edilən dəlil və arqumentlər özləri də dolayısı ilə əqli dəlillər hesab edilir. Bu ikisini bir-birindən ayırmaq olmaz[1]. Vəhy ağlın çırağı, ağıl da tövhid (Allahın təkliyi prinsipi), nübüvvət (peyğəmbərlik), risalət (dinin təbliği) və məadın (axirət dünyası) təsdiqləyicisidir.

Quranın təklikdə yetərli olduğunu güman edənlərin bir neçə sualla qarşılaşması qaçılmazdır: "Allahın kitabının təklikdə yetərli olduğunu iddia etdiyiniz zaman təkcə müsəlmanların Peyğəmbər (s) və Əhli-beytə (ə) müraciətini qəbul etmirsiniz, yoxsa kitabın bütün bəşəriyyətə yetərli olduğunu düşünür, hətta sizə də müraciət edilməsinə lüzum görmürsünüz?" Əgər desəniz ki, kitab hər kəs üçün yetərlidir, o zaman nəzəri, etiqadi, nəticədə də əməli hərc-mərcliyin olması qaçılmazdır. Ortada "hidayət edən və istiqamətləndirici" deyə bir şey qalmayacaq. Kimin ürəyi necə istəsə, elə də şərh edəcək, davranacaq, ürəyindən keçəni Qurana aid edəcək. Əgər desəniz ki, xeyr, bizə müraciət etməlisiniz, o zaman soruşuruq: "Məgər, kitabın yetərli olduğunu iddia edən siz deyildinizmi? Əgər kitab təklikdə yetərli deyilsə, müraciətə ehtiyac varsa, nə üçün kitabı gətirənin özünü (Peyğəmbəri), onun bilicilərini (Əhli-beyti) bir kənara qoyub sizə üz tutmalıyıq?"

Kitabın özünü qəbul edib onun müəllimini bir kənara qoymaq hansı məntiqə sığır? Müəllim olmadan hansı kitabı öyrənmək olar? Təsəvvür edin, minlərlə tiraj əlifba yazılır və oxuma-yazma bilməyən insanların ixtiyarına verilir. Onlar bu əlifbanı necə və hansı vasitə ilə öyrənə bilərlər? Əgər müəllim olmasa, hərə o hərflərə bir başqa ad verməyəcəkmi? Əgər müəllimsiz elm mümkün olsaydı, məktəblər və universitetlərə ehtiyac qalmazdı. Söhbət insanların hidayəti üçün göndərilmiş ilahi kəlamdan getdikdə isə vəziyyət daha da həssaslaşır. Bu kəlamın ehtiva etdiyi ayrı-ayrı məzmunları, müxtəlif elm sahələrinə dair misalları, etik, fəlsəfi, ədəbi, elmi, tərbiyəvi, nəzəri, əməli incəlikləri və sairəni müəllimsiz necə dərk etmək olar? Allah-taala Quranda məhz bu nüansı xüsusilə vurğulayaraq peyğəmbərlərin, elçi-

---

[1] Ağıl nəyi hökm edirsə, şəriət də onu hökm edir, şəriət nəyi hökm edirsə, ağıl da onu hökm edir.

lərin göndərilməsinin səbəbinin həm də ayələri oxumaq, insanları islah etmək, kitab və hikməti öyrətmək olduğunu açıq şəkildə qeyd edir:

"Allah möminlərə onların öz içərisindən Allahın ayələrini onlara oxuyan, onları (pis əməllərdən) təmizləyən, Kitabı (Quranı) və hikməti onlara öyrədən bir peyğəmbər göndərdiyi vaxt onlara minnət qoydu. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər"[1]

Nəzərə almaq lazımdır ki, Peyğəmbərin (s) qəbul edilməsi və ona iman Qurandan əvvəl gəlir. Quranın təqdimatçısı da Peyğəmbərdir (s). Quranda Allahla yanaşı, Peyğəmbərə (s) və Əhli-beytə (ə) itaət göstərilməsi əmri də bu ikisinin ayrılmaz olduğunu göstərir. Əgər Quran təklikdə kifayət etsəydi, bu gün hamı alim, əməl adamı, ədalətli, təqvalı və mömin olardı. Bəs necə olub ki, bu kitab hətta onun yetərli olduğunu iddia edənlərin özlərini də hidayət etməyib? Əgər kitab yetərli idisə, bu qədər prinsipial və ümumi məsələlərdə fikir ayrılıqları olan məzhəblər haradan və necə meydana gəlib? Məgər hamısı bir kitaba müraciət və istinad etmirmi?

Bütün bunlar onu göstərir ki, problemin kökünü Qurandan düzgün istifadə prinsipinin pozulmasında axtarmaq lazımdır.

## 2. Quran aspekti

Quranın öz ayələri "İsmət və iffət ailəsi"nə müraciətin vacib olduğunu ifadə edir:

**A)** Allah-taala Qurani-Kərimdə 3 əsas – elçi, kitab və mizan nazil etdiyini buyurur: "Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar".[2]

**Ayənin ehtiva etdiyi nüanslar:**

1. Allah-taala bu ayədə elçi və onunla birlikdə kitab göndərdiyini buyurur. Diqqət çəkən nüans peyğəmbərin kitabla deyil, kitabın peyğəmbərlə birlikdə göndərilməsidir.

2. İddia oluna bilər ki, "mizan" deyilərkən burada elə Quran özü nəzərdə tutulmuşdur. Ancaq unutmaq olmaz ki, "kitab" sözü artıq ayədə

---

[1] Ali-İmran surəsi, 164-cü ayə

[2] Hədid surəsi, 25-ci ayə

bir dəfə qeyd edilmişdir və "kitab və kitab göndərdim" ifadəsi yanlış olur. Deməli, "mizan" (ölçü vasitəsi, ülgü, nümunə, meyar) heç də kitab deyil, onun hökmlərinə necə əməl edildiyini göstərən vasitədir.

3. Peyğəmbər (s) – yəni qeyd olunan ayədəki üç prinsipdən biri – dünyasını dəyişərkən qalan iki prinsipdən – Allahın kitabı və mizandan (Əhli-beyt) bərk-bərk yapışmağı vəsiyyət etmişdir[1].

**B)** Peyğəmbərin (s) vəzifəsi təkcə elçilik və ya qasidlik olmamışdır:

"Allahın kitabı təklikdə bizə kifayətdir" deyənlər, əslində, tövhidə zidd davranır və ilahi hikmətə qarşı hörmətsizlik edirlər. Sanki Peyğəmbərin (s) vəzifəsi yalnız qasidlik edib xəbər çatdırmaq olmuşdur (Allaha sığınırıq bu inancdan). Nəzər nöqtəsi olan iddianın müəlliflərinə görə, xəbər yetişdikdən sonra qasidə ehtiyac qalmır və biz özümüz nə edəcəyimizi yaxşı bilirik. Allah-taala belə bir yanlışa yol verməməyimiz üçün bir çox ayələrdə açıq şəkildə Peyğəmbərin (s) "Kitabı" öyrətmək, nümunə olmaq və itaət göstərilməsi üçün göndərildiyini buyurmuşdur:

"Allahın elçisi sizə – Allahın rəhmətinə və Axirət gününə ümidi olanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir"[2].

"Biz hər bir peyğəmbəri, ancaq ona Allahın əmrilə itaət olunsun deyə, göndərdik. Əgər onlar özlərinə zülm etdikləri (Allahın əmrlərini pozduqları) zaman sənin yanına gəlib Allahdan bağışlanmaq dilə-səydilər və Peyğəmbər də (s) onlar üçün əfv diləsəydi, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər"[3].

**C)** Allah və onun kəlamına (Quran) itaət Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) itaətdə özünü göstərir:

Allaha bəndəlik və itaət şüar, xəyal və xülya deyil ki, hər kəs ürəyi istədiyi kimi davranıb hidayət və xilasa ümid bəsləsin. İlahi kəlamın təzahürü özünü vəhydə, hidayətin təzahürü isə özünü Peyğəmbərdə göstərdiyi kimi, Allaha ibadət və itaət də Peyğəmbər və ismət ailəsinə itaətlə şərtlənir. Bu səbəbdən də Allah-taala Quranda dəfələrlə Pey-

[1] Bu fakt bütün müsəlman dünyasında tərəddüdsüz qəbul edilən məsələlərdəndir

[2] Əhzab surəsi, 21-ci ayə

[3] Nisa surəsi, 64-cü ayə

ğəmbərə itaətin Allaha itaət olduğunu buyurur və ona itaət göstərilməsini əmr edir:

"De: "Allaha və elçi(sinə) itaət edin!" Əgər boyun qaçırsalar, şübhəsiz ki, Allah kafirləri sevməz"[1]

"Allaha və Peyğəmbərə itaət edənlər (Qiyamət günü) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (doğru danışanlar, sədaqətli olanlar, etiqadı dürüst olanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləri ilə) bir yerdə olacaqlar. Onlar gözəl yoldaşlardır!"

Quranın təklikdə kifayət etdiyini iddia edənlər nə düşünürlər? Allah kamil insan, yaranmışların ən şərafətlisi olan bir peyğəmbəri 1400 il bundan əvvəl hidayət edən, rəhbər, nümunə olaraq təkcə bir qrup ərəb üçün göndərib, qalan insanları isə bu nemətdən məhrum edib? Bu kamil insan nümunəsinin izahı, davranışı, sünnəsi, həyat tərzi, elm və təlimi hamıya aid deyilmi?

**D)** Quranın başa düşülməsində fikir ayrılığı yaranarsa (yaranıb da), nə etməliyik?

Fikir ayrılıqlarının olması Quranın təklikdə kifayət etmədiyindən xəbər verir. İndi ortaya belə bir sual çıxa bilər ki, fikir ayrılıqları yarandıqda nə etməliyik? İxtilafı yoluna qoyan Peyğəmbərdir (s), yoxsa qeyrisi?

Allah-taala ixtilaf və fikir ayrılığı yarandıqda, mütləq, Peyğəmbərə (s) müraciət edilməsini göstəriş verir. Təbii ki, ağıl da bu məntiqdən yanadır:

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və əmr sahiblərinə (Peyğəmbərin canişinlərinə) itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır".[2]

"Peyğəmbər möminlərə onların özlərindən daha üstündür"[3] ayəsi də onun bizim həyatımızda nə qədər mühüm rol oynadığını göstərir. Peyğəmbəri (s) təkcə yaşadığı dövrlə məhdudlaşdırmaq ona və gətirdiyi dinə qarşı böyük haqsızlıqdır. Unutmamalıyıq ki, Peyğəmbər təkcə yaşadığı

[1] Ali-İmran surəsi, 32-ci ayə
[2] Nisa surəsi, 59-cu ayə
[3] Əhzab surəsi, 6-cı ayə

dövrün deyil, bütün dövrlərin möminləri üçün nümunə olarsa, Quranın hökmləri öz əməli tətbiqini tapmış olar.

Quran Peyğəmbər (s) və Əhli-beytdən (ə) təcrid edilərək şəxsi düşüncələrin ona yüklənməsi daim ixtilaf və mübahisələrin yaranmasına səbəb olmuşdur. Bu gün ölkəmizdə də müsəlmanlar arasında parçalanma salmaq istəyən qüvvələr bu metodu izləyirlər. İddialarına nəzər saldıqda onların heç də yeni olmadığının şahidi oluruq. Təəssübkeş münasibətlərindən qaynaqlanan bu iddialar hər zaman aktual olmuşdur. Bu aktuallıq isə həmişə münaqişələrlə nəticələnmişdir. İslam düşmənləri də bu fürsətdən çox məharətlə istifadə edərək öz planlarını həyata keçirmişlər. Bu gün İslam dünyasına vəhdət və birlik lazım olduğu halda, yenidən həmin ixtilafların qabardılmasının başqa bir izahı ola bilməz. Düşmən yenə də iş başındadır. Odur ki, ölümündən yeddi yüz il keçməsinə baxmayaraq, fikirləri ilə müsəlman dünyasında böyük “rezonans” doğurmuş, əsrlər sonra da qanlı qırğınlara səbəb olmuş bir məzhəb üçün örnək götürülmüş İbn Teymiyyənin fikirlərinin yenidən qabardılması, təbii ki, paraçalanmadan başqa bir məqsədə xidmət edə bilməz. Elə biz də əlimizdəki tədqiqat işində bu gün ölkədə qabardılan bəzi dini iddiaların haradan qaynaqlandığına aydınlıq gətirməyə və onları cavablandırmağa çalışmışıq. Təbii ki, son söz yenə də oxucunundur. Allah-taala Quranda belə buyurur:

فَبَشِّرْ عِبَادِ الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ أُولَٰئِكَ الَّذِينَ هَدَاهُمُ اللَّهُ وَأُولَٰئِكَ هُمْ أُولُو الْأَلْبَابِ

(Bəndələrimi müjdələ! Onlar sözləri dinləyib onların ən yaxşısına tabe olan, Allahın doğru yola yönəltdiyi şəxslərdir. Onlar ağıl sahibləridirlər.)[1]

Sofistik mühakimələr təbii ki, ilk baxışda müəyyən auditoriyalar üçün inandırıcı görünə və çaşqınlıq yarada bilər. Lakin dərin düşüncəyə malik insanları bu vasitə ilə qətiyyən doğru yoldan sapdırmaq olmaz.

Din sahəsində hər zaman aktual olmuş məsələ bu gün ölkəmiz üçün də aktuallığını saxlamaqdadır. Tarixin toz basmış düşüncələri günümüzə qədər daşınaraq müsəlmanlar arasında çaşqınlıq yaradılmasına səy göstərilir. Qabardılan mövzulara nəzər saldıqda, əslində, onların

[1] Zumər surəsi, 17-18-ci ayələr

dini, əqli, məntiqi və tarixi cəhətdən cavabları verilmiş məsələlər olduğunu görmək olar. Tədqiqatçılar mömin və müsəlmanları şübhədən xilas etmək, qabardılan mövzulara aydınlıq gətirmək, problemin haradan və nədən qaynaqlandığını göstərmək üçün önə çəkilən mövzulara təkrar qayıtmaq məcburiyyətində qalırlar. Bu tədqiqat işində də son günlər ölkəmizdə İslam adı ilə cəmiyyətə təqdim edilən yanlış düşüncələrdən bir neçəsinə aydınlıq gətirilməsinə, xalqın əsrlərlə davam etmiş inanclarına yönələn iradlara cavab verilməsinə, yanlışlığın, əslində, nədən qaynaqlandığının müəyyən edilməsinə səy göstərilmişdir.

İslam dininin ayrı-ayrı hökmləri, Quranın müxtəlif ayələri və həqiqətləri ilə bağlı irəli sürülmüş iradlar və şübhələrə, İslamda "yoxdur" və "vardır" tipli iddialara nəzər saldıqda, əslində, iddiaçıların məsələlərə ya səthi, ya da təəssübkeş mövqedən yanaşdığının şahidi oluruq. Məsələ heç də "yoxdur", – deməklə bitmir. Bunun üçün də tədqiqat işində hər şeydən əvvəl Quranın düzgün anlaşılması metodikasına yer verilmişdir. Daha sonra isə kitabın həcmi nəzərə alınaraq Quranın sevgiyə dəvət edən, əməl ediləcəyi təqdirdə vəhdəti sığortalayan məşhur ayələrindən birinə açıqlama gətirilmiş, ayənin tərcümə və təfsiri ilə bağlı irəli sürülmüş iradlara cavab verilmiş, ardınca peyğəmbərlərin məsumluğu, ölənlərə Quran oxunması və "mütə nikahı" ilə bağlı məsələlər yığcam və əsaslı şəkildə araşdırılmış, şübhəli məqamlara cavab verilmişdir.

# QURANIN TƏRCÜMƏ VƏ TƏFSİRİ METODİKASI

Quranın hər kəs tərəfindən anlaşılan olması üçün təfsirlərə, şərhlərə, izahlara böyük ehtiyac var. Doğru tərcümə, təfsir, şərh və izah zamanı tələb olunan başlıca şərt müəyyən vasitə və metodlardan xəbərdar olmaqdır. Tərcümə və təfsir zamanıriayət edilməsi zəruri olan bu şərtlərdən hər hansı pozularsa, tərcümə və şərhin yanlış nəticə verməsi qaçılmazdır. Tərcümə və təfsir zamanı adətən, aşağıdakı şərt və metodlardan istifadə edilir. Təbii ki, təfsir zamanı tətbiq edilən metod-lardan tamamilə yanlış olanları da var. Aşağıda bu metodların təsnifatını verməyə çalışacağıq.

Quranın düzgün tərcümə və təfsiri zamanı tələb olunan başlıca şərtlər:

**1. Ərəb dili, xüsusilə klassik ərəb dili qrammatikasını və həmin dövrün ədəbi dil normalarını dərindən bilmək**

Quranın tərcüməsi və təfsiri zamanı tələb olunan birinci şərt ərəb dilinin, xüsusilə klassik ərəb dilinin qrammatik qaydalarını, Quranın nazil olduğu dövrün ədəbi dil normalarını yaxşı bilməkdir. Təfsirçi, ümumiyyətlə, ərəb dilinin qrammatikasını yaxşı bilməlidir ki, subyekt, obyekt, zərf, mübtəda, xəbər, tamamlıq, təyin, hal, modal sözlər, birinci və ikinci dərəcəli üzvlər, baş və budaq cümlələri ayırd edə bilsin. Əks təqdirdə yanlışa yol verməsi qaçılmazdır.

**2. Quranda işlənmiş sözlərin leksik mənasını bilmək**

Quranın tərcümə və təfsiri zamanı tələb olunan başlıca şərtlərdən biri də sözlərin mənalarını bilməkdir. Çünki mürəkkəbi anlamağın yolu sadələri anlamaqdan, cümləni başa düşməyin yolu söz və ifadələrin mənasını bilməkdən keçir. Bu məsələdə diqqət yetirilməsi lazım olan ən mühüm cəhət ondan ibarətdir ki, ayədə yer almış sözlərlə bağlı bildiyimiz və yaddaşımızda olan mənalara əsaslanmamalı və ayəni bu əsasla təfsir və şərh etməməliyik. Çünki zaman keçdikcə sözlər məna

dəyişikliyinə uğrayır, Peyğəmbərin (s) zamanında məşhur olan məna ya tam, ya qismən dəyişir, ya da müxtəlif məna çalarları qazanır. Buna görə də təfsir zamanı sözün etimologiyasını axtarmalı, onun məna dəyişikliyini diqqətdən qaçırmamalıyıq.

**3. Quranın Quranla təfsiri**

Quran tam açıq şəkildə hər şeyi bəyan etdiyini qeyd edir:

(Biz sənə hər şeyi izah edən Kitabı nazil etdik)[1]

Quran hər şeyi bəyan etdiyi kimi, təbii ki, öz-özünü də bəyan etməlidir. Buna görə də hər hansı səbəbdən ayədə üstüörtülü mənada işlənmiş hər hansı söz, ifadə, cümlə və ya bötövlükdə ayənin özü ilə bağlı anlaşılmazlıq yarandıqda məsələyə aydınlıq gətirmək üçün eyni məzmunda işlənmiş digər ayələrə müraciət edilir. Bu mövzu ilə bağlı bir neçə nümunəyə nəzər salaq. Allah-taala "Şuəra" surəsinin 173-cü ayəsində Lut qövmü haqqında belə buyurur:

(Biz onların üstünə yağış yağdırdıq. Qorxudulanların yağışı nə pis yağış imiş!)

Ayədə yağışın yağdırılmasından danışılsa da, burada hansı yağışdan söhbət getdiyi məlum deyil. Başqa bir ayə bu müəmmaya aydınlıq gətirməkdə bizə yardım edir:

(Onların üzərinə daş yağdırdıq).

Bu ayədə işlənmiş "daş" sözü əvvəlki ayə ilə bağlı qeyri-müəyyənliyin aradan qalxmasında rol oynadı.

**4. Ayələrin nazilolma səbəblərinə diqqət**

Quranın ayələrinin nazilolma səbəbləri 23 illik peyğəmbərlik dövründə baş vermiş ayrı-ayrı hadisələr və situasiyalarla bağlı olmuşdur. Ayələrin nazilolma səbəbləri ilə bağlı məlumat onların məzmununa xüsusi bir aydınlıq bəxş edir. Əlbəttə, bu o demək deyil ki, nazilolma səbəbini bilmədən ayənin mənasını da öyrənmək mümkün olmayacaq. Sadəcə, bu vasitə ayələrin mənasının daha aydın və daha açıq şəkildə başa düşülməsinə kömək edə bilər.

[1] Nəhl surəsi, 89-cu ayə

### 5. Doğru hədislərə müraciət

Quran ayələrinin bir hissəsi dini hökmlərə aiddir. Bu ayələrdə mükəlləflərin əməl və davranışlarından danışılır, onların hökmləri müəyyən edilir. Quranda bu mövzunu əhatə edən ayələrin sayı az deyil. Sözügedən ayələrin sayının beş yüzə qədər olduğunu yazanlar da var. Məsələ burasındadır ki, düzgünlüyü sübuta yetmiş hədislərə müraciət etmədən qeyd olunan ayələrdən faydalanmaq mümkün deyil.

### 6. Quran ayələrinin ümumi uyğunluq prinsipinə diqqət

Quranın təfsiri zamanı tələb olunan ən mühüm şərtlərdən biri də budur ki, təfsirçi təfsir etmək istədiyi ayəni həmin surənin digər ayələri, habelə digər surənin ayələri, sonda isə Quranın ümumi məcmusundan təcrid etməsin. O, ayələrin məcmusunun vahid məqsədi izlədiyindən əmin olmalıdır. Təfsir zamanı yanlışa səbəb olan ən mühüm nüanslardan biri məhz budur.

### 7. Fikir və mülahizələr haqqında məlumat

Ömürlərinin bir hissəsini Quranın tərcümə və təfsirinə həsr etmiş böyük müsəlman alimlərinin fikir və mülahizələri ilə tanışlıq Quran təfsirinin əsas qaynaqlarından hesab edilir. Şübhə yoxdur ki, Quranın nazil olduğu dövrdə yaşamış insanlar ayə və surələrin nazilolma şəraitindən xəbərdar olduqları üçün ayələri heç çətinlik çəkmədən anlayırdılar. Lakin zaman keçdikcə, vəhy dövründən uzaqlaşdıqca, nəticədə, ayə və surələrin məna və məzmunlarının aydın şəkildə başa düşülməsində birbaşa rol oynayan faktorlar həyat səhifəsindən silindikcə bizi ayələrin məna və məqsədinə yaxınlaşdıra biləcək fikir və mülahizələrə ehtiyac yaranır. Quranı heç bir fikir və mülahizəyə müraciət etmədən, mövcud fikir və rəyləri analiz etmədən təfsir və şərh etməyə qalxsaq, səhvə yol verməK qaçılmaz olacaqdır.

## 8. İslamın ilkin dövrü haqqında məlumat

İslam tarixi dedikdə Peyğəmbərin (s) besəti, xüsusilə hicrətdən sonra baş verən və Quranın bəzi ayələrində də haqqında məlumat verilmiş hadisələr nəzərdə tutulur. Ümumiyyətlə, qəzəvə və səriyyələr[1] haqqında məlumat Quranın bəzi ayələrinin təfsirində yaxından rol oynayır.

## 9. Peyğəmbərlərin həyatı və başlarına gələn hadisələrdən xəbərdar olmaq

Quranın ayələrinin böyük bir hissəsi keçmiş peyğəmbərlərin həyatı ilə bağlıdır. Bu ayələrdə peyğəmbərlərin şəxsiyyəti və onların yaşadıqları dövrün zalım və despot hakimləri ilə mübarizəsi haqqında məlumat verilir. Ad və Səmud xalqları, Babilin zalım hökmdarları və Misir fironları haqqında məlumatlar Hud (ə), Saleh (ə), İbrahim (ə) və Musa (ə) kimi peyğəmbərlərin onlara qarşı apardıqları mübarizələrdən bəhs edən ayələrə aydınlıq gətirir.

## 10. Quranın nazil olduğu mühit haqqında məlumat

Quran elə bir mühitdə nazil olmuşdur ki, həmin ərazidə yaşayan insanların özlərinə xas olan spesifik adət-ənənələri olmuşdur. Bir çox ayələrdə bu insanların adət-ənənələrindən söhbət açılmış və tənqid edilmişdir. Təfsirçi üçün ərəblərin İslamdan əvvəlki və İslamın göndərildiyi tarixi şəraiti, sosial mühiti, adət-ənənələri bilmək vacibdir. Bu məlumatlar həmin adət-ənənələrdən bəhs edən ayələrin təfsirində mühüm rol oynayır. Məsələn, Quranda ərəblərin "əzlam" (fal oxları)[2], "vədd", "suva", "yəğus", "yəuq" və "nəsr" bütləri[3],"vədül-bənat" (qızların torpağa diri-diri basdırılması) kimi ənənələri[4], atasız və anasız uşaqlarla

---

[1] Peyğəmbərin (s) zamanında baş vermiş müharibələrə deyilir. "Qəzəvə" Peyğəmbərin (s) şəxsən iştirak etdiyi, "səriyyə"lər isə onun iştirak etmədiyi müharibələrdir. Tarixçilər qəzəvələrin sayının 26-27, səriyyələrin sayının isə 35 olduğunu yazmışlar.

[2] Maidə surəsi, 3-cü ayə

[3] Nuh surəsi, 23-cü ayə

[4] Təkvir surəsi, 8-ci ayə

davranış formaları və onlarla bu qəbildən olan mövzulardan bəhs edilmişdir.

**11. Məkkə ayələrinin Mədinə ayələrindən fərqləndirilməsi**

Quranın ayələri nazilolma zamanına görə iki qrupa bölünür. Hicrətdən əvvəl nazil olmuş ayələr Məkkə, hicrətdən sonra nazil olmuş ayələr isə Mədinə ayələri adlandırılmışdır. Məkkə ayələrinin özünəməxsus ahəngi olduğu kimi, Mədinə ayələri də spesifik ahəngə malikdir. Məkkə ayələri nazil olduğu vaxt müsəlmanlar kiçik bir qrup halında yaşayır və mübarizə aparmaq iqtidarında deyildilər; şəraitləri onlara namaz, oruc, zəkat, xüms və cihad kimi hökmlərin qanuniləşdirilməsinə imkan vermirdi. Bu cəhətdən də həmin dövrə aid olan ayələrdə daha çox müşriklərə xitab edilir, etiqad, inanc və maarif məsələləri ön plana çəkilmişdir.

Mədinədə isə şərait başqa cür olmuşdur. Müsəlmanlar artıq böyük bir qüdrətə çevrilmiş, hökmlərin qanuniləşdirilməsi üçün tam əlverişli şərait yaranmışdı. Buna görə də namaz, oruc, zəkat, xüms və cihadla bağlı olan ayələr Mədinədə nazil olmuşdur. Qeyd olunan prinsiplər Quranın doğru-düzgün tərcümə və şərhində mühüm əhəmiyyət daşıyan məsələlərdir.

# VƏHDƏT VƏ SEVGİYƏ ÇAĞIRIŞ EDƏN "MƏVƏDDƏT" (SEVGİ) AYƏSİ

Müsəlmanlar arasına parçalanma salan, vəhdət və birliyə hər zaman mane olan, gözü öz təəssübkeş mövqeyindən başqa heç nə görməyən şəxslər mövqelərini sübuta yetirmək üçün hər zaman Qurandan, daha doğrusu Quranın bəzi həssas ayələrinə subyektiv yanaşmalardan istifadə etmişlər. Həmin ayələrdən biri "Şura" surəsinin 23-cü ayəsidir. Bu ayənin mənası ilə bağlı mövcud olmuş fikir ayrılıqları heç də yeni deyil. Tarixi çox qədimlərə gedib çıxan, əsasən də, Əməvi və Abbasi sülalələrinin öz hakimiyyətlərini qoruyub saxlamaq, müsəlmanları həqiqi İslamdan və Quran həqiqətindən ayrı salmaq üçün əl atdıqları siyasi vasitələrdən olmuş bu ixtilafların yalnız İslam düşmənlərinə xeyri olmuşdur. Bütün bunlar müsəlmanlara ziyandan başqa heç nə verməmişdir. Ancaq təəssüflər olsun ki, istər məqsədli, istərsə də məqsədsiz, ya bilərəkdən, ya da bilmədən, İslam düşmənlərinin dəyirmanına su tökmüş insanlar hər zaman olmuş, indi də vardır. Bəzən ixtilafları qabartmaq bu adamların sensasiya yaratmağa meyillilik, eqoizm, gündəmdə olmaq kimi istəklərindən də irəli gəlmişdir. Təəssübkeşlikləri və sair cəhətləri onların bu ixtilaflara verilmiş cavabları görməzliyə vurmasına səbəb olmuşdur. Günümüzdə ixtilafı qabardanların ən diqqət çəkən cəhətlərindən biri bu yanaşmaların onlardan əvvəl heç kəsə deyil, onların özlərinə məxsus olduğu görüntüsünü yaratmalarıdır.

Çox maraqlıdır ki, ixtilaf alətinə çevrilmiş ayələrdən biri də məhz "Şura" surəsinin "sevgiyə çağırış" edən ayəsidir. Ayədə belə deyilir:

(De: "Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm".)

Peyğəmbər (s) "Tövhid" dininin təbliği sahəsində çox zəhmətlərə qatlaşmışdır. Çəkdiyi zəhmətlərin qarşılığı təbii ki, hədsizdir. Ancaq Allahın göstərişi ilə Peyğəmbərin (s) öz zəhmətləri qarşılığında ümmətindən yalnız bir istəyi olmuşdur – "qohumlarına qarşı sevgi".

Quranın tərcümə və təfsiri zamanı fikir ayrılıqlarına məruz qalmış bu ayə barəsində ümumilikdə dörd məşhur təfsir mövcuddur:

1. Bəzi təfsirçilər hesab edir ki, ayənin mənası belə olmalıdır: "Peyğəmbərliyim mükafatı budur ki, mənim sizinlə olan qohumluq əlaqələrini qoruyun".

2. İkinci təfsirə görə, Allah burada insanlardan istəyir ki, peyğəmbərliyin mükafatı olaraq öz yaxınlarını sevsinlər və sileyi-rəhm etsinlər (qohumluq əlaqələrini möhkəmlətsinlər).

3. Üçüncü qrup təfsirçilərə görə, burada "risalətin mükafatı" ifadəsində "yaxınlığı sevmək", yəni Allaha yaxınlaşmanı sevmək, ibadət və itaət vasitəsi ilə Allahı sevmək, ona doğru aparan yolu sevmək, bir sözlə insanı "Allaha yaxınlaşdıran əməlləri sevmək" nəzərdə tutulmuşdur.

4. Dördüncü təfsirə görə, "فی القربی" (fil-qurba) dedikdə Peyğəmbərin (s) yaxınları nəzərdə tutulur. Onlara sevgi bəsləmək isə o Həzrətin (s) ailəsindən olan məsum imamların (ə) imamət və rəhbərliyini qəbul etmək üçün bir vasitədir.

İslamın klassik dövr təfsirçilərinin bir qrupu və bütün şiə təfsirçiləri qeyd olunan təfsiri əsas götürmüşlər. Bu barədə şiə və sünni mənbələrində çoxsaylı hədis və rəvayətlərin yer aldığını görmək olar.

Birinci təfsirin tərəfdarları bu ayənin Məkkədə nazil olduğunu və ayənin xitab obyektinin qüreyşlilər olduğunu iddia etmişlər.[1] Onların iddiasına görə, Peyğəmbər (s) Qüreyşin tanrılarına qarşı çıxdığı üçün qüreyşilər onu qəbul etmir, düşmənçilik edirdilər. Buna görə də Allah göstəriş verir ki, iman gətirmirlərsə, heç olmasa, onunla düşmənçilik etməsinlər, qohum olduqlarını nəzərə alsınlar. Qohumluqlarına xatir ona əziyyət verməsinlər. Deməli, bu təfsirə görə ayədəki "qurba" sözü qohum deyil, qohumluq və yaxınlıq mənasındadır. Ayədəki "فِي" (fi) önqoşması səbəb bildirir.

Bu izahın problemi ondadır ki, "muzd" sözünün hansı mənanı ifadə etdiyi diqqətdən qaçırılmışdır. Çünki muzd hər hansı xidmət qarşılığında istənilir. Xidmət olmadan, hər hansı fayda vermədən, iş görmədən muzd istəmək qətiyyən doğru hesab edilmir. Ayədə qeyd

[1] İbn Teymiyyə, Minhacüs-sünnə, c.4, səh.25-27

olunan muzd məsələsi o zaman doğru və məntiqli hesab edilə bilər ki, Peyğəmbər (s) Qüreyşi doğru yola yönəltmiş olsun və onlar da iman gətirmiş olsunlar. Onlar kafir olduqları və Peyğəmbəri də (s) qəbul emtədikləri halda, habelə Peyğəmbər (s) onlara nə isə vermədiyi və onlar da nə isə almadıqları halda, hansı muzddan söhbət gedə bilər?[1]

İkinci təfsiri müdafiə edənlərin də fikirlərinin yanlışlığı açıq-aşkardır və Qurana tamamilə ziddir. Çünki heç bir qeyd-şərt olmadan bütün qohumları sevmək dini cəhətdən bəyənilmir. Quran açıq şəkildə buyurur: "Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər".[2]

Əgər burada bütün qohumların nəzərdə tutulduğu iddia edilsə, o zaman Allaha düşmən olan qohumlara qarşı necə sevgi bəsləmək olar? Əgər mömin qohumlar nəzərdə tutulduğu deyilirsə, ayənin ümumi məzmunda işlədilməsinin nə mənası var? Digər tərəfdən, əgər müraciət obyekti Qüreyşdirsə, mömin qohumlara görə bütün Qüreyş və ya bütün insanların belə bir muzda borclu olması nə məna daşıyır? Çünki nə Qüreyşin, nə də hər hansı bəşər övladının elə bir qohumu yoxdur ki, onu sevmək Peyğəmbər (s) risalətinin muzdu olsun.

Üçüncü təfsirə gəldikdə isə həm məna qarışıqlığı, həm də Qurana xarakterik olmayan ritorika və fikir yetərsizliyi yaranır.[3] Çünki qeyd olunan şəkildə "إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ" (Şərti olaraq qəbul etsək ki, cümlənin mənası belədir: "Allaha aparan yolu, yaxınlaşdıran əməlləri sevmək") cümləsi qeyri-müəyyənlik ifadə edir. Bu qeyri-müəyyənliklə müşriklərə xitab edilməsinin isə heç bir mənası olmur. Cümlənin mənası

---

[1] Əllamə Təbatəbai, Əl-Mizan; Məkarim Şirazi, Təfsiri-nümunə

[2] Mucadilə surəsi, 2-ci ayə

[3] Təfsiri qəbul etməyən bir şəxsin, əslində, təfsirdən qaçmaq istəyərkən, subyektiv təfsirə üz tutduğundan xəbərsiz qalması daha acınacaqlı görünür. Problem iddiaçının ərəb dilini tamamilə bilməməsindən irəli gəlir. Ayədə "məvəddətə fil-qurba" ifadəsi işlənmişdir. Bunun isə hərfi tərcüməsi yaxınlığı, qohumluğu, qohumu sevməkdir. Bütün təfsirləri bir kənara qoysaq belə, ayənin hərfi tərcüməsi bundan artığını ifadə etmir. Odur ki, kiminsə nəzər nöqtəsi olan ifadənin "yaxınlığı, qohumluğu, qohum və qohumları sevmək" mənalarını tamamilə rədd etməsi və bunu yanlış tərcümə hesab etməsi iddiaçının naşılığından xəbər verir.

ümumilikdə belə olur: "İnsanlar Allaha yaxınlaşmaq üçün onu sevsinlər." Halbuki müşriklər bunu inkar etmirdilər. Çünki onlar ilahlarına Allaha yaxınlaşmaq və ona qarşı sevgi bəslədikləri üçün ibadət edirdilər. Allah onlar haqqında belə buyurur: (Allahdan qeyrisini özlərinə rəhbər seçənlər: "Biz onlara ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik" – (deyirlər.)[1]; ("Bunlar bizim Allah yanındakı şəfaətçilərimizdir!" – deyirlər.)[2]

Əgər bu təfsirçilərin qeyd etdiyi kimi, "إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ" cümləsinin mənası ibadət vasitəsilə Allaha sevgi olsaydı, o zaman burada "Yalnız Allaha ibadət" ifadəsi işlənməli və belə buyurulmalı idi: "Sizlər ki, bütlərə ibadət vasitəsi ilə Allaha yaxınlaşmaq istəyirsiniz, bilin ki, sevgi və yaxınlaşmağın yolu bu deyil. Doğru yol budur ki, tək olan Allaha ibadət edin, mən sizdən yalnız bunu istəyirəm". Belə bir məqamda cümlənin qeyri-müəyyənlikdə işlədilməsi doğru məntiq hesab edilmir.[3]

Dördüncü təfsirə, yəni "إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ" (məvəddətə fil-qurba) deyilərkən Əhli-beytə qarşı məhəbbətin nəzərdə tutulduğunu qeyd edənlərin mövqeyinə gəlincə, qeyd etməliyik ki, sünni və şiə mənbələrində bu faktı təsdiqləyən çoxlu sayda hədis mövcuddur. Həmin hədislərdə "məvəddətə fil-qurba" ifadəsi ilə Əhli-beytə olan sevginin nəzərdə tutulduğu bildirilir. Digər tərəfdən, hər iki məzhəbin mənbələrində Əhli-beytə qarşı sevgi bəslənməsinin vacib olduğunu ifadə edən təvatür həddə hədislər də bu izahı təsdiq edir. Ayənin bu aspektə əsaslanan tərcümə və təfsirinə keçməzdən əvvəl qeyd olunan mənanı ifadə edən hədislərə və onların yer aldığı mənbələrə ümumi şəkildə nəzər salaq:

1. Hakim Nişaburi və başqaları qeyd edirlər ki, "قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ" (Qul la əsəlikum) ayəsi nazil olduqdan sonra soruşurlar: "Ey Allahın elçisi! Sənin yaxın qohumların kimlərdir ki, onları sevmək bizə vacib edilmişdir?" Peyğəmbər (s) buyurur: "Əli, Fatimə, Həsən və Hüseyn"[4].

---

[1] Zumər surəsi, 3-cü ayə
[2] Yunus surəsi, 18-ci ayə
[3] Əl-Mizan və Təfsiri-nümunə
[4] Əd-Durrul-mənsur, c.6, səh.7; Cameül-bəyan, c.25, səh.14-15; Müstədrəki-Hakim, c.2, səh.444; Musnədi-Əhməd, c.1, səh.199

2. Əhməd “Fəzailüs-səhabə” kitabında öz sənədi ilə Səid ibn Cübeyrdən və Amirdən belə nəql edir:

“Bu ayə: “قُلْ لا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْراً إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى” (Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm) – nazil olduqda səhabələr Peyğəmbərə (s) dedilər: “Məhəbbəti bizə vacib olan qohumların kimlərdir?” O Həzrət (s) buyurdu: “Əli, Fatimə və onların iki övladı”.

Peyğəmbər (s) bu sözü üç dəfə təkrar etdi.[1]

3. Süyuti “Əd-Durrul-mənsur” kitabında bu ayənin təfsiri ilə bağlı Mücahiddən belə nəql etmişdir: İbn Abbas “Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma sevgidən başqa bir mükafat istəmirəm” ayəsinin təfsirində dedi:

“Yəni əhli-beytimin (ə) haqqını qoruyun və onları mənə görə sevin”.[2]

Buradan aydın olur ki, İbn Abbasdan digər mənbələr vasitəsilə nəql olunan və ayəni Peyğəmbərin (s) müxtəlif ərəb qəbilələri ilə qohumluğuna görə incidilməməsi mənasına təfsir edən hədis doğru deyil. Çünki gördüyümüz kimi, bunun əksi İbn Abbasdan nəql olunub.

4. Tanınmış müfəssir Təbərsi əhli-sünnənin məşhur müfəssirlərindən olan Hakim Həskaninin “Şəvahed ət-tənzil” kitabından, o da Əbu İmamə Baholidən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

“Allah peyğəmbərləri müxtəlif ağaclardan yaratmışdır, amma mən və Əli bir ağacdan yaradılmışıq. Mən onun kökü, Əli onun budaqları, Fatimə onun artması səbəbi, Həsən və Hüseyn onun meyvələri, şiələrimiz isə onun yarpaqlarıdır...” Sonra əlavə etdi: “Əgər kimsə Allaha Səfa və Mərvə arasında min il, sonra yenə min il və ondan sonra daha min il ibadət etsə, lakin qəlbində bizim məhəbbətimiz olmasa, Allah onu Cəhənnəm odunda yandıracaq”.

Sonra Peyğəmbər (s) bu ayəni oxudu: “Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm”.

---

[1] Ehqaqul-həqq, c.3, səh.2; Təfsiri-Qurtubi, səh.5843

[2] Əd-Durrul-mənsur, c.6, səh.7

Bəli, ətəklərindən yapışdığımız, özümüzə rəhbər, din bələdçisi və örnək olaraq qəbul etdiyimiz və nəhayət, peyğəmbərlik xəttinin onların imamlığı ilə davam etdiyinə inandığımız Məhəmməd (s) ailəsinin məqamı budur[1].

**"Məvəddət" ayəsinin Əhli-beyt (ə) haqqında olduğunu ifadə edən hədisləri nəql etmiş səhabə və tabein:**

Sözügedən məzmunu ifadə edən hədislər bir qrup səhabə və tabein tərəfindən nəql edilmişdir:

İmam Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), İmam Səccad (ə), İmam Baqir (ə), İmam Sadiq (ə), Abdullah ibn Abbas, Abdullah ibn Məsud, Cabir ibn Abdullah Ənsari, Əbu Ümamə Bahili, Əbüttüfeyl Amir ibn Vasilə, Səid ibn Cübeyr, Mücahid ibn Cəbr, Müqsim ibn Bəcərə, Zazan Kindi, Sədda, Fəzzal ibn Cübeyr, Əmr ibn Şüeyb, Zərr ibn Ceyş, Əbu İshaq Səbii, Zeyd ibn Vəhəb, Abdullah ibn Nəcci, Asim ibn Həmzə.

**"Məvəddət ayəsi" imamətlə bağlıdır**

Nəzər nöqtəsi olan ayə bir çox cəhətlərdən Əhli-beyt imamları (ə) ilə bağlıdır:

**1. Sevginin vacib edilməsi itaət göstərilməsini tələb edir**

Ayədə təkcə sırf sevmək nəzərdə tutulmamışdır. Allah-taala sevgini itaət göstərilməsi üçün vacib etmişdir. Bu məsələni bir neçə aspektdən sübuta yetirmək olar:

A) "Məvəddət" ifadəsinin özü bunu deməyə əsas verir. Bəzi leksikoqrafiya mütəxəssislərinə[2] görə "məvəddət" həm də itaət məzmununa malik olan sevgiyə deyilir.

B) Quranın başqa ayələri bunu deməyə əsas verir. Allah-taala Quranda belə buyurur: "قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ" (De: "Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin".)[1]

[1] Bu hissənin təhlili Təfsiri-nümunə və Əl-Mizan təfsirlərinə aiddir
[2] Lüğətçiliklə məşğul olan mütəxəssis

Bu ayədə tabeçilik deyilərkən itaət göstərilməsi nəzərdə tutulmuşdur. Quranın "وَإِنَّ رَبَّكُمُ الرَّحْمَنُ فَاتَّبِعُونِي وَأَطِيعُوا أَمْرِي" (Sizin Rəbbiniz Rəhman olan Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!)[2] ayəsi də bunu təsdiq edir. Bu ayədə itaət və tabeçilik sözləri cümlənin həmcins üzvlərdir. Bildiyimiz kimi, tam tabeçilik və qeyd-şərtsiz itaət yalnız və yalnız rəhbərliyi və imamlığı Allah tərəfindən təyin edilmiş Allahın vəlisi və imamına məxsusdur. Əllamə Hilli bu barədə belə yazır: "Məvəddətin vacibliyi itaət göstərilməsini tələb edir".[3]

Məşhur əhli-sünnə təfsirçisi Şihabəddin Mahmud ibn Abdullah Alusi özünün "Ruhul-məani" təfsirində bu ayənin şiələr tərəfindən Həzrət Əlinin (ə) imamlığına bir sübut kimi qələmə verildiyinə etiraz edərək yazmışdır: "Şiələr iddia edirlər ki, Əlini (ə) sevmək vacibdir. Sevilməsi vacib olan hər kəsə itaət edilməlidir. İtaət edilməsi vacib olan hər kəs imamət məqamına malikdir. Bununla da Əlinin (ə) imamət məqamına malik olması qənaətinə gələrək bu ayəni dəlil və sübut kimi təqdim etmişlər.

Birincisi, ayəni Peyğəmbərin (s) qohumlarını sevməyin vacib olmasının sübutu kimi qələmə vermək doğru deyil. Bu fikri müfəssirlərin çoxu qəbul etməyib və mövqelərini belə əsaslandırıblar: "Sözügedən davranış Peyğəmbərin (s) şənində deyil. Çünki bu, bir işi başlayıb ardından onun müqabilində övladları və qohumları üçün mənfəətlər və imtiyazlar tələb edən dünyapərəstlərin fəaliyyətinə bənzəyir". Digər tərəfdən isə bu addım aşağıdakı ayəyə ziddir:

"Sən onlardan bir mükafat istəmirsən".[4]

İkincisi, sevməyin vacibliyi itaət etməyin vacibliyini sübut etmir və biz bu iddianı qəbul etmirik. İbn Babəveyh də "Etiqadat" əsərində bunu belə ifadə edir: "İmamilər (şiələr) ələviləri sevməyin vacibliyini yekdilliklə qəbul etdikləri halda, onların hamısına itaət etməyi vacib hesab etmirlər".

---

[1] Ali-İmran surəsi, 31-ci ayə
[2] Taha surəsi, 90-cı ayə
[3] Nəhcül-həqq, səh.175
[4] Yusuf surəsi, 104-cü ayə

Üçüncüsü, itaət edilməsi vacib olan hər bir şəxsin imamət məqamına malik olduğunu qəbul etmirik. Əks halda hər bir peyğəmbər öz dövründə belə bir məqama malik olmalı idi. Halbuki Talut ilə bağlı qissədə də oxuyuruq ki, o öz qövmünün imamı olduğu halda, həmin dövrdə peyğəmbər də olmuşdur.

Dördüncüsü, ayədən belə nəticə çıxır ki, bütün Əhli-beyt üzvləri (ə) itaət edilməsi vacib olan şəxslər olmalıdır və bu səbəbdən də onların hamısı imam olmalıdır. Halbuki imamilərin özlərinin də belə bir inancı yoxdur.[1]

**Cavab:** Quranın bu və digər ayələrində mövcud olan çoxsaylı və möhkəm faktlar bu iradların çox zəif olduğunu göstərir. Belə ki sevgi və məhəbbət məsələsi heç də sadə məsələ deyil. Bu, peyğəmbərliyin mükafatı və risalətin muzdu (qarşılığı) sayılır. Buna görə də peyğəmbərliyin mükafatı ona tay və bərabər olmalıdır. Digər tərəfdən, Quran ayələri bu məhəbbətin faydasının Peyğəmbərə (s) yox, möminlərin özlərinə aid olduğunu ifadə etməkdədir. Başqa sözlə desək, bu, müsəlmanların hidayətinin təkamülündə təsiri olan mənəvi məsələdir. İstənilən halda ayədən məhəbbətin vacibliyi məsələsindən başqa bir şey anlaşılmır.

Alusinin konkret iradlarına gəlincə isə:

Birincisi, müfəssirlərin bəzisinin qərəzli mövqeyi bu ayənin Əhli-beyt (ə) sevgisi kimi tərcümə edilməsinə mane olmuşdur. Məsələn, onların bəzisi "قُرْبَى" sözünü "Allaha yaxınlaşma" kimi təfsir etmişdir. Halbuki Quranın bütün ayələrində bu söz "qohumlar", "yaxınlar" mənasında işlənmişdir.

Bəziləri bunu Peyğəmbərin (s) ərəb qəbilələri ilə qohumluğu kimi izah etmişdir. Bu təfsir ayənin strukturunu demək olar ki, tamamilə dəyişir. Belə ki həmin təfsirə əsasən, peyğəmbərliyin mükafatı onu qəbul etməyən insanlardan tələb olunur. Əgər bir nəfər peyğəmbərliyi qəbul etməyibsə, Peyğəmbərin (s) onunla qohumluğunu nəzərə alması nə məna kəsb edir?

[1] Ruhul-məani, c.25, səh.28

Qeyd olunanlardan əlavə, çoxlu sayda hədis və rəvayətdə ayənin Peyğəmbər əhli-beytinin (ə) imamətini ifadə etdiyi qeyd edilmişdir. Biz bu rəvayətləri görməzdən gələ bilmərik. Qəbul etmək lazımdır ki, həmin təfsirçilər ayəni heç vaxt qərəzsiz təfsir etməmişlər. Yoxsa ki ayədə qətiyyən anlaşılmayan bir şey yoxdur.

Buradan aydın olur ki, belə bir mükafatın istənilməsi nə peyğəmbərlik məqamına ziddir, nə də dünyapərəstlərə xas olan davranışla eynidir. Bundan əlavə, istənilən mükafatı inkar edən "Yusuf" surəsinin 104-cü ayəsi ilə də tamamilə uyğundur. Çünki Əhli-beyt (ə) sevgisinin faydası Peyğəmbərə (s) yox, müsəlmanlara aiddir.

Əgər hər iki məzhəbin mənbələrində Allah kitabı, dinin əsasları, həqiqətləri və əməli məsələlərinin başa düşülməsində Əhli-beytə (ə) müraciət edilməsinin göstəriş verildiyi təvatür həddə hədislərə nəzər salsaq, artıq heç bir şübhə qalmaz ki, Əhli-beytə (ə) qarşı sevginin vacib edilməsinin və bu sevginin peyğəmbərlik üçün muzd təyin edilməsinin səbəbi budur ki, onlara qarşı sevgi Əhli-beytin (ə) elmindən istifadə edilməsinə stimul verir.

Deməli, risalətin muzdu hesab edilən sevgi peyğəmbərliyin, dini çağırışın davamlılığının qorunmasından başqa bir şey deyil. Nəticədə, bu məna risalət müqabilində heç bir muzdun olmadığını ifadə edən digər ayələrlə heç bir təzad təşkil etmir.

İkinci irada gəlincə, doğrudur, sadə məhəbbət heç vaxt itaətin vacibliyi üçün sübut ola bilməz, lakin bu sevgi və məhəbbətin peyğəmbərlik müqabilində təyin edilmiş bir müzd olduğunu nəzərə alsaq, itaətin vacibliyinin bu sevginin ayrılmaz şərti olmasına heç bir şübhə qalmaz.

Üçüncüsü, təbii ki, hər itaət edilməsi vacib olan şəxsin imam olmasını iddia etmək düzgün deyil, lakin unutmaq olmaz ki, peyğəmbərliyin mükafatı uyğun olaraq itaət edilməsi vacib olan imamətdən başqa bir şey də ola bilməz.

Dördüncüsü, (rəhbər mənasında olan) imam hər əsrdə və dövrdə birdən artıq ola bilməz. Buna görə də bütün Əhli-beytin (ə) eyni zamanda

imaməti mənasız olar. Bundan əlavə, rəvayətlərin bu sahədə, yəni ayənin mənasının dərk edilməsində rolunu inkar etmək olmaz.

Diqqət çəkən məqamlardan biri də budur ki, elə məhz Alusinin özü şəxsən Əhli-beytin (ə) sevgisi məsələsinə çox əhəmiyyət vermişdir. O, yuxarıda qeyd etdiyimiz iradlarından bir neçə sətir əvvəl belə yazır: “Həqiqət budur ki, Peyğəmbərin (s) qohumlarını o Həzrətə (s) yaxın olduqları üçün sevmək vacibdir və bu qohumluq nə qədər yaxın olsa, sevginin vacibliyi bir o qədər çox olur”. Sonra yazır: “Bu sevginin təsirləri Peyğəmbərin (s) qohumlarına hörmət etmək və onların hüquqlarına riayət etməkdir. Halbuki insanların çoxu bu məsələdə zəiflik göstərib, hətta iş o yerə çatıb ki, bəziləri Peyğəmbərin (s) yaxınlarını sevməyi “rafizilik” (dini əqidədən çıxmaq) hesab ediblər. Lakin mən belə demirəm, əksinə, Şafeinin dediklərini təkrarlayıram”.

Ardınca Şafeinin yuxarıda qeyd etdiyimiz şeirini yazaraq əlavə edir: “Bununla belə, mən səhabələrin əhli-sünnə böyüklərinin əqidələrindən xaric olduğuna inanmıram və onları sevməyi də vacibatdan sayıram”.[1]

## 2. Qeyd-şərtsiz sevginin vacibliyi üstünlüyün olması ilə şərtlənir

Nəzər nöqtəsi olan ayədən belə məlum olur ki, Əhli-beyt imamları (ə), sevilmələri vacib edilən şəxslərdir. Bu cür şəxslər Allah və Onun Rəsulunun ən sevdiyi adamlar, nəticədə, ümmətin ən üstün nümayəndələridir. İbn Həcər bu barədə belə yazmışdır: “Dini sevgi üstünlük xüsusiyyətinin olması ilə şərtlənir. Deməli, biz hər kəsdən üstün olan şəxsi daha çox sevirik”.[2] Bu da məlumdur ki, hər kəsdən üstün olan rəhbər və imam olmalıdır. İbn Teymiyyə yazır: “Daha üstün olan şəxs qala-qala layiq olmayanın rəhbərlik etməsi böyük bir zülmdür”.[3]

Mühibbiddin Təbəri yazır: “Ümumiyyətlə, daha üstün olan şəxsin varlığı ilə layiq olmayanın rəhbərliyi yol verilən deyil”.[4]

---

[1] Ruhul-məani, c.25, səh.28
[2] Əs-səvaiqül-muhriqə, səh.97
[3] Minhacüs-sünnə, c.3, səh.277
[4] Ər-Riyadun-nədarah, c.1, səh.216

**3. Qeyd-şərtsiz sevgidə məsumluq xüsusiyyətinin olması şərtdir**

Ayədə sevmək əmri mütləqdir, heç bir qeyd-şərt yoxdur. İnsanlardan itaətlə müşayiət olunan sevgi istənilmişdir. Deməli, əsl həqiqətdə, Peyğəmbər (s) müsəlmanlara Əhli-beytə (ə) qeyd-şərtsiz itaət göstərməyi əmr etmişdir. Mütləq itaətdə isə itaət göstərilən şəxsin məsum və günahsız olması şərtdir. Buradan da məlum olur ki, ayədə "fil-qurba" deyilərkən pak Əhli-beyt (ə) nəzərdə tutulmuşdur. Əhli-beyt imamları (ə) məsum olduğu üçün Peyğəmbərdən (s) sonra insanların müraciət edəcəkləri şəxslər də məhz onlar olmalıdır.

## PEYĞƏMBƏRLƏRİN MƏSUMLUĞU

Müxtəlif dövrlərdə bir sıra insanlar özlərini peyğəmbər kimi qələmə vermiş, Tanrı tərəfindən insanlara həqiqətləri çatdırmaq vəzifəsinin onlara həvalə olunduğunu iddia etmişlər. Məlum məsələdir ki, belə bir iddia irəli sürən insanlar öz iddialarını sübuta yetirmək üçün ortaya tutarlı arqumentlər qoymalıdırlar. Əks təqdirdə iddiaçı qismində çıxış edən şəxsin doğru və ya səhv danışdığını müəyyən etmək müşkül məsələyə çevrilər.

Şübhəsiz ki, peyğəmbərlik iddiası ilə insanların qarşısına çıxmış bir adamın müəyyən insani keyfiyyətlərə malik olması başlıca şərtdir. Çünki bir insanın həyat tərzi, fəaliyyəti, davranışları, sosial münasibətləri onun iddiasının doğru və ya yanlış olduğunu göstərən əlamətlərin başında gəlir. Məhz elə bu səbəbdən də həm səmavi kitablarda, həm də hədislərdə peyğəmbərlərin şəxsiyyəti ilə bağlı geniş məlumatlar yer almışdır.

Peyğəmbərlərin şəxsiyyəti barədə verilmiş məlumatlar məzmun baxımından heç də eyni deyil, onlar arasında oxşar və ziddiyyətli məqamların olması danılmazdır. Bu səbəbdən də peyğəmbərlərin şəxsiyyəti ilə bağlı fikir və görüşlər birmənalı deyil. Bir tərəfdən mövzunun aktuallığı, digər tərəfdən isə qeyd olunan səbəblər tarix boyu bu mövzu ətrafında fərqli fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Bir qrup insan peyğəmbərləri ilahiləşdirərək onları fövqəlbəşər səviyyəyə qaldırmış (Həzrət İsa (ə) və Həzrət Üzeyri (ə) buna misal göstərə bilərik), digər qrup isə məqsədyönlü şəkildə onların şəxsiyyətinə layiq olmayan, iftira dolu nağıllar uyduraraq peyğəmbərləri ləkələməyə və gözdən salmağa çalışmışdır. Təhrif olunmuş Tövrat və İncildə bu qəbildən olan nağıllar kifayət qədərdir. Adıçəkilən kitablarda peyğəmbərlər Allahla güləşmək, şərab içmək, yalan danışmaq, zina etmək və peyğəmbərliyə yaraşmayan bu kimi digər xüsusiyyətlərlə təsvir olunublar. Çox təəssüf ki, eyni və oxşar məzmunlu nağıllar İslam dininin hədis qaynaqlarına da sirayət etmişdir. Lakin sevindirici haldır ki, böyük İslam alimləri peyğəmbərlik məqamına qətiyyən uyğun olmayan o nağıllara tənqidi yanaşmış və onları "israiliyyat" adlan-

dıraraq, bu tip uydurmaların İslam dininin hədis mənbələrinə kitab əhlinə aid olan qaynaqlardan keçdiyini sübuta yetirmişlər.

**Məsumluq məqamı gözəl nümunə olmaqla ziddiyyət təşkil edirmi?**

Quranda İslam peyğəmbəri bizə ən gözəl örnək olaraq təqdim edilmişdir: "Həqiqətən, Allahın Rəsulu sizin üçün gözəl nümunədir"[1]. Başqa bir ayədə İbrahim peyğəmbərin (ə) də gözəl nümunə olduğu qeyd edilir: "İbrahim sizin üçün gözəl nümunədir"[2]. Quranda yalnız bu iki peyğəmbərin gözəl nümunə olduğu qeyd olunduğuna və digər peyğəmbərləri eyni xüsusiyyətlə səciyyələndirən başqa bir ayə olmadığına baxmayaraq, bu o demək deyil ki, digər peyğəmbərlər insanlar üçün örnək olmamışdır. Belə ki peyğəmbərlik missiyasının fəlsəfəsi ilə bağlı yetərli qədər məlumatı olan heç kəsə gizli deyil ki, gözəl nümunə olmaq bütün peyğəmbərlər üçün xarakterikdir. Əgər ilahi elçinin vəzifəsi insanları doğru yola yönəltməkdirsə, deməli, hər bir peyğəmbər öz missiyasının əhatəsi çərçivəsində gözəl nümunə və örnəkdir. Quranda təkcə iki peyğəmbərin gözəl örnək kimi təqdim edilməsi sadəcə onların ən bariz nümunə qismində tanıtdırılması məqsədini daşıyır. Bütün peyğəmbərlərin gözəl nümunə olması isə din fəlsəfəsində rasional arqumentlərlə sübuta yetirilir.

İlahi elçilik kimi olduqca həssas və böyük məsuliyyət tələb edən bir vəzifəyə layiq görülmək, heç şübhəsiz ki, məsumluq xüsusiyyətinə malik olmağı zəruri edir. Əks təqdirdə həmin şəxslərin çiyinlərinə qoyulmuş ağır məsuliyyətin öhdəsindən layiqincə gəlmələri və bu ağır sınaqdan üzüağ çıxmaları imkansızdır. Elə buna görədir ki, gözəl örnək olmaq məsumluq xüsusiyyətinə malik olmağı tələb edir. Bu ikisi arasında qırılmaz bir bağ vardır. Belə ki yalnız məsum olan şəxs sözün həqiqi mənasında layiqli nümunə ola bilər. Ümumiyyətlə, gözəl nümunə ola bilmək üçün məsum olmaq şərtdir.

---

[1] Əhzab surəsi, 21-ci ayə

[2] Mumtəhinə surəsi, 4-cü ayə

Bəzən gözəl nümunə olmaq üçün məsumluğun zəruri şərt olmadığını söyləyən insanlara da rast gəlirik. Beləlari hətta günah və xəta etməyin belə, nümunəyə heç bir xələl gətirmədiyini qeyd edirlər. Bu görüşün tərəfdarları iddia edirlər ki, peyğəmbərlərin başqalarına örnək olması üçün onların da yeri gələndə bizim kimi günah və xəta çirkabına bulaşması lazımdır. Çünki peyğəmbərlər bizim rəhbərimizdirlərsə, onların həyatı bizim həyatımızdan fərqlənməməlidir. Bu isə yalnız onların günah və xəta etməsi ilə mümkün ola bilər. Başqa sözlə, əgər peyğəmbərlərin günahsız olduğuna inansaq, o zaman bu onların bizim həyatımızdan uzaqlaşmasına səbəb olar, dolayısı ilə həmin şəxslərin rəhbərlik məqamını sual altına almış olarıq. Bu isə Quranın təlimləri ilə ziddiyyət təşkil edir.

Qeyd olunan iddianın nə qədər absurd və tutarsız olduğu, fikrimizcə, aydındır. Sadəcə, bu şübhə bəzi insanlarda çaşqınlıq yaratdığı üçün həmin məsələyə müxtəsər şəkildə aydınlıq gətirməyə çalışacağıq:

Birincisi, rəhbər və gözəl örnək olmaq üçün bir şəxsin, mütləq, günah və xəta çirkabına bulaşması şərt deyil. Bu iddianı sübut edəcək heç bir rasional arqument yoxdur. Əksinə, əqli və nəqli dəlillər, habelə ictimai rəy bunu deməyə əsas verir ki, insanlara gözəl örnək olmaq üçün ilahi rəhbər nə qədər pak və təmiz olarsa, bir o qədər layiqli rəhbər ola bilər. Əgər siz insanlar arasında layiqli rəhbərin hansı keyfiyyətlətə malik olmalı olduğu barədə bir sorğu keçirsəniz və sorğuda iştirak edən insanlardan: “Layiqli rəhbər necə olmalıdır?” – deyə soruşsanız, onların cavabı mütləq və birmənalı olaraq belə olacaq: “Kim öz vəzifəsini qüsursuz və xətasız yerinə yetirərsə, deməli, həmin şəxs həm layiqli rəhbər, həm də digər insanlar üçün gözəl nümunədir”. Elə bir normal insan tapılmaz ki, layiqli rəhbər və nümunəvi insan ola bilmək üçün, mütləq, başqa insanlar kimi günah və xəta etməyin zəruri olduğunu desin. Ağlı başında olan istənilən normal insan birmənalı şəkildə söyləyər ki, öz həyat tərzində və öhdəsinə düşən vəzifələrdə qüsur və yanlışlığa yol vermiş bir adam layiqli rəhbər və gözəl nümunə ola bilmək səlahiyyətini itirir. İnsanlar öz vəzifələrini qüsursuz şəkildə yerinə yetirən şəxsləri gördükdə onları fövqəlbəşər varlıq hesab edərək

özlərindən uzaqlaşdırmır, əksinə, çalışırlar ki, bu nümunəvi şəxslərə daha çox bənzəsinlər. Fikrimizcə, burada ən gözəl hakim vicdanımızdır. Görəsən, qüsursuz rəhbər gözəl nümunə olmağa daha çox layiqdir, yoxsa öz işlərində xəta və yanlışlığa, hətta yeri gəldikdə günaha yol verən rəhbər? Vicdanımız ən doğru olanı qulağımıza pıçıldayır!

**Peyğəmbərlərin məsumluğuna olan etiqad onları əlçatmaz edirmi?**

İnsanlara layiqli nümunə ola bilməsi üçün peyğəmbəri digər insanların səviyyəsinə endirib, xəta və günaha bulaşmasının zəruri olduğunu düşünənlərin istinad etdiyi praktik dəlillərdən biri xristianlar tərəfindən İsa peyğəmbərin (ə) ilah hesab edilməsidir. İddiaya görə, xristianlar İsa peyğəmbəri (ə) fövqəlbəşər bir varlıq olaraq gördükləri üçün onu ilah səviyyəsinə yüksəldiblər. Məlum məsələdir ki, belə bir özəlliyə malik olan insanı nümunə götürmək, ona tabe olmaq, onun həyat tərzinə uyğun yaşamaq qeyri-mümkündür. Çünki tabeçilik üçün nümunə götürülən də insan olmalı və ona tabe olmaq istəyənlə ortaq cəhətlərə malik olmalıdır. Belə ki siz kimisə özünüzə rəhbər və nümunə seçmək istəyirsinizsə, şübhəsiz, həmin şəxslə aranızda oxşarlıq olmalıdır ki, ona tabe olmağınız özlüyündə mümkün olsun. Elə bu səbəbdən də insan yalnız öz növündən olan, özü ilə eyni yaradılışa və xüsusiyyətlərə malik bir varlığı özünə nümunə götürə bilər. İnsan öz növünə, yaradılışına, fiziki və mənəvi spesifikasına tamamilə yad olan, fərqli varlıqları özünə əsla örnək götürə bilməz. Məsələn, Günəş, Ay, ulduzlar, balıqlar, sürünənlər və s. bu kimi varlıqlara xas olan həyatı yaşaya bilməz. Çünki insanlarla bu varlıqların həyat tərzi arasında heç bir bənzərlik yoxdur. Deməli, nümunə və örnəyin başlıca şərti bənzərliyin olmasıdır. Bənzərlik ortadan qalxdığı təqdirdə tabeçilik və nümunə götürmək məqsədi avtomatik olaraq öz mənasını itirmiş olur. Bu problem peyğəmbərlər günahsız və xətasız hesab edildiyi vaxt da ortaya çıxır. Çünki bu zaman onlar ilah səviyyəsinə yüksəldilmiş olurlar. Belə olan halda bənzərlik və eyninövlülük xüsusiyyəti ortadan qalxmış olur, nəticədə, ilah səviyyəsinə qaldırılmış peyğəmbərlərin örnək ola bilməsi mümkünsüzləşir.

**Kainat İslam peyğəmbərinə (s) xatirmi yaranıb?**

İncildə İsa peyğəmbər (ə) haqqında məlumat verilərkən yaranış aləminin ona xatir və onun hesabına yaradıldığı qeyd olunur. Bəziləri İslam dininin hədis qaynaqlarında mövcud olan və İslam peyğəmbərinə (s) aid edilən eyni məzmunlu hədisləri öz iddialarının düzlüyünü sübuta yetirmək üçün əsas gətirirlər. Onlar həmin fakta əsaslanaraq iddia edirlər ki, xristianlar İsanı (ə) ilahlaşdırdıqları kimi, müsəlmanlar da eyni şəkildə Həzrət Məhəmmədi (s) ilahlaşdırırlar. Nümunə üçün hər iki dinin mənbələrində yer almış faktlara nəzər salaq:

1) İncildə hər şeyin İsa peyğəmbərin (ə) hörməti xatirinə və onun vasitəsilə yaradılması məsələsi Pavelin koloslulara yazdığı məktubda qeyd olunmuşdur:

"Görünməz Allahın surəti, ilk yaradılan odur, çünki göylərdə və yerdə, görünən və görünməyən – istər taxtlar olsun, istər hakimiyyətlər olsun, istərsə də hökumətlər – hər şey onda yaradıldı, bütün şeylər onun vasitəsilə və onun üçün yaradılmışdır..."[1]

2) İslam dininin hədis qaynaqlarında hər şeyin İslam peyğəmbərinə (s) xatir yaradıldığı qeyd olunur:

"Əgər sən olmasaydın, fələkləri (kainatı və ya bütün yaradılmışları) yaratmazdım.."[2]

Bəzi hədislərdə isə ilk yaranan varlığın İslam peyğəmbərinin (s) nuru olduğu və digər yaranmışların məhz həmin nurdan yaradıldığı qeyd olunur. Nümunə üçün Cabir ibn Abdullahın Peyğəmbərdən (s) nəql etdiyi bir hədisə nəzər salaq:

"Allahın Rəsuluna dedim: "Allahın yaratdığı ilk şey nədir?" (Peyğəmbər) dedi: "Peyğəmbərin nurudur, ey Cabir! Allah əvvəlcə onu yaratdı, daha sonra ondan bütün xeyirləri xəlq etdi..."[3]

Sözügedən iddiaçıların istinad etdiyi əsas məlumatların qaynağı bu məzmunu ifadə edən hədislərdir. Gördüyünüz kimi, xristian mənbələri

---

[1] İncil, Koloslular, 1/14-17
[2] Nişapuri, Əl-Müstədrək, c.2, səh.615
[3] Biharul-ənvar, c.15, səh. 24

və İslam dininin hədis qaynaqlarında hər iki peyğəmbər barəsində qeyd olunan məlumatlar məzmun etibarilə, demək olar ki, eynidir. Sanki, müsəlmanlar xristian mənbələrində İsa peyğəmbər (ə) barəsində olan məlumatların eynisini bilərəkdən İslam peyğəmbərinin (s) adına çıxmışlar.

**Qeyd olunan iradlara cavab:**

İslam dininin hədis qaynaqlarında yuxarıda qeyd olunan məzmunda hədislərin olması danılmaz faktdır. Ola bilsin ki, bu qəbildən olan hədisləri uydurmuş insanlar İncildə İsa peyğəmbərə (ə) aid edilmiş fəzilətlərdən təsirlənərək belə bir addım atıblar. Hədis tarixinə nəzər saldıqda xoş niyyətlə hədis uydurmuş və bunu özünə peşə etmiş bir qrup insanın olduğunu görürük.

Təbii ki, bizim üçün önəmli olan əsas məsələ budur ki, görəsən, bu qəbildən olan hədislərin qəbul edilməsi peyğəmbərlərin ilahlaşdırılması və ya əlçatmaz hesab edilməsinə gətirib çıxarırmı? Əgər cavab müsbət olarsa, o zaman həmin hədislər ciddi şəkildə tənqid olunmalı və alimlər bu məzmunu ifadə edən hədisləri qəbul edənlərin inancında ciddi problemlərin yarana biləcəyini hər kəsə başa salmalıdır. Yox, əgər cavab mənfi olarsa, o zaman məsələ bir qədər fərqli məcraya yönələcəkdir.

Fikrimizcə, hər şeyin peyğəmbərə görə və onun hesabına yaradıldığını ifadə edən hədislər heç bir şəkildə onun ilahlaşdırılmasına səbəb olmur. Bunun ən aşkar sübutu reallıqdır. Hazırda sayları milyardı aşan müsəlmanlar bu hədislərə inanır, lakin hər namazda Peyğəmbərin (s) Allahın qulu və elçisi olduğunu təkrar-təkrar qeyd edirlər. Deməli, sözügedən hədislər heç də iddia olunduğu kimi təhlükəli məzmun daşımır. Buna görə də əbəs yerə həyəcan təbili çalıb, gündəmi məşğul etməyə lüzum yoxdur. Hansısa tədqiqatçı alim bu hədisləri sənəd baxımından tənqid edərək səhih olmadığını söyləyə bilər. Bu, kifayət qədər normal haldır, lakin buna baxmayaraq, kimsə sırf hədis qaynaqlarında mövcud olduğu üçün həmin hədislərə inanırsa, o zaman xristianların İsa peyğəmbəri (ə) ilahlaşdırdığı kimi, həmin şəxsi də

İslam peyğəmbərini (s) ilahlaşdırmaqla ittiham etmək doğru olmaz. Çünki həmin hədislərdə hər şeyin məhz Allah tərəfindən yaradıldığı birmənalı şəkildə qeyd edilir. Əgər həmin hədislərdə yaradılışın İslam peyğəmbərinə (s) xatir olduğu qeyd olunursa, bunu peyğəmbərin ilahlaşdırılması ilə necə əlaqələndirmək olar?

Ümumiyyətlə, hər şeyin Peyğəmbərə (s) xatir yaradılması mövzusu nəzəri məsələdir və müzakirələrə açıqdır. Bu məsələni qəbul və inkar edənlərin hər birinin təmsil etdiyi mövqeyin doğruluğunu əsaslandırmaq üçün müəyyən dəlillər vardır. Onlardan hansınınsa qəbul və ya inkar edilməsi dinin inanc əsaslarından hesab edilmir. Bu, alimlər arasında müzakirə olunan və fərqli görüşlərin yaranmasına səbəb olan yüzlərlə məsələdən, sadəcə, biridir. Yuxarıda qeyd etdiyimiz kimi, bu qəbildən olan hədislərdə İslam peyğəmbərinin (s) ilahlaşdırılmasına səbəb olacaq heç bir təhlükə yoxdur. Deməli, sözügedən məsələnin İslam peyğəmbərinin (s) ilahlaşdırılması ilə əlaqələndirilməsinin heç bir məntiqi əsası yoxdur.

Peyğəmbərin (s) öz səhabələrinə söylədiyi "Xristianlar Məryəmin oğlu İsanı ucaltdıqları kimi, siz də məni ucaltmayın. Mən yalnız bir bəndəyəm, siz mənə "Allahın bəndəsi" deyin"[1] hədisinə gəlincə, hədisin məzmunundan da göründüyü kimi, Peyğəmbərin (s) əsas narahatlığı insanların onu İsa peyğəmbər (ə) kimi ilah səviyyəsinə qaldırması ilə bağlı olmuşdur. Buna görə də o Həzrət daim ətrafındakılara özünün Allahın bəndəsi və qulu olduğunu israrla xatırlatmışdır. Bu hədisə əsaslanaraq heç də iddia etmək olmaz ki, Peyğəmbər (s) layiq olduğu üstün xüsusiyyətlərə görə ona təzim etməyi qadağan etmişdir. Hər halda, hər şeyin Peyğəmbərə (s) xatir yaradılması ilə onun ilah hesab edilməsi arasında hər hansı məntiqi əlaqə olduğunu demək olmaz.

**Allahın Rəsulu (s) peyğəmbərlərin müqayisə olunmasına etiraz edibmi?**

"Səhihi-Buxari" və "Səhihi-Müslüm" kimi hədis qaynaqlarında İslam peyğəmbərinə (s) aid edilən bəzi hədislərdə o Həzrətin onu digər

[1] Buxari, Peyğəmbərlər, hədis-3484

peyğəmbərlərdən üstün tutan şəxslərə etiraz etdiyi qeyd olunur. Hədislərin birində qeyd edilir ki, Mədinədə bir müsəlmanla bir yəhudi arasında mübahisə düşür. Müsəlman Həzrət Məhəmmədin (s) daha üstün olduğunu dediyi halda, yəhudi Həzrət Musanın (ə) daha üstün olduğunu deyir. Bunu eşidən Peyğəmbər (s) buyurur: "Məni Musadan üstün tutmayın". Başqa bir hədisdə isə o Həzrətin belə dediyi qeyd edilmişdir: "Heç bir Allah bəndəsinə: "Mən Yunis ibn Məttadan daha üstünəm", – demək yaraşmaz".

Bu qəbildən olan hədislərə istinad edərək peyğəmbərlər arasında müqayisə aparmağın yanlış olduğunu iddia edən insanlar var. Biz isə bu iddianın Quran ayələri ilə açıq şəkildə ziddiyyət təşkil etdiyini düşünürük. Çünki peyğəmbərlər arasında müqayisə aparan, onlardan birinin digərindən və ya digərlərindən üstün olduğunu deyən məhz İslamın ana kitabı olan Qurandır. "Bəqərə" surəsinin 253-cü ayəsində peyğəmbərlərdən bəzilərinin bəzilərindən üstün olduğu belə ifadə olunmuşdur: "Bu peyğəmbərlərdən bəzilərini bəzilərindən üstün etdik. Onlardan eləsi var ki, Allah onunla danışıb (Musa kimi) və bəzilərini bir neçə dərəcə ucaldıb". Deməli, Quranın açıq-aydın ayəsinə əsasən, peyğəmbərlərin hamısı dərəcə baxımından eyni səviyyədə deyil. Onların bəzisi digərlərindən daha üstün tutulmuşdur. Belə olan təqdirdə Quran oxuyan hər bir müsəlmanın ağlına gələn ilk sual da bu olacaqdır ki, görəsən, hansı peyğəmbər daha üstündür? Əgər bu məsələni araşdırmaq peyğəmbərləri bir-biri ilə müqayisə etməkdirsə, o zaman buna zəmin yaradan ən başlıca amil elə Quranın özüdür.

Digər tərəfdən, Peyğəmbərin (s) bir-birini təkzib edən ziddiyyətli sözlər söyləməsi qeyri-mümkündür. İmam Nəvəvi kimi hədisşünas alimlər məhz bu kimi hədislərə istinad edərək İslam peyğəmbərinin (s) dünya və axirət həyatında ən üstün şəxs olduğunu bildirmişlər. Əgər peyğəmbərlər arasında müqayisə aparmaq, hansının daha üstün olduğunu bilməyə çalışmaq qadağan edilmiş olsaydı, o zaman Quranda və səhih sünnədə bu qadağalara dair konkret dəlillər olmalı idi. Halbuki Quran və sünnəyə nəzər saldıqda tamamilə fərqli mənzərənin şahidi oluruq. Bu məsələyə Quran aspektindən yanaşsaq və qiymətləndirməni də bu

prinsip əsasında aparsaq, görərik ki, peyğəmbərlərin bir-biri ilə müqayisə edilməsi və birinin digərindən üstün tutulması Quran və səhih sünnəyə tamamilə uyğundur. Hansısa hədis qaynağında bu iş qadağan edilibsə və həmin hədis də etibarlıdırsa, o zaman bu qadağanın bu işi sırf mübahisə etmək xatirinə görən və müsəlmanlar arasında ikitirəlik yaradan şəxslərə aid olduğunu söyləməliyik.

**Quranın bizə tanıtdığı peyğəmbərlər**

Quranın iki ayəsində İslam peyğəmbərinə (s) onun da digər insanlar kimi bəşər olduğunu söyləmək əmr olunmuşdur: "De ki, mən sizin kimi bir bəşərəm".[1] Quranın başqa bir ayəsində isə ilahi elçilərin hamısının haqqı çatdırmaq üçün göndərildikləri qövmlərə bəşər olduqlarını söylədikləri qeyd olunur: "Peyğəmbərləri onlara dedilər: "Biz də sizin kimi, yalnız bir bəşərik".[2]

Bu ayələrdə ilahi elçilərin digər insanlar kimi bəşər olduqları deyilir. Lakin həmin ayələrə verilən izahlar birmənalı deyil. Bəziləri bu ayələrə istinad edərək peyğəmbərlərin də digər insanlar kimi günah və xəta edə biləcəklərini söyləyirlər. Onlar iddia edirlər ki, əgər belə olmasaydı, o zaman ayədə peyğəmbərlərin də digər insanlar kimi bəşər olduğunun qeyd edilməsinin heç bir mənası olmazdı. Çünki peyğəmbərlərin günahsız və xətasız olduğuna inanmağımız onları fövqəlbəşər varlıqlar səviyyəsinə qaldırmağımıza, rəhbərliklərini yoxa sayaraq həyatımızdan kənarlaşdırmağımıza səbəb olur.

Fikrimizcə, qeyd olunan ayələrdən alınan nəticə dəqiq deyil. Ayələrə diqqət yetirsək, görərik ki, onlarda peyğəmbərlərin də başqaları kimi bir "bəşər" olduğu vurğulanır. Ərəb dilində "bəşər" sözündən insanın fiziki və xarici görünüşünü ifadə etmək üçün istifadə olunur. Tanınmış dilçi alim Rağib İsfahani özünün məşhur "Müfrədat" əsərində "bəşər" sözünü belə izah edir: "əl-bəşəratu" dərinin görünən, "əl-ədimətu" isə görünməyən hissəsinə deyilir. Əbu Zeyd istisna olmaqla, bütün dilçi alimlər eyni mənanı qəbul etmişlər. Əbu Zeyd bu iki sözü

[1] Kəhf surəsi, 110-cu ayə; Fussilət surəsi, 6-cı ayə
[2] İbrahim surəsi, 110-cu ayə

tam əks mənada vermişdir. Əbul-Abbas və digərləri isə tamamilə səhvə yol vermişlər. "Əl-bəşəratu" "buşr" və "əbşar" formasında cəmlənir. Dərisi tüklərin altından göründüyü üçün Quranda insana bəzən "bəşər" deyilmişdir. Heyvanlarda isə dəri yun və tükün altında qaldığı üçün onlar haqqında belə bir ifadə işlənməmişdir. İnsanın bədəninin və xarici görünüşünün nəzərdə tutulduğu bütün Quran ayələrində "bəşər" sözündən istifadə olunmuşdur. Məsələn, "Sudan bəşər yaradan Odur", "Mən torpaqdan bəşər yaradacağam" və sair. Kafirlər peyğəmbərlərdən üz döndərdikləri zaman onların məhz bu xüsusiyyətini vurğulayaraq deyirmişlər: "Bu yalnız bəşər sözüdür", "Aramızdan olan bir bəşərəmi tabe olaq?", "Siz də bizim kimi bir bəşərsiniz", "Bizim kimi olan iki bəşərəmi iman gətirək?", "Bizi bəşərmi doğru yola yönəldəcək?"

Bu cəhətdən Peyğəmbər (s) onlara: "Mən sizin kimi bir bəşərəm", – deyərək bəşər olmaq xüsusiyyətində onlarla ortaq olduğunu, yalnız elm və gözəl əməllər baxımından fərqləndiyini başa salır, bəşər olduğunu dedikdən sonra: "Mənə vəhy olunur", – deyərək fərqliliyin nədən qaynaqlandığını bildirirdi".[1]

Rağib İsfahaninin də xüsusilə vurğuladığı kimi, peyğəmbərlərə iman gətirməkdən boyun qaçıran inkarçıların etirazı, əsasən, peyğəmbərlik iddiasında olan şəxslərin bəşər olması ilə bağlı olmuşdur. Məlum məsələdir ki, inkarçılar "bəşər" deyərkən peyğəmbərlərin mələk deyil, onların özü kimi adi bir insan olduğunu nəzərdə tuturdular. Əgər peyğəmbərlər də özlərinin "bəşər" olduğunu israrla insanlara çatdırdıqları zaman elə müşriklərin nəzərdə tutduğu bəşər mənasını nəzərdə tutmuşlarsa, o zaman onlar da müşriklərin sözlərini təsdiq etmiş olurlar. Belə olan halda Quran nəyə əsasən müşrikləri qınayır?

Deməli, peyğəmbərlər: "Biz də sizin kimi bəşərik", – deyərkən mələk olmadıqlarını, eynilə digər insanlar kimi yaradılış baxımından ortaq xüsusiyyətlərə malik olduqlarını izah etmək istəyirdilər. Çünki bəzi insanlar peyğəmbərlik vəzifəsinə insanların deyil, yalnız mələklərin təyin oluna biləcəyini düşünürdülər. Peyğəmbərlər də bu yanlış düşüncənin qarşısını almaq üçün özlərinin də insan olduğunu israrla

[1] Rağib İsfahani, Müfrədat, səh. 47

başa salmağa çalışırdılar. Nəticədə, bu ayələr peyğəmbərlərin maddi və fiziki xüsusiyyətləri ilə bağlı olan ayələrdir, yəni onların məqsədi peyəmbərlərin mələk yox, bütün Adəm övladları kimi insan olduğunu çatdırmaqdır. Günah və xəta məfhumu isə insanların maddi deyil, mənəvi və ruhi dinyası ilə bağlıdır. Şübhəsiz ki, peyğəmbərlər cismani baxımdan digər insanlarla ortaq xüsusiyyətə malik olsalar da, mənəvi baxımdan onlardan qat-qat yüksək dərəcədə olmuşlar. Əks təqdirdə, vəhyin nəyə görə başqalarına yox, məhz onlara gəldiyini obyektiv şəkildə izah etmək mümkünsüzdür.

## Peyğəmbərlər günah ediblərmi?

Peyğəmbərlər bizim kimi bəşər olsalar da, mənəvi və ruhi baxımdan bizdən çox-çox yüksək məqam və dərəcələrə sahibdirlər. Keçən bəhsimizdə bu barədə məlumat verdik və qeyd etdik ki, peyğəmbərlərlə digər insanlar yalnız fizioloji cəhətdən ortaq xüsusiyyətlərə malikdirlər. Peyğəmbərlər nəinki digər insanlarla eyni deyillər, hətta öz aralarında belə, məqam, fəzilət və üstünlük baxımından eyni deyillər və bir-birindən fərqlənirlər. Bu həqiqəti Quran ayəsi açıq şəkildə ifadə edir: “Peyğəmbərlərin bəzilərini bəzilərindən üstün etdik”. Quranı özündə öncədən rəy yaratmadan, obyektiv yanaşma ilə oxuyan hər bir şəxs hansısa qövmə göndərilən bir peyğəmbərlə bütün aləmlərə göndərilən bir peyğəmbərin, ululəzm peyğəmbərlərlə digər peyğəmbərlərin, şəriət sahibi olan peyğəmbərlə özündən əvvəl nazil olmuş şəriətə tabe olan peyğəmbərin dərəcə baxımından eyni olmadığını çox asanlıqla başa düşər.

Bu məqamda bir sual hər zaman insanları maraqlandırmış və tarix boyu fərqli fikirlərin meydana çıxmasına səbəb olmuşdur. Həmin sual bundan ibarətdir ki, görəsən, peyğəmbərlər sahib olduqları yüksək məqam və dərəcələrə baxmayaraq, günah ediblərmi? Yoxsa onlar mənəvi baxımdan pak və tərtəmiz olduqları üçün günah etmələri təsəvvür oluna bilməz?

Mövzu ilə bağlı ümumilikdə iki fərqli rəy var: bir qrup insan peyğəmbərlərin də günah etdiklərini dediyi halda, digər bir qrup bunu

qətiyyətlə inkar edir. Bu iki mövqeyin hər birinin özünün də fərqli baxış bucaqlarına əsaslanan təsnifatı vardır. Peyğəmbərlərin günah etdiyini iddia edənlərin ümumilikdə istinad etdiyi əsas dəlillər Quranın bəzi mütəşabih ayələridir. Onların günah etmədiyini deyənlərin də istinad yeri məhz Quran ayələri, hədislər və rasional dəlillərdir. Hər şeydən əvvəl "günah" anlayışına aydınlıq gətirmək lazımdır.

**"Günah" nədir?**

Hesab edirik ki, qeyd olunan fikir ayrılığına son qoymaq və mövcud problemin obyektiv həllini tapmaq üçün ilk növbədə "günah" məfhumuna aydınlıq gətirilməlidir. "Günah" nədir? Hansı əmələ "günah" deyilir? Bu məfhumun mahiyyəti bizim üçün tam şəkildə aydın olsa, o zaman problemin həlli də asanlaşar. Bu cəhətdən "günah" sözünə aydınlıq gətirməyə çalışacağıq.

Bildiyiniz kimi, "günah" Allahın hökmlərinə qarşı çıxmağa deyilir; yəni Allahın vacib buyurduqlarının yerinə yetirilməməsi və ya qoyduğu qadağaların pozulması "günah" adlanır. Deməli, günah anlayışının kökündə Allahın hökmlərinə qarşı çıxmaq dayanır.

Fikrimizcə, "günah" məsələsinə aydınlıq gətirdikdən sonra artıq peyğəmbərlərin günah edib-etməməsi sualı ətrafında daha asanlıqla mühakimə yürüdə bilərik. Deməli, peyğəmbərlərin də günahkar olduğunu sübuta yetirmək üçün onların hansısa ilahi hökmə qəsdən və bilərəkdən əməl etmədiklərini sübuta yetirmək lazımdır. Nə qədər ki bu məsələ sübuta yetirilməyib, hansısa peyğəmbəri gördüyü işə görə günahkar hesab etmək yanlışdır. Belə olan təqdirdə isə iddiaçının uzağı onların xətaya yol verdiklərini deməkdən başqa çarəsi qalmayacaq. Xəta isə günah kateqoriyasına əsla aid edilə bilməz!

**Adəm peyğəmbər (ə) günah edibmi?**

"Taha" surəsinin 121-ci ayəsində Adəmin Allaha qarşı itaətsizlik etdiyi açıq şəkildə qeyd olunur: "Adəm öz Rəbbinə itaətsizlik etdi və

səhv yola düşdü".[1] Adəm peyğəmbərin günah etdiyini iddia edənlər dəlil kimi bu ayəyə istinad edirlər. Həmçinin Adəmin qadağan olunmuş ağacın meyvəsindən istifadə etdikdən sonra səhvini başa düşərək tövbə etməsi də gördüyü işin günah olduğu versiyasını təsdiqləyir: "Dedilər: "Ey Rəbbimiz, biz özümüzə zülm etdik, əgər bizi bağışlamasan və bizə rəhm etməsən, mütləq, ziyana uğrayanlardan olacağıq". Əgər ortada heç bir qanun pozuntusu yoxdursa, o zaman ağlayıb-sızlayaraq tövbə etməyin nə mənası var?

***Qeyd olunan irada bir neçə cəhətdən cavab vermək olar:***

1) Adəmin (ə) qoyulan qadağanı pozması onun günah etdiyini sübut etmək üçün yetərli deyil. Çünki qadağan olunan işin haram olduğu ayədə aşkar şəkildə qeyd olunmayıb. Ola bilsin ki, qadağa sırf məsləhət xarakteri daşımışdır. Ayənin orijinal mətnində işlənən "isyan" sözü günah iddiasını dəstəkləyən dəlil hesab edilə bilməz. Tanınmış dilşünas alim Rağib İsfahani "isyan" sözünü izah edərkən onu "itaətdən çıxmaq" şəklində açıqlamışdır. Deməli, "isyan" etmək itaətdən çıxmaq mənasını ifadə edir. Məlum məsələdir ki, itaət vacib göstərişlərə aid olduğu kimi, sırf məsləhət xarakteri daşıyan göstərişlərə də aiddir. Adəmin günah etdiyini sübuta yetirmək üçün öncə verilən göstərişin vacib olduğunu sübuta yetirmək lazımdır. Çünki bir qədər əvvəl də qeyd etdiyimiz kimi, yalnız vacib hökmləri pozan şəxsin itaətsizliyi günah hesab oluna bilər.

2) Fəxr Razinin də vurğuladığı kimi, hətta Adəmin bu itaətsizliyini günah hesab etsək belə, bu hadisə Adəmə peyğəmbərlik veriləndən qabaq baş verib. Dolayısı ilə, bu ayəyə istinad edərək: "Adəm peyğəmbər günah edib" – demək düzgün deyil. Çünki həmin hadisə baş verən zaman Adəm peyğəmbər olmamışdır.

3) Adəmin hansısa işə görə tövbə edib Allahdan bağışlanma diləməsi heç də gördüyü işin haram olduğunu və Adəmin də günah etdiyini deməyə əsas verə bilməz. Çünki tövbə edib bağışlanma diləmək nəinki

---

[1] Məşhur tərcüməyə əsasən; lakin biz birinci bölmədə sözügedən ayədəki sözlərin günümüzdə başa düşülən mənada deyil, o dövrdə işlənən mənada izah edilməsinin düzgün olduğunu qeyd etmişik.

günah etdikdə, hətta adi hallarda belə normal hesab edilən davranışlardandır. Məsələn, Buxari və Müslümün nəql etdiyi bir hədisdə qeyd edilir ki, həyat yoldaşı Aişə gecələri ibadət etməkdən ayaqları şişmiş Peyğəmbərə (s) keçmiş və gələcək günahları bağışlandığı halda, nəyə görə bu qədər ibadət etdiyini soruşduğu zaman o Həzrətin ona cavabı belə olmuşdur: "Şükür edən bəndə olmayımmı?" Hədisin məzmunundan aydın olur ki, İslam peyğəmbərinin (s) etdiyi ağır ibadətlər sırf günahların bağışlanmasına nail olmaq, tövbə etmək məqsədi daşımamışdır. Allaha olan sevgi və bağlılığı onu ibadət etməyə, gündə 70 dəfə bağışlanma diləməyə vadar etmişdir. Deməli, kiminsə tövbə etməsindən çıxış edərək onun günahkar olduğunu, haram iş gördüyünü söyləmək tamamilə yanlışdır.

Qeyd olunan arqumentlər göstərir ki, Adəm peyğəmbərlə bağlı yuxarıda qeyd olunmuş iki ayəyə istinad edərək onun günahkar olduğunu söyləmək olduqca çətindir.

**Nuh peyğəmbərin (ə) öz oğluna dua etməsi**

Quranda Nuh peyğəmbərin (ə) oğlunun iman gətirməyənlərdən olduğu qeyd edilmişdir. Allah Nuha (ə) iman gətirməyənlərin seldə boğulacaqlarını, yalnız onun ailəsinin bu bəladan xilas olacağını öncədən xəbər vermişdi. Vəd edilmiş gün gəlib çatdıqda oğlu Nuhla birlikdə qurtuluş gəmisinə minməkdən boyun qaçıraraq dağa sığınmağı üstün tutur. Lakin Allahın vədi haqq olduğu üçün bu bəladan qurtuluş mümkün deyildi. Oğlunun dağa doğru üz tutduğunu görən Nuh (ə) əllərini Allah dərgahına qaldıraraq belə dua edir: "Ey Rəbbim! Mənim oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz, haqdır. Sən hökm edənlərin ən hikmətlisisən".[1] Nuhun (ə) Allaha bu şəkildə dua etməsinin səbəbi Allahın vədi olmuşdur. Allah Nuha (ə) onun ailəsinin tufandan qurtulacağını vəd etmişdi. Nuh peyğəmbər (ə) də bu vədə görə oğlunun xilası üçün Allaha dua edir, lakin Allahın cavabı mənfi olur: "Allah dedi: "Ey Nuh! O sənin ailəndən deyil".[2] Bu cümlənin ardınca Allah Nuhu (ə)

[1] Hud surəsi, 45-ci ayə
[2] Hud surəsi, 46-cı ayə

Ondan bilmədiyi, məlumatı olmadığı bir şeyi istədiyi üçün tənbeh edir: "Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm".[1]

Bəzi insanlar Quranın Nuh (ə) və oğlundan bəhs edən bu ayələrindəki dialoqa əsaslanaraq Nuhun (ə) günah etdiyini iddia edir, arqument kimi isə buradakı iki əsas nüansdan istifadə edirlər:

1) Nuh (ə) seldə batan şəxsi öz ailəsindən saydığı halda, Allah bunu inkar edir. Bu da əslində Nuhun (ə) yalan danışdığını göstərir. Yalan danışmaq isə böyük günahlardandır.

2) Nuhun (ə) bilmədiyi bir şeyi Allahdan istəməsi, bir növ, öz peyğəmbərliyindən oğlunun qurtuluşu üçün vasitə kimi istifadə etdiyini göstərir. Nuhun (ə) etdiyi bu vasitəçilik isə Allah dərgahında müsbət qarşılanmır, əksinə, Nuh (ə) bilmədiyi bir şey barəsində Allahdan nəsə istəyib cahillərdən olmaması üçün tənbeh olunur.

Qeyd olunan bu arqumentlər Nuhun (ə) günahkar olduğunu sübuta yetirmək üçün kifayət etmir. Nuhun (ə) seldə batan oğlunu öz ailəsindən sayması, Allahın isə bunu inkar etməsi Nuhun (ə) yalan danışdığını deməyə əsas vermir. Çünki burada yalnız Nuhun (ə) "ailəm" deyərkən nəzərdə tutduğu məna ilə Allahın bu sözlə nəzərdə tutduğu mənanın fərqli olduğu başa düşülür. Nuh (ə) oğlunun da onun ailəsindən olduğunu söyləyərkən aralarındakı qohumluq əlaqəsini nəzərdə tutduğu halda, Allahın nəzərdə tutduğu məna imanla bağlı olmuşdur. Allah Nuhun oğlunun onun ailəsindən olmadığını deyərkən, əslində, Nuhun: "Şübhəsiz, oğlum mənim ailəmdəndir" – cümləsini inkar etmir. Sadəcə, Nuha ailəsinin qurtuluşu ilə bağlı verdiyi vədin qohumluq baxımından ailəyə deyil, iman baxımından ailə və yaxınlara aid olduğunu başa salır.

İkinci irada gəldikdə isə, deməliyik ki, burada Nuhun öz peyğəmbərliyindən oğlunun qurtuluşu üçün istifadə etməsindən söhbət gedə bilməz. Mövzu ilə bağlı olan ayələrə diqqətlə nəzər saldıqda məlum olur ki, Nuh ailəsinin xilası ilə bağlı verilmiş vədə əsaslanaraq oğlunun da qurtulacağına ümid etmişdir. Ancaq bu vədin iman ailəsinə aid

[1] Hud surəsi, 46-cı ayə

olduğunu öyrəndikdən sonra artıq bu barədə heç bir yeni istək bildirmir. Buna görə də Allahın Nuha (ə) cavabı “Bilmədiyin bir şeyi məndən istəmə” şəklində olmuşdur; yəni ortada bir yanlış anlaşılma olmuş və verilən cavab bu yanlış anlaşılmaya aydınlıq gətirmişdir. Günahla bağlı ötən səhifələrdə verilən izahdan da aydın olur ki, Nuhun (ə) bu istəyi heç bir şəkildə onun günahkar olduğunu deməyə əsas verə bilməz. Nuhla (ə) Allah arasında baş tutan dialoqda Nuhun (ə) öz peyğəmbərliyindən sui-istifadə etməsinə dair heç bir fakt yoxdur. Sadəcə, xırda bir anlaşılmazlığa aydınlıq gətirilmişdir.

**Süleymanın (ə) sınağı və tövbə etməsi**

Süleyman peyğəmbərin (ə) günah etdiyini sübuta yetirmək üçün istinad edilən digər dəlil “Sad” surəsinin 34-cü ayəsidir. Ayədə Süleyman peyğəmbərin (ə) sınağa çəkildiyi, daha sonra da tövbə edərək haqqa təslim olduğu qeyd olunur. Ayənin təfsiri ilə bağlı peyğəmbərlik məqamına yaraşmayan bir sıra uydurma hekayələr nəql olunub. Təfsirçilər bu ayəni təfsir edərkən hədislərə istinad edərək müxtəlif izahlar vermişlər. Məkarim Şiraziyə görə, bu təfsirlər arasında ən qaneedicisi budur: Bir gün Süleyman (ə) ölkənin idarə edilməsində, xüsusilə düşmənlə müharibədə ona kömək edə biləcək, abırlı və cəsur bir oğlu olmasını arzu edir. Onun çoxlu arvadı var imiş. Öz-özünə düşünür ki, hədəflərimə çatmaqda mənə kömək edəcək çoxlu övladım olacaq. Ancaq bu zaman bir anlıq diqqətsizlik edib, bütün hallarda insanın Allaha təvəkkül etdiyini göstərən “inşallah” (Allahın izni ilə, Allah istəsə) sözünü demədiyi üçün heç bir arvadından övladı olmur. Təkcə bir övladı olur, o da dünyaya ölü gəlir. Həmin ruhsuz cəsədi gətirib Süleymanın (ə) taxtının üzərinə qoyurlar. Süleyman (ə) fikrə dalır və bir anlıq diqqətsizlik göstərərək təkcə özünə güvəndiyini xatırlayıb bərk narahat olur. Buna görə də tövbə edib Allahdan bağışlanmasını diləyir.

Qeyd olunan bu hədisin doğru olduğunu qəbul etsək, Süleyman peyğəmbərin (ə) heç bir günah etmədiyi aydın olacaq. Dolayısı ilə bu ayəyə istinad edərək Süleyman peyğəmbərin (ə) günahkar olduğunu sübuta yetirmək olduqca müşkül məsələdir.

Böyük sünni alimi və təfsirçisi Fəxr Razi bu məzmunda olan hədislərin heç birini qəbul etmir. O hesab edir ki, bu hədisləri ancaq ayələri formal şəkildə izah edənlər qəbul edə bilər. Alim və tədqiqatçılara görə, bu hədislərin heç bir elmi dəyəri yoxdur. Fəxr Razi bildirir ki, Süleyman peyğəmbərin (ə) sınağı onun şiddətli xəstəliyə yoluxmasıdır. Xəstəliyi o qədər ağır olmuşdur ki, ruhsuz bir bədən kimi kürsüsünə uzanıb qalmış, daha sonra isə yaxşılaşaraq əvvəlki sağlamlığına qovuşmuşdur. Fəxr Raziyə görə, ayədə "ənəbə" (qayıtdı, geri döndü) deyilərkən günahdan dönmək yox, xəstəlikdən sağlam həyata qayıtmaq nəzərdə tutulur.

Hər halda, hər iki təfsir özlüyündə mükəmməl deyil və məzmunları bir qədər mübahisəlidir. Çünki ayədən Süleyman peyğəmbərin (ə) günahkar olduğunun anlaşılması çox zəif ethimaldır. Üstəlik "günah" məfhumuna verdiyimiz açıqlamaya, həmçinin ayənin kontekstinə əsasən, burada hər hansı günah və ya ilahi əmrdən boyun qaçırma mənası başa düşülmür. "Sad" surəsinin 30-cu ayəsində Süleyman peyğəmbərin (ə) gözəl bir bəndə olduğunun qeyd edilməsi də buna dəlalət edir ki, bu ayələrdə onun günaha batması fikrinin ifadə olunması kontekstə tamamilə ziddir. Fikrimizcə, Allahın göstərişini bilərəkdən pozan, dünya malına başı qarışdığı üçün namazı keçirən bir adam Allah tərəfindən bu şəkildə təriflənə bilməz. Başqa sözlə desək, təriflə yad etdiyi bir adamı əslində tərifləmək əvəzinə, pisləmək Allahın da şəninə uyğun deyil. Nəinki Allah, heç ağlı başında olan sadə bir adam da belə etməz.

**Yunis peyğəmbərin (ə) öz qövmünü tərk etməsi**

Quranda Yunis peyğəmbərin (ə) qəzəbli halda öz qövmünü tərk edərək getdiyi qeyd olunur. Həzrət Yunisin (ə) bu hərəkətinin səbəbi qövmünün iman gətirməməsi və bəla vədinin yaxınlaşması olmuşdur. Lakin Yunis peyğəmbərin (ə) öz qövmünü vaxtsız tərk etməsindən sonra qövmü iman gətirmiş və bəla uzaqlaşmışdır. Daha sonra yolda Yunisin (ə) başına gələn hadisələr barədə məlumatlar verilir. Gəmidə olarkən püşkatma nəticəsində dənizə atılması, daha sonra balığın onu udması, qaranlıqlar

içində Allaha yalvarması, nəticədə, qəm-qüssədən xilas olması Quranda Yunis (ə) barədə bizə bildirilən məlumatlardır.

Quranda deyilir: "Zünnunu (Yunisi) da (yada sal)! Bir zaman o qəzəblə (qövmündən) getmiş və onu sıxmayacağımızı (həyatı ona dar etməyəcəyimizi) güman etmişdi. Sonra da zülmətlər içində çağırıb demişdi: "Səndən başqa heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən zülm edənlərdən olmuşam!" Biz onun duasını qəbul etdik və onu o qəm-qüssədən xilas etdik. Biz möminləri belə xilas edirik!"[1]

Yunis peyğəmbərin (ə) başına gələn hadisələrin bir hissəsinə də "Saffat" surəsində rast gəlirik: "Yunis də elçilərdəndir. Bir zaman o, yüklü bir gəmiyə tərəf qaçdı. Onlarla püşk atdı və məğlub oldu. Qınanmağa layiq olduqda böyük bir balıq onu uddu. Əgər o, Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı".[2]

"Qələm" surəsində isə İslam peyğəmbərinə (s) Yunis (ə) kimi olmamaq tapşırılır: "İndi ki belədir, sən öz Rəbbinin fərmanını gözlə və balıq sahibi (Yunis) kimi olma! O zaman o son dərəcə qəm-qüssə içində Rəbbini çağırmışdı. Əgər Rəbbinin mərhəməti dadına yetməsəydi, o, (balığın qarnından) qınanmış halda çölə atılacaqdı. Lakin Rəbbi onu seçib, əməlisalehlərdən etdi".[3]

Alimlərdən bir qrupu yuxarıdakı ayələrə istinad edərək Yunis peyğəmbərin (ə) böyük səhvlərə yol verdiyini, buna görə də başının bəlalar çəkdiyini qeyd etmişdir. Quranın da bildirdiyi kimi, əgər o, tövbə edib bağışlanma diləməsəydi, Qiyamət gününə qədər balığın qarnında qalacaqdı.

**İradın cavabı:** "Günah" sözünə verilən izahdan aydın olduğu kimi, bir insanın günahkar olduğunu sübuta yetirmək üçün onun qəsdən və bilərəkdən Allahın göstərişlərinə qarşı çıxmasını sübuta yetirmək lazımdır. Bilmədən edilən yanlışlıqlar isə heç bir halda günah hesab olunmur. Yunis peyğəmbərin (ə) gördüyü işlər də bu qəbildəndir.

---

[1] Ənbiya surəsi, 87-88-ci ayələr
[2] Saffat surəsi, 139-144-cü ayələr
[3] Qələm surəsi, 48-50-ci ayələr

Qövmünün iman gətirəcəyindən ümidini üzmüş Yunis (ə) bəla vədinin yaxınlaşdığını gördükdə qövmünə qəzəblənərək onları tərk etmişdir. Yunisin (ə) öz qövmünü bu şəkildə vaxtsız tərk etməsi doğru qərar olmamışdır. Ancaq bu yanlışlıq heç bir halda günah hesab oluna bilməz. Çünki Yunis məsləhətli olan bir işi bilərəkdən tərk etməmişdir. Sadəcə, verdiyi qərarda yanılmışdır. Yanılmaq isə günah deyil. Daha sonra başına gələn hadisələr məhz həmin yanlışın nəticəsi olmuşdur. Məlum məsələdir ki, Allahın dostlarının başına gələn müsibətlər adi insanların başına gələn müsibətlərdən fərqlidir. Allahın dostarı Allah dərgahında böyük məqam və hörmət sahibi olduqları üçün onların xırda səhvləri belə, böyük sınaqlarla nəticələnə bilər. Bu səbəbdən də Allahın dostlarının başına gələn müsibətlərə baxıb, onların günah etdiyini söyləmək doğru olmaz. Digər tərəfdən isə, adi insanlardan fərqli olaraq, ən xırda yanlışlarına görə  Allahdan bağışlanma diləyib tövbə etmək Allahın dostlarının ən xarakterik xüsusiyyətlərindəndir.

**Absurd iddia**

Peyğəmbərlərin günahkar olduğunu iddia edənlərin istinad etdiyi əsas dəlillərdən biri budur ki, peyğəmbərlərə adi insanlar kimi baxmaq onların həyatının bizimkinə uyğunlaşdırılması ilə nəticələnir. Peyğəmbərləri məsum hesab etmək isə, bir növ, onları həyatımızdan uzaqlaşdırmağa, rəhbərliklərini yoxa saymağa səbəb olur. Buna görə də onların da bizim kimi adi insanlar olduğunu söyləmək məcburiyyətindəyik.

Qeyd olunan iddianın nə qədər əsassız olduğu məlumdur. Əgər peyğəmbərlərin adi insanlar kimi xəta etməsi onların həyatı və rəhbərlik fəaliyyətinin praktikiliyi üçün şərtdirsə, o zaman nəyə görə İslam peyğəmbərinə (s) Yunis (ə) kimi olmamaq tapşırılır? Çox gözəl bilirik ki, rəhbərə tabe olmaq vacib şərtdir. Əgər rəhbər şəxs xəta edərsə və başqalarına da onun bu xətasına tabe olmamaq tapşırılarsa, o zaman belə bir rəhbərlik nəyə və kimə lazımdır? Edilən səhvlərdən ibrət almaq və bu yolla özünü düzəltmək isə rəhbərliyin mahiyyəti ilə əsla əlaqəsi olmayan başqa bir məsələdir. Xətalardan ibrət almaq özü etik

normadır və istər rəhbər olsun, istərsə də tabe olan – hər kəsə eyni dərəcədə aiddir. Bundan əlavə, xəta və səhv nümunəvi rəhbərliyin şərtidirsə, o zaman rəhbərin edəcəyi səhv və xətalara hansısa çərçivə təyin etmək absurddur. Məsələn, şərab aludəçisi, zinakar və sələmçinin ibrət alması üçün ilahi rəhbərin bu cür çirkin günahlara bulaşması nə dərəcədə düzdür? Əgər peyğəmbərin səhvən namazını qəzaya verməsi başqalarının ibrət alması üçündürsə, o zaman nəyə görə bu ibrət funksiyası təkcə namazla məhdudlaşır? Nəyə görə yuxarıda sadaladığımız digər günahlara şamil edilmir? Gördüyünüz kimi, qeyd olunan iddia olduqca absurd və məntiqsizdir.

**Məhəmməd peyğəmbər (s) günah edibmi?**

Digər peyğəmbərlərin günahsızlığı İslam Peyğəmbərinin (s) də məsum olduğunu avtomatik şəkildə sübuta yetirir. Çünki o biri peyğəmbərlər günahsızdırsa, onlardan daha üstün olan sonuncu peyğəmbər, təbii ki, məsum olmalıdır. Məlum olduğu kimi, Quranın məntiqinə əsasən, Allah yanında insanların ən üstünü ən təqvalı olanıdır. İmam Nəvəvinin də qeyd etdiyi kimi, İslam peyğəmbəri (s) dünya və axirətdə bütün insanların ən üstünüdürsə, deməli, o da digər peyğəmbərlər kimi məsum olmalıdır.

Bütün bunlara baxmayaraq, Quranın bəzi ayələrinin zahirindən İslam peyğəmbərinin (s) günahkar olduğu qənaətinə gələnlər də tapılır. Bu da, təbii ki, insanların şübhəyə düşməsinə səbəb olur. Nəticədə, hər kəsdə məsələnin həqiqətini öyrənmək marağı yaranır. Bu da olduqca təbii haldır. Çünki hər kəs həqiqətləri olduğu kimi, şəffaf və obyektiv şəkildə öyrənmək istəyir. Sözügedən məsələyə bir neçə aspektdən aydınlıq gətirməyə çalışacağıq.

**“Öz günahların üçün bağışlanma dilə...”**

“Muhəmməd” surəsinin 19-cu ayəsində belə deyilir: “Bil ki, Allahdan başqa heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişi və qadınların bağışlanması üçün bağışlanma dilə”.

Ayədə açıq şəkildə Peyğəmbərə (s) öz günahları üçün tövbə etmək göstərişi verilir. Baxılan mətn Quran ayəsi olduğu üçün burada hansısa təhrifdən söhbət gedə bilməz. Əgər Quran ayəsində Peyğəmbərin (s) günahkar olduğu bildirilir və etdiyi günaha görə tövbə etməsi əmr olunursa, deməli, həqiqət məhz Quranın bildirdiyi kimidir. Bundan əlavə, "Ğafir" surəsinin 55-ci ayəsində də Peyğəmbərə (s) günahının bağışlanması üçün istiğfar etmək əmr edilir: "Buna görə də səbr et, Allahın (sənin qalib gələcəyin və dininin yayılacağı barədə olan) vədi, mütləq, haqdır. Günahının bağışlanmasını dilə və Rəbbini vəsf etməklə yanaşı, Onu səhər-axşam pak sifətlərlə mədh et!" Nəhayət, "Fəth" surəsində də günahkar olduğu halda, Peyğəmbərin (s) bütün keçmiş və gələcək günahlarının Allah tərəfindən bağışlandığı qeyd edilir. Bütün bunlar zahirən Peyğəmbərin (s) günahkar olmasının danılmaz bir fakt olduğunu göstərir.

**Sadə bir sual**

Qeyd olunan ayələrin izahına keçməzdən və yaranmış suallara cavab verməzdən əvvəl ayələrin zahirinə əsaslanaraq ittiham irəli sürmüş insanların öz məntiqindən çıxış edib belə bir sual vermək istəyirik: Əgər Peyğəmbər (s) günahkar idisə, bəs nə üçün Allah onun keçmiş günahları ilə yanaşı, gələcəkdə edəcəyi günahları da bağışlayır? Bəs Allahın ədaləti hara getdi? Allah qatında yeganə və ən böyük dəyər ədalət deyilmi? Peyğəmbər olsa belə, heç kimin Allah yanında nəyisə vasitəçi edib ondan istifadə edərək nəsə əldə edə bilməyəcəyini hayqıranlar bunu necə izah edirlər? Necə olur ki, İslam peyğəmbərinin (s) nəinki keçmiş, hətta gələcək günahları da bağışlanır? Bunu rasional şəkildə necə əsaslandırmaq olar? Necə etmək olar ki, Allahın ədaləti sual altına düşməsin? Nəyə görə Allah başqalarının yox, məhz İslam peyğəmbərinin (s) gələcəkdə edəcəyi günahları bağışlayır?

Alimlərin "Muhəmməd" surəsinin 19-cu ayəsindəki "günah" sözü ilə bağlı görüşləri birmənalı deyil. Şiə alimlərinə görə, həmin ayədə Allahın hansısa göstərişindən boyun qaçırılması və ya hansısa əmrinin pozulmasından söhbət belə gedə bilməz. Sünni alimləri arasında da bu

görüşü dəstəkləyən tanınmış quranşünaslar vardır. Nümunə üçün Fəxr Razi və Alusinin adlarını qeyd etmək olar.

Fəxr Raziyə görə, ayədə "günah" (zənb) deyilərkən daha məsləhətli olan bir işin tərk edilməsi nəzərdə tutulmuşdur. Daha məsləhətli olanı tərk etmək Peyğəmbər (s) üçün günah hesab olunur, Peyğəmbərin (s) şəni isə günah etməkdən daha ucadır. Daha sonra Fəxr Razi ayənin orijinal mətnində işlənmiş "ğufran" (bağışlanma) sözünə aydınlıq gətirir. O qeyd edir ki, "ğufran" sözünün leksik mənası qəbahətli bir işin üstünü örtməkdir.[1]

Alusiyə görə də ayədə peyğəmbərə aid edilən "günah" sözünün həqiqi mənası nəzərdə tutulmamışdır, çünki İslam peyğəmbəri (s) məsumdur. Bu səbəbdən də "günah" sözü daha üstün olan işin tərk edilməsi kimi başa düşülməlidir. Alusi hesab edir ki, günah anlayışı şəxslərə görə dəyişir. Adam var ki, Allahın təyin etdiyi şəriət hökmlərini pozduqda günahkar sayılır, amma Peyğəmbər (s) kimi Allah dostları kiçik və əhəmiyyətsiz görünsə belə, məsləhətli hesab olunan bir əməli tərk etdikləri zaman bu onlar üçün günah hesab olunur. "Yaxşı insanların gördüyü yaxşı işlər Allaha ən yaxın olan insanlar üçün günahdır" məsəli bu həqiqəti çox gözəl ifadə edir. Bu misal Allah dostlarının əslində kamilliyin hansı mərtəbəsində dayandıqlarını göstərir.

Bundan əlavə, ayədə Peyğəmbərə (s) təvazökarlıq dərsi də verilir. Yəni İslam peyğəmbəri (s) daim istiğfar etməklə Allahın qarşısında təvazökarlıq etmiş, eyni zamanda özünü sındıraraq tərbiyə etmiş olur.[2]

Hər iki quranşünas alimin ayədəki bağışlanma ilə bağlı verdiyi izah və açıqlamalardan bir daha aydın oldu ki, qeyd olunan ayəyə istinad edərək İslam peyğəmbərinin (s) günahkar olduğunu sübuta yetirmək elə də asan deyil.

### "Müxləs" bəndələr

Quranda qeyd edilir ki, şeytan Adəmə səcdə etməkdən boyun qaçırdıqdan sonra Allahdan möhlət istəyir. Vəd olunmuş günədək möhlət

[1] Fəxr Razi, Təfsir ər-Razi, c.28, səh.61
[2] Alusi, Ruhul-məani, c.26, səh.55

aldıqdan sonra Allahın izzətinə and içərək, Onun bütün bəndələrini doğru yoldan azdıracağını söyləyir, yalnız Allahın pak və təmiz etdiyi insanları istisna edir. Quranın iki ayəsində şeytanın həmin insanları azdıra bilməyəcəyi qeyd edilmişdir. "Hicr" surəsinin 39 və 40-cı ayələrində belə buyurulur: "(İblis) dedi: "Ey Rəbbim! Sən məni haqq yoldan azdırdığına görə mən də (maddi nemətləri) yer üzündə onlara gözəl göstərib, hamısını azdıracağam. Yalnız Sənin ixlaslı bəndələrin istisnadır". "Sad" surəsinin 82 və 83-cü ayələrində də eyni məzmun təkrarlanmışdır: "Dedi: "Sənin izzətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam. Onların arasından təkcə Sənin xalis bəndələrin istisnadır!"

Hər iki ayədə şeytanın paklanmış və təmizlənmiş (müxləs) bəndələri azdırmağa gücü çatmadığı qeyd olunmuşdur. Buradan aydın olur ki, Allahın xüsusi rəhmət və inayət etdiyi bir qrup insanın şeytan tərəfindən azdırılaraq günah işlətməsi imkansızdır. Əgər günah şeytanın azdırması ilə baş verirsə, o zaman həmin insanların günahsız olduqları məlum olur, çünki şeytan onlara təsir etmək gücündə deyil. Bu iki ayə heç bir şübhəyə yer qoymayacaq şəkildə bir qrup insanın məsum olduğunu göstərir. Ayədə həmin şəxslərin kimliyi açıqlanmasa da, onların kim olduğu hər kəsə bəllidir. Məlum məsələdir ki, paklanmış (müxləs) insanların ən bariz nümunələri peyğəmbərlərdir. Hətta bəzi ayələrdə bir neçə peyğəmbərin adı çəkilir və onların pak insanlardan olduqları qeyd olunur. Həmin peyğəmbərlərdən biri də Yusif (ə) peyğəmbərdir. "Yusuf" surəsinin 24-cü ayəsində belə qeyd edilmişdir: "Qadın ona meyil etdi. Əgər Rəbbinin dəlilini görməsəydi, o da ona meyil edərdi. Belə etdik ki, pisliyi və çirkin əməli ondan uzaqlaşdıraq, çünki o Bizim ixlaslı qullarımızdandır".

Bəzi təfsirçilər bir sıra uydurma hədislərə istinad edərək Yusif peyğəmbərin (ə) məlum hadisə zamanı günah etdiyini yazırlar. Lakin bu ayə Yusif peyğəmbərin (ə) günahsız olduğunu açıq şəkildə qeyd edir. Fəxr Razinin bu ayə barəsində maraqlı bir mülahizəsi var. O yazır ki, əgər Yusif peyğəmbərin (ə) günah etdiyini söyləyənlər Quranın ardıcıllarıdırsa, bilməlidirlər ki, Quran Yusifin (ə) təmiz olduğunu

deyir. Yox, əgər şeytanın ardıcıllarındandırlarsa, bilsinlər ki, şeytan özü də Yusifin (ə) pak və təmiz olduğunu etiraf edir. Belə olan təqdirdə Yusifin (ə) günahkar olduğuna israr etməyin nə mənası var?

Yusif peyğəmbərin (ə) pak və günahsız olduğu Quranla sübuta yetirsə, deməli, ondan daha üstün olan İslam peyğəmbərinin (s) də həmin müxləs bəndələrdən, hətta onların ən üstünü olduğu məlum olur.

**Böyük əxlaq sahibi olmaq**

“Qələm” surəsinin 4-cü ayəsində İslam peyğəmbərinin (s) böyük və yüksək əxlaq sahibi olduğu qeyd edilmişdir: “Həqiqətən, sən böyük və yüksək əxlaq sahibisən!”

Bu ayədə Peyğəmbərin (s) üstün bir əxlaqa sahib olduğu qeyd edilir. Burada diqqət yetirilməsi zəruri olan incə bir məqam var: nəzərə alsaq ki, “Qələm” surəsi Məkkə surələrindəndir və Peyğəmbərə (s) nazil olmuş ikinci surədir, məlum olur ki, Peyğəmbərin (s) əzəmətli əxlaqa sahib olduğu qeyd olunan ayə Həzrət Məhəmmədin (s) peyğəmbərlik məqamına seçildiyi ilk vaxtlara təsadüf edir. Yəni onu hələ qabaqda Quranın rəhbərliyi altında baş tutacaq 23 illik islah və tərbiyə proqramı gözləyirdi.

Məlum məsələdir ki, Quran məntiqində əxlaqlı olmaq təkcə insanlarla münasibətdə yüksək insani keyfiyyətlərə malik olmaqla məhdudlaşmır. İnsanın Allah tərəfindən əxlaqlı hesab edilməsi üçün onun insanlarla yanaşı, Allahla da münasibətləri çox yüksək səviyyədə olmalıdır. Yəni günah edərək Allahın hansısa hökmünü heçə sayan bir adam Quranın nəzərində əsla və əsla əxlaqlı hesab oluna bilməz. Bir insanın haqqına girmək əxlaqsızlıq hesab olunduğu kimi, eynilə Allahın haqqına girmək də əxlaqsızlıq hesab olunur. Deməli, böyük əxlaq sahibi olmaq üçün insanlarla yanaşı, Allahla da münasibətdə yüksək keyfiyyətlərə sahib olmaq lazımdır. Bu ayə İslam peyğəmbərinin (s) nə qədər məsum olduğunu dərk etmək üçün kifayətdir. Bir insanın böyük əxlaq sahibi olduğu halda, Allahın hansısa göstərişini pozaraq Onunla olan münasibətlərinə xələl gətirməsi qeyri-mümkündür. Belə bir insanın böyük əxlaq sahibi olması imkansızdır.

Fəxr Razi bu ayəni təfsir edərkən maraqlı bir məqama toxunmuşdur. O yazır ki, insanın həqiqi kamilliyi nəzəri və əməli olmaqla iki cəhətin birgə inkişafına bağlıdır. Quran ayələrini gözdən keçirdikdə qeyd olunan hər iki cəhətin İslam peyğəmbərində (s) ən yüksək səviyyədə olduğunu görürük. "Nisa" surəsinin 113-cü ayəsində İslam peyğəmbərinin (s) nəzəri yöndən kamilliyinə işarə olunmuşdur: "Əgər sənə Allahın lütfü (mərhəməti) olmasaydı, onların bir dəstəsi səni düz yoldan azdırmaq niyyətində olacaqdı. Halbuki onlar özlərindən qeyrisini azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər. Allah sənə kitab və hikmət göndərdi, bilmədiklərini öyrətdi. Allahın sənə qarşı olan lütfkarlığı böyükdür!" Ayədə qeyd olunan lütf və mərhəmətin böyüklüyü Peyğəmbərə (s) verilmiş elmin böyüklüyünə işarədir. Əks təqdirdə böyüklüyün anlamı qalmazdı. Peyğəmbərin (s) əməli yöndən kamilliyinə isə "Qələm" surəsinin 4-cü ayəsində işarə olunmuşdur: "Həqiqətən, sən böyük və yüksək əxlaq sahibisən!" Fəxr Raziyə görə, İslam peyğəmbəri (s) hər iki cəhətdən ən yüksək məqama nail olmuşdur. Belə ki insan üçün bu iki yöndən savayı, başqa bir kamillik yönü yoxdur. Hər iki yöndən kamilliyin ən yüksək zirvələrini fəth etmiş bir adam, şübhəsiz, insanlığın ən ali zirvəsində qərarlaşır. Fəxr Razi yazır ki, belə bir adamın sahib olduğu kamillik mələklərə xas olan bir həqiqətdir.[1]

Böyük alim və təfsirçi Ayətullah Cəfər Sübhani bu ayəni şərh edərkən belə qeyd edir:

"Bu ayəyə əsaslanaraq ilahi peyğəmbərin səhv və xətaya yol vermədiyi nəticəsinə gəlmək olar. Sözügedən ayədə üç cümləyə xüsusilə diqqət yetirmək lazımdır:

**1.** ***"Allah sənə kitab və hikmət göndərdi".*** Bu cümlədə Peyğəmbərin (s) mühakimələrinin əsasını təşkil edən mənbələrə, yəni Quran və sünnəyə (hikmət) işarə edilmişdir. Bu iki böyük qanunvericilik mənbəyindən xəbərdar olmaq ilahi hökmlərdə məsum olmağın səbəbi hesab edilir. Nəticədə, Peyğəmbər (s) Allahın hökmlərini bəyan edərkən əsla səhvə və tərəddüdə yol vermir, çünki Qiyamətə qədər bəşəriyyətin

[1] Təfsir ər-Razi, c.30, səh 81-82

ehtiyac duyduğu hər şey bu iki mənbədə yer almışdır. Əlbəttə, məlumdur ki, ümumi qanunları bilmək konkret mövzular, qanunlar və onların müvafiq sahələrə tətbiqi zamanı səhvdən sığortalanmaya səbəb olmur. Əslində, səhvdən qorunmaq üçün başqa bir vasitəyə ehtiyac var ki, o da sonrakı cümlədə bu şəkildə qeyd edilir:

**2. *"Bilmədiyini sənə öyrətdi".*** Peyğəmbərin (s) məlumatsız olduğu və Allahın ona öyrətdiyi elm hansı elmdir? Görəsən, bu, Allahın kitab və sünnədə əksini tapmış ümumi hökmləri ilə bağlı bilgidir, yoxsa hadisələrin xüsusiyyətləri və həqiqətləri ilə? Şübhəsiz ki, birinci ehtimal tamamilə əsassızdır. Çünki ümumi hökmlərlə bağlı bilgiyə əvvəlki ayədə açıq şəkildə işarə edilmişdir. Buna görə də artıq təkrara ehtiyac yox idi. Heç kəs ilahi peyğəmbərin öz şəriətinin hökmlərindən məlumatsız olduğunu ehtimal edə bilməz. Buna görə də burada yenidən təkid və mənanı gücləndirməyə ehtiyac yoxdur. Deməli, cümlədə nəzərdə tutulan məna ikinci ehtimala aiddir, yəni Allah hadisələrin üzərindən pərdəni çəkmiş və Peyğəmbəri (s) onun səhvə yol verərək günahsız bir insana iftira atmasına çalışanların hiyləsindən xəbərdar etmişdir.

**3. *"Allahın sənə qarşı olan lütfkarlığı böyükdür!"*** Məsumluq və günahsızlıq mövzusunun yalnız bir hadisə və ya mühakimə məsələsi ilə məhdudlaşdığı, başqa heç bir hala aid olmadığı təsəvvürü yaranmasın deyə, Allah ayədə bu cümləni qeyd etmişdir. Allahın "böyük" adlandırdığı bizim böyük hesab etdiklərimizdən fərqlənir. Üstünlük və lütfkarlığın əlaməti budur ki, Peyğəmbər (s) öz həyat tərzində, mühakimələrində, qərarlarında, münasibət və davranışlarında səhvə yol verməmişdir. Qeyd etməliyik ki, peyğəmbərlik missiyası üçün spesifik olan cəhətlərə əsasən, Peyğəmbər (s) nümunə və meyar olduğuna görə elə həyat sürməlidir ki, ümmət onun səhv və xətaya yol verdiyini ehtimal belə edə bilməsin, davranış və danışıqlarına itaət göstərərkən tərəddüddə qalmasın".[1]

---

[1] Mənşur-cavid, c.7, səh.275

**Peyğəmbər namazda səhv edibmi?**

Hədis kitablarında Peyğəmbərin (s) bəzi hallarda namazlarında müəyyən səhvlərə yol verdiyi qeyd olunur. Bu səhvlər müxtəlif formalarda özünü göstərir. Belə ki bəzən Peyğəmbərin (s) 4 rükətli namazı 2 rükət qıldığı, bəzən isə yuxuya qalaraq namazını qəzaya verdiyi yazılır. Peyğəmbərin (s) adi insanlar kimi xətakar olduğunu iddia edənlər bu məzmunda olan hədislərə istinad edərək fikirlərini əsaslandırmağa çalışır, üstəlik bu kimi xətalarda müəyyən faydaların olduğunu da düşünürlər. Məsələn, deyirlər ki, Peyğəmbər (s) sübh namazına yatıb qalmasaydı və namazını qəzaya verməsəydi, səhabələr qəza namazından, onun qılınma qaydasından xəbərdar olmayacaqdılar. Deməli, Peyğəmbərin (s) xətaya yol verməsi praktiki yöndən olduqca faydalıdır. Çünki insanlar bu cür hallarla qarşılaşdıqda necə davranmalı olduqlarını Peyğəmbərdən (s) əməli surətdə öyrənmişlər. Deməli, peyğəmbərlərin öndər olması onların digər insanlar kimi xətakar olmasını zəruri edir. Əgər onlar xətadan qorunmuş olsaydılar, onda biz nəzəri və praktik yöndən bir sıra problemlərlə qarşılaşmalı olacaqdıq. Problemin nəzəri tərəfi odur ki, peyğəmbərləri səhvsiz hesab etməklə onları insan olmaqdan çıxararaq həddi aşmış oluruq, praktiki tərəfi isə odur ki, bu yanaşma onların rəhbər və nümunə olmaq imkanından məhrum edilməsi ilə nəticələnir. Onların da adi insanlar kimi xətaya yol verdiklərini qəbul etdiyimiz zamansa nə onları ilah səviyyəsinə qaldırmış, nə də rəhbərlik imkanından məhrum etmiş olarıq.

**İradın cavabı**

Peyğəmbərin (s) xətakar olmasını sübuta yetirmək üçün irəli sürülmüş dəlillər yetərsizdir və heç bir məntiqi-fəlsəfi əsası olmayan subyektiv yanaşmaya əsaslanır. İddiada bildirilir ki, guya peyğəmbərləri xətakar görməsək, o zaman onları ilah səviyyəsinə qaldırmış oluruq. Qeyd olunan iddianın məntiqi əsası yoxdur. "Peyğəmbərin (s) xətasızlığını qəbul etdiyimiz təqdirdə onu ilahlaşdırmış oluruq", – deyənlər əslində fərqinə varmadan Allahı kiçiltmiş olurlar. Onların nəzərində

Allahın böyüklük və ucalığı xətasız olmasındadır, belə ki kiminsə xəta və səhvdən uzaq olması onun Allaha tay tutulması ilə nəticələnir.

Qeyd edilən irad olduqca tutarsızdır. Çünki bu iradda Allah o qədər cılızlaşdırılıb ki, bir insanın səhv və xətadan uzaq olduğunun deyilməsi onun Allah məqamına yüksəldilmiş olması ilə eyniləşdirilir. Halbuki Allah müqayisəyəgəlməz dərəcədə böyük və uca bir varlıqdır.

Şiə mənbələrində Peyğəmbərin (s) yatıb yuxuya qaldığı üçün sübh namazını qəzaya verməsini ifadə edən müəyyən hədislər var. Şeyx Səduq kimi klassik İslam alimləri bu hədislərə əsaslanaraq İslam peyğəmbərinin (s) sübh namazını qəzaya verdiyini yazmışlar. Hətta Şeyx Səduq mövzu ilə bağlı "Peyğəmbərin səhvi" adlı kitab da yazmışdır.

Şeyx Səduqdan fərqli olaraq, Şeyx Müfid İslam peyğəmbərinin (s) bu cür səhvlərə yol verməsinin mümkünsüz olduğunu bildirmişdir. Şeyx Müfid Şeyx Səduqun bu mövzuda qələmə aldığı kitaba cavab olaraq "Peyğəmbərin xətasızlığı" adlı əsər yazmışdır. Həmin əsərdə o, Peyğəmbərin (s) səhv etdiyini göstərən hədislərin yanlış olduğunu sübuta yetirir və Şeyx Səduqu yazdığı kitaba və ümumiyyətlə, bu inancına görə ciddi şəkildə tənqid edir. Şeyx Müfid həmin hədislərin "vahid xəbərlər" olduğunu bildirir, vahid xəbərlərsə yalnız güman və zənn yaratdığı üçün bu cür məsələlərdə onlara istinad etməyin doğru olmadığını yazır. Etiqad və inancla bağlı olan mövzular vahid xəbərlərə əsaslanmayacaq qədər ciddi mövzulardır. Deməli, həm sünni, həm də şiə qaynaqlarında belə bir hədisin olması onun doğru olduğunu deməyə əsas vermir.

Peyğəmbərlərin məsumluğu mövzusu İslam alimləri arasında hər zaman müzakirəyə səbəb olan, ən aktual mövzulardan biri olmuşdur. Bu məsələdə İslam alimləri bir neçə qrupa bölünmüşlər. Bir qrup alim peyğəmbərlərin günah etdiyini bildirdiyi halda, digərləri bunu qətiyyətlə inkar edərək onların günahsız olduqlarını qəbul etmişlər. Hər iki qrupun öz iddialarını əsaslandırmaq və əks tərəfin mövqeyini rədd etmək üçün müəyyən dəlil-sübutları olmuşdur. Peyğəmbərlərin günahkar olduğunu iddia edənlərə görə, Quranda peyğəmbərlərin günah və

xətaya yol verdiklərini açıq şəkildə göstərən ayələr mövcuddur, üstəlik ağıl da onların məsum olmadığını deməyə əsas verir. Çünki peyğəmbərləri məsum hesab etmək onların Allaha tay tutulmasına gətirib çıxarır ki, bu da onların rəhbərlik örnəyinin həyatımızdan tamamilə təcrid edilməsinə səbəb olur. İnsanlara gözəl nümunə olmaları üçün peyğəmbərlərin arada-sırada günah və xətaya yol verməsi zəruridir.

Bir qrup İslam alimi isə peyğəmbərlərin məsum olduğunu Quran ayələri və rasional dəlillərlə sübuta yetirməyə çalışmışdır. Quran ayələrini diqqətlə nəzərdən keçirdikdə peyğəmbərlərin məsum olduqları aydın olur. Xüsusilə Quranın peyğəmbərləri "müxləs" keyfiyyəti ilə tanıtdırması, şeytanın belə onları azdırmaq iqtidarında ola bilmədiyini etiraf etməsi onların məsum olduğunu göstərən ən tutarlı arqumentlərdir. Fəxr Razinin təbirincə desək, əgər şeytan belə, müxləsləri azdıra bilməyəcəyini etiraf edirsə, o zaman bəzi insanların peyğəmbərlərin məsum olmadığını israrla iddia etmələrinin arxasında nə durur?

Bundan əlavə, "günah" sözünə verdiyimiz açıqlamadan da aydın oldu ki, "günah" Allahın göstərişlərinə qəsdən və bilərəkdən qarşı çıxmaqdır. Nə qədər ki insan bilərəkdən Allahın göstərişlərinə qarşı çıxmayıb, onu günahkar hesab edib, məsum olmadığını iddia etmək məntiqi baxımdan yanlışdır. İctimai və siyasi cəhətdən ciddi fəsadlara səbəb olan xətalar da bu qəbildəndir. Çünki peyğəmbərlərin əsas vəzifəsi cəmiyyəti islah etməkdir. Bu baxımdan Quran bizə onlara tabe olmağı əmr edir. Əgər peyğəmbərlər özləri səhvlərə yol vermiş olsaydılar, o zaman onlara tabe olmaq haram, Quranın bu məzmunu ifadə edən ayələrisə əbəs olardı. Cəmiyyət üçün heç bir ciddi əhəmiyyəti olmayan xətalara gəldikdə isə, bu tip xətaların olmasının mümkünlüyünü qeyd etdik. Şiə və sünni alimlərindən bir çoxunun peyğəmbərlərin bəzi xətalarını "məsləhətli olanı tərk etmək" ("tərkül-övla") kimi izah etməsi bu iddianı təsdiq edir.

# İSLAMDA SEYİDLİK

Tarix boyu müsəlmanların seyidlərə münasibəti yüksək olub. Bu hörmət seyidlərin İslam peyğəmbəri (s) və imamların (ə) nəslindən olduqlarına inamla bağlıdır. Seyidlərə həm fərdi, həm ictimai, həm də dövlət səviyyəsində müəyyən imtiyazlar verilmişdir. Ancaq onlara bu şəkildə hörmət göstərilməsi bəziləri tərəfindən etirazla qarşılanır. Həmin etirazların kökündə dayanan əsas məntiq budur ki, Allah qatında üstünlük yalnız təqva və yaxşı əməllərlə ölçülür: “Allah yanında ən hörmətliniz ən təqvalı olanınızdır”.[1] Bir insanın hansısa nəsildən olması nəyə görə onun üçün imtiyaz hesab olunmalıdır? Peyğəmbər (s) nəslindən olmayan bir adam seyiddən daha üstün, imanlı, əxlaqlı, əməlisaleh olarsa, şübhəsiz ki, Allah dərgahında məhz o daha hörmətli olur. Elə isə Peyğəmbər (s) nəslindən olan birini həmin mömin və təqvalı insandan nəyə görə üstün hesab etməliyik? Bu imtiyaz ağıl və Quran məntiqinə uyğundurmu?

Seyidlik mövzusunun gündəmə gəlməsinə səbəb olan bu tip suallar sözügedən mövzuda araşdırmalar aparılmasını zəruri edir. Biz də öz araşdırmamızda insanları maraqlandıran və onlarda şübhə doğuran suallara aydınlıq gətirməyə çalşacağıq.

### “Seyid” sözünün leksik mənası

İzahlı lüğətlərdə “seyid” sözünün bəy, nüfuzlu şəxs, başçı, malik və sair bu kimi mənaları qeyd edilir. Bunlar “seyid” sözünün kökünün mənasından qaynaqlanan törəmə mənalardır. Ərəb dilində “seyid” sözünün kökü “السؤدد” (su'dud), mənası isə şərəf və şərəfli olmaqdır. Sonralar bu söz rəbb, malik, fəzilətli və həlim şəxs, həyat yoldaşı, tayfa başçısı, mənsub olduğu xalqın əzab-əziyyətinə dözən, öndər və sair mənalarda işlənmişdir. Bu mənaların hamısı sözün kökünə aid olan “şərəf” mənasından qaynaqlanır. Məsələn, tayfa başçısı rəhbəri olduğu tayfanın ən nüfuzlu və şərəfli adamı olduğu üçün ona “seyid” deyilmişdir. Başçı bu xüsusiyyətlərə malik olmadıqda isə ona bu adla

---

[1] Hucurat surəsi, 13-cü ayə

müraciət edilməsi yanlış hesab edilmişdir. Peyğəmbərə (s) aid edilən bir hədisdə belə deyilir: "Başçınız və seyidiniz olsa belə, münafiq şəxsə "seyid" deməyin".[1] Bu hədis onu göstərir ki, həqiqi başçı və seyid şərəfli olmalıdır. Münafiq adamlar bu xüsusiyyətə sahib olmadıqları üçün onlara "seyid" deyilməsi qadağan edilmişdir.

### Həzrət Məhəmməd (s) peyğəmbər seyiddirmi?

Bəzi hədislərdə İslam peyğəmbərinin (s) özü haqqında danışarkən "seyid" sözündən istifadə etdiyini görürük. Məsələn, hədislərdən birində İslam peyğəmbərinin (ə) belə buyurduğu nəql olunur: "Mən insanların seyidiyəm".[2] Başqa bir hədisdə belə deyilir: "Mən Qiyamət günü insanların seyidi olacağam"[3]. Peyğəmbərin (s) özünü seyid kimi tanıtdırması yuxarıda qeyd etdiyimiz leksik mənaya əsaslanır. Şübhəsiz ki, İslam peyğəmbərinin (s) Allah dərgahında ən üstün və fəzilətli şəxs olması onun ən şərəfli bəndə olduğunu göstərir. Allah dərgahında şərəf yalnız təqva ilə ölçüldüyü üçün bu təqdimat tam yerinə düşür. Çünki Allah dərgahında Peyğəmbər (s) qədər təqvalı olan ikinci bir şəxs yoxdur. Lakin təəccüblü haldır ki, bəziləri bu məzmunu ifadə edən hədislərin doğru ola biləcəyini inkar edirlər. Onlara görə, bu cür sözlərdən istifadə etmək Quran məntiqinə və Peyğəmbərin (s) təvazökarlığına ziddir.

Əslində, bu iradın heç bir tutarlı əsası yoxdur. Çünki Quran özü açıq şəkildə peyğəmbərlərin hamısının eyni olmadığını, bəzilərinin digərlərindən üstün olduğunu deyir: "Bu peyğəmbərlərdən (adları çəkilən) bəzilərini bəzilərindən üstün etdik".[4] Əgər peyğəmbərlər arasında fəzilət fərqi varsa, deməli, onlardan ən fəzilətli olanı Allah yanında ən üstün və şərəfli olanıdır. Bu da digərləri ilə müqayisədə həmin şəxsin seyid, yəni ən şərəfli və fəzilətli olduğunu deməyə əsas verir. Quranın qeyd olunan ayəsinin bizə verdiyi mesaj məhz budur.

[1] Lisanul-ərəb, c.3, səh.228
[2] Əbudavud, Sünnə, səh. 13; İbn Macə, Zöhd, səh. 37
[3] Buxari, Ənbiya, 3; Müslim, İman, səh. 367-369
[4] Bəqərə surəsi, 253-cü ayə

Deməli, insanların ən üstünü və şərəflisi olduğunu ifadə etmək üçün Peyğəmbərin (s) özünü "seyid" kimi təqdim etməsi Quranla nəinki ziddiyyət təşkil etmir, üstəlik Quranın öz məntiqinə əsaslanır.

**Cənnətdəki seyidlər**

Mötəbər hesab edilən bir çox hədis kitablarında İslam peyğəmbərinin (s) öz nəvəsi Həzrət Həsənin (ə) gələcəkdə başına gələcək bəzi hadisələrdən xəbər verdiyini ifadə edən hədislər yer almışdır. Həzrət Peyğəmbər (s) öz hədislərində habelə nəvələri Həsən (ə) və Hüseynin (ə) Cənnət cavanlarının seyidləri olacağını da buyurmuşdur. Birinci mövzuya aid olan hədislərin birində belə deyilir: "Əbubəkr deyir: "Peyğəmbəri minbərdə gördüm, yanında Həsən də vardı. Peyğəmbər Həsənə işarə edərək: "Bu oğlum seyiddir, Allah onun vasitəsilə iki böyük dəstənin arasını düzəldəcək", – deyə buyurdu". Buxari bu hədisi dörd fərqli bölümdə qeyd etmişdir: "Sülh" babı, c.3, səh.170; "İslamda peyğəmbərliyin əlamətləri" babı, c.4, səh.184; "Mühacirlərin fəzilətləri" babı, c.4, səh.216; "Fitnələr" babı c.8, səh.99.

"Səhihi-Buxari"yə şərh yazmış Bədrüddin Əyni bu hədisi şərh edərkən yazır: "Bu öncədən xəbər vermə peyğəmbərin böyük möcüzələrindəndir. O bu barədə öncədən xəbər vermiş və hadisə də onun xəbər verdiyi kimi olmuşdur".[1]

Həsən (ə) və Hüseynin (ə) Cənnət cavanlarının seyidləri olacağını ifadə edən hədislərin mətni belədir: "Həsən və Hüseyn Cənnət cavanlarının seyidləridir". Bu hədisin yer aldığı kitablar aşağıdakılardır:

Əhməd ibn Hənbəl, "Müsnəd", c.3, səh.3, 62, 64, 72 və c.5, səh.391, 392; İbn Macə, "Sünəni-İbn-Macə", c.1, səh.44; Tirmizi, "Sünəni-ət-Tirmizi", c.5, səh.321, 326; Hakim Nişapuri, "Əl-Müstədrək", c.3, səh.127, 381 və c.4, səh.268; Heysəmi, "Məcmə əz-zəvaid", c.9, səh.165, 178, 182, 183, 184, 201; İbn Əbi-Şeybə, "Əl-Müsənnəf", c.7, səh.512; Nisai, "Əs-Sunənul-kubra", c.5, səh.50, 81, 145, 146, 147, 149, 150; Əbuyəla Mosuli, "Müsnədi-Əbi-Yəla", c.2, səh.395; İbn Hibban, "Səhihi-İbn Hibban", c.15, səh.411, 412, 413; Təbərani, "Əl-Mucəmul-

[1] Umdətul-Qari, c.13, səh.282

ovsat", c.1, səh.118, c.2, səh.347, c.4, səh.325, c.5, səh.243, c.6, səh.10, 327; Təbərani, "Əl-Mucəmul-kəbir", c.3, səh.35, 36, 37, 38, 39, 40, 58, c.19, səh.292, c.22, səh.403; İbn Əbdülbirr, "Əl-İstiab", c.1, səh.391, c.4, səh.1675; Süyuti, "Əl-amius-sağir", c.1, səh.20, 589, 590, c.2, səh.74, 609...

Fikrimizcə, bu qədər nümunə yetərlidir. Hər iki hədis heç bir şübhəyə yer qoymayacaq şəkildə bir çox mötəbər hədis kitablarında yer almışdır. Üstəlik Buxari və Əyni kimi alimlər Həzrət Həsənin (ə) sülhü barədə verilən xəbərin Həzrət Məhəmmədin (s) peyğəmbərliyini təsdiq edən möcüzələrdən olduğunu yazmışlar. Bütün bunlara baxmayaraq, bu hədislərin doğru olmadığını iddia edən "ilahiyyatçı yazar"lar var. Onlar iddia edirlər ki, bu hədislər Quran məntiqinə tamamilə ziddir. Çünki hər iki hədisdə Peyğəmbərin (s) gələcəkdən xəbər verdiyi qeyd edilmişdir, Peyğəmbərin (s) kiminsə aqibəti haqqında xəbər verməsi isə doğru deyil. Qurana görə, bu cür öncəgörənlik mümkün deyil. Heç kim, hətta peyğəmbər olsa belə, konkret olaraq kiminsə axirətdəki yerini təyin edə bilməz.

Bu adamlar öz iddialarında aşağıdakı Quran ayələrinə istinad etdiklərini bildirirlər:

1) "De: "Mən Allah istəmədən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. (Qeyb elmim də yoxdur) Əgər qeybdən xəbərdar olsaydım, özüm üçün daha çox xeyir tədarük edərdim və mənə pislik (ziyan) də toxunmazdı. Mən iman gətirən (haqqı qəbul etməyə hazır olan) bir tayfanı ancaq qorxudan və müjdələyənəm!"[1]

2) "De: "Mən təzəcə zühur etmiş bir peyğəmbər deyiləm. Mənim və sizin başımıza nə gələcəyini də bilmirəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Mən yalnız açıq-aşkar qorxudanam!"[2]

İddiaçılar bildirir ki, hər iki ayədə Peyğəmbərin (s) qeybi bilmədiyi, özünün və başqalarının başına gələcək hadisələrdən xəbərsiz olduğu qeyd edilir. Belə bir etirafdan sonra kiminsə gələcəyi barədə məlumat vermək yanlış və bir növ, Quranı təkzib etməkdir. Buradan

[1] Əraf surəsi, 188-ci ayə
[2] Əhqaf surəsi, 9-cu ayə

aydın olur ki, Peyğəmbərin (s) öz nəvələri də daxil olmaqla kiminsə Qiyamətdəki yeri barədə öncədən xəbər verməsi Quran ayələrinə əsasən imkansızdır. Məlum məsələdir ki, Quranı təkzib edən və ona zidd olan hədis qətiyyən səhih hesab oluna bilməz. Çünki İslam peyğəmbəri (s) əsla Quranın inkar etdiyi bir şeyi dilinə gətirməz. Qeyd olunan hər iki ayədən bir daha məlum olur ki, İslam peyğəmbəri (s) qeybi bilmədiyi üçün nəvələri Həsən (ə) və Hüseynin (ə) Qiyamətdəki vəziyyəti barədə konkret bir söz deyə bilməz.

**Peyğəmbərin nəvələri seyiddirlərmi?**

Seyidlərə xüsusi ehtiram göstərilməsi şiə məzhəbinə xas olan ənənələrdəndir. Bu xüsusi hörmətin səbəbi seyidlərin Peyğəmbər (s) nəslindən olmasıdır. Seyidlərə ehtiram göstərənlər bu davranışları ilə, əslində, Peyğəmbərə (s) hörmət bəslədiklərini düşünürlər. Bu qəbildən olan hörmət və ehtiram dünyanın bütün mədəniyyətlərinə və xalqlarına xas olan bir ənənədir. Yəqin ki, hər birimizin şəxsi həyatında sevdiyimiz, bizim üçün dəyərli olan insanların övladlarına, yaxınlarına, tanıdıqlarına sırf həmin şəxsə görə hörmət göstərdiyimiz zamanlar olub. Məsələn, yaxın dostumuzun valideynini yolda görsək, mütləq, salam verib hörmət göstərərik. Çox sevdiyimiz müəllimimizin övladının hansısa ehtiyacını imkanımız çatdığı qədər təmin etməyə çalışarıq. Bütün bunlar bizim üçün çox qiymətli olan şəxsə qarşı hörmətimizi ifadə edir. Əgər sevdiyimiz şəxslərin yaxınlarına ehtiram göstərmək gözəl adətlərdən hesab olunursa, o zaman hər kəsdən daha çox sevdiyimiz, Quranın təbiri ilə desək, bizə özümüzdən də yaxın və canımızdan əziz olan İslam peyğəmbərinin (s) yaxınları və sevdiklərinə münasibətdə bu adəti yaşatmaq nəyə görə qəbahətli hesab olunmalıdır?

Bir şəxsin seyid olması onun Peyğəmbər (s) nəslinə mənsub olması ilə bağlıdır. “Peyğəmbər (s) nəsli” deyilərkən kimlərin nəzərdə tutulduğunu araşdırmazdan əvvəl bir suala aydınlıq gətirmək istəyirik. Sual budur ki, nəyə görə seyidlik yalnız İmam Hüseynin (ə) nəslindən gələnlərə aid edilir, İmam Həsənin (ə) nəslindən gələnlərə isə seyidlik düşmür və onlara sadəcə “şərif” deyilir? Əgər seyidlik Peyğəmbər (s)

nəslinə aid edilən bir tituldursa, o zaman Hüseynlə (ə) qardaşı Həsən (ə) arasında niyə fərq qoyulur?

Doğrusu, belə bir irad olduqca təəccüblüdür. Görünür, bu ittihamı irəli sürən şəxsin şiə fiqhindəki seyidlik anlayışından qətiyyən xəbəri yoxdur. Çünki şiə fiqhində seyidlik heç də təkcə İmam Hüseynin (ə) nəslindən gələnlərə aid edilmir. Ümumiyyətlə, "seyid" anlayışı sonrakı dövrlərdə ortaya çıxmış terminlərdəndir. Şiə fiqhində bu terminin əvəzinə, daha çox "haşimilər" terminindən istifadə olunur. "Haşimilər" termini Peyğəmbərin (s) ulu babası Haşim ibn Əbdi-Mənafın adı ilə bağlıdır. Qüreyş qəbiləsinin, habelə Məkkə şəhərinin nüfuzlu şəxslərindən olan Haşim ibn Əbdi-Mənafın əsl adı Əmrdir (عمرو). Məkkədə qıtlıq və aclıq vaxtı camaata doğramac payladığı üçün Haşim ləqəbi almışdır.[1] İlk dəfə Məkkədən yay və qış aylarında Yəmən və Suriyaya ticarət səfərləri təşkil etmiş şəxsdir. Şiə fiqhində "seyid" deyildikdə Haşimin nəslinə mənsub olan insanlar nəzərdə tutulur. Şiə məzhəbinin təqlid mərcələri əməli risalələrində xümsün aid edildiyi şəxsləri və yerləri qeyd edərkən "seyid" sözü əvəzinə, "Haşim övladları" ifadəsindən istifadə edirlər. Məsələn, tanınmıs təqlid mərcəyi Ayətullah Seyid Xoyi "Minhac əs-salihin" adlı əsərində belə yazır: "Hazırkı zamanda – imamın qeybdə olduğu dövrdə xüms iki hissəyə bölünür: bir hissəsi İmam Zamanın (ə) payıdır, digər hissəsi isə Haşim övladlarının".[2] Ayətullah Seyid Xoyi eyni kitabda 1261-ci məsələdə Bəni-Haşimin kimlər olduğunu belə izah edir: "Bəni-Haşim" deyildikə ata tərəfdən Haşimə çatan şəxslər nəzərdə tutulur. Ana tərəfdən çatanlara isə xüms halal deyil, onlara zəkat halaldır. "Haşimi" deyildikdə Əli, Əqil və Abbasın nəsli arasında heç bir fərq yoxdur". Gördüyünüz kimi, şiə fiqhində "seyid" deyildikdə təkcə İmam Hüseynin (ə) nəslindən olanlar nəzərdə tutulmur. Ola bilsin ki, bu iradı bildirən şəxs seyidlik mövzusu ilə bağlı məlumatlarını "google" axtarış portalından əldə edib. Çünki "google"

[1] Haşim "həşəmə" feilindən düzəlib, mənası bir şeyi kəsmək, doğramaq, parça-parça etməkdir. Haşim qıtlıq vaxtı süd və ayrana çörək doğrayıb camaata payladığına görə bu ləqəbi almışdır
[2] Seyid Xoyi, "Minhacus-salihin", "Xüms" bölümü, 1259-cu məsələ

portalının təqdim etdiyi bəzi türkdilli saytlarda da eyni səhvə yol verildiyini görürük.

İmam Hüseynin (ə) nəslindən olanlara “seyid”, İmam Həsənin (ə) nəslindən olanlarasa “şərif” deyilməsi sonrakı dövrlərdə meydana gəlmiş və heç bir dini əsası olmayan adlandırmadan başqa bir şey deyil. Bəzən Peyğəmbər (s) nəslindən olan şəxslərə “seyidi-şərif” də deyilmişdir. İmam Həsənin (ə) nəslindən olanlara “şərif” deyilməsinin seyidliyin İmam Hüseynin (ə) nəslindən olanlara aid edilməsi ilə heç bir əlaqəsi yoxdur. Bir qədər əvvəl də qeyd etdiymiz kimi, seyidlik Haşim övladlarının hamısına şamildir. Təbii ki, bunların arasında İmam Həsən (ə) də yer alır. Şiə aləminin tanınmış təqlid mərcələrindən olan Həkim ailəsi, Burucerdi ailəsi, Sədr ailəsi, Təbatəbai ailəsi və sair bu kimi ailələr İmam Həsənin (ə) nəslindən olan tanınmış seyid ailələrindəndir.

**Peyğəmbərlərin ailələri başqalarından üstündürmü?**

Bu suala birmənalı cavab vermək olmaz, çünki peyğəmbərlərin ailə üzvləri arasından həm kafir və dinsiz, həm də hətta peyğəmbərlik məqamına yüksələcək qədər təqvalı insanlar çıxmışdır. Buna görə də Adəmin günahkar övladını, Nuhun kafir oğlunu, İbrahimin bütpərəst atasını nümunə gətirərək: “Baxın, peyğəmbərlərin ailələri başqalarından üstün deyil”, – demək səfsətədən başqa bir şey deyil. Belə ki Nuhun (ə) oğlu kafir olmuşdursa, İbrahimin (ə) iki oğlu və nəvəsi peyğəmbər olmuş, bu nəsildən çoxlu peyğəmbərlər çıxmışdır.

Seyidlərə gəldikdə, heç bir şiə alimi seyidlərin sırf Peyğəmbər (s) nəslinə mənsub olduqları üçün digər insanlardan üstün olduqlarını iddia etməyib. Çünki Quranda həqiqi üstünlüyün yalnız təqva ilə ölçüldüyü bildirilir: “Həqiqətən, Allah yanında sizin ən hörmətli olanınız ən təqvalı olanınızdır. Həqiqətən, Allah çox bilən və xəbərdardır”.[1] Bu ayədən Allah dərgahında ən üstün və hörmətli şəxslərin təqvalılar olduğu başa düşülür. Bu məsələdə artıq əsl-nəsəbin, qohumluq əlaqələrinin heç bir əhəmiyyəti yoxdur. Kim daha çox təqvalıdırsa, o da Allah

[1] Hucurat surəsi, 13-cü ayə

yanında daha hörmətəlayiqdir. Bir insanın seyid olması onu təqvası daha çox olan başqa bir insandan üstün etmir. Az öncə qeyd etdiyimiz kimi, heç bir şiə alimi belə bir iddiada olmayıb. Din alimləri, sadəcə, seyidlərə Peyğəmbər (s) nəslindən olduqları üçün ehtiram göstərmək lazım olduğunu bildiriblər. Bu hörmət və ehtiramın səbəbi isə Peyğəmbərə (s) olan sevgi və hörmətdir. Seyidlərə hörmət etmək lazım olduğunu əsas götürərək onların başqalarından üstün olduğunu demək yanlışdır. Üstünlük Peyğəmbərin (s) ailəsinə (Əhli-beytə) məxsusdur. Daha sonra Quran ayəsi ilə buna açıqlama gətirəcəyik.

## Seyidlikdən sui-istifadə edənlər

Bəzən seyidlik anlayışının İslamda olmayan, əsassız bir şey olduğunu iddia edənlər kimlərinsə öz seyidliklərindən sui-istifadə edərək camaatdan pul yığdıqlarını, həmçinin heç bir əsası olmadığı halda, cəmiyyət arasında "ağır seyid", "cəddi ağırdır" kimi təbirlərin yayıldığını əsas gətirirlər. Lakin unutmaq olmaz ki, kimlərinsə öz seyidliyindən sui-istifadə etməsi və ya cəmiyyətdə seyidlər barədə əsassız və xurafi fikirlərin yaranması seyidliyin bütünlükdə xurafat və dini mənşəyi olmayan bir anlayış olduğunu söyləməyə qətiyyən əsas vermir. Ona qalsa, istənilən dini ayində bu qəbildən olan sui-istifadələri görmək mümkündür. Bu gün kimlərinsə şan-şöhrət xatirinə həccə getdiklərini və həccin əməllərinə lazımi qaydada riayət etmədiklərini hamımız görmüşük. Məlumdur ki, həmin insanlar "hacı" adını qazandıqdan sonra bu addan sui-istifadə edirlər. Lakin heç kim sırf bu sui-istifadəni dəlil gətirərək həccin əsassız, anlamsız, xurafi bir ayin olduğunu iddia etməyib. Aydın məsələdir ki, sağlam düşüncəli insanlar kimlərinsə qərəzli şəkildə etdiyi sui-istifadənin hansısa ayinin əleyhinə tutarlı bir arqument ola bilməyəcəyini yaxşı bilirlər.

## Seyidliyin ata xətti ilə davam etməsi

Nəslin ata xətti ilə davam etməsi, demək olar ki, bütün İslam alimlərinin qəbul etdiyi təməl prinsiplərdən biridir. Quranın "Əhzab" surəsində övladlıqların öz atalarının adı ilə çağırılması əmr olunur:

"Oğul" – deyə çağırdıqlarınızı da oğullarınız etməmişdir... Onları öz atalarının adları ilə çağırın".[1] Deməli, nəslin davamı birbaşa ata ilə bağlıdır. Belə olan halda burada olduqca önəmli bir sual yaranır: İslam peyğəmbəri (s) həyatda ikən üç oğlunun üçü də dünyasını dəyişib. Həyatda qalan yeganə övladı Fatimə olub. Peyğəmbərin (s) nəsli məhz Fatimənin (s.ə) vasitəsilə davam edib. Əgər Peyğəmbərin (s) nəsli oğlan övladları ilə davam etməyibsə, o zaman seyid olduqlarını iddia edənlər bunu hansı əsasla edirlər? Deməli, ortada bir ziddiyyət var. Bir tərəfdən nəslin atadan oğula keçdiyini qəbul etmək, digər tərəfdənsə Peyğəmbərin (s) soyunun məhz onun qız övladı vasitəsilə davam etdiyini etiraf etmək burada ciddi bir uyğunsuzluq olduğundan xəbər verir. Çünki Peyğəmbərin (s) soyu qızı vasitəsilə davam edibsə və seyidlik də yalnız atadan oğula ötürülürsə, deməli, hazırda seyid olduqlarını iddia edənlər Peyğəmbərin (s) deyil, Əli (ə) ilə Fatimənin (s.ə) övladlarıdır. Əlinin (ə) Peyğəmbərin (s) əmisinin oğlu olması da vəziyyətdən çıxış yolu deyil. Ona qalsa, Əbuləhəb də Peyğəmbərin (s) əmisidir. O zaman nəyə görə onun övladları seyid hesab olunmur?

"Seyid" termini haqqında izah verərkən ümumiyyətlə "seyid" və ya "şərif" sözlərinin sonrakı dövrlərdə ortaya çıxdığını qeyd etmiş, fiqhdə "seyid" deyilərkən, əslində, Haşim övladlarının nəzərdə tutulduğunu xüsusi olaraq vurğulamışdıq. Deməli, seyidlikdə birbaşa Peyğəmbərlə (s) yox, Haşimlə olan bağlılıq önəmlidir. Belə olan təqdirdə Peyğəmbərin (s) soyunun oğlan övladı ilə davam etməsi seyid olmaq üçün şərt hesab olunmur. Həzrət Əlinin (s) də haşimilərdən olduğunu nəzərə alsaq, bu gün Əli (ə) və Fatimə (s.ə) vasitəsilə davam edən nəslin nümayəndələrinin seyid olduqları aydın olur.

Əbuləhəbə gəlincə, onun da övladları seyiddir. Bu adamın özünün pis adam olması övladlarının da pis olması demək deyil. Eyni qaydada imamlardan hansınınsa övladlarından birinin pis olması ümumi qanuna xələl gətirmir.

[1] Əhzab surəsi, 5-ci ayə

**“Mir” sözünün etimologiyası**

Yəqin ki, bir çoxunuz seyidlərin adının əvvəlinə “mir” sözünün əlavə edildiyinin şahidi olmusunuz. Mirəli, Mirhüseyn, Mirqafar, Miryaqub, Mirabbas, Mircavad kimi adları eşidəndə ağlımıza gələn ilk şey həmin şəxslərin seyid olmasıdır. Görəsən, adların əvvəlinə artırılan bu “mir” sözünün mənası nədir? Bu sözün etimologiyası ilə bağlı hansı məlumat var? Ərəb dilində belə bir söz varmı? Peyğəmbər (s) dövründə, eləcə də səhabələrin arasında adının əvvəlinə “mir” sözü əlavə edilmiş adam olubmu?

Bəziləri “mir” sözü ilə bağlı ciddi-ciddi mülahizələr yürüdərək, sanki, elmi bir kəşfə imza atdıqlarını düşünür və iddia edirlər ki, guya “mir” sözü yəhudi mənşəlidir, ivrit dilində “cənab” mənasını verən “mar”, “mer” və “mir” sözləri ilə bağlıdır, ərəb dilində belə bir söz yoxdur və bu söz “əmir” sözünün qısaldılmış forması da deyil.

Əvvəla, dilimizə ərəb dilindən keçmiş “mir” sözünün etimologiyasını ivrit dilindəki hansısa sözlə əlaqələndirmək həddən artıq gülünc iddiadır[1]. Çünki tək ərəb və ivrit dilləri yox, eyni dil ailəsinə daxil olan dillərdə onsuz da bu qəbildən olan bənzərliyin olması qaçılmazdır! Bu aspektdən çıxış edərək “mir” sözünün ərəb dilində olan “əmir” yox, məhz oxşar mənanı ifadə edən “mar” sözündən götürüldüyünü iddia etmək yanlışdır. Onu da nəzərə almaq lazımdır ki, ivrit dili üzrə mütəxəssislər hətta “mar” sözünün özünün də ivrit dilinə məhz eyni dil qrupuna aid olan aramicədən keçdiyini bildirirlər. Ümumiyyətlə, dilçilikdə eyni dil ailəsinə daxil olan dillərlə bağlı bu cür iddiaların irəli sürülməsi elmi əsası olmayan fərziyyələr hesab edilir. İkincisi, qarşı tərəfin bütün məsələlərə subyektiv yanaşması burada da özünü göstərir. İddiaçı seyidlik mövzusuna təəssübkeş mövqedən yanaşdığı üçün seyidlərin adının əvvəlində işlənən “mir” sözünü ivrit dilində olan hansısa sözlə əlaqələndirməklə öz aləmində guya seyidlik məsələsinin yəhudiliklə əlaqəli olması təəssüratını yaratmağa çalışmışdır. Üçüncüsü, təəssübkeşlik qədər insanı sağlam düşüncədən məhrum edən ikinci bir

[1] Nəzərə alsaq ki, ərəb dilindən bu cür alınmaların olduğunu göstərən nümunələr həddən artıq çoxdur.

mərəz yoxdur. Təəssübkeşliyi ilə yanaşı, məlumat kasadlığı da iddiaçını daha ətraflı məlumat əldə etməyə qoymayıb. İddiaçı iddia edir ki, "mir" sözü "əmir" sözünün variasiyası deyil, ivrit dilində cənab mənasını verən "mir" sözündən götürülmüşdür. Bu iddianın problemi həm də ondadır ki, ivrit və ərəb dilləri sami dil ailəsinə daxildir. Hər iki dil haqda məlumatı olanlar bu dillərdə eyni mənanı ifadə edən bir çox sözlərin olduğundan xəbərdardır. "Əmir" və "mir" sözləri də bu qəbildəndir. O zaman ərəb və müsəlmanın öz dilində bu sözü qoyub, ivrit dilinə qaçmasının nə mənası var axı? Digər tərəfdən hansısa sözün dilə başqa bir dildən keçdiyini sübuta yetirmək üçün əldə kifayət qədər yetərli və tutarlı dəlillər olmalıdır. Onsuz da "əmir" sözü elə "seyid" sözünün malik olduğu mənanı ifadə edir. Dillərdə o qədər sözlər var ki, variasiyaya uğrayıb. Bu cür iddiaların nə mənası var axı?

Hər halda, bunun heç bir elmi çəkisi və aktuallığı olmayan, əhəmiyyətsiz bir mövzu olduğunu düşünürük. Seyidlərin kim olduğu bizə tam şəkildə məlum olduğu üçün onların adının əvvəlinə "seyid", "ağa" və ya "mir" sözlərindən hansının artırılmasının heç bir fərqi yoxdur. İkinci bir tərəfdən seyidlərin adının əvvəlinə artırılan "mir" sözünün ərəb, fars, yunan, yaxud ivrit mənşəli olmasının nə əhəmiyyəti var axı? Fərz edək ki, "mir" sözü dilimizə ivrit dilindən keçib və biz də bu sözü seyidlər haqqında işlədirik. Bununla nə dəyişəcək? Bu gün ayrı-ayrı ilahiyyat elmləri üzrə dissertasiya müdafiə edib "doktor" dərəcəsi almış, "professor" olmuş mütəxəssislər var. İndi durub iddia edək ki, bu, düzgün deyil, bu sözlər yunan mənşəli sözlərdir, Peyğəmbər (s), səhabələr və tabeinlər arasında belə bir söz olmayıb, buna görə də din alimlərinə bu sözün aid edilməsi bidətdir, günahdır və sair? Bu gün dilimizdə molla, dini rəhbər, vaiz, din alimi, məscidin səlahiyyətli nümayəndəsi mənasında işlənən "axund" sözü var. Ola bilsin ki, fars mənşəlidir, heç ərəb dilində də belə bir söz olmayıb, səhabələrə də bu sözlə müraciət edilməyib. İndi bu aspektdən çıxış edib iddia etməliyik ki, olmaz, bidətdir bu cür sözlərdən istifadə etmək dinə ziddir? Bu cür nümunələr çoxdur və bütün bunlar iddiaçının hər şeyə səthi, subyektiv və təəssübkeş mövqedən yanaşdığını göstərir.

# İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN ÖLÜLƏRƏ QURAN OXUMAQ

**Ölümdən sonrakı həyat və ruhun əbədiliyi**

Dinə görə ölüm insan həyatının sonu yox, əksinə, əbədi həyatın başlanğıcı hesab edilir. Ölümlə həyatın sona çatmadığını Quran ayələri açıq şəkildə ifadə edir. İnsan ruh və bədəndən təşkil olunmuş bir məxluqdur. Bədən özü maddi birləşmələrdən ibarət oluduğu üçün ona maddənin qanunları hakimdir. Yəni həcmi, kütləsi vardır, yaşayışı zaman və məkan çərçivəsindədir, isti, soyuq və s. kimi maddi hadisələr onda təsir qoyur, tədricən köhnəlir və solur (qocalır), nəhayət, bir gün Allahın əmri ilə yarandığı kimi bir gün də parçalanıb aradan gedir.

Lakin insanın ruhu maddi deyildir. O, yuxarıda qeyd olunan maddi xüsusiyyətlərə yox, elm, duyğu, fikir, iradə, məhəbbət, kin, sevinc, kədər, qorxu, ümid və s. kimi qeyri-maddi xüsusiyyətlərə malikdir. Ürək, beyin və digər bədən üzvləri öz fəaliyyətlərində ruha və ruhi xüsusiyyətlərinə tabedir və bədən üzvlərindən heç birini insanı idarə edən mərkəz hesab etmək olmaz. Allah-taala Quranda buyurur:

(Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa bir məxluq olaraq yaratdıq (Ona ruh verdik).[1]

**İslami nöqteyi-nəzərdən ölümün mənası**

İslama görə, ölümün mənası yox olub aradan getmək deyil, ölməz və əbədi olan ruhun bədənlə əlaqəni kəsməsidir. Deməli, bədən aradan gedir, ruh isə bədənsiz öz yaşayışını davam etdirir. Uca Allah buyurur:

"(Axirətə inanmayanlar) dedilər: "Məgər biz torpağa qarışıb yox olandan sonra yenidənmi yaradılacağıq?" Bəli, onlar Rəbbi ilə qarşılaşacaqlarını (Qiyamət günü dirilib haqq-hesab üçün Allahın

[1] Muminun surəsi, 12-14-cü ayələr; Bəqərə surəsi, 126-cı ayə

hüzurunda duracaqlarını) inkar edən kəslərdir! De: "Sizə müvəkkil olan ölüm mələyi sizi bədənlərinizdən geri götürür. Bədənlərinizin parçalanıb dağılması ilə siz məhv olmursunuz."[1]

Əziz peyğəmbərimiz buyurur: Siz yox olmursunuz, əksinə, bir evdən başqa bir evə köçürsünüz.

**Bərzəx aləmi**

İslam dini insanların öldükdən sonra xüsusi bir şəkildə dirilməsinə, yaxşı insanların səadətə və nemətlərə yetişəcəyinə, pis insanlara əzab veriləcəyinə inanır. Qiyamət baş verən zaman isə hamı öz əməllərinə görə hesabat verəcəkdir. İnsanın ölümlə qiyamət Arasında yaşadığı aləmə bərzəx aləmi deyilir.

"Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi əta olunur".[2]

Qeyd olunan həqiqəti bir neçə Quran ayəsi ilə izah etməyə çalışacağıq:

**Quran və ruhun qalması**

Quran ayələri şəhadət verir ki, ruh bədəndən ayrıldıqdan sonra əbədi olur.

1. Allah yolunda öldürülənlərə "ölü" deməyin. Əksinə, onlar diridirlər, lakin siz bunu dərk etmirsiniz.[3]

2. Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əksinə, onlar diridirlər. Onlara Rəbləri yanında ruzi əta olunur.[4]

3. Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər.[5]

---

[1] Səcdə 10-11-ci ayələr
[2] Ali-İmran surəsi,169-cu ayə
[3] Bəqərə surəsi, 154-cü ayə
[4] Ali-İmransurəsi, 169-cu ayə
[5] Ali-İmransurəsi, 170-ci ayə

4. Onlar Allahdan gələn nemət və mərhəmətə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına (xəbərinə) görə sevincək olurlar.[1]

5. Həqiqətən, mən sizin Rəbbinizə iman gətirdim. Məni eşidin! “Ona: “Cənnətə daxil ol!” deyildi. Dedi: “Kaş qövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi!”[2]

“Cənnətə daxil ol” dedikdə axirət aləminin yox, Bərzəx aləminin cənnəti nəzərdə tutulur. O (ayədə haqqında sözügedən şəxs), arzu edir ki, kaş qövmü Rəbbinin onu niyə bağışladığını və hörmət sahibi etdiyini başa düşəydi.

Belə bir arzunu axirət əhlinə etmək düzgün deyil. Çünki axirət dünyasında hicablar və pərdələr aradan götürüləcək və hamı bir-birinin halından xəbərdar olaraq. Əksinə, o (ayədə haqqında sözügedən şəxs) belə bir arzunu dünya əhlinə etmişdir. Çünki bu dünyanın insanları Bərzəx əhlindən xəbərsizdirlər. Quran buna şəhadət verir.

6. Onlar (ölən gündən Qiyamətə qədər qəbir evində) səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): “Firon əhlini ən şiddətli əzaba salın”.[3]

7. (Ya Məhəmməd!) hər ümmətdən (Peyğəmbərini) bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman (kafirlərin halı) nə cür olacaq?[4]

8. Ya Peyğəmbər! Həqiqətən, Biz səni (ümmətinə) bir şahid, bir müjdəçi və çəkindirən bir şəxs göndərdik.

Həyatın Bərzəx aləmində davam etməsi bu ayədən bəlli olur. Çünki Qiyamət gününə kimi səhər-axşam Firon əhlinə əzab olunar. Qiyamət günü yetişdikdə isə şiddətli əzaba düçar olarlar.

## Qəbirləri ziyarət

Böyüklüyündən, kiçikliyindən, fərdi və ictimai mövqeyindən, tutduğu vəzifəsindən, varlı, kasıb, gözəl, çirkin, gənc və qoca

[1] Ali-İmransurəsi, 171-ci ayə
[2] Yasin surəsi, 25-26-cı ayələr
[3] Muminsurəsi, 46-cı ayə
[4] Nisa surəsi, 41-ci ayə

olmasından asılı olmayaraq hər kəs bir gün ölümü dadacaq. Qəbiristanlıqlar bu mənzərəni daha aydın şəkildə görməyimizə imkan verir. Qəbirlərə ibrət gözü ilə baxan insan bu dünyanın nə qədər fani olduğunu dərk etməyə bilməz. Qəbiristan ziyarətinin bu cəhətdən çox böyük əhəmiyyəti var.

**Quran və qəbirlərin ziyarət edilməsi**

Quran Peyğəmbərə (s) münafiq cənazəsinə namaz qılmağa və qəbri kənarında oturmağa açıq-aşkar icazə vermir:

"Onlardan (münafiqlərdən) ölən heç bir kəsin namazını heç vaxt qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun peyğəmbərini dandılar və fasiq olaraq öldülər".[1]

Bu ayədə Allah münafiqlərin şəxsiyyətini alçaltmaq və bu dəstəni tənbeh etmək üçün Peyğəmbərə belə bir göstəriş vermişdir:

1. Münafiqlərin cənazəsinə namaz qılmaq olmaz.

2. Onların qəbirlərinin başı üstündə durmaq qadağandır.

Bu ayədə münafiqlər nəzərdə tutulduğu üçün mövzunu qeyri-münafiqə və möminə aid etmək düzgün deyil.

Burada "qəbrinin başında durma" deyilərkən nə nəzərdə tutulmuşdur? Dəfn vaxtı münafiqin başı üstündə durmağa icazə verilirmi? Bu, mömin və müsəlmanlara da aiddirmi? Yaxud dəfndən sonra cənazənin başı üstə durmaq olarmı?

Bəzi təfsir alimləri ayəni "dəfn vaxtı cənazənin başı üstə durmaq olmaz" kimi təfsir etmişlər. Lakin Beyzavi kimi digər təfsir alimləri bu ayəni ümumi nöqteyi-nəzərdən belə açıqlayırlar:

"Dəfn və ziyarət vaxtı qəbrin yanında durmaq düzgün deyil".[2] Ayənin mənasına diqqət yetirsək, geniş və ümumi mənada olduğunu (dəfn və ziyarət vaxtı qəbrin başı üstə durmamağı) başa düşərik.

Çünki ayə iki cümlədən ibarətdir:

1. "Onlardan (münafiqlərdən) ölən heç bir kəsin namazını heç vaxt qılma..."

---

[1] Tövbə surəsi, 84-cü ayə

[2] Beyzavinin təfsiri, c. 3, səh. 77

“Heç bir kəs” ifadəsi inkarda işlənmiş və hamıya aiddir.

“Heç vaxt” sözü qeyri-müəyyən zamanda işlənmişdir. Cümlənin mənası belədir: Münafiqlərdən heç birinin namazını heç vaxt qılma.

Bu iki ifadəyə diqqət yetirsək, görərik ki, cümlənin xüsusiliyi bildirilmir. Çünki namaz dəfndən qabaq bir dəfə vacib olur. Əgər meyit namazı nəzərdə tutulsaydı, onda “heç vaxt” kəlməsi işlənməzdi. Lakin bu kəlam bütün münafiq şəxslərə aid olduğundan yuxarıdakı fərziyyə (meyit namazı) tamamilə səhvdir. Çünki “heç kimə namaz qılma” ifadəsi ümumidir, yəni bu ayə bütün müşriklərə aiddir. Bundan əlavə, “heç vaxt” sözü zamanın qeyri-müəyyənliyini və əbədiliyini bildirir.

Məsələn: “Sizə Peyğəmbərdən sonra onun zövcələri ilə evlənmək qətiyyən və heç vaxt yaraşmaz...”[1]

Deməli, cümlənin birinci mənası belədir: “Heç bir münafiq üçün namaz qılmaqla və yaxud başqa əməllə onun günahlarının bağışlanmasını istəmə”.

2. “Qəbrin başında durma...”

Bu cümlənin özündən qabaqkı cümlə ilə bağlılığı var. Onlar eynicinsli cümlələrdir. Belə olan halda burada dəfn, cənazənin başı üstündə durmaq nəzərdə tutulmur. “Heç bir kəs” kəlməsi birinci surətdə bütün münafiqlərə aid olduğu kimi, zamanın əbədiliyini bildirir.

Allah Peyğəmbəri münafiqlər üçün rəhmət istəməkdən, namaz qılmaqdan, dua etməkdən, qəbirlərinin başı üstündə dayanmaqdan – istər dəfndən qabaq, istər dəfndən sonra, bu iki cümlə ilə (“namaz qılma” və “qəbrin başı üstündə dayanma”) çəkindirmişdir. (Hər zaman dua etmək və qəbrin başı üstündə durmaq) ancaq möminlərə aiddir. Bir neçə il əvvəl vəfat etmiş möminin məzarı üstündə oxunan Quran və dua qəbul olunur.

**Qadınlara qəbir ziyarətinə getmək qadağan edilibmi?**

Bəzi rəvayətlərdə Peyğəmbərin (s) qadınların qəbir ziyarətini qadağan etdiyi nəql olunur.

[1] Əhzab surəsi, 53-cü ayə

"Allahın Rəsulu (s) ziyarət edən qadınlara lənət göndərib".[1]

Lakin bu hədisə əsaslanmaqla ziyarəti qadınlar üçün haram etmək bir neçə səbəbdən düzgün deyil:

1. Bir çox alimlər bu çəkindirmənin məkruhluğa aid olduğunu söyləyirlər. Bu məkruhluq o dövrə aiddir.

"Miftahül-hacət" kitabının müəllifi "Səhihi-İbn Macə" kitabının şərhində yazır: "Alimlər bu (Peyğəmbərin qadınları ziyarətdən çəkindirməsi) haqda iki nəzəriyyə irəli sürüblər:

Qadınların məzar ziyarətini Peyğəmbər (s) haram dərəcəsində buyurmuşdur, yoxsa məkruh? Lakin bir çox alimlərin əqidəsi budur ki, əgər qadın fitnə[2] törətməzsə, ziyarət edə bilər.

2. Hədislərdə Aişənin Peyğəmbərin (s) qəbirləri ziyarət etməyə icazə verdiyini deməsi nəql edilmişdir[3]. Əgər qadınlar bu hökmdən istisna olsaydı, kişilərə məxsus olduğunu qeyd edərdi. Halbuki bu hədisi nəql edən özü də qadındır. Hər bir hökm verən çox yaxşı bilir ki, hökm və təklif kimə aiddir.

3. Bəzi hədislərdə Peyğəmbərin (s) Aişəyə necə ziyarət etməyi öyrətməsi nəql olunur.[4] Aişənin özü də Peyğəmbərdən (s) sonra qəbirləri ziyarət edərdi.

4. Tirmizi nəql edir:

"Aişənin qardaşı Əbdürrəhman ibn Əbubəkr Hübşidə vəfat etdi, onun cənazəsini Məkkə şəhərinə gətirib dəfn etdilər. Bacısı Aişə Mədinədən Məkkəyə qayıdarkən qardaşının qəbrini ziyarət etməyə gedib iki beyt şeir və başqa cümlələrlə orada əzadarlıq etdi.[5]

"Səhihi-Tirmizi" kitabını şərh edən imam Hafiz ibn əl-Ərəbi yazır: "Daha doğrusu budur ki, Peyğəmbər qəbri ziyarət etməyi həm kişilərə, həm də qadınlara icazə verdi. Lakin bəziləri qadınların qəbir üstündə

---

[1] Səhihi-İbn Macə,Əl-Cənaiz kitabı, Ma caə fin-nəhyi ən ziyarətin-nisai əl-qübur, c. 1, səh. 478

[2] "Fitnə törətmək" ifadəsinin burada mənası budur ki, qadınlar daha emosional və tez təsirlənən olduğuna görə çox vaxt hisslərinin qarşısını ala bilmirlər. Yaxın adamı dünyasını dəyişərsə və yaxud yaxın adamının qəbrinin ziyarətinə gedərsə, qadın bərkdən ağlayar, saçına və üz-gözünə əl atar. Bu da İslamda bəyənilməyib və şəriət bu əmələ icazə vermir.

[3] İbnMacəninşərhi, c.1, səh. 114 (Hindistançapı)

[4] Yeddinci hədisə müraciət edin.

[5] Səhihi-Tirmizi, Əl-Cənaizkitabı, "Ma caə fi ziyarətil-qübur" fəsli, c. 4, səh. 275

səbirsiz olduqlarına və hicaba riayət etmədiklərinə görə bu əməlin məkruh olduğunu söyləmişlər".

5. Buxari Ənəsdən belə nəql edir: "Peyğəmbər (s) əzizinin qəbri üstündə ağlayan qadın görüb buyurdu: "İmanlı və səbirli ol".

O qadın Peyğəmbəri tanımadığı üçün dedi:

"Əl çək məndən, mənim başıma gələn müsibət sənin başına gəlməyib".

Qadına həmin şəxsin Peyğəmbər olduğunu dedikdə tez əzizinin qəbrini tərk edib Peyğəmbərin evinə gəldi, ondan üzr istəyib dedi: – Məni bağışlayın, sizi tanımadım.

Peyğəmbər buyurdu:

"Müsibət vaxtı səbir etmək çox yaxşıdır".[1]

Əgər qəbirləri ziyarət etmək qadınlara haram olsaydı, onda Peyğəmbər (s) qadını bu işdən çəkindirərdi. Lakin o, qadına səbir etməyi məsləhət bilmişdir.

6. Əziz Peyğəmbərin (s) qızı Fatimə (s.ə) hər cümə günü əmisi Həmzənin qəbrini ziyarət etməyə gedər və qəbrin kənarında namaz qılardı.[2]

7. Qurtubi yazır:

Peyğəmbər tez-tez qəbiristanlığa ziyarətə gedən qadınlara lənət göndərmişdir. Çünki hədisdə "ziyarət" kəlməsi davamlılığı[3] ifadə edən mübaliğə şəkilçisi ilə işləndiyi üçün belə fikir irəli sürmək olar. Bəlkə də, qadınların tez-tez ziyarət etməsi həyat yoldaşının haqqının tapdalanmasına, hönkürtü ilə ağlayıb dad-fəryad etdiklərinə səbəb olduğu üçün lənət göndərilmişdir. Əgər qadınlar belə bir nöqsana yol verməsələr, onların ziyarət etmələrinin heç bir eybi yoxdur. Çünki ölünü yad etmək kişilərə və qadınlara aidir.

8. Əgər qəbri ziyarət etməklə insan dünyadan əl çəkib axirəti yadına salırsa və bir tərəfdən də əli hər yerdən üzülmüş qara torpaqlar altında yatan cənazəyə xeyri varsa, onda nə üçün buələm haram olmalıdır?

---

[1] Səhihi-Buxari, Əl-Cənaiz kitabı, "Ziyarətül-qübur" fəsli, səh. 100. Səhihi-Əbudavud, c. 2, səh. 121

[2] Müstədrəki-Hakim, c. 1, səh.377, Vəfaül-vəfa, c. 2, səh.112

[3] Sünəni-Əbudavud, c. 2, səh. 196

Müsəlmanların qəbirləri ziyarət edərkən oxuduqları "Fatihə" və sair dualar yatan hər bir şəxsin əzizi üçün gözəl bir hədiyyədir.

İbn Macə "Səhih" kitabında nəql edir:

Peyğəmbər (s) buyurdu: "Öz ölüləriniz üçün "Yasin" surəsini oxuyun".[1]

Belə olan halda ziyarət etməyə görə qadınla kişi arasında nə kimi fərq ola bilər?

**Qəbir ziyarətinin qadağan edilməsinin tarixi**

Araşdırmalar qəbir ziyarətinin qadağan edilməsinin Əməvilər sülaləsinin siyasi və ideoloji düşüncəsindən qaynaqlandığını göstərir. Tarixi faktlar qeyd olunan qdağaların və həmin məzmunu ifadə edən hədislərin məhz həmin dövrdə qondarıldığını göstərir.

Tarixi mənbələrdə qeyd edilir ki, Mərvan ibn Həkəm (Əməvilər sülaləsinin dördüncü xəlifəsi olmuşdur) Əbu Əyub Ənsarinin Peyğəmbərin (s) qəbrini ziyarət etməsinə mane olmuşdur. Yuxarıda bu tarixi faktı qeyd etdik.

Əməvi hakimi Əbdülməlik ibn Mərvanın İraqa hakim təyin etdiyi Həccac ibn Yusif Peyğəmbərin (s) qəbrini ziyarət edənləri "ölüm olsun!" deyərək təhqir etmişdir.

İbn Əbülhədid Həccac ibn Yusif Səqəfinin Peyğəmbərin (s) müqəddəs məkanına qarşı təhqiramiz ifadələr işlətməsini qeyd etmişdir. İbn Əbdürrəbbih əl-Əndəlusi, Əbusəd Mənsur ibn Hüseyn əl-Abi və ərəb ədəbiyyatının qabaqcıl nümayəndələrindən olmuş Mübərrəd Həccacın bu cəsarətinin onun əhli-sünnə alimləri və fəqihlərinin gözündən düşməsinə və təkfir edilməsinə səbəb olduğunu qeyd etmişlər.

İbn Əbülhədid yazır:

"Həccac Kufədə xütbə oxudu. Mədinədə Allahın Rəsulunun (s) məzarını ziyarət edənlərdən danışaraq dedi: "Ölüm olsun onlara! Onlar yalnız dirəklərin və çürümüş sümüklərin başına dövrə vururlar. Nə

[1] Səhihi-İbn Macə, "Əl-Cənaiz" fəsli, 4-cü fəsil

üçün Əmirəlmöminin Əbdülməlikin sarayını təvaf etmirlər? Məgər bilmirlər ki, adamın xəlifəsi onun elçisindən üstündür?!”[1]

Həccacın Peyğəmbərin (s) uca məqamına qarşı həyasızlığı və təhqirləri elə bir həddədir ki, qələm yazmağa utanır, dil deməyə xəcalət çəkir. O, utanmazcasına təkcə peyğəmbərlik məqamına vurğun zəvvarlara ölüm diləmir, Peyğəmbərin (s) bədənini faydasız çürük sümüklərlə müqayisə etmir, bundan daha ağırını edir. O, camaatı elə bir evi təvaf etməyə səsləyir ki, bu ev Allah və Əhli-beytin (ə) düşməni və Allahın Rəsulunun (s) xilafətini ələ keçirən qəsbkar üçün daşdan və qayadan tikilmişdir. Habelə onun cılız məqamını ilahi peyğəmbərlik məqamından uca hesab edir. Məhz onun bu həyasızlığına görə əhli-sünnə alimləri Həccacı kafir hesab etmişlər.

İbn Əbdürrəbbih əl-Əndəlusi “Əl-İqdül-fərid” kitabında yazır ki, həmin iş Həccacın alimlər tərəfindən təkfir edilməsinə səbəb olmuşdur:

“Alimlərin Həccacı kafir hesab etmə səbəblərindən biri budur ki, Həccac camaatın Allahın Rəsulunun (s) qəbri və minbərinin başına təvaf etməsini gördükdə onların yalnız dirəklər və çürümüş sümüklərin ətrafında dövr etdiklərini söyləmişdir”.[2]

Ərəb ədəbiyyatının qabaqcıl nümayəndələrindən olmuş Məhəmməd ibn Yezid əl-Mübərrəd (vəfatı: h.286) yazır ki, bu iş Həccacın alimlər tərəfindən təkfir edilməsinə səbəb olmuşdur:

“Şübhəsiz ki, bu, fəqihlərin Həccacı kafir hesab etmə səbəblərindəndir. O, bunu camaat qəbrin başına təvaf etdiyi zaman demişdir”.[3]

**Qəbir ziyarəti, ölülərin eşitməsi, Peyğəmbərin onlarla danışması kimi məsələləri qəbul etməyənlərin dəlilləri**

Ölülərin bizi eşitmədiyini iddia edənlərin istinad etdikləri dəlillərdən biri Quranın “Rum” surəsinin 52-ci ayəsidir:

(Sən səsini nə ölülərə, nə də üz çevirib uzaqlaşan karların qulağına çatdıra bilməzsən.)

---

[1] İbn Əbülhədid əl-Mədaini əl-Mötəzili (vəfatı: h. 655), Şərhu Nəhcül-bəlağə, c.15, səh.142
[2] Əhməd ibn Məhəmməd ibn Əbdürrəbbih Əl-Əndəlusi; Əl-İqdul-fərid, c.5, səh.43
[3] Məhəmməd ibn Yezid əl-Mübərrəd, Əl-Kamil fil-lüğəti vəl-ədəb, c.1, səh.222

Digər ayə “Fatir” surəsinin 22-ci ayəsidir:

(Ölülərlə dirilər də eyni deyillər. Allah öz ismarışını istədiyinin qulağına çatdırır. Sən isə öz sözünü qəbirdə yatanlara eşitdirə bilməzsən.)

**Aişə xanım bu ayəni ölülərin eşitməsinə dəlil gətirsə də, sonradan fikrindən daşınmışdır.**

Əhli-sünnə alimləri Peyğəmbərin (s) həyat yoldaşı Aişə xanımın bu ayəni ölülərin eşitməməsinə dəlil gətirdiyini qeyd etmişlər. Həmin alimlər bunlardır:

Əs-Salehi əş-Şami (vəfatı: h. 942), “Subulul-huda vər-rəşad fi sirəti xeyril-ibad”, c.4, səh.85; Məhəmməd ibn Əhməd əl-Qurtubi (vəfatı: h. 671), “Əl-Cami li-əhkamil-Quran”, c.13, səh.232; Əbdür-rəhman ibn Abdullah əs-Suheyli (vəfatı: h. 581), “Ər-Rəvzul-unuf şərhu sirəti seyyidi vələdi Adəm və xatəmil-mursəlinə Məhəmməd (s), c.3, səh.85; Kəmaləddin əs-Sivasi əl-Hənəfi (vəfatı: h. 681), “Şərhu fəthül-qədir”, c.2, səh.104; İbn Abidin əl-Hənəfi (vəfatı: h. 1252),

Ancaq İbn Həcər əl-Əsqəlani “Fəthül-bari” əsərində Aişə xanımın bu fikirindən yayındığını yazmışdır.[1]

Hətta bu fikirdən dönməmiş olsa belə, əhli-sünnə alimləri onun bu ayəni sübut gətirməsini qəbul etməmişlər.

Həmd ibn Nasir əl-Hənbəli yazır:

“Mən Buxarinin iki böyük səhabə İbn Ömər və Əbu Təlhədən Peyğəmbərin (s) ölülərin eşitdiyini nəql etdiyini görmüşəm. Aişənin Qurandan çıxardığı nəticəyə görə İbn Ömərin hədisini rədd etməsi qeyri-məqbul bir işdir. Daha sonra bunun izahını görəcəksiniz, inşal-lah”.[2]

Məhəmməd əl-Əmin əl-Şənqiti yazır:

---

[1] İbn Həcər Əsqəlani Şafei, Fəthül-bari şərhi səhihil-Buxari, c.7, səh.304; Bu fikri təsdiq edən digər mənbələr: Cəlaləddin Süyuti, Şərhus-Süyuti li-sünənin-Nəsai, c.4, səh.11; Əs-Salehi əş-Şami, Subulul-huda vər-rəşad fi sirəti xeyril-ibad, c.4, səh.85; Həmd ibn Nasir ət-Təmimi əl-Hənbəli, Əl-Fəvakihul-izab fir-rəddi əla mən ləm yəhkum əs-sünnətə vəl-kitab, c.6, səh.200; Məhəmməd əl-Əmin əş-Şənqiti, Əzvaul-bəyani fi izahil-Qurani bil-Quran, c.6, səh.135

[2] Həmd ibn Nasir ət-Təmimi əl-Hənbəli, Əl-Fəvakihul-izab fir-rəddi əla mən ləm yəhkum əs-sünnətə vəl-kitab, c.6, səh.235

"Peyğəmbər (s) ölülərin onlara deyiləni eşitdiklərini bildirmişdir. Aişənin Qurandan çıxardığı nəticəyə görə İbn Ömərin hədisini rədd etməsi qeyri-məqbul bir işdir. Daha sonra bunun izahını görəcəksiniz, inşallah".[1]

Əhli-sünnə alimləri bu iddialara belə cavab vermişlər:

**a) Ayələrdən heç biri ölülərin eşitməməsini açıq şəkildə göstərmir:**

Həmd ibn Nasir əl-Hənbəli yazır:

"Doğrusu, səhih hədislərdə ölülərin eşitdiyini ifadə edən faktı Quranda inkar edən heç nə yoxdur. İndi ki Quranda qeyd edilmiş eşitməni rədd edən bir şey yoxdur, deməli, ölülərin eşitməsi nəss (Quran ayəsi və səheh hədislərə əsaslanan hökm) vasitəsilə sübuta yetmiş olur və o, Quranla ziddiyyət təşkil etmir".[2]

**b) Ayədə dirilərin ölülərə eşitdirmək bacarığına malik olmaması deyilərkən, dirilərin müstəqil şəkildə, Allahın heç bir müdaxiləsi olmadan eşitdirmək bacarığına malik olmamaları nəzərdə tutulmuşdur.**

Əllamə Alusi yazır:

"Sən əsla qəbirdə olanları eşitdirə bilməzsən". Bu cümlə (daha öncəki cümlədə) küfrdə inad edən şəxslərin ölülərə bənzədilməsinin ardınca deyilmiş bir "tərşih"dir.[3] Daha öncəki cümlədə küfrdə israr edənlər ölülərə bənzədilmişdir (bununla birinci bənzətmə edilmişdir), sonrakı cümlədə isə ölünün eşidə bilməyəcəyi deyilmişdir (bununla da ikinci bənzətmə edilmişdir. Dolayısı ilə, küfrdə israr edənlərin yola gəlməyəcəyi bildirilmişdir). Bu cümlədə Peyğəmbərə (ona salam və salavat olsun) küfrdə israr edən şəxslərin iman gətirmələrindən ümidini üzməzi məsləhət görülmüşdür. Buradakı "bə" (ərəbcədə) təkid üçün artırılmışdır.

---

[1] Məhəmməd əl-Əmin əş-Şənqiti, Əzvaul-bəyani fi izahil-Qurani bil-Quran, c.6, səh.130

[2] Həmd ibn Nasir ət-Təmimi əl-Hənbəli, Əl-Fəvakihul-izab fir-rəddi əla mən ləm yəhkum əs-sünnətə vəl-kitab, c.6, səh.139

[3] Tərşih: birinci bənzətməyə uyğun olaraq ikinci bənzətmənin edilməsi.

Nəzər nöqtəsi olan cümlədəki “eşitdirmək” sözü ilə daha əvvəlki cümlədə işlənmiş “eşitdirmək” sözü eyni mənadadır.[1]

Bu ayədə deyilənlər “quyu” hədisində[2] deyilənlərlə ziddiyyət təşkil etmir. Çünki ayədə ölülərə təbii yolla eşitdirmək inkar edilmişdir (Allahın izni ilə eşitdirilmək deyil).

Quyu hədisində deyilənlər “(Oxu) atdığın zaman sən atmadın, Allah atdı!” ayəsində deyilən növdəndir. Bəzi alimlər də məhz bu nəzəri qəbul etmişlər. Bu barədə daha öncə məlumat verildi. Elə isə diqqətsizlik etmə”.[3]

**Quranın bir çox ayəsi, əslində, bütün güc və qüvvətin yalnız Allahın əlində olduğunu göstərir.**

Qurani-Kərimdə bir çox ayələr bu şəkildə gəlmişdir. Müxalif tərəfin istinad etdiyi və yuxarıda da qeyd etdiyimiz ayələr səbəblərin səbəbinin Allah-taala olduğunu başa salmaq məqsədi daşıyır. Ümumiyyətlə, bu qəbildən olan ayələrin məqsədi heç də iddia edən tərəfin fərz etdiyi kimi deyil. Məsələn, bir ayədə deyilir:

“Heç əkdiyinizi görmüsünüz? Onu siz bitirirsiniz, yoxsa bitirən Bizik?”[4]

Bu ayələrdə əkin Allaha aid edilmişdir. Lakin hamıya məlumdur ki, əkinçiliyi əkinçi icra edir. Bəs niyə bu ayədə əkinçilik Allahla əlaqələndirilmişdir? Cavab budur ki, Allah-taala əsl səbəbin Özü olduğunu başa salmaq istəmişdir. Əkinçiyə qüdrət verən məhz Odur.

Başqa bir ayədə isə deyilir:

---

[1] Zəməxşəri əvvəlki cümlədə işlənmiş “eşitdirmək” sözünü belə izah etmişdir: “Allah dilədiyini eşitdirər”, yəni Allah dilədiyi ölüyə səsləri eşitmək imkanı verər.

[2] “Səhihi-Buxari” və səh. kitablarda Peyğəmbəri-Əkrəmin (s) Bədr döyüşündə öldürülən şəxslərin cəsədlərinin yığıldığı quyunun başına gəlib ölü müşriklərlə danışdığı, bunun ardınca bəzi səhabələrin, “ey Allahın Rəsulu, ölü şəxslərlə danışırsan?!”, – dediyi, Peyğəmbəri-Əkrəmin də “siz onlardan daha yaxşı eşitmirsiniz, lakin onlar cavab verə bilmirlər”, – deyə cavab verdiyi nəql olunmuşdur. Zəməxşəri demək istəyir ki, bu hədisdə deyilənlər ayədəki “Sən əsla qəbirdə olanları eşitdirə bilməzsən” fikri ilə ziddiyyət təşkil etmir. Çünki ayədə insanın Allahdan asılı olmayaraq ölüləri eşitdirməsi nəzərdə tutulmuşdur. Belə bir şey, şübhəsiz ki, bütün bəşərin qüdrəti xaricindədir. İnsan danışdığı zaman ölülərin onu eşitməsi, yalnız Allah-taalanın izn və qüdrəti ilə baş verir.

[3] Şihabəddin əl-Alusi əl-Bağdadi, Ruhul-məani fi təfsiril-Quranil-əzim vəs-səbil-məsani, c.22, səh.186

[4] Vaqiə surəsi, 63-64-cü ayələr

"Onları siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbər! onların üz-gözünə torpaq və çınqıl) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir sınağa çəkmək istəyirdi. Allah eşidəndir, biləndir!"[1]

Bu ayədə Allah-taala kafirləri öldürmək, hətta onlara tərəf ox atmağı belə Özünə aid etmişdir. Halbuki açıq-aydın bilinir ki, oxu müsəlmanlar atırdılar. Deməli, Allahın bu işi Özünə aid etməklə əsas məqsədi səbəblər səbəbinin və müsəlmanlara qüdrət verən şəxsin Özü olduğunu başa salmaqdır.

Bu qəbil nümunələr Qurani-Kərimdə olduqca çoxdur. "Sən ölülərə eşitdirə bilməzsən" ayəsində "sən Allahın icazəsi və Onun qüdrəti olmadan ölüləri eşidən edə bilməzsən" – mənası nəzərdə tutulmuşdur. Buna əsasən, bu ayə ölülərin eşitməməsinə sübut sayıla bilməz.

**c) Ölülər eşidirlər, lakin eşitmək onların durumuna fayda vermir.**

Əhli-sünnənin tanınmış simalarından olan İbn Abidin qeyd edir ki, bu ayələrdə kafirlərin ölülərə bənzədilməsinin səbəbi ölülərin səs eşidə bilməməsi yox, eşitməyin onlara fayda verməməsidir.

Əhli-sünnənin böyük alimlərindən hesab edilən İbn Həcər yazır ki, nəzərdə tutulan məna onların eşitməməsi deyil, eşitdiklərinin onlara bir fayda verməməsidir:

"(Aişənin) Allah-taalanın "Sən ölülərə eşitdirə bilməzsən" ayəsini dəlil gətirməsinə gəlincə, *(alimlər bunun haqqında belə)* demişlər: "Onun mənası – sən onlara fayda verə biləcək bir şey eşitdirə bilməzsən, ya da yalnız Allah istədiyi halda sən onlara söz çatdıra bilərsən, deməkdir".[2]

**ç) Ölülər eşidirlər, lakin Peyğəmbərin (s) göstəriş və qadağalarından faydalana bilmirlər.**

Vəhhabi ideologiyasının başçılarından olan İbn Teymiyyə yazır ki, bu ayələrdə eşitmək dedikdə mütləq eşitmək deyil, ardınca itaət olan

---

[1] Ənfal surəsi ,17-ci ayə
[2] İbn Həcər əl-Əsqəlani əş-Şafei, Fəthül-bari şərh Səhihil-Buxari, c.3, səh.234

eşitmək nəzərdə tutulur,. Buna görə də bu, ölülərin eşitməsini inkar edənlər üçün dəlil sayılmır:

“Sən ölülərə eşitdirə bilməzsən” deyilərkən çağırışa cavab vermək və ya hər hansı bir göstərişə tabe olmaqla müşayiət olunan eşitmə nəzərdə tutulur. Allah-taala kafiri ölü kimi çağıranın çağırışına cavab verməyən, heyvan kimi səsi eşidən, lakin mənanı başa düşməyən etmişdir. Ölü səsi eşidib mənanı başa düşsə də, çağıranın çağırışına cavab verə, ona əmr və ya qadağan olunan şeyi yerinə yetirə bilmir. Buna görə də əmr və ya qadağadan faydalana bilmir. Kafir də belədir; o da səsi eşidib mənanı başa düşsə də, əmr və ya qadağadan faydalana bilmir. Allah-taala bu barədə buyurur: “Əgər Allah onlarda bir xeyir bilsəydi, onlara eşitdirərdi” (ənfal surəsi, 23-cü ayə). Ölünün görməsinə gəlincə isə bu barədə Aişədən və başqalarından xəbərlər nəql olunmuşdur”.[1]

**d) Ölülərin bəzisi eşitmir, bəzisi isə eşidir.**

İbn Qüteybə bu iki ayənin bütün ölülərə şamil edilmədiyini yazır. O qeyd edir ki, burada “ölülər” dedikdə ölülər kimi olan cahil və k-afirlər nəzərdə tutulur:

“Allah-taalanın “Sən ölülərə eşitdirə bilməzsən”, “Sən qəbirlərdə olana eşitdirən deyilsən” kəlamına gəlincə, burada *(ölülərin eşitmədiyini iddia edənlər üçün)* bir dəlil yoxdur. Çünki burada cahillər nəzərdə tutulmuşdur. Onlar həm də qəbir əhlidir. Allah-taala demək istəyir ki, sən Allahın nadan etdiyi şəxsi anlada biləcək gücdə deyilsən və Allah-taalanın hidayətə qarşı kar etdiyi şəxsə sənin eşitdirmək qüdrətin çatmır.

Bu ayələrin əvvəlki konteksti bizim dediklərimizi sübuta yetirir. Çünki əvvəldə deyilir ki, “korla görən eyni deyildir” *(fatir surəsi, 19-cu ayə)*. “Kor” deyilərkən kafir, “görən” deyilərkən mömin nəzərdə tutulmuşdur.

“Zülmətlə nur da!” (fatir surəsi, 20-ci ayə) ayəsində “zülmət” deyilərkən küfr, “nur” deyilərkən iman nəzərdə tutulmuşdur.

---

[1] İbn Teymiyyə əl-Hərrani əl-Hənbəli , Kutubu və rəsailu və fətava Şeyxil-İslam İbn Teymiyyə, c.24, səh.363-364

"Kölgə ilə isti də!" (fatir surəsi, 21-ci ayə) ayəsində "kölgə" deyilərkən Cənnət, "isti" deyilərkən Cəhənnəm nəzərdə tutulmuşdur

"Dirilərlə ölülər də eyni deyillər!" (fatir surəsi, 22-ci ayə) ayəsində "dirilər" deyilərkən ağıllılar, "ölülər" deyilərkən isə nadanlar nəzərdə tutulmuşdur."

Sonra yazır: "Allah istədiyi kəsə eşitdirər. Sən isə əsla qəbir əhlini eşitdirə bilməzsən". Yəni sən qəbirlərdəki ölülərtək olan cahillərə eşitdirə bilməzsən. Bunun oxşarı Quranda çoxdur. Allah cahillər üçün misal kimi çəkdiyi "ölülər" ifadəsi ilə Bədr şəhidlərini nəzərdə tutmayıb. Onları bizə dəlil göstərir, onlar Allah dərgahında, elə Özü dediyi kimi, diridirlər".[1]

Ölülər eşitmək iqtidarında olmaqla yanaşı, həm də dirilərə cavab verir.

## Quran və ölənlərlə söhbət

Quran ayələrində dünyasını dəyişmiş insanlarla söhbət edilməsi açıq şəkildə qeyd edilmişdir:

### a) Saleh (peyğəmbər ə.) öz qövmünün ruhları ilə danışır

Sonra o dəvəni tutub kəsdilər və Rəblərinin əmrindən çıxaraq: "Ey Saleh! Əgər sən peyğəmbərlərdənsənsə, bizə qorxu gəldiyini gətir!" – dedilər.

Nəticədə, onları lərzəyə gələn yer ağuşuna aldı. Sübh vaxtı evlərində yalnız cansız bədənləri qalmışdı.

(Saleh) onlardan üz çevirib dedi: "Ey xalqım! Mən sizə Rəbbimin əmrini çatdırdım və xeyirxahlıq şərtinə əməl etdim. Lakin siz xeyirxahları sevmirsiniz!"[2]

Birinci ayədə qövmünün diri olarkən Saleh (ə) peyğəmbərdən ilahi əzab istədiyi xəbər verilir. İkinci ayədə ilahi əzab nəticəsində onların məhv olduğu bildirilir. Üçüncü ayədə isə onların ölümündən sonra

[1] İbn Qüteybə əd-Dinəvəri, Təvilu muxtələfil-hədis, c.1, səh.152
[2] Əraf surəsi, 77-79-cu ayələr

Saleh (ə) peyğəmbərin ölənlərlə söhbətindən xəbər verilir. Həzrət Salehin (ə) ölülərlə danışmasına iki əsas sübut var:

1. Ayələr ardıcıllıqla nəql olunub.

2. Həzrət Saleh (ə) ilahi əzabdan sonra onlardan üz döndərib demişdir:

"Mən sizə Rəbbimin əmrini təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz nəsihət verənləri sevmirsiniz".

Quran Saleh peyğəmbərin (ə) ümməti ilə ciddi söhbət etdiyini təsdiq edir. Onlar həddən artıq inadkar olduqları üçün məhv olduqdan sonra da Saleh peybəmbər (ə) onlara öz ailələrini xatırladır: Siz nəsihət verənləri sevmirsiniz.

**b) Şüeyb (ə)ölənlərin ruhları ilə danışır**

Qövmünün kafir olmuş nüfuzlu əyanları dedilər: "Əgər Şüeybin ardınca getsəniz, siz də ziyana uğramış olacaqsınız!"

Elə bu zaman onları silkələnən yer öz ağuşuna aldı və onlar sübh vaxtı öz evlərində cansız cəsədlər şəklində düşüb qalmışdılar.

Şüeybi (ə) yalançı adlandıranlar (elə məhv oldular ki), sanki orada heç yaşamamışdılar. Şüeybi (ə) təkzib edənlərin özləri ziyana uğrayanlar oldular.

Sonra onlardan üz döndərib dedi: "Ey xalqım! Mən sizə Rəbbimin ismarışlarını çatdırdım və sizin xeyrinizi istədim. İndi imansız qövmün halına necə təəssüflənim?"[1]

**c) İslam peyğəmbəri Həzrət Məhəmməd (s) peyğəmbərlərin ruhları ilə danışır.**

"Səndən əvvəl göndərdiyimiz elçilərdən soruş: Biz mərhəmətli Allahdan başqa ibadət üçün məbudlarmı təyin etdik?"[2]

Qeyd olunan ayədən belə məlum olur ki, Peyğəmbər (s) bu dünyada olduğu halda, başqa bir aləmdə (Axirətdə) yaşayan peyğəmbərlərdən əsrlər boyu Allahın göstərişinin nədən ibarət olduğunu soruşa bilər.

---

[1] Əraf surəsi, 90-93-cü ayələr

[2] Zuxruf surəsi, 45-ci ayə

Əhli-sünnə alimlərinin bu ayənin təfsiri ilə bağlı yazdıqlarından aydın olur ki, dünyasını dəyişmiş peyğəmbərlər səsi duyur və cavab verə bilirlər.

Əhli-sünnə imamlarından olan Qurtubi öz təfsirində Merac gecəsi Allahın Rəsulunun (s) peyğəmbərlərə sual verməsi və onların da cavablandırması ilə bağlı hədislər nəql etmiş, hədisləri nəql etdikdən sonra bu təfsiri səhih hesab etdiyini bildirmişdir:

İbn Abbas və İbn Zeyd demişdir: "Allahın Rəsulu (s) Məscidül-həramdan Beytül-müqəddəs məscidi olan Məscidül-əqsaya aparıldığı zaman Allah Adəmi və dünyaya gələn bütün peyğəmbərləri onun yanına göndərdi (yaxud: Adəmi və dünyaya gələn bütün peyğəmbərləri onun üçün diriltdi). Cəbrail də peyğəmbərlə (s) birlikdə idi. Cəbrail azan verdi, sonra namaz təşkil etdi. Cəbrail dedi: "Ya Məhəmməd, onlara namaz qıldır". Allahın Rəsulu namazı qılıb bitirdikdən sonra Cəbrail ona dedi: "Ey Məhəmməd, səndən qabaq göndərdiyimiz peyğəmbərlərdən soruş (gör) heç Biz Rəhman Allahdan başqa ibadət edilən məbudlar təyin etmişik?!" Allahın Rəsulu (s) buyurdu: "Soruşmuram, çünki ehtiyac yoxdur". İbn Abbas dedi: "Onlar yetmiş nəfər peyğəmbər idi; İbrahim, Musa və İsa da (ə) onların arasında idi. Peyğəmbər onlara sual vermədi, çünki özü onlardan daha bilikli idi."

Səid ibn Cübeyr Allah-taalanın "səndən qabaq göndərdiyimiz peyğəmbərlərdən soruş" kəlamı barədə demişdir: "(Peyğəmbər meraca) aparıldığı gecə peyğəmbərlərlə görüşdü".

Əl-Vəlid ibn Müslüm Allah-taalanın "səndən qabaq göndərdiyimiz peyğəmbərlərdən soruş" kəlamı barədə demişdir: "Bu barədə Vəlid ibn Dələcə sual verdim, o da mənə Qətadədən hədis danışdı. Qətadə demişdir: "Peyğəmbər ayədə qeyd olunan sualı meraca aparılan gecə peyğəmbərlərdən soruşub. Allahın Rəsulu (o gecə) peyğəmbərlərlə, həmçinin Adəm və Cəhənnəm mühafizəçisi (gözətçisi) olan Maliklə görüşüb"..

Mənə görə, bu ayənin təfsiri ilə bağlı ən doğru nəzər məhz budur.[1]

[1] Məhəmməd ibn Əhməd əl-Qurtubi, Əl-Came li-əhkamil-Quran, c.16, səh.94-95

Digər alimlər də İslam peyğəmbərinin (s) keçmiş peyğəmbərlərlə merac gecəsi görüşməsi və onlara sual verməsi ilə bağlı hədisi nəql etmişlər.[1]

**d) Allahın Rəsulunun (s) Musa peyğəmbərlə (ə) görüşməsi**

(Şübhəsiz, Biz Musaya kitab verdik, belə isə (sən) onunla görüş barəsində şəkk və şübhədə olma. Biz onu İsrail övladları üçün doğru yol göstərən bir vasitə etdik.)[2]

Allah-taala Peyğəmbərə (s) Musa peyğəmbərlə (ə) görüşmə vədi vermişdir. Əhli-sünnənin böyük təfsir alimləri bildirirlər ki, bu görüş Musa peyğəmbər (ə) dünyasını dəyişdikdən sonra dünyada baş vermişdir. Deməli, Həzrət Musanın (ə) ölümdən sonra da həyatı vardır ki, Peyğəmbər (s) onunla görüşüb, söhbət edə bilirmiş.

Buxari öz "Səhih"ində yazır ki, Allahın Rəsulunun (s) Musa, həmçinin İsa peyğəmbərlə (ə) görüşməsi Merac gecəsində baş vermişdir:

**e) Quran bəzi yerlərdə peyğəmbərlərə salam göndərir. Bu salamlar heç vaxt yalan, quru və mənasız olmayıb.**

Quranın ali və uca məfhumunu mənasız adlandırmaq insafdan çox-çox uzaqdır. Düzdür, müasir dövrdə materialistlər ruh və həyatı əsassız bir düşüncə bilirlər, amma öz nitqlərində və söhbətlərində materializmin banilərinə və rəhbərlərinə alqışlar və salamlar göndərirlər.

---

[1] Əhməd ibn Məhəmməd ən-Nəhhas əl-Muradi əl-Misri, Məanil-Quranil-kərim, c.6, səh.365
Əl-Hüseyn ibn Məsud əl-Bəğəvi, Təfsiri-Bəğəvi, c.4, səh.141
Mahmud ibn Əmr əz-Zəməxşəri əl-Xarəzmi, Əl-Kəşşafu ən həqaiqit-tənzili və uyunil-əqavili fi vucuhit-təvil, c.4, səh.258
İbn əl-Cövzi əl-Hənbəli, Zaddul-məsir fi elmit-təfsir, c.7, səh.319; Fəxrəddin ər-Razi əş-Şafei, Ət-Təfsirul-kəbir əu Məfatihul-ğeyb, c.27, səh.185; Əbdürrəhman ibn Məhəmməd əs-Səalibi, Əl-Cəvahirul-hisan fi təfsiril-Quran, c.8, səh.94; Cəlaləddin Süyuti, Əl-İtqan fi ulumil-Quran, c.1, səh.63; Cəlaləddin Süyuti, Əd-Durrul-mənsur", c.7, səh.381; Əli ibn Bürhanəddin əl-Hələbi, Əs-Sirətül-Hələbiyyə fi sirətil-əminil-məmun, c.2, səh.82
Məhəmməd ibn Əli əş-Şövkani, Fəthül-qədir əl-camiu beynə fənnəy ər-rivayəti vəd-dirayəti min ilmit-təfsir, c.4, səh.557; Şihabəddin əl-Alusi əl-Bağdadi, Ruhul-məani fi təfsiril-Quranil-əzim vəs-səbil-məsani, c.21, səh.137-138
[2] Səcdə surəsi, 23-cü ayə

Dediyimiz kimi, müsəlmanların gecə-gündüz oxuduqları Quranın mənası və məfhumu əsassız ola bilməz.

1. Bütün aləmlər içərisində Nuha salam olsun.
2. İbrahiməsalamolsun.
3. MusayavəHarunasalamolsun.
4. Ali-Yasinə salam olsun.
5. Peyğəmbərlərə salam olsun.[1]

**Qeyd:** Namazada Peyğəmbərə salam vermək.[2]

Bütün dünya müsəlmanları gecə-gündüz namazın sonunda Peyğəmbərə xitab edərək ona salam göndərirlər:

"Əs-salamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh."

(Salam olsun Sənə, ey Peyğəmbər! Allahın rəhməti və bərəkəti olsun Sənə.)

Şafei məzhəbinin alimləri bu salamı vacib, başqa məzhəb alimləri isə müstəhəb bilirlər. Lakin onların hamısı Peyğəmbərin müsəlmanlara belə göstəriş verdiyinə inanırlar.[3] Peyğəmbərin sünnəsi onun sağlığında və vəfatından sonra da əbədi olaraq qalır.

Əgər, həqiqətən, bizim Peyğəmbərlə olan əlaqəmiz kəsilibsə, onda belə bir salam verilməsinin nə mənası ola bilər?

Bu həqiqət öz əksini hədislərdə də tapır:

**Peyğəmbərin (s) Bədrdə öldürülənlərlə danışması**

Buxari "Səhih"inin üç yerində Peyğəmbərin (s) Bədrdə öldürülənlərlə danışdığını qeyd etmişdir. Bu hədislərdə Ömər ibn əl-Xəttabın ona etiraz etdiyi bildirilir:

"Əbu Təlhə deyir: Peyğəmbər (s) Bədr günü göstəriş verdi ki, Qüreyşin cəsur kəslərindən (və ya böyüklərindən) olan iyirmi dörd nəfəri çirklənmiş (və qurumuş) quyulardan birinə atılsınlar. Peyğəmbər (s) bir

---

[1] Saffat surəsi, 79, 109, 120, 130 və 181-ci ayələr

[2] Namazın sonuncu rükətində səcdələr və təşəhhüddən sonra namazı qurtarmaq üçün deyilən zikrlər (salamlar).

[3] Təzkirətül-füqəha, c.1. "Xilaf" kitabında bu salam Ömər ibn Xəttabdan və Abdullah ibn Məsuddan nəql olunmuşdur, əhli- sünnə alimlərindən Əbuhənifə, Malik və Şafei bunun əsasında fətva vermişlər.

qövmün üzərində qələbə qazandıqda, adətən, üç gün döyüş ərazisində qalardı. Bədrdə üç gün qaldıqdan sonra üçüncü gün əmr etdi ki, dəvəsini hazırlasınlar. Dəvəni yəhərlədilər. Sonra Peyğəmbər (s) yola düşdü, səhabələr də ardınca getdilər. Onlar (bir-birinə) deyirdilər: "Yəqin ki hansısa bir ehtiyacı üçün gedir." Nəhayət, gəlib quyunun kənarında durdu. Onları (yəni öldürülən kafirləri) öz adları, atalarının adları ilə çağırmağa başladı: "Ey filankəsin oğlu filankəs, ey filankəsin oğlu filankəs, (indi) Allah və Onun Rəsuluna itaət etmiş olsaydınız, sevinərdinizmi? Mən artıq Rəbbimizin bizə vəd etdiyinin haqq olduğunu tapmışam. Siz də Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu tapmısınızmı?" Ömər dedi: "Ya Rəsuləllah! Ruhu olmayan cəsədlərlə niyə danışırsan?" Allahın Rəsulu (s) buyurdu: "Məhəmmədin canı əlində olana and olsun, mənim söylədiyimi onlardan yaxşı eşidən deyilsiniz".[1]

Buradan aydın olur ki, Peyğəmbər (s) Bədrdə öldürülənlərlə söhbət etmiş, Ömər ona etiraz etmiş və Peyğəmbər də (s) cavab vermişdir ki, onlar sizdən daha yaxşı eşidirlər. Bu rəvayət ölülərin eşitdiyini sübuta yetirir. Əhli-sünnə alimləri ölülərin eşitməsi məsələsində bu hədisə istinad etmişlər.

Hətta vəhhabilərin imamı Məhəmməd ibn Əbdülvəhhab da bu hədisi ölülərin eşitməsi məsələsinə sübut gətirmişdir:

"Əhməd və başqaları Əbusəiddən Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişlər: "Həqiqətən, ölü ona qüsl verəni, götürəni, kəfənləyəni və qəbrə qoyanı tanıyır".

Əbu Nüeym və başqaları Əmr ibn Dinarın belə dediyini nəql etmişlər: "Hər bir şəxs öləndə onun ruhu ölüm mələyinin əlində ikən cəsədinə nəzər salar, özünə necə qüsl verildiyini, necə kəfənləndiyini və necə aparıldığını görər. O, yatağında ikən ona "camaatın sənə dediyi təriflərə qulaq as", – deyilər".

[1] Məhəmməd ibn İsmail əl-Buxari, Əs-Səhih, c.4, səh.1461, hədis- 3757
Müslüm Nişaburi də öz "Səhih"ində (c.4, hədis-2202, 2203, 2874.) Peyğəmbərin (s) Bədrdə öldürülənlərlə danışması, Ömərin ona etirazı və Rəsuləllahın: "onlar sizdən də yaxşı eşidirlər", – deyə cavab verdiyini qeyd etmişdir.

İbn Əbüddünya bir qrup tabeindən bu hədisin məzmununu nəql etmişdir.

**Allah, Onun Peyğəmbəri və möminlər dirilərin əməllərini görürlər:**

(De: "İstədiyinizi edin ki, tezliklə əməlinizi Allah, Onun Peyğəmbəri və möminlər görəcəklər və tezliklə gizlini və aşkarı bilənə tərəf qaytarılacaqsınız. Beləliklə, O sizi etdiklərinizdən xəbərdar edəcəkdir.")[1]

Bu ayədə Allah-taala buyurur ki, Peyğəmbər və möminlər bizim əməllərimizi görürlər. Bu da onu göstərir ki, Peyğəmbərin ölümdən sonra həyatı vardır və o, bizim əməllərimizi görə bilir.

Hədislərdə bu məsələ daha aydın şəkildə izah edilmişdir:

**Birinci rəvayət:**

**Peyğəmbər (s) bəndələrin əməllərini görür**

Böyük əhli-sünnə alimi Heysəmi Peyğəmbərin (s) ölümündən sonra da ümmətin əməllərinin ona göstərilməsi hədisini nəql etmiş və onun səhih olduğunu bildirmişdir:

Abdullah ibn Məsud Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir: "Həqiqətən, Allahın (yer üzərində) səyahət edən mələkləri vardır, onlar (mənə) ümmətimdən salam çatdırarlar. Mənim həyatım sizin üçün xeyirlidir; (siz mənimlə) danışırsınız və sizin üçün danışılır (mən də sizinlə danışıram). Vəfatım da sizin üçün xeyirlidir, əməlləriniz mənə göstərilər, orada bir xeyir görsəm, buna görə Allaha həmd edərəm, pis bir şey görsəm, sizin üçün bağışlanma dilərəm.[2] ("Vəfatından sonra Peyğəmbərin etdiyi istiğfarın ümmətə xeyri" babı)

Əl-Bəzzar bu hədisin ravilərinin "Əs-Səhih"in raviləri olduğunu yazmışdır.

[1] Tövbə surəsi, 105-ci ayə

[2] Nurəddin əl-Heysəmi, Məcməüz-zəvaid və mənbəul-fəvaid, c.9, səh.24

**İkinci rəvayət:**

**Möminlər də öldükdən sonra insanların əməllərini görürlər, onların həyatı vardır və onlar səsləri eşidirlər.**

Əhli-sünnə alimi Əhməd ibn Hənbəl öz "Müsnəd"ində Peyğəmbərə (s) istinad edilən bir rəvayətdə insanların əməllərinin dünyasını dəyişmiş yaxınlarına göstərildiyini qeyd etmişdir.

Ənəs ibn Malik yazır: "Peyğəmbər (s) buyurmuşdur: "Heç şübhəsiz ki, əməlləriniz ölmüş yaxınlarınıza (qohumlarınıza) göstərilir; əgər yaxşı olsa, buna sevinirlər, əgər başqa bir şey (yəni şər) olsa, deyərlər: "İlahi, bizi hidayət etdiyin kimi, onları da hidayət etmədən öldürmə".[1]

Əhli-sünnənin digər böyük alimləri də bu hədisi nəql etmişlər.[2]

Əbudavud "Əz-Zühd" kitabında bütün raviləri etibarlı hesab edilən başqa bir hədis nəql etmişdir. Orada bildirilir ki, insanların əməlləri dünyasını dəyişmiş qohum-əqrəbalarına təqdim edilir. Onlar da saleh əməllərdən şad, pis əməllərdən isə məyus olurlar:

Əbudərda demişdir: "Agah olun, əməlləriniz qohumlarınıza göstərilir, onlar da (bu əməllərə görə) ya məyus olur, ya da sevinirlər. Buna görə də Abdullah ibn Rəvahənin başını aşağı edəcək bir əməl görməkdən Allaha sığınıram". (Abdullah ana tərəfdən Əbudərdanın qardaşı idi.)[3]

Hakimin "Müstədrək"də qeyd etdiyi başqa bir rəvayətdə də bizim əməllərimizin qəbir əhlinə təqdim edildiyi bildirilir. Hədisin ardınca Hakim onun səhih olduğunu qeyd etmişdir:

"Ən-Noman ibn Bəşirin minbərdən belə dediyini eşitdim: Allahın Rəsulunun belə buyurduğunu eşitdim: "Agah olun, doğrusu, dünyadan (dünyanın ömründən) yalnız ora-bura hərəkət edən milçək qədəri qalıbdır. Elə isə siz Allah, siz Allah, qəbir əhlindən olan qardaşlarınızdan muğayat olun, çünki əməlləriniz onlara göstərilir".[4]

---

[1] Əhməd ibn Hənbəl, Müsnəd, c.3, səh.164, hədis-12706

[2] İbn Kəsir Diməşqi, Təfsirul-Quranil-Əzim, c.2, səh.388; Süleyman ibn Əhməd Təbərani, Mucəmül-kəbir, c.4, səh.129; Nurəddin Heysəmi, Məcməüz-zəvaid və mənbəul-fəvaid, c.3, səh.328; Cəlaləddin Süyuti, Fəthul-kəbir fi zəmmiz-ziyadəti iləl-cameis-səğir, c.1, səh.272; İbn Həcər əl-Heysəmi, Fətava əl-kübra əl-fiqhiyyə, c.2, səh.29; Müttəqi Hindi, Kənzül-ummal fi sunənil-əqvali vəl-əfal, c.15, səh.326

[3] Əbudavud Sicistani, Əz-Zühd li-Əbi Davud, c.1, səh.227; Əbubəkr Bağdadi, Mənamat, c.1, səh.9

[4] Hakim Nisaburi, Müstədrək ələs-səhiheyn, c.4, səh.342

**Peyğəmbərin (s) ölülərə salam verməsi**

Peyğəmbərin ölüləri ziyarət etməsi, məzarlıqda onlara salam verməsi ölülərin eşitmə qabiliyyətinə malik olduğunu göstərir. Xüsusilə də bir rəvayətdə Peyğəmbər (s) onlara "siz" şəxs əvəzliyi ilə müraciət etmişdir. Əgər onlar eşidə bilməsəydilər, belə bir iş puç və mənasız sayılardı:

"Əbuhüreyrə demişdir: Peyğəmbər (s) qəbiristanlığa gedib dedi: "Salam olsun sizə mömin insanların diyarı(nın əhalisi). Biz də, Allah qoysa, sizə qoşulacağıq".[1]

**İbn Teymiyyə**

İbn Teymiyyə etiraf edir ki, Peyğəmbər (s) ölülərə salam verməyi tapşırmışdır:

"Hər iki "Səhih" kitabında müxtəlif yollarla nəql olunmuşdur ki, Peyğəmbər qəbir əhlinə bu şəkildə salam verməyi əmr edərmiş: "Salam olsun sizə, ey (bu) diyarın əhalisi, ey mömin və müsəlmanlar diyarının sakinləri! Biz də, Allah qoysa, sizə qoşulacağıq. Allah bizdən qabaqkılara və sonra gələnlərə rəhmət etsin. Allahdan özümüz və sizin üçün salamatlıq diləyirik. İlahi, bizi onların mükafatından məhrum etmə, bizi onlardan sonra fitnəyə düçar etmə, bizi və onları bağışla!" Bu xitab ölülərə ünvanlanmışdır və yalnız eşidən adamlara xitab edilər".[2]

**Ölülər məzarlarının kənarındakı diri şəxsləri görürlər.**

Əhməd ibn Hənbəl "Müsnəd"ində yazır ki, Aişə Ömərin qəbrin daxilindən gördüyünə inanırmış.

"Aişə deyirdi: "İçində Allahın Rəsulu (s) və atamın dəfn olunduğu evimə daxil olur və libasımı *(hicabımı)* kənara qoyurdum. Öz-özümə "dəfn olunanlar mənim ərim və atamdır *(burada yalnız mənə məhrəm olanlar vardır)*", – deyirdim. Ancaq Ömər də onlarla birlikdə dəfn olunduqdan

---

[1] Müslüm ibn əl-Həccac ən-Nisaburi, Əs-Səhih, c.1, səh.218, h.249

[2] İbn Teymiyyə əl-Hərrani əl-Hənbəli, Kutubu və rəsailu və fətava Şeyxil-islam İbn Teymiyyə, c.24, səh.363

sonra, Allah haqqı, Ömərdən həya etdiyimə görə *(bundan sonra oraya)* yalnız örtülmüş, üzərimdə libas olan halda daxil oldum”.[1]

Hakim Nişaburi də “Müstədrək” kitabında bu rəvayəti nəql edərək onun səhih olduğunu bildirmişdir:

“Bu hədis iki şeyxin şərtinə görə səhihdir, lakin onlar bu hədisi nəql etməyiblər”.[2]

Heysəmi də bu rəvayəti nəql edərək bildirir ki, onun bütün raviləri “Səhihi-Buxari”nin raviləridir:

“Onu Əhməd rəvayət etmişdir və raviləri “Səhih”in raviləridir”.[3]

Deməli, bu rəvayətlərə əsasən, Aişə belə düşünürmüş ki, Ömər ölmüş olduğuna və dəfn olunmasına baxmayaraq, qəbrin içərisindən onu görür. Buna görə də məcbur qalaraq, qəbrin yanına hicabla gedirmiş.

**Dirilərin salamına ölülərin cavab verməsi**

Ölülər qəbirdən məzarlarının kənarında onlara salam verən kəsləri görür və salamın cavabını qaytarırlar:

“İbn Abbas Peyğəmbərdən (s) belə nəql etmişdir: “Kim dünyada tanıdığı mömin qardaşının məzarının kənarından keçərək ona salam verərsə, (ölü) onu (qəbrin içindən) tanıyar və salamının cavabını qaytarar”.[4]

“Səhihi-Buxari”nin şərhçisi Bədrəddin əl-Əyni rəvayətin sənədinin səhih olduğunu yazmışdır:

“İbn Əbdülbərr səhih sənədlə belə nəql etmişdir: “Kim dünyada tanıdığı mömin qardaşının məzarının kənarından keçərək ona salam verərsə, *(ölü)* onu *(qəbrin içindən )* tanıyar və salamının cavabını qaytarar”. Ət-Tirmizi Büreydənin hədisini nəql etdikdən sonra demişdir: “Elm əhli bu hədisə əməl edərək qəbir ziyarətində pis bir şey görmür *(onu icazəli hesab edir)*. İbn əl-Mübarək, Əş-Şafei, Əhməd ibn Hənbəl və İshaqın qənaəti də məhz belədir”.[5]

---

[1] Əhməd ibn Hənbəl, Əl-Müsnəd, c.6, səh.202, hədis-25701
[2] Əl-Hakim ən-Nisaburi, Əl-Müstədrək ələs-səhiheyn, c.3, səh.63
[3] Nurəddin əl-Heysəmi, Məcməüz-zəvaid və mənəbul-fəvaid, c.8, səh.26
[4] İbn Əbdül-Bərr əl-Maliki, Əl-İstizkar, c.1, səh.185
[5] Bədrəddin əl-Əyni əl-Hənəfi, Umdətul-qari şərh səhihil-Buxari, c.8, səh.69

İbn Teymiyyə yazır ki, Peyğəmbərə (s) istinad edilən bu rəvayət sübuta yetib və səhihdir:

"Heç şübhə yoxdur ki, ölülər başmaqların taqqıltısını eşidirlər. Bu, Allahın Rəsulundan nəql olunan hədislə sübuta yetmişdir: "Əgər bir şəxs sağlığında tandığı bir şəxsin qəbrinin yanından keçərkən həmin şəxsə salam versə, Allah salamın cavabını qaytarsın deyə, həmin şəxsin ruhunu ona qaytarar". Peyğəmbərdən *(nəql olunan)* bu *(hədis)* səhihdir, bundan başqa hədislər də vardır".[1]

**Peyğəmbərin (s) qəbirdə Həzrət İsanın (ə) salamına cavab verməsi**

Əbuyəla əl-Mosuli öz əsərində Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir: "İsa endiyi zaman mənim qəbrimin kənarında durub məni çağıracaq, mən də ona cavab verəcəyəm".

"Əbuhüreyrə deyir: "Allahın Rəsulunun (s) belə dediyini eşitdim: "Əbülqasimin canı əlində olana and olsun ki, İsa ibn Məryəm insaflı imam və ədalətli bir hakim kimi yerə enəcək. O, xaçı sındıracaq, donuzu öldürəcək, düşmənçiliyi islah edcək, kin-küdurəti aradan qaldıracaqdır. Ona mal-dövlət təqdim edilsə də, o bunu qəbul etməyəcək. Sonra məzarımın başında durub: "Ya Məhəmməd!" – deyəcək, mən də ona cavab verəcəyəm".

Hədisin sənədi mötəbərdir. Onun bütün raviləri Buxari və Müslümün raviləridir. Bircə Əbusəxr Həmid istisnadır ki, o da təkcə Müslümün ravilərindəndir. Kim Müslüm və Buxarinin ravilərindəndirsə, əhli-sünnənin nəzərində siqədir (etibarlıdır). Həmçinin, əhli-sünnə Buxari və Müslümün rəvayətlərini səhih bilir və onlar barəsində şübhəni düzgün hesab etmirlər.

Əs-Salehi əş-Şami Peyğəmbərin (s) Həzrət İsanın (ə) salamının cavabını verəcəyi ilə bağlı bir hədis nəql etmiş, ardınca hədisin sənədinin səhih olduğunu bildirmişdir:

"Məhəmməd ibn Yəhya ibn Əbu Ömər – siqə ravilərlə – Əbuhüreyrəyə istinadən Allahın Rəsulunun belə buyurduğunu yazmışdır:

---

[1] İbn Teymiyyə əl-Hərrani əl-Hənbəli, Kutubu və rəsailu və fətava Şeyxil-islam İbn Teymiyyə, c.24, səh.173; Qaidətun cəlilə fit-təvəssüli vəl-vəsilə, c.1, səh.150; Ər-Rəddü ələl-əxnai və istihbabu ziyarəti xeyril-bəriyyə, c.1, səh.88; Minhacüs-sünnətin-nəbəviyyə, c.2, səh.442

"Həqiqətən, İsa ibn Məryəm həccə və ya ümrəyə gedərkən Mədinədən keçəcək, mənə salam verdiyi zaman onun salamının cavabını verəcəyəm".[1]

Deməli, bu rəvayət sübut edir ki, Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra da başqalarının səslərini eşidir, habelə cavab verə bilir.

Onu da qeyd etməliyik ki, salam vermək təkcə Həzrət İsaya (ə) məxsus deyil. Belə ki səhabə və tabein də Peyğəmbərin (s) qəbri üzərinə gələrək ona salam vermişdir. Əbu Əyyub Ənsarinin rəvayəti bunu təsdiq edir.

**Allahın Rəsulunun (s) Ühüd şəhidlərini ziyarət etmək göstərişi verməsi və o Həzrətin onların salamının cavabını alarkən söylədiyi söz**

Əhli-sünnənin böyük alimlərindən olan Vaqidi bu rəvayəti "Əl-Məğazi" kitabında qeyd etmişdir:

"Allahın Rəsulu (s) Musəb ibn Ümeyrin (qəbrinin) yanından keçirdi, onun başı üzərində durdu, dua etdi və (belə) dedi: "...Allahla bağladıqları əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (əhdlərini) əsla dəyişdirməyiblər". Şəhadət verirəm ki, Qiyamət günü bunlar Allah dərgahında şəhiddirlər. Onların yanına gəlin, onları ziyarət edin, onlara salam verin, canım əlində olana and olsun ki, Qiyamətədək biri onlara salam verdikdə onlar salamın cavabını qaytararlar".

Əbusəid əl-Xudri Həmzənin qəbri başında durar, dua edər və onunla birlikdə olana deyərdi: "Onlara salam verən elə bir kəs yoxdur ki, salamının cavabını qaytarmasınlar. Buna görə də onlara salam verməyi və onları ziyarət etməyi tərk etməyin."

İbn Əbu Əhmədin xidmətçisi Əbu Süfyan nəql edir ki, o, Məhəmməd ibn Məsləmə və Sələmət ibn Sələmə ibn Vəqş ilə birlikdə hər ay Ühüdə gedər və (müəyyən) bir qəbrə salam verərdilər".

Peyğəmbərin (s) həyat yoldaşı Ümmü Sələmə hər ay Ühüdə gedər və onlara salam verər, bütün gününü (orada) keçirərdi. Bir gün qulamı Nəbhanla birlikdə Ühüdə gəldi, ancaq qulamı salam vermədi. Ümmü

[1] Məhəmməd ibn Yusif əs-Salehi əş-Şami, Subulul-hüda vər-rəşad fi sirəti xeyril-ibad, c.12, səh.357

Sələmə dedi: "Ay yaramaz! Onlara salam vermirsən? Allaha and olsun, Qiyamətədək kim onlara salam versə, onlar onun cavabını qaytararlar".

Əbuhüreyrə onlara tez-tez baş çəkərdi. Abdullah ibn Ömər Qabəyə məntəqəsinə gedərkən Zübab ərazisinə çatdıqda şəhidlərin qəbirlərinə tərəf dönər, onlara salam verər, ardınca da Zübab yoluna qayıdar və Əl-Qabəyə tərəfə yollanardı. Onun şəhidlərin yanından keçərkən onları ziyarət etmədən getməkdən acığı gələrdi. Buna görə də yolunu dəyişib (onlara salam verməyə gedər), sonra yenidən öz yoluna qayıdardı.

Fatimə əl-Xuzaiyyə Peyğəmbərin zamanını görmüş bir qadın olmuşdur. O deyirdi: "Xatırlayıram, bir dəfə günəş qürub etdiyi vaxt şəhidlərin qəbrinin kənarındaydım, bacım da mənimlə idi. Ona dedim ki, gəl Həmzənin qəbri üstə gedib salam verək. Dedi ki, yaxşı. Biz onun məzarı üstə durub dedik: "Salam olsun sənə, ey Allahın Rəsulunun əmisi!" Bu zaman onun: "Sizə də salam və Allahın rəhməti olsun", - deyərək bizim salamımızı aldığını eşitdik. Həmin vaxt bizim yanımızda heç kəs yox idi..."[1]

Bu rəvayət sübut edir ki, çoxlu sayda səhabə və böyük əhli-sünnə alimi (məsələn, Əbusəid Xudri, İbn Əbu Əhmədin xidmətçisi Əbu Süfyan, Məhəmməd ibn Məsləmə, Sələmət ibn Sələmə ibn Vəqş, Peyğəmbərin (s) həyat yoldaşı Ümmü Sələmə, Əbuhüreyrə, Abdullah ibn Ömər, Fatimə əl-Xuzaiyə və s.) Ühüd şəhidlərinin məzarı üstə getmiş, onlara salam vermiş və salamın cavabını almışlar.

**Təlqinin müstəhəb olması və meyitin təlqini eşitməsi**

İbn Həcər Əsqəlani "Təlxisül-həbir" kitabında bu barədə yazır:

"Ət-Təbərani Əbu Əmamədən belə nəql etmişdir: "Mən ölən zaman mənimlə Allahın Rəsulunun (s) bizə ölülərimizlə necə davranmalı olduğumuzu əmr etdiyi kimi davranın. O, bizə göstəriş verərək demişdir:

---

[1] Məhəmməd ibn Ömər əl-Vaqidi, Kitabul-məğazi, c.1, səh.267-268; Əbu Nüeym əl-Əsbahani, Hilyətül-əvliya və təbəqatül-əsfiy, c.1, səh.108; İbn Əbil-Hədid əl-Mötəzili, Şərhu Nəhcil-Bəlağə, c.15, səh.25; Kəmaləddin əs-Sivasi əl-Hənəfi, Şərhu fəthil-qədir, c.3, səh.183; Cəlaləddin əs-Süyuti, Cameul-əhadis (əl-Camius-səğir və zəvaiduhu vəl-camiul-kəbir), c.1, səh.453; Müttəqi Hindi, Kənzül-ummal, c.10, səh.173

“Qardaşlarınızdan biri öldükdə (onu dəfn edin və) qəbrinin üzərindəki torpağı düzəldin (hamarlayın), biriniz məzarının başı üzərində dursun, sonra desin: “Ey filan qadının oğlu filankəs!” Ölən şəxs onun bu sözünü eşidəcək, lakin cavab verə bilməyəcək. Sonra yenə desin: “Ey filan qadının oğlu filankəs!” Bu zaman ölən şəxs qalxıb oturacaq. Sonra desin: “Ey filan qadının oğlu filankəs!” Bu zaman ölən şəxs deyəcək: “Allah sənə rəhm etsin, mənə yol göstər”. Lakin siz (bunları) başa düşməyəcəksiniz. Sonra (təqin oxuyan adam davam edərək) desin: “Dünyadan çıxarkən hansı inanc üzərə olduğunu xatırla. Sən Allahdan başqa bir tanrı olmadığına və Məhəmmədin onun bəndəsi və elçisi olduğuna şəhadət vermiş, Allahdan bir Rəbb kimi, İslamdan bir din kimi, Məhəmməddən bir peyğəmbər kimi, Qurandan da bir imam kimi razı olmuşdun.” Bu zaman Münkər və Nəkir bir-birinin əlindən tutaraq deyərlər: “Gəl gedək, təlqini ilə hər şeyi məlum olan adamın yanında nə oturmuşuq?”

Ravi deyir ki, bir nəfər soruşur: “Ey Allahın Rəsulu, birdən təlqin deyən ölən şəxsin anasını tanımasa, (onu necə çağırsın)?” Peyğəmbər buyurur: “Onu anası Həvvanın adı ilə çağırıb, “Həvvanın oğlu filankəs” – desin.”

Ziya “Əl-Əhkam” kitabında onun sənədinin qəvi (güclü) olduğunu yazmışdır. Əbdüləziz də onu “Əş-Şafi” kitabında qeyd etmişdir”.[1]

Şövkani bu rəvayəti və İbn Həcərin sözünü nəql edərək yazmışdır: “Əl-Hafiz “Ət-Təlxis”də qeyd edib ki, hədisin sənədi salehdir”.[2]

Sənani hədisin sənədinin saleh olduğunu yazmışdır.[3]

İbn Müləqqin rəvayəti qeyd etdikdən sonra yazmışdır:

“Sənədində bir problem görmürəm. Əl-Hafiz Əbu Mənsur onu “Camiudd-duaiss-səhih” kitabında qeyd etmişdir. Əbu Mənsurun hədisində “...təlqini ilə hər şeyi məlum olan adamın yanında nə oturmuşuq?...” sözündən sonra “Beləcə, Allah o iki mələk qarşısında onun

---

[1] İbn Həcər əl-Əsqəlani, Təlxisul-həbir fi əhadisir-Rafeiil-kəbir, c.2, səh.136
[2] Məhəmməd ibn Əli əş-Şövkani, Nəylül-əvtar, c.4, səh.139
[3]Məhəmməd ibn İsmail əs-Sənani, Subulul-İslam şərhu buluğil-məram min ədillətil-əhkam, c.2, səh.113

cavab verəni olar" cümləsi artırılmışdır. İmam Əhməd ibn Hənbəl meyitə təlqin oxunmasını icazəli bilmiş və bu onun xoşuna gəlmişdir".[1]

Molla Əli Qari İbn Həcərin belə qeyd etdiyini yazmışdır:

"İbn Həcər demişdir: Hədisdə dəfnin tamamlanmasından sonra meyitə təlqin oxunmasına (bu işin bəyənilən olmasına) işarə vardır. Bu təlqinin forması isə məşhurdur. Bəziləri bu işin bidət olduğunu iddia etsə də, bu bizim məzhəbimizin ən etimadlı nəzərinə əsasən sünnədir. Bu iş necə bidət ola bilər ki, onun barəsində açıq-aydın hədis mövcuddur?! Alimlərin fikir birliyinə əsasən, müstəhəb əməllər mövzusunda bu cür hədislərə əməl olunar. Üstəlik, bu hədis bir sıra təsdiqləyicilərlə dəstəklənərək "həsən" hədis səviyyəsinə yüksəlir".[2]

Əhli-sünnə alimi Nəvəvi yazır ki, alimlərin çox hissəsi dəfndən sonra meyitə təlqin oxunmasının müstəhəb olduğunu qəbul edirlər.

Təlqinin hansı formada deyilməsinə gəlincə, Şeyx Nəsr yazmışdır: "Ölünün dəfnini bitirdikdən sonra başının yanında durub belə demək lazımdır: "Ey filan ibn filan, dünyadan köçərkən hansı inanc üzrə olduğunu xatırla. Sən Allahdan başqa bir tanrı olmadığına, Məhəmmədin onun bəndəsi və elçisi olduğuna, Qiyamətin şübhəsiz baş verəcəyi və Allahın qəbirlərdə olanları dirildəcəyinə şəhadət vermişdin. De: "Allahdan Rəbb olaraq, İslamdan din olaraq, Məhəmməddən (s) peyğəmbər olaraq, Kəbədən qiblə olaraq, Qurandan imam olaraq, müsəlmanlardan da qardaş olaraq razıyam. Rəbbim Allahdır, Ondan başqa bir tanrı yoxdur, O, əzəmətli ərşin Rəbbidir". Bu, Şeyx Nəsr əl-Məqdisinin "Ət-Təhzib" kitabında qeyd etdiyi formadır. Qalanlarının qeyd etdiyi forma da bunun kimidir. Əlbəttə, bəzilərinin qeyd etdiyi formada müəyyən ixtisarlar vardır. Həmçinin, bəziləri ("ey filankəs oğlu filankəs" sözünün yerinə) "ey Allah kənizinin oğlu Allah bəndəsi" ifadəsi, bəziləri "ey Həvvanın oğlu Allah bəndəsi" ifadəsi, bəziləri "ey Allah kənizinin oğlu filankəs" ifadəsi, bəziləri də "ey Həvva oğlu filankəs" ifadəsi qeyd etmişlər."[3]

---

[1] İbn Muləqqin əş-Şafei, Əl-Bədrul-munir fi təxricil-əhadis vəl-asaril-vaqiəti fiş-şərhil-kəbir, c.5, səh.334

[2] Molla Əli əl-Qari əl-Hənəfi, Mirqatül-məfatih şərhu mişkatil-məsabi, c.1, səh.327

[3] Mühyiddin ən-Nəvəvi əş-Şafei, Əl-Əzkarul-muntəxəbə min kəlami seyyidil-əbrar, c.1, səh.129

İbn Teymiyyə də meyitin təlqininin caiz olduğunu yazmışdır. İbn Teymiyyədən soruşulur: "Böyük və ya azyaşlı insana təlqin oxumaq şəriətə uyğundur, ya yox?"

Cavab verir: "Meyitin təlqininə gəldikdə, onu Şafeinin əshabından olan bir qrup xorasanlı alim qeyd etmiş və yaxşı hesab etmişlər. Həmçinin əl-Mütəvəlli, ər-Rafei və başqaları da bunu qeyd etmişlər. Şafeinin özünə gəldikdə isə bu barədə ondan bir şey nəql olunmamışdır. Səhabələr arasında da bu işi görənlər olmuşdur. Məsələn, Əbu Ümamə əl-Bahili, Vasilə ibn əl-Əsqə və başqaları. Əhmədin əshabı arasından da bəziləri bunu müstəhəb bilmişdir. Yekun nəzər budur ki, bu iş düzgün olsa da, sünnə deyildir. Allah daha yaxşı bilər".[1]

Quran ayələri və hədislərdən də göründüyü kimi, dünyasını dəyişmiş insana ölü demək yanlışdır. Onlar diridir və bu dünyadan da xəbərdardır.

**Quran dirilər üçün göndərilmiş bir nurdur.**

Allah-taalanın istədiyi zirvəyə yüksəlməsi üçün insana ehtiyaclarını təmin edən kamil bir proqram lazımdır. Quran insanın bütün ehtiyaclarından xəbərdar olan, onların necə təmin oluna biləcəyini, xoşbəxtliyin və əsl insanlığın nədə yatdığını, yaradılış məqsədinə doğru hansı yolun seçilməli olduğunu bilən Yaradan tərəfindən göndərilmiş bir kitabdır. Bu kitab insanı Allahın onun üçün təyin etdiyi kamilliyə aparan yolun bütün qayda-qanunlarını ümumi və prinsiplər şəklində göstərən bir kitabdır. Etiqad əsasları, dinin əsas prinsipləri, əxlaq və əməli hökmlər Quranın ümumi məqsədləri sırasında yer alır. Quranın ayır-ayrı ayələrində isə bu kitab üçün konkret məqsədlər müəyyən edilmişdir:

1. Quran hidayət kitabıdır. Bu səmavi kitab insanı doğru yola yönəldən sonuncu ilahi kitabdır. "Nəhl" surəsinin 89-cu ayəsində bu həqiqət belə ifadə edilmişdir: (Biz sənə hər şeyi izah edən, müsəlmanlar üçün hidayət və mərhəmət səbəbi, habelə müjdəçi olan Kitabı nazil etdik.)

---

[1] İbn Teymiyyə əl-Hərrani əl-Hənbəli, Kutubu və rəsailu və fətava Şeyxil-İslam ibn Teymiyyə, c.24, səh.299; əl-Fətava əl-kübra lişeyxil-İslam İbn Teymiyyə, c.1, səh.289

"Bəqərə" surəsinin 2-ci ayəsində belə deyilir: (Bu, heç bir şəkk-şübhə olmayan, təqvalılara doğru yol göstərən əzəmətli bir kitabdır.)

Quran, həqiqətən, sırf hidayət kitabıdır. Elə bir hidayət ki, ona azğınlıq və zülmət yol tapa bilmir.[1] Allahın onu nazil etməkdə məqsədi insanların əbədi səadətinə gedən yolu göstərməkdir. Quran tarixi, elmi və s. kitab deyil. Əksinə, Quranın peyğəmbərlərin, keçmiş xalqların tarixini, müxtəlif elmi məsələləri qeyd etməkdə məqsədi yalnız insanı hidayət etmək, ona səadət yolunu göstərməkdir.

2. Quran nur kitabıdır. Bəzi ayələrdə Allah Quranı nura bənzətmişdir. Allah nur kitabı vasitəsi ilə insanı zülmətdən işığa çıxarır: (Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab gəldi. Allah razılığına uyğun davrananları onunla (Quranla) əmin-amanlıq yollarına yönəldər, onları öz iznilə zülmətdən işığa çıxarar və düz yola istiqamətləndirər!)[2]

Nurun ən bariz xüsusiyyəti özünün aydın olub başqalarını aydınlığa çıxarmasıdır. Allah Quranı belə bir xüsusiyyətlə xarakterizə etmişdir. Quran bütün qaranlıqlara işıq saçır, naməlumları məlum edir, müəmmalara aydınlıq gətirir.

3. Quran xoşbəxtliyə aparan kitabdır. Allah-taala "Nəhl" surəsinin 89-cu ayəsində belə buyurur: (Biz sənə hər şeyi izah edən Kitabı nazil etdik.) Cümlənin məzmunundan belə başa düşülür ki, Quran insanın haqq yola yönəlməsi üçün lazım olan hər şeyi bəyan etmişdir. Əslində, Quran riyaziyyat, coğrafiya, tarix, kimya, fizika, biologiya və sair elmləri tam əhatə edən böyük bir ensiklopediya deyil, haqq yola yönəldən hidayət kitabıdır. Quranda bu elmlərə işarələr edilibsə də, məqsəd insanı haqq yola yönəltmək və islah etməkdir. Buna görə də "hər şeyi izah edir" deyilərkən insanların haqq yola yönəlməsi və əbədi xoşbəxtliyə nail olmasında ehtiyac duyduğu hər şeyin Quranda olması nəzərdə tutulur.

4. Quranın məqsədlərindən biri insanı ağıllı, düşünən, dərk edən müdrik bir varlığa çevirməkdir. "Ənkəbut" surəsinin 43-cü ayəsində belə

---

[1] Təfsiri-mövzui, c.1, səh.183
[2] Maidə surəsi, 15-16-cı ayələr

deyilir: (Bunlar bizim insanlar üçün çəkdiyimiz məsəllərdir. Onları isə yalnız bilən adamlar dərk edər.) Ayədən də göründüyü kimi, elm də dərk üçün bir vasitə hesab edilmişdir. Elm Allah istəyən doğru dərkə, düşüncəyə xidmət etməsə, fayda verməz.

5. Quran özünü "Zikr" (xatırladan, yada salan) adlandırmışdır: (Bu, aləmlər (bütün bəşəriyyət) üçün yalnız bir xatırlatmadır.)[1]

Quranın özünü Allahı xatırlama xüsusiyyəti ilə səciyyələndirməsi onun əhatəli xüsusiyyətlərindəndir. Allaha doğru yönləndirmədə hər zaman diridir, hər yerində Allahın gözəl və uca adlarından söz açır, Onun yaranış ənənəsini vəsf edir, mələklərin, kitabların və peyğəmbərlərin xüsusiyyətlərindən danışır, Allahın hökmlərini və qanunlarını vəsf edir, qayıdışın Allaha doğru olacağını, yaranışın sonunun Allaha dönüşlə nəticələnəcəyini elan edir, xoşbəxtlik, bədbəxtlik, od və Cənnət haqqında ətraflı məlumat verir. Bütün bunlar Allahın zikridir, Allahı xatırladır, yada salır. Buna görədir ki, Qurani-Kərim özünü mütləq şəkildə "Zikr" adlandırır.

Quranın dirilər üçün nazil olması məsələsinə gəlincə isə bu, sübut tələb etməyəcək qədər aksiomdur. Quran ölüyə nazil edilməmişdir, fərqi yoxdur ki, bu ölü ya dünya həyatına malik olan ölülərdən olsun, ya da bərzəx həyatı yaşayan ölülərdən. Qurana görə əsl ölü cismi torpağa qarışmış insan deyil, cismində ruhunu öldürmüş, ruhunu heyvani, nəfsani istəklər girdabında əsir etmiş, onu həyat mənbələrindən, doğru düşüncədən məhrum etmiş insandır. Əsl diri üçün isə ölüm yoxdur, o, ölümsüzdür, həm bu dünyanın, həm o dünyanın dirisidir, cismi torpağa qarışsa da, ruhu hər iki dünya üçün diridir. Cismi torpaqlar altında çürüsə də, ruhunun bu dünyanın insanları ilə əlaqəsi kəsilməmişdir, Allah dərgahında bu dünyanın insanları üçün dua edir, təəssüflənir, arzu edir,[2] salam verib salam alır, dualarını qəbul edir, kədərlərini bölüşür. Bütün qaranlıqlara işıq saçan Quran özü və Quranı insanlara gətirən, onu öyrədən, izah edən, nurunu bəşəriyyətə yayan ilahi elçilər, hidayət-

---

[1] Ənam surəsi, 90-cı ayə

[2] Yasin surəsi, 26-27-ci ayələr: "(Nəhayət, onu şəhid etdilər,) ona: "Cənnətə daxil ol!" – deyildi. O dedi: "Kaş xalqım biləydi ki, Rəbbim məni bağışladı və məni hörmətli adamlardan etdi".

çilər bu həqiqətdən xəbərdar edir hər kəsi. Quran bu dünyada hansı insanlara fayda verirdisə, elə dünyasını dəyişmiş həmin insanlara fayda verməkdə davam edir. Bu dünyada kimə fayda vermirdisə, təbii ki, dünyasını dəyişəndən sonra da fayda verməyəcək. Peyğəmbərlərin, möminlərin, saleh bəndələrin bu dünyada etdikləri dualar kimin haqqında qəbul olurdusa, o, dünyasını dəyişəndən sonra da qəbul ediləcək.[1] Kimə dua düşmürdüsə, ona dünyasını dəyişdikdən sonra da düşməyəcək.[2]

**Dirilərin ölülər üçün oxuduğu Quranın onlara faydası varmı?**

Quranın dirilər üçün göndərilmiş bir kitab olduğunun dəlil və sübuta ehtiyacı olmayan bir aksiom olduğuna da aydınlıq gətirdik. Bu məsələdə təbii ki, heç bir problem yoxdur və ola da bilməz. Mübahisə doğuran məsələ Quran oxumağın, dua etməyin, namaz qılınması, bəzi ehsanların verilməsinin dünyasını dəyişmiş insanlara xeyir verib-verməməsi məsələsidir. Bir qrup adam bunun doğru olduğuna inanıb əməl etdiyi halda, başqa bir qrup bunun yanlış və faydasız bir iş olduğunu iddia etməkdədir.

Quranın ölüyə heç bir fayda verə bilmədiyini iddia edənlərin istinad etdiyi ayələrdən biri Quranın diri üçün olduğunu ifadə edən ayədir:

“Bu, ancaq xatırlatma və aydınlıq gətirən Qurandır ki, diri olanları qorxutsun və əzab əmri kafirlər üçün gerçəkləşsin”.[3]

Quranın ölüyə fayda verə biləcəyi inancında olmaqla bu ayə heç bir təzad təşkil etmir. Bu inanc sahiblərinin heç biri bu ayənin məzmun və məqsədini də qətiyyən inkar etmir. Sadəcə, iddiaçı heç özü də Quranın bu ayəsində “diri” deyilərkən Quran məntiqində hansı mənanın nəzərdə tutulduğunun fərqində olmamış, Quranın dili ilə desək, bu ayənin mənası qarşısında “ölü” qalmışdır. Quranda ölüm və həyat iman və küfrü simvolizə edir. Fikrimizi “Ənam” surəsinin 122-ci ayəsi də təsdiq edir. Allah-taala həmin ayədə belə buyurur: “Ölü ikən

[1] Həşr surəsi, 10-cu ayə
[2] İbrahim surəsi, 40-42-ci ayələr; İsra surəsi, 24-cü ayə; Nuh surəsi, 27-ci ayə
[3] Yasin surəsi, 70-ci ayə

diriltdiyimiz, sonra insanlar arasında gəzməsi üçün nur bəxş etdiyimiz şəxs zülmət içində qalıb oradan çıxmayan şəxs kimi ola bilərmi? Bu şəkildə etdikləri əməllər kafirlərə gözəl göstərildi."

Bu ayədə "ölüm və həyat" "küfr və iman" mənalarında işlədilmiş, əslində, ölüm və həyatın mənəvi mənası nəzərdə tutulmuşdur. Bu ifadə açıq şəkildə göstərir ki, iman quru, boş və təmtəraqlı sözlərdən ibarət bir inanc deyil. İman imansız insanların cansız bədənlərinə üfürülən, onların varlıqlarına və bütün həyatlarına təsir göstərən bir ruh kimidir. Nəzərə almaq lazımdır ki, bu ayədə nur Quran, Peyğəmbər (s) və imamların (ə) təlimləri ilə yanaşı, Allahın insana bəxş etdiyi yeni dərkə, idrak üfüqünün dünyanın maddi həyat səviyyəsindən daha yüksəklərə qaldırılmasına, daha geniş üfüqlərə yüksəldilməsinə deyilir. O, özünütanıma işığı altında eqoizm və nəfs pərdələrini ruhun gözləri önündən kənara itələyir. Nəticədə, insan daha əvvəllər görmədiyi həqiqətləri görür, öz həyat yolunda insanların nəfsani istəklərinə tabe olaraq etdiyi xətalara yol vermir, sağ-salamat məqsədə çatır. Peyğəmbər (s) hədislərinin birində belə buyurmuşdur: "Mömin Allahın nuru ilə baxır". Bu hədis də qeyd olunan həqiqəti əks etdirir. Əlbəttə, bu parlaq baxışı qələmlə, sözlə təsvir etmək qeyri-mümkündür, onu dadmaq, hiss etmək lazımdır[1]. Qeyd etməliyik ki, bu parlaq düşüncəyə nail olmaq üçün yalnız həqiqi iman işığında Quran və məsum öndərlərin göstərişlərinə əməl etmək lazımdır.

Quran oxumağın ölülərə heç bir faydasının olmadığını iddia edənlər qarşı tərəfə belə bir sual ünvanlayırlar: "Peyğəmbər ölülərinə Quran oxuyubmu?"

Suala cavab verməzdən əvvəl diqqəti bir məsələyə yönəltmək çox vacibdir. O da budur ki, Peyğəmbərin (s) sünnəsi bir cəhətlə məhdudlaşmır. Sünnə 3 prinsipə əsaslanır:

1. Peyğəmbərin (s) hədisləri, kəlamları, danışdıqları, izahları və bəyanları.

2. Peyğəmbərin (s) əməlləri, davranışları, gördüyü işlər.

[1] Təfsiri-nümunə, c.5, səh.424

3. Peyğəmbərin (s) sükut etdiyi, razılığını bildirdiyi və təsdiq etdiyi əməllər.

Hər hansı əməlin sünnə olması üçün onun Peyğəmbər (s) tərəfindən, mütləq, icra edilməsi şərt deyil. Peyğəmbərin (s) bunu etməməsinə gəlincə, qeyd etməliyik ki, bunu sübut edəcək hər hansı fakt yoxdur. Əksinə, onun ölənlərə "Yasin" surəsini oxumaq, namaz qılmaq, ehsan vermək kimi göstərişlər verdiyinin şahidi oluruq.

Peyğəmbər (s) buyurmuşdur: "Adəm övladı dünyasını dəyişdiyi zaman üç əməldən başqa bütün əməlləri kəsilər. Həmin əməllər bunlardır: Davamlı sədəqə, insanların faydalandığı elm və onun üçün dua edən saleh övlad".[1]

Nəsai sənədli şəkildə İbn Abbasa istinadən İslam Peyğəmbərinin (s) belə buyurduğunu yazmışdır: "Kimsə başqasının yerinə namaz qılmaz, oruc tutmaz. Lakin kimsə başqasının yerinə hər gün üçün ehtiyaclılara bir müdd yemək verə bilər".[2]

İnsanın həyatda ikən etdiyi əməlin öldükdən sonra başqası tərəfindən icra edilərək ona hədiyyə verilməsinin düzlüyü Quran, sünnə, icma və qiyasla sübuta yetir:

(Onlardan (mühacir və ənsardan) sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Qəlbimizdə iman gətirənlərə qarşı kin-küdurətə və həsədə yer vermə. Ey Rəbbimiz!, Sən şəfqətlisən, rəhmlisən!)[3]

Allah-taala bu ayədə özlərindən əvvəlkilərin bağışlanmasını diləyən möminləri tərifləmişdir. Bu onu göstərir ki, dirilərin bağışlanma diləməsinin ölənlərə faydası var. İslam ümməti meyit namazında ölüyə dua edilməsi, cənazə namazında Peyğəmbər (s) sünnəsində yer almış duaların oxunmasını, habelə meyit torpağa tapşırıldıqdan sonra dua edilməsini yekdilliklə qəbul edir. Bu isə duanın ölüyə fayda verdiyini göstərir.

---

[1] Müslüm, hədis-1631; Tirmizi, hədis-2880; Nəsai, c.6, səh.251; Əhməd, Müsnəd, c.2, səh.382; Buxari, Ədəbül-müfrəd, səh.38; İbn Carud, səh.380. Adıçəkilən müəlliflər bu hədisi Əbuhüreyrəyə istinadən nəql etmişlər.

[2] Nəsai, Əl-Kubra, c.4, səh.63, hədis-1; Təhavi, Muşkilul-asar, c.3 səh.141; Hədisin sənədi səhehdir. Mərfu olması məlum deyil. İbn Qeyyim, Əl-Ruh, səh.239

[3] Həşr surəsi, 10-cu ayə

“Sünəni-Əbu Davud”da Osman ibn Əffana istinad edilən bir hədisdə Peyğəmbərin (s) meyiti dəfn etdikdən sonra məzarı üzərində belə buyurduğu qeyd edilmişdir: “Qardaşınız üçün bağışlanma diləyin, ona sabitqədəmlik və möhkəmlik istəyin. Çünki hal-hazırda ondan sorğu-sual olunur”.[1]

“Səhihi-Müslümdə” Büreydə ibn Xüsaybə istinad edilən bir hədisdə belə deyildiyi qeyd edilmişdir: “Allahın Rəsulu səhabələrə öyrədirdi ki, qəbiristana gedəndə “Ey mömin və müsəlman diyarının sakinləri! Salam olsun sizə. Allahın izni ilə biz də sizə qovuşacağıq. Allahdan sizə və özümüzə bağışlanma diləyirik”, deyin”.

“İki səhih kitabı”nda Aişəyə istinadən nəql edilən hədisdə belə qeyd edilmişdir: “Peyğəmbərin yanına bir kişi gəlib dedi: “Ey Allahın Rəsulu! Anam dünyasını dəyişdi, ancaq vəsiyyət etmədi. Məncə, danışsaydı, sədəqə verərdi. Anamın yerinə sədəqə versəm, ona xeyri varmı?” Peyğəmbər “Bəli”, – deyə cavab verdi”.[2]

Bu mövzuda “səhihlər”də başqa hədislər də var.

İmam Əbuhənifə ölən şəxsin əvəzində ehtiyaclı insanlara yemək verilməsini qəbul etsə də, onun əvəzinə oruc tutulmasını qəbul etməmişdir.

Həccin savabının ölülərə çatması ilə bağlı “Səhihi-Buxari”də hədis qeyd edilmişdir. İbn Abbasa istinadən nəql edilən həmin hədisdə deyilir: “Peyğəmbərin yanına Cüheynə qəbiləsindən olan bir qadın gəldi. O, Peyğəmbərdən soruşdu: “Anam nəzir etmişdi ki, həccə gedəcək. Ancaq ölənə qədər nəzirinə əməl etmədi. Onun əvəzinə həccə gedimmi?” Peyğəmbər: “Bəli, onun əvəzinə həccə get. Əgər ananın kiməsə borcu olsaydı,

---

[1] İbn Davud, hədis-3221; Abdullah ibn Əhməd, Zuaduz-zöhd, səh.129; Beyhəqi “Sünən” əsərində, c.4, səh.56; “İsbatül-əzabil-qəbr”də, habelə Yəğəvi hədisin sənədinin güclü olduğunu qeyd etmişlər. Nəvəvi “Əzkar”da və Hafiz ibn Həcər Əsqəlani “Əmali”də onun “həsən” olduğunu, Hakim “Müstədrək”də onun “səhih” olduğunu (c.1, səh.370) qeyd etmişdir. Zəhəbi də bunu (səhihliyi) təsdiq etmişdir.

[2] Buxari, hədis-1377; Müslüm c.3, səh.1254, hədis-1004; Nəsai, c.6, səh.250; İbn Macə, c.7, səh.27; Malik, Müvəttə, c.2, səh.760; Yəğəvi, hədis-1690; Beyhəqi, c.4, səh.62. Əbudavud, hədis-288. Əbudavudun qeyd etdiyi hədisdə, gələn adamın kişi yox, qadın olduğu yazılmışdır. Gələn kişinin adı “Səd ibn Übadə” olmuşdur. Sonrakı hədisdə bu ad açıq şəkildə qeyd edilmişdir. Fəthül-bari, c.5, səh.389

borcunu verərdinmi? Allahın da haqqını verin. Çünki Allah haqqının verilməsinə hər kəsdən daha layiqdir", – deyə buyurdu".[1]

Müsəlmanlar ölən şəxsin borcunun ödənilməsini yekdilliklə qəbul etmişlər. Yəni ölən şəxsin borcunu yad bir adam da versə, həmin borc ölənin boynundan götürülər. Bu mövzuda hədis çoxdur.[2]

Quranı oxuyub savabını heç bir qarşılıq olmadan ölüyə hədiyyə etmək oruc və həcc kimidir. Oruc və həcc kimi Quranın da savabı ölüyə çatır. Əgər kimsə bunun saleh sələflər arasında ənənə olmadığını və Peyğəmbərin (s) bunu etmədiyini desə, onun cavabı belədir ki, əgər sual verən həcc, oruc və duanın savabının ölüyə çatdığını qəbul edirsə, bununla Quranın savabının ölüyə çatması arasında nə fərq var? Saleh sələflərin bunu etməməsi Quranın savabının ölüyə çatmadığını deməyə əsas verə bilməz. Bu ümumi inkar haradan qaynaqlanır?

Əgər deyilsə ki, Peyğəmbər (s) oruc, həcc və sədəqənin savabının ölüyə çatdığını onlara dediyi halda, Quranın oxunmasının savabının ölüyə çatmasını deməmişdir, onda deməliyik ki, Peyğəmbər (s) ilkin olaraq bunu özü etməmişdir, soruşanlara bunun icazəli olduğunu demişdir. Bir nəfər ölən adamın əvəzində oruc tutmağın, bir başqası da həcc etməyin icazəli olub-olmadığını soruşduqda Peyğəmbər (s) icazə vermişdir.[3]

Ayətullah Cəfər Sübhani "Nəcm" surəsinin 39-cu ayəsini təfsir edərkən başqasının əməlinin digərlərinə heçbir xeyri olmadığını, insana yalnız öz əməlinin fayda verə biləcəyini iddia edənlərin bu şübhəsinə belə cavab vermişdir:

Birincisi, bu ayə yaxşı əməllər deyil, günahlar haqqındadır. Hər kəs öz günahlarının məsuliyyətini daşıyır. Bu fikri deməyə ayənin əvvəli, yəni aid olduğu kontekst əsas verir. Ayənin əvəvlində heç kəsin başqasının günah yükünü çiyinlərinə götürməyəcəyi buyurulur. Bu qənaəti ayənin naziolma səbəbləri də təsdiq edir:

---

[1] Buxari, hədis-1852, 6699, 7315; Əhməd, c.1, səh.279; Nəsai, c.5, səh.116; Təbalisi, hədis-2621; Təbərani, Əl-Möcəmül-kəbir, hədis-12443, 12444; Beyhəqi, c.4, səh.255

[2] Əhməd, Müsnəd, c.3, səh.330; Təbalisi, hədis-1673; Beyhəqi, c.6, səh.75; Hakim, Müstədrək, c.2, səh.58. Hakim borcun ödənilməsi ilə bağlı hədisin səhih olduğunu yazmışdır. Heysəmi, Əl-Möcəm, c.3 ,səh.39.

[3] Əli ibn Əbülizz, Şərhu əl-əqidə ət-Təhaviyyə

1. Bu ayələr Osman haqqında nazil olmuşdur. Osmanın çoxlu sərvəti var idi. Bu sərvətindən Allah yolunda payladığını görən "Abdulla ibn Səd" adlı qohumu ona deyir: "Əgər bu işi davam etdirsən, sənə bir şey qalmayacaq". Osman deyir: "Mənim günahlarım var. İstəyirəm bu vasitə ilə Allahın razılığını cəlb edib bağışlanım". Abdullah deyir: "Əgər mindiyin dəvəni bütün təchizatı ilə mənə versən, bütün günahlarını boynuma götürərəm". Osman belə də edir. Bu razılaşma üçün şahid də tutur. Bundan sonra artıq ehsan və sədəqə verməyi dayandırır. "Nəcm" surəsinin nəzər nöqtəsi olan ayələri nazil olur. Allah bu ayələr vasitəsi ilə bu işin yanlış olduğunu, kiminsə başqasının günahını öz üzərinə götürə bilməyəcəyini bildirir. Bu nazilolma səbəblərini Təbərsi, Zəməxşəri, Fəxr Razi və digər təfsirçilər qeyd etmişlər.

2. Ayə Vəlid ibn Muğeyrə haqqında nazil olmuşdur. O, müsəlman olduqdan sonra müşriklər onu məzəmmət edərək deyirlər: "Böyüklərimizin dinini tərk etdin. Onların azğın olduğunu hesab etdin. Güman etdin ki, onlar Cəhənnəm odundadırlar".

Vəlid deyir: "Doğrusu, mən Allahın əzabından qorxuram!" Məzəmmət edənlərdən biri deyir: "Əgər var-dövlətindən mənə bir şey versən və yenidən şirk inancına dönsən, mən sənin əzabını öz boynuma götürərəm". Vəlid belə də edir. Ancaq ödəməli olduğu malın yalnız cüzi hissəsini ödəyir. Nəzər nöqtəsi olan ayə nazil olur və Vəlidi imandan döndüyü üçün məzəmmət edir.[1]

İkincisi, fərz edək ki, sözügedən ayə yaxşı əməllərə də aiddir. Sadəcə, məsələ bundadır ki, əsl xoşbəxtlik insanın başqalarının yox, öz əməllərinə ümid bəsləməsindədir. Ancaq bu heç də ona başqalarının əməllərinin də fayda verə bilməsinə mane olmur. Bunu sadə bir misalla izah etmək olar. Məsələn, övladına nəsihət verən ata deyir: "Gərək zəhmət çəkəsən, öz ayaqların üzərində dayanmağı öyrənəsən, başqalarının sənin üçün nə isə edəcəyinə ümid bağlamayasan". Təbii ki, bu, bəzən hər hansı dost və yaxın adamın insana yaxşılıq etməsinə, hədiyyə verməsinə, işlərində yardım göstərməsinə, çətinlikdə köməyinə

[1] Bu nazilolma səbəbi də "Məcməül-bəyan", "Qurtubi", "Ruhul-bəyan", "Ruhul-məani" və digər təfsirlərdə qeyd edilmişdir

çatmasına, qohumlarından ona miras payının çatmasına mane olmur. Bu cür hallar istisna hallar hesab edilir və atanın övladına verdiyi nəsihətlə heç bir ziddiyyət təşkil etmir.

Quranın bir yerində “İnsana yalnız öz çalışdığı qalar” deyə buyurulduğu halda, başqa bir yerdə Qiyamət günü şəfaətçilərin şəfaət verəcəyi, mələklərin insan üçün bağışlanma diləyəcəyi haqqında məlumat verilir. Bu da qeyd etdiyimiz qənaətə gəlməyimizə səbəb olur. İnsana, təbii ki, öz əməli qalır, ancaq bu, başqasının verdiyi faydanı da inkar etmir.[1]

“Nəcm” surəsinə verilmiş ən məntiqli izahlardan biri Əllamə Təbatəbaiyə aiddir.

(İnsana yalnız çalışıb səy göstərdiyi aiddir.)[2]

Əllamə Təbatəbai bu ayəni izah edərkən “insan üçün” ifadəsi ilə bağlı çox mühüm bir nüansa toxunmuşdur. Burada “lam” hərfi (üçün mənasını bildirir) həqiqi sahibliyi, malikliyi bildirir. Yəni insan təkcə etdiyi yaxşı və ya pis əməlin sahibidir. Bu əməllər əbədi olaraq onunla bir yerdə olur. Ancaq insanın sahib və malik olduğunu düşündükləri – mal, vəzifə, övlad və sair, hamısı bu dünyada insanla birlikdə olan ötəri varlıqlardır, insan bu dünyanı tərk edərkən onları bu dünyada qoyub gedir. Lakin ayə və hədislərə əsasən o dünyada günahı olan möminlərə şəfaət ediləcəyi məsələsinə gəlincə, bu məsələ ilə təzad təşkil etmir. Səbəbi isə onların bu dünyada Allaha və onun ayələrinə inanıb yaxşı əməllər etməsidir. Onlara şəfaət olunmasına məhz həmin iman və əməlləri səbəb olur. Əgər imanları olmasaydı, əsla şəfaətə layiq olmazdılar. Bu şəkildə mömin öldükdən sonra digər möminlərin bağışlanma istəyindən və göndərdikləri hədiyyə savablardan faydalanırlar. Habelə bu dünyada yaxşı və ya pis bir ənənə qoymuş insan öldükdən sonra həmin ənənəyə əməl edən insanların günah və savabına ortaq olur. Çünki həmin adam bu ənənəni qoymaq üçün səy göstərmişdir.[3]

---

[1] Cəfər Sübhani, Vəhhabi məzhəbi ilə tanışlıq, səh.235
[2] Nəcm surəsi, 39-cu ayə
[3] Əl-Mizan, c.19, səh.47

Peyğəmbər (s) səhabələrinə ölənlər üçün "Yasin" surəsini oxumağı dəfələrlə tövsiyə etmişdir.

İmam Süyuti Şəabiyə istinadən belə bir hədis qeyd edir: "Aralarında biri öldüyü vaxt ənsar həmin adamın qəbrini ziyarət edib onun üçün Quran oxuyardı".[1]

Təlhəyə istinadən nəql edilmiş bir hədisdə belə deyilir: "Abdullah ibn Abbasın arxasında cənazə namazı qıldım və o, "Fatihə" surəsini oxudu".[2]

Səhabələrdən olan Ləclac oğluna belə vəsiyyət etmişdir: "Oğlum, mən öldükdən sonra məni dəfn et. Məni qəbrə qoyduğun zaman belə de: "Bismilləhi və ələ milləti Rəsulilləh. Daha sonra baş tərəfimdə "Bəqərə" surəsinin əvvəlini və son hissəsini oxu. Çünki mən bunları Peyğəmbərdən (s) eşitdim".[3]

Böyük əhli-sünnə təfsirçisi Fəxr Razi "Təfsiri-Kəbir"in 17-18-ci cildlərində "Yunus", "Hud" və "Yusuf" surələrinin sonunda bu təfsiri oxuyanlardan özü və qürbətdə dünyasını dəyişmiş oğluna "Fatihə" surəsini oxumalarını, haqlarında Allahdan bağışlanma diləmələrini, onlara üçün dua etmələrini istəmiş, əvəzində özünün də onlara dua edəcəyini yazmışdır.[4]

Ümumiyyətlə, hənəfilər, şafeilər və hənbəlilər, ölüm ayağında olan adamın yanında "Yasin" surəsinin oxunmasının məndub (müstəhəb) əməl olduğunu qəbul edirlər. Dəlilləri isə Peyğəmbərin (s) bu hədisidir:

"Ölülərinizə "Yasin" oxuyun" (Əbudavud, İbn Macə, Ən-Nəsai, Əhməd, İbn Hibban).

Bu məzhəblər qəbir üstündə Quran oxunmasının müstəhəb əməl olduğunu da qəbul edirlər. Dəlilləri isə Ənəsdən "mərfu" şəkildə rəvayət edilən bu hədisdir:

---

[1] İmam Süyuti, Şərhus-sudur, c.1, səh.303

[2] Buxari, Cənaiz, hədis-65; Əbu Davud, Cənaiz, hədis-59; Tirmizi, Cənaiz, hədis-39; Nəsai, Cənaiz, hədis-77

[3] Təbərani, c.19, səh.220-221, hədis-491; İbn Əsakir c.50, səh.292; Beyhəqi, c.4, səh.56

[4] Fəxr Razi, Təfsiri-Kəbir, c.17, səh.183, c.18, səh. 84 və 234. Yunus, Hud və Yusuf surələrinin təfsiri.

"Kim qəbiristana daxil olanda "Yasin" surəsini oxuyarsa, Allah onların əzabını yüngülləşdirər və oxuyan adama da orada dəfn edilənlərin sayı qədər savab yazılar".

Bu məzhəblərin başqa dəlili İbn Ömərdən səhih olaraq rəvayət edilmiş hadisədir. Belə ki İbn Ömər öldüyü zaman yanında "Bəqərə" surəsinin əvvəlinin və son qisminin oxunmasını vəsiyyət etmişdir.

Malikilərə gəldikdə isə həm ölüm ayağında olan adamın, həm də qəbrin yanında Quran oxunmasının məkruh olduğu qənaətindədirlər".[1]

Şiə məzhəbinin bu məsələdəki mövqeyi birmənalıdır. Ölülərə Quran oxumaq savabdır:

Peyğəmbər (s) buyurub: "Qəbirlərdə yatmış ölənlərinizi unutmayın. Ölənlərinizin sizin ehsanınıza ümidləri var... Onların əməl etmək imkanları yoxdur. Siz onlara sədəqə və dua hədiyyə edin".[2]

Həzrət İmam Sadiq (ə) buyurub: "Həyatda olan adam ona verilmiş hədiyyəyə görə sevindiyi kimi, ölmüş adam onun üçün istənilən rəhmət və bağışlanmaya görə şad olur".[3]

Başqa bir hədisdə deyilir: "Hər hansı bir ölüyə hədiyyə göndərilən zaman bir mələk onu alar və üzünü həmin ölüyə tutub deyər: "Salam olsun sizə, ey qəbir əhli! Sizin yaxınlarınız sizə hədiyyə göndərmişdir". O hədiyyə ilə birlikə həmin adamın qəbrinə daxil olar.[4].

Həm Quran ayələri, həm də Peyğəmbər (s) sünnəsinə əsasən, dünyasını dəyişmiş insanlara "ölü" demək olmaz, əsl ölü ilahi kəlamdan həm bu dünyada, həm də o dünyada pay apara bilməyənlərdir. Əsl dirilər isə hər iki dünyada bu kəlamdan faydalana bilənlərdir. Qurana görə, dünyasını dəyişmiş insanlara dua etmiş möminlər təriflənir. Quranın həqiqi müəllimi olan Peyğəmbər (s) və məsum imamlar (ə) dirilərin etdiyi əməllərdən ölülərin, təbii ki, bu dünyada möminlərin istiğfarı və duasına layiq olan möminlərin faydalana biləcəyini açıq şəkildə qeyd etmişlər. Bu qədər dəlil və arqument qarşısında özünü görməzliyə vurmaq insafsızlıq olar.

---

[1] Əl-Mövsuat əl-fiqhiyyə əl-Küveytiyyə, c.33, səh.59-60
[2] Yəzdi Şeyx Həsən ibn Əli, Ənvarül-hidayət, səh115; Müstədrəkul-vəsail, c.2, səh.115
[3] Muhəcətül-beyda, c.8, səh.292
[4] Müstədrəkul-vəsail, c.2, səh.115

Ölənlər üçün oxunan Quranın savabının onlara çatmadığını iddia edənlərin insanların əməl dəftərinin tamamilə bağlandığını israrla qeyd edərək heç bir dərin araşdırma olmadan, hədislərin zəif, səhih, həsən, qəvi və s. olduğunu dəqiq müəyyən etmədən bu qəbildən olan hədislərə tamamilə zəif deməsi onların ya məlumatının azlığı, ya da təəssübkeşliklərinin ifrat həddə olduğunu göstərir.

Sözügedən şəxslər öz təəssübkeş mövqelərini əsaslandırmaq üçün Quran ayəsinə istinad etdikdə də yanlış metoddan istifadə edirlər. Bu mövqedə olan adamların istinad etdiyi ayələr sırasında "Zilzal" surəsinin 7-8-ci ayələri, "Tur" surəsinin 21, "Muddəssir" surəsinin 38-ci ayəsi yer alır. Həmin ayələrdə deyilir:

(Zərrə qədər yaxşılıq edən onu görəcəkdir. Zərrə qədər pislik edən onu görəcəkdir.)[1]

(Hər kəs öz əməlinin girovundadur.)[2]

(Hər kəs öz əməllərinin girovundadır.)[3]

"İslamda yoxdur" kitabının müəllifi əməl dəftərinin tamamilə bağlı olmasına bu ayələri dəlil gətirir, elə məhz özü də bir səhifə sonra özünü təkzib edərək möminlərin etdiyi duaların ölmüş insanlar haqqında qəbul edilə biləcəyini ifadə edən, peyğəmbərlərin başqaları haqqında etdiyi duaların yer aldığı ayələri əsas gətirərək bu əməllərin qəbul ediləcəyini yazır.[4] Çox maraqlıdır, müəllif Qurana bu cür yanaşmanın, ayələrinin bu şəkildə izah edilməsinin paradoks yaratdığından necə olub ki, xəbər tuta bilməyib?

Ayələrin qeyd olunan şəkildə izahı doğru deyil. Ötən səhifələrdə Təhavi və Əli ibn Əbülizzin bu barədə olan izahlarını qeyd etdik.

Diqqət çəkən məqamlardan biri adıçəkilən müəllifin "Tur" surəsinin 21-ci ayəsini kontekstdən çıxarmasıdır. Ayənin tam mətni belədir:

---

[1] Zəlzələ surəsi, 7-8-ci ayələr
[2] Tur surəsi, 21-ci ayə
[3] Muddəssir surəsi, 38-ci ayə
[4] İslamda yoxdur, 20-25-ci səhifələr

(Möminlərin imanda onların arxasınca gedən nəsillərini də (Cənnətdə) özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs öz əməlinin girovudur.)

Qiyamət günü Allahın möminlərə qarşı göstərəcəyi lütfkarlıqlardan biri budur ki, gözlərinə işıq bəxş etmək üçün onların mömin və sevdikləri övladları onlara qovuşdurulacaq. Əgər bu övladlar əməl cəhətdən büdrəmiş və təqsirkar olsalar, Allah əməlisaleh atalarının hörmətinə onları bağışlayacaq, dərəcələrini artıracaq. Hədislərin birində Peyğəmbər (s) belə buyurmuşdur: ***"İnsan Cənnətə daxil olduğu vaxt ata, ana, həyat yoldaşı və övladlarını axtaracaq. Ona deyiləcək: "Onlar sənin dərəcənə çatmayıblar". Deyəcək: "Ya Rəbbim! Mən özümə və onlara görə əməl etmişəm." Bu zaman övladlarının ona qovuşdurulmasına əmr veriləcək."*** Övladların atanın dərəcəsinə yüksəlməsi məsələsində belə təsəvvür oluna bilər ki, atanın əməllərindən götürülüb övlada verilir. Ancaq ayənin davamında belə buyurulur: ***"Biz onların əməllərindən heç nə əskiltmirik".*** Sonda isə belə buyurulur: ***"Hər kəs öz əməlinin girovundadır."*** Buna görə də möminlərin əməllərinin və mükafatlarının azalıb-əskilməməsi heç də təəccüblü deyil. Çünki bu əməllər hər zaman insanla birlikdədir. Əgər Allah onların övladlarına lütfkarlıq və mərhəmət göstərib onları Cənnətdə təqvalılara qovuşdurursa, bu, Cənnətdəkilərin əməllərindən kəsilməsi nəticəsində baş vermir.[1] Bunun səbəbi Allahın dərəcəsi yüksək olan möminə qarşı lütfkar, dərəcəsi yüksəldilən möminə qarşı isə mərhəmətli olmasıdır.

"Zəlzələ" surəsinin 7-8-ci ayələrinə gəlincə, Allah-taala bu ayələrdə insanların etdiyi əməlin hər zərrəsinin qarşılığının olduğunu bildirdiyi halda, möminlərin dünyasını dəyişmiş və ya həyatda olmasından asılı olmayaraq, bütün qardaşları haqqında etdikləri duaları, bağışlanma diləklərini, tövbələri qəbul etdiyini buyurur[2]. Digər tərəfdən, zərrə qədər də olsa, edilən bütün əməllərin qarşılığı olacağını buyuran Allah "Zumər" surəsinin 65-ci ayəsində "Əgər müşrik olsan, bütün əməllərin puç olacaq və ziyana uğrayanlardan olacaqsan", "Hud"

---

[1] Təfsiri-nümunə, c.22, səh.427
[2] Həşr surəsi, 10-cu ayə, Muhəmməd surəsi, 19-cu ayə

surəsinin 114-cü ayəsində "Gündüzün iki başında (əvvəlində və sonunda) və gecənin əvvəllərində namaz qıl! Çünki yaxşı işlər pis əməlləri yuyub aparır", – deyə buyurmuşdur. Və bir çox ayədə Allah-taala tövbələri qəbul, günahları isə əfv etdiyini qeyd edir. Belə olan halda, Qurandakı bu iki fərqli məzmunu necə izah etmək olar?

Nəzər nöqtəsi olan məsələdə bir nüansa xüsusilə diqqət yetirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki insanın etdiyi zərrə qədər yaxşı və pis əməlin qarşılığını görəcəyi məsələsi ümumi bir qanun, tövbə və bağışlama isə bu qanunun istisnası hesab edilə bilər. Tövbə, əfv, həbt (bəzi günahlar nəticəsində yaxşı əməllərin puça çıxması), təkfir, möminlərin bir-biri haqqında etdikləri dualar, bağışlanma diləkləri bu ümumi qanunun istisnasıdır.

"Zəlzələ" surəsinin 7-8-ci ayələri Allahın ədalətinin, əfv və tövbələrin qəbulunu ifadə edən Quran ayələri isə lütf və mərhəmətinin təzahürüdür. Allah Quranda bu sifətini daha çox göstərir. Hədislərdə də məhz bu nüansa çox diqqət göstərildiyinin şahidi oluruq. Duaların birində belə deyilir: "İlahi, bizimlə ədalətinlə yox, fəzlinlə davran".[1] Allah da Quranda insanlara ədalətindən çox, məhz lütf, fəzl, rəhmət və mərhəmətinin aid olduğunu buyurur. Bu həqiqət "Nəml" surəsinin 89-cu ayəsində: "Yaxşı bir iş görənlərə ondan daha yaxşı mükafat veriləcək. Onlar o günün qorxusundan uzaq olacaqlar" və "Ənam" surəsinin 160-cı ayəsində: "Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz" – formasında ifadə edilmişdir.[2]

Ayələrin birinin digərinin təfsiri prinsipinə əsasən, "Zəlzələ", "Tur" və "Muddəssir" surələrinin qeyd edilən ayələrinin əməl dəftərinin bağlanması kimi izah edilməsi tamamilə yanlışdır. Bu ayələrdə möminlərin etdiyi duaların, gördükləri yaxşı işlərin başqalarına aid ola

---

[1] Molla Saleh Mazandarani, Üsuli-kafinin şərhi, c.10, səh.191

[2] Əbuzərin Peyğəmbərə (s) istinadən nəql etdiyi bir hədisdə belə deyilir: "Allah buyurur ki, yaxşı işi on dəfə artırıb çoxaldıram, pisliklərə bir cəza verirəm və ya bağışlayıram. Vay olsun təkləri onlardan çox olanların (pis işləri bir, yaxşı işləri on hesab edildiyi halda, günahları savablarından çox olanların) halına". Təfsiri-numunə, c.6, səh.57

bilməyəcəyini göstərən heç bir əlamət yoxdur. Möminlərin bir-birinə etdikləri yaxşılıqların bir-birinin haqqında qəbul edilməsi isə Allahın lütf və mərhəmətindən irəli gəlir.

Qurandakı dua cümlələrinin də xüsusi bir forması var. Belə ki diləyənin dilindən deyilən və Allah tərəfindən öyrədilən duaların demək olar ki, hamısında, bir neçəsi istisna olmaqla, diləyən Allaha müraciətində birinci şəxsin cəmindən istifadə etmişdir. Allah insana bununla təkcə özünə deyil, özü ilə bərabər başqalarına da dua etməsini öyrədir. Allah duaları qəbul edəcəyini vəd verdiyi üçün[1] bəndənin başqaları üçün etdiyi duanı da təbii ki, geri qaytarmır.

**Dünyasını dəyişmiş insanlara mərasim keçirmək, “3”, “7”, “40”, “il” məclisləri təşkil etmək olarmı?**

Dünyasını dəyişmiş insanlar haqda “3”, “7”, “40” və “il” mərasimlərinin kiçirilməsi onlara hörmət, ehtiram, xatirələrini əziz tutmaq məqsədi daşıyır, əzizlərini itirmiş adamlar üçün bir növ təskinlik gətirir. Dini təlimlərdə, Quran və hədislərdə bu cür mərasimlərin keçirilməsi ilə bağlı hər hansı göstəriş yoxdur. Sadəcə, bu mərasimlərin keçirilməsi – israfa yol verilməzsə, orta hədd gözlənilərsə, ağla və dinə də zidd deyil. Dində qəbirlərin ziyarət edilməsi, ölənlər üçün ehsan verilməsi, dualar, “Yasin” oxunması, Quran xətm edilməsi kimi tövsiyələrin olması bu cür mərasimlərin keçirilməsinin dinə zidd olmadığını deməyə əsas verir.

Bu məraismlər nə qədər ki, dinin bir göstərişi olaraq keçirilmir, heç bir problemi yoxdur. Əgər onlara dini bir göstəriş kimi baxılsa, o zaman bidət və günah sayılacaq. Bu məsələdə diqqətli olmalı, Allahın halalının haramla nəticələnməsinə səbəb olmamalıyıq. Belə ki dini təlimlər arasında yer almamış bir əməlin din adı ilə təqdim edilməsi bidət və günah sayılır. Əgər belə olmasa, görülən iş din və ağla da zidd olmasa, halal hesab edilir.

Bunu belə bir sadə nümunə ilə izah edək: Bu gün dünyada müxtəlif idman yarışları keçirilir, filmlər çəkilir və sair. Bunlar haqda konkret olaraq dində heç bir göstəriş və qadağa yoxdur. Bu işlər göstəriş və

[1] Ğafir surəsi, 60-cı ayə

qadağa olmadığı halda, halallar sırasında yer alır. Əgər bunlara dində qadağan və haram edilmiş hər hansı davranış əlavə edilməzsə, onların halallığı yerində qalır. Və dünyada bu cür misallar yüzlərlə, minlərlədir. Əzizlərinin xatirəsini əziz tumaq da dinə və ağla zidd bir davranış deyil. Üstəlik, dində əzizlərini yad etmək göstərişləri də mövcuddur. İndi əgər bir adamın əzizləri üçün təşkil etdiyi anım mərasimləri din və şəriətə zidd olmaz, əksinə qohumların, dostların görüşməsi, əzizlərini itirmiş adama təskinlik verilməsi, insanların onun dərdinə şərik çıxması, sədəqə verilməsi, Quran oxunması, dini söhbətlərin edilməsi və sair ilə müşayiət edilərsə, bunu yanlış hesab etmək, nə ağla, nə də dinə uyğun deyil.

Peyğəmbər (s) Ühüd döyüşündən qayıtdıqdan sonra hamının öz ölənləri üçün ağladığını görüb deyir: "Niyə Həmzəyə ağlayan yoxdur? Gedin Həmzəyə də ağlayın". [1]

Həzrət Peyğəmbər (s) Mədinədə evlərin yanından keçərkən əzizlərini itirmiş adamların öz şəhidləri üçün ağlayaraq növhə dediyini eşidir. Həzrətin (s) gözləri dolur və ağlayır. Sonra buyurur: "Ancaq əmim Həmzənin ağlayanı yoxdur". Səd ibn Məaz və Üseyd ibn Həzir evlərinə gedib həyat yoldaşlarına, öz qəm-qüssələrini sinələrində dondurub əvvəlcə Həzrət Peyğəmbərin (s) əmisi Həmzə üçün ağlamağı tapşırırlar.[2]

Bundan sonra Peyğəmbərin (s) bu göstərişini eşidən hər kəs hər hansı bir şəhidə ağlamazdan əvvəl birinci Həmzəyə ağlayardı.

İbn Həcər bu faktı belə qeyd etmişdir: "Peyğəmbərin (s) "Əmim Həmzənin ağlayanı yoxdur!" cümləsini eşitdikdən sonra heç bir qadın öz ölüsünə Həmzə üçün ağlamazdan əvvəl ağlamadı".[3]

İbn Kəsir yazır: "Bu günə qədər də ənsar qadınları öz ölənlərinə ağlamazdan əvvəl, birinci Həmzəyə ağlayırlar".

Əhməd ibn Hənbəlin İbn Ömərə istinad etdiyi bir məlumatda belə qeyd edilmişdir: "Ühüddən qayıtdıqdan sonra ənsarın qadınlarının öz

---

[1] Müsnədi-Əhməd, c.2, səh.40; Tarixi-Təbəri, c.2, səh.532

[2] Əbu Cəfər ət-Təbəri, Ət-Tarix, c.2, səh.210; İbn Hişam, Əs-Sirə ən-Nəbəviyyə, c.3, səh.613; Əs-Siqat, c.1, səh.234; İbn Kəsir, Əl-Bidayə vən-nihayə, c.4, səh.54-55

[3] İbn Həcər əl-Heysəmi, Məcmə əz-zəvaid, c.6, səh.126

şəhidləri üçün ağladığını görən Allahın Rəsulu (s) buyurdu: "Ancaq Həmzənin ağlayanı yoxdur". Həzrət (s) bir az yatıb istirahət edəndən sonra qadınlar Həmzə üçün ağlamağa başladılar. O gündən bu günədək qadınlar əvvəlcə Həmzəyə, sonra isə öz ölənlərinə əzadarlıq edirlər".[1]

İbn Kəsir daha sonra yazır: Vaqidi deyir: "O vaxtdan indiyədək qadınlar birinci Həmzəyə əzadarlıq edirlər".[2]

Diqqət çəkən məsələ Vaqidinin Peyğəmbərdən (s) 200 il sonra yaşamasıdır.[3] Vaqidi Həmzəyə matəm saxlanmasının onun dövrünə qədər gəlib çıxdığını, bu ənənənin 200 il yaşadıldığını qeyd etmişdir. Bu fakt təkcə matəm mərasiminin saxlanması yox, yüz illər keçməsinə baxmayaraq din yolunda, Allah yolunda canlarını fəda etmiş insanlara matəm saxlanılmasının nə qədər dəyərli olduğunu göstərir.

Ühüd döyüşünün hicrətin 3-cü ilində baş verdiyini nəzərə alsaq, başqa bir faktın da üstü açılmış olur. Deməli, Ühüddən sonra Peyğəmbərin (s) həyatda olduğu sonrakı yeddi il ərzində də bu ənənə yaşanmış və Vaqidinin dövrünə qədər davam etmişdir.

İbn Səd də bu məlumatları qeyd etdikdən sonra yazır: "O gündən ənsarın qadınları birinci Həmzəyə, sonra isə öz ölənlərinə ağlayırlar".[4]

Hədislərdə cümə günləri qəbiristan ziyarətinə getməyin savab olması ilə bağlı məlumatlar yer almışdır. Ziyarətin cümə günü sübh azanından gün çıxan vaxta qədər edilməsi xüsusilə vurğulanmışdır. İmam Baqirdən (ə) qəbiristan ziyarəti haqqında soruşulduqda buyurmuşdur: "Cümə günü onları ziyarət et. Çünki fəcrlə günəşin çıxdığı vaxta qədər onların çətinlikdə olanlarına rahatlıq verilir".[5]

---

[1] İbn Kəsir, Əl-Bidayə vən-nihayə, c.4, səh.55
[2] İbn əl-Əsir, Usd əl-ğabə, c.2, səh.48
[3] Məhəmməd ibn Ömər Vaqidi IX əsrin tarixçilərindən olmuşdur. Tarixi hadisələrlə bağlı geniş məlumatı olan Vaqidinin əsərlərinə bir çox tarixçilər mənbə kimi müraciət etmişlər.
Əməvilər dövrünün son illərində yaşamış Vaqidi Məmunun dövründə (813-833) qazi təyin edilmişdir. Ən məşhur əsəri tarixin keşməkeşlərində məhv olmuş "Kəbir tarixi"dir. Təbəri öz tarix əsərində bu əsərdən faydalandığını yazmışdır. Onun səhabələr və tabein haqqında yazdığı əsəri də günümüzə qədər gəlib çıxmamışdır. Vaqidinin bu günə qədər əlimizə gəlib çıxmış əsəri "Kitabul-məğazi" əsəridir. Mənbələrin yazdığına görə, dünyasını dəyişərkən onun 600 qəfəsə kitabı olmuşdur. Vaqidi fiqh elminin də mahir bilicilərindən idi.
[4] İbn Səd, Ət-Təbəqat əl-kubra, c.2, səh.44
[5] Şeyx Hürr Amuli, Vəsailüş-şiə, c.7, səh.415

Yəni sözügedən mərasimlər şəriətdə qeyd edilən sədəqə verilməsi, “Yasin” və Quran oxunması, qəbrin ziyarət edilməsi kimi davranışlarla müşayiət edilərsə, bunun heç bir problemi yoxdur.

Bəzi hədislərdə əzizlərini itirmiş adamın evinə üç gün yemək aparılması tövsiyə edilmişdir. Rəvayətlərin birində belə deyilir: Cəfər ibn Əbutalib dünyasını dəyişdikdən sonra Peyğəmbər (s) qızı Fatiməyə bir neçə qadınla Əsma binti Ümeysin evinə getməsini, üç gün bunu davam etdirməsini və gedərkən yemək aparmasını göstəriş verimişdir[1].

Peyğəmbərə (s) istinad edilən hədislərdə dünyasını dəyişmiş adamların ruhlarının cümə axşamları öz əzizlərinin yanına gəldikləri qeyd edilmişdir[2].

Ümumiyyətlə, İslam dini ağla və dinə zidd olmayan heç bir əmələ qarşı deyil. Əgər görülən iş rasionallığı aşırsa, dindən olmadığı halda, ona din adı qoyulursa və ya icrasına dində qadağan edilmiş, günah hesab edilən elementlər qarışdırılırsa, o zaman günah sayılır. Əks təqdirdə din adından çıxış edərək hər hansı məsələyə dini qadağa qoymaq və onu yanlış hesab etmək dinin mövqeyi ola bilməz[3].

---

[1] Əl-Muhəqqiq əl-Bəhrani, Hədaiqun-nazirə, c.4

[2] Şeyx Abbas Qummi, Səfinətül-bəhar, c.2, səh.556

[3] Bu bölmənin tədqiqində Ayətullah Cəfər Sübhaninin “vəhhabilər”lə bağlı yazdığı əsərlərdən, “Əl-Mizan” təfsiri, “Təfsiri-nümunə” və xüsusilə http://az.313news.net/ saytının əməkdaşlarının tədqiqatlarından istifadə edilmişdir.

# İSLAMDA TƏVƏSSÜL

“Təvəssül” mövzusu tarix boyu İslam alimləri arasında müzakirə və ciddi mübahisə obyektinə çevrilmiş ən aktual, mübahisə doğuran məsələlərdən biri olmuşdur. İslam alimlərinin təvəssüllə bağlı mövqeləri birmənalı olmamışdır. Xüsusilə İbn Teymiyyənin, daha sonra da Məhəmməd ibn Əbdülvahabın bu məsələni qabardıb onun şirk olduğuna, təvəssül edənlərin də müşrik olduqlarına fətva verməsindən sonra məsələ daha da aktuallaşmışdır. Belə ki, təvəssülün şirk hesab edilməsi bir çox problemlərin meydana çıxmasına səbəb olmuşdur. Bir qrup inanclı digər inanclıları sırf təvəssül etdiklərinə görə müşrik hesab edir, canlarını, mallarını halal bilir və gözlərini qırpmadan onların qətlə yetirilməsini vacib sayırlar.

Ənənəyə sadiq qalaraq biz də əvvəlcə təvəssülün leksik və terminoloji mənalarına qısa açıqlama gətirəcək, daha sonra bu əməlin şirk olub-olmamasını hər iki tərəfin istinad etdiyi dəlillər əsasında araşdıracaq, müqayisəli təhlillər aparacaq və ən qənbaətbəxş nəticəyə gəlməyə çalışacağıq.

### “Təvəssül” sözünün leksik mənası

“Təvəsül” sözü ərəb dilində “vasələ” (وسل) feilindən törəyib. Dilçi alimlər bu sözün izahı məsələsində, demək olar ki, həmfikirdirlər. “Vəsilə” başqasına yaxın olmaq üçün istifadə edilən vasitəyə deyilir. Burada vasitənin yaxın olmaq məqsədilə istifadə edilməsinə xüsusi diqqət çəkilir. Bu səbəbdən də, vəsilə “yaxın olmaq” (vüslət) kimi izah edilir. Təvəssüldə diqqət mərkəzində olan əsas cəhət bu işin istək və rəğbətlə görülməsidir, yəni təvəssül edən şəxs təvəssül etdiyi şəxsə yaxın olmaq istəyində olur. “Vəsilə” sözünün digər mənası “dərəcə” deməkdir. Bəzi hədislərdə bu söz “dərəcə”, “məqam” mənasında işlədilmişdir. Məsələn, Allah rəsulundan (s) nəql edilən (سلوا الله لي وسيلة) hədisi “Mənim üçün dərəcə, məqam istəyin” şəklində izah edilir. Vəsilənin bir mənası da oğurluqdur. Lüğət kitablarında bu mənaya da rast gəlinir. Məsələn, “أخذ فلان إبلي توسلا” cümləsi “filankəs dəvəmi

oğurladı" mənasını ifadə edir.[1] Qeyd olunan izah və açıqlamalardan belə aydın olur ki, təvəssülün leksik mənası bir şəxsin rəğbət duyduğu birinə yaxın olması üçün hansısa vasitədən istifadə etməsidir.

## "Təvəssül" sözünün terminoloji mənası

"Təvəssülün terminoloji mənası" dedikdə artıq onun yalnız din çərçivəsində istifadə edilməsinə icazə verilən forması nəzərdə tutulur. Başqa sözlə desək, "təvəssülün terminoloji mənası" deyilərkən dinin qadağan etmədiyi, icazə verdiyi vasitələrdən istifadə etməklə Allaha yaxın olmaq, Onun diqqətini özünə cəlb etmək mənası nəzərdə tutulur. Gördüyünüz kimi, leksik mənadan fərqli olaraq terminoloji mənada təvəssülün çərçivəsi müəyyən miqdarla məhdudlaşmışdır. Leksik mənada "təvəssül" dedikdə əsasən, "yaxın olmaq" nəzərdə tutulur. Bu yaxınlıq bəzən qadağan edilmiş vasitələrdən istifadə etməklə də baş tuta bilər. Terminoloji mənada isə əsas məqsəd "Allaha yaxın olmaq" olduğu üçün burada yalnız Allahın razılığını cəlb edəcək vasitələrdən istifadə etməyə icazə verilir. Deməli, Allahın qəzəbinə səbəb olan vasitələr insanı Ondan uzaq saldığı üçün bu növ təvəssül İslam dinində məqbul hesab olunmur.

## Təvəssülün inanc kontekstindəki yeri

Şübhəsiz ki, təvəssül inancla birbaşa bağlı olan bir məsələdir. Bu da o deməkdir ki, qadağan olunmuş təvəssül insanı İslamdan çıxarda bilər. Təvəssülə qarşı ortaya atılmış ən ciddi iddialardan biri budur ki, dünyasını dəyişmiş insanlara təvəssül edənlər özlərinin bu əməlləri ilə şirkə bulaşaraq İslam dinindən çıxırlar. Bu düşüncədə olan insanların qənaətlərinə görə, Məkkə müşrikləri məhz Allahdan qeyrilərinə üz tutub yalvardıqları, öz ehtiyaclarını Allahdan yox, başqalarından istədikləri üçün "müşrik" adlanıblar, halbuki onlar da Allahın varlığına inanır və onu hər şeyin yaradıcısı kimi qəbul edirdilər. Nəticədə, təvəssül inancla

[1] Cövhəri - əs-Sihah, c.5, səh.1841; İbn Faris - Mucəmu Məqayis əl-Luğəti, c.6, səh.110; İbn Mənzur - Lisanul-Ərəb, c.11, səh.724

birbaşa bağlı olduğu üçün olduqca həssas bir mövzudur və bu səbəbdən dəqiq şəkildə araşdırılmalıdır.

## Şirk nədir?

Təvəssül mövzusunu araşdırmazdan əvvəl izaha ehtiyacı olan məsələlərdən biri "şirk" mövzusudur. Burada şirk məsələsinə qısa da olsa, aydınlıq gətirilməsinin zəruri olduğunu düşünürük.

Şirk nədir? Bu sualın cavabı bir qədər mürəkkəbdir. "Şirk" deyilərkən kiminsə və ya nəyinsə Allaha zatı, sifətləri və feillərində ortaq edilməsi nəzərdə tutulur. Bu tərif bir qədər nöqsanlıdır. Şirki bu şəkildə və heç bir qeyd əlavə etmədən açıqlamaq dəqiq olmaya bilər, çünki "Allaha şərik qoşmaq" heç də hər zaman Quranın məzəmmət etdiyi və əbədi əzab vəd etdiyi şirkin çərçivəsinə dail olmur. Deməli, şirki bu şəkildə izah etmək istəsək, ciddi iradlarla üzləşərik. Məsələn, Quran özü bir çox ayələrdə Allahın bəzi sifətlərində şəriklərinin olduğunu bildirmişdir. Nümunə üçün aşağıdakı ayələrə nəzər salaq:

1) Sən ruzi verənlərin ən yaxşısısan;[1]

2) Sən hakimlərin ən yaxşısısan;[2]

3) Yaradanların ən yaxşısı olan Allah çox xeyir-bərəkətlidir!;[3]

4) Sən rəhmlilərin ən rəhmlisisən.[4]

Qeyd olunan ayələrdə Allah-taala ruzi verənlərin, hökm edənlərin, rəhm edənlərin və yaradanların ən yaxşısı olaraq vəsf olunur. Məlum məsələdir ki, ortada başqa ruzi verənlər, hökm edənlər, yaradanlar vardır ki, Allah onların ən yaxşısı hesab olunur.

Quran ayələrinə əsasən, belə qənaətə gəlmək olar ki, Quranda əbədi cəhənnəm əzabı vəd olunan şirk mütləq və birmənalı şəkildə Allaha məxsus olan cəhətlərin Ondan qeyrisinə aid edilməsidir. Bu, necə olur? Qurani-Kərimin özü Allahdan başqa ruzi verənlərin, hökm edənlərin, yaradanların olduğunu qeyd etmirmi? Sözügedən xüsusiyyətlər Allaha məxsus deyilmi?

---

[1] Maidə surəsi, 114-cü ayə
[2] Hud surəsi, 45-ci ayə
[3] Muminun surəsi, 14-cü ayə
[4] Əraf surəsi, 101-ci ayə

Cavab budur ki, həmin xüsusiyyətlər Allaha məxsusdur, lakin eyni zamanda insanlara da aid edilə bilər. Bu ikisi arasındakı fərq ondan ibarətdir ki, sözügedən xüsusiyyətlər Allaha aid edildikdə "mütləqlik" və "qeyd-şərtsizlik" səciyyəsi daşıyır, başqasına aid edildikdə isə Allahın izni, icazəsi və istəyi şərt hesab edilir. Daha sadə dildə desək, Allah-taala qeyd olunan xüsusiyyətlərə müstəqil şəkildə sahibdir, yəni O, müstəqil şəkildə ruzi verir, hökm edir, yaradır. Heç bir varlıq onun iradə və istəyinin önünə sədd çəkə bilməz. Lakin bu xüsusiyyətlər digər varlıqlara aid edildikdə artıq Allah üçün səciyyəvi olan "müstəqillik" öz mənasını itirir, çünki Allahdan qeyri varlıqlar bu işləri yalnız Onun istəyi daxilində görə bilərlər. Qeyd olunan izahdan belə qənaətə gəlmək olar ki, Quranda qadağan edilmiş şirk hansısa xüsusiyyətin Allahdan başqasına aid etmək və onun bu xüsusiyyətə müstəqil şəkildə sahib olduğunu söyləməkdir. İnsanı dindən çıxaran böyük şirk məhz budur. Bir də "riyakarlıq" kimi kiçik şirklər vardır ki, bunlar insanın dindən çıxmasına səbəb olmaz. Düzdür ki, riyakarlıq kimi xüsusiyyətlərdə niyyətdə başqaları Allaha şərik qoşulur, lakin burada Allaha aid olan hansısa atribut şərik qoşulan şəxsə müstəqil şəkildə aid edilmir. Bu səbəbdən də, kiçik şirklərə bulaşmış insan dindən çıxmış hesab edilmir.

Şirklə bağlı qeyd etdiyimiz izahın təvəssül məsələsində bizə çox faydası vardır. Tərifdə qeyd olunan meyar əsasında hansı növ təvəssülün şirk olub-olmadığını rahat şəkildə ayırd edə bilərik. Belə ki, əgər təvəssül edən şəxs təvəssül etdiyi vasitənin sahib olduğu xüsusiyyətlərdə müstəqil olduğuna inanırsa, deməli, onun bu təvəssülü heç şübhəsiz şirkdir. Yox, əgər təvəssül etdiyi vasitənin məhz Allahın rəhmət və lütfü sayəsində bu məqama yüksəldiyini, Allahın istəyi olmadan onun da heç nəyə qadir olmayacağını, sahib olduğu hər şeyin Allah tərəfindən bəxş edildiyini düşünsə, bu əməl qəiyyən "şirk" hesab olunmaz. Ən uzağı bidət və ya heç bir faydası olmayan bir davranış hesab oluna bilər.

## Təvəssül Quranın əmridir

Təvəssül etmək Quranda əmr olunan əməllərdəndir. “Maidə” surəsinin 35-ci ayəsində bu barədə belə deyilir: “Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün bir vasitə axtarın. Onun yolunda cihad edin, bəlkə nicat taparsınız!” Ayədə Allaha yaxınlaşmaq üçün vasitə axtarmaq əmr olunur. Təvəssülün leksik mənasını izah edərkən ərəb dilində bir şeyə yaxın olmaq üçün istifadə edilən vasitəyə “təvəssül” deyildiyini qeyd etmişdik. Deməli, biz Allaha yaxın olmaq üçün vasitələrdən istifadə etməliyik, başqa sözlə desək, Allaha yaxın olmaq üçün təvəssül etməliyik. Şübhəsiz ki, burada əsas hədəf “Allaha yaxınlaşmaq” olduğu üçün istifadə olunan vasitələr onun razı qaldığı şeylər olmalıdır. Məlum məsələdir ki, Onun qəzəbinə səbəb olacaq işlər insanı Allaha yaxınlaşdırmaq əvəzinə Ondan daha da uzaq salacaqdır. Buradan belə nəticəyə gəlirik ki, Qurani-Kərim möminlərə Allaha yaxınlaşmaq üçün vasitələrdən istifadə etməyi əmr edir. Sadəcə, burada Allahın hansı vasitələrdən razı, hansılardan isə razı qalmadığını müəyyən etmək lazımdır.

## Təvəssül barədə önəmli bir qeyd

Təvəssülün ərəb dilində hansı mənanı ifadə etdiyini daha əvvəl diqqətinizə çatdırdıq. Dilçilərin bu sözün izahı ilə bağlı qeyd etdikləri nümunələrdən aydın oldu ki, “təvəssül” başqa birinə yaxın ola bilmək üçün hansısa vasitədən istifadə edilməsinə deyilir. Təvəssülün tərifində yer alan “yaxın olmaq” qeydi olduqca önəmlidir, çünki bu qeyd vasitələrə üz tutmağın, kimdənsə kömək istəməyin hər növünün həqiqətdə təvəssül hesab oluna bilməyəcəyini göstərir. Yəni Peyğəmbərin (s) ruhunu vasitə təyin edib hansısa dünyəvi ehtiyacın təmin edilməsini Allahdan istəmək, verilən tərifə əsasən, təvəssül hesab olunmur. Ona görə ki, hansısa dünyəvi çətinliyinin həll edilməsini istəyən şəxs əgər sırf həmin çətinliyinin aradan qalxması üçün bu işi görürsə, deməli, onun gördüyü iş təvəssül hesab olunmayacaqdır.

Səbəbi də budur ki, sözügedən şəxs Peyğəmbərin (s) ruhunu vasitəçi etməklə yalnız dünyəvi çətinliyinin aradan qaxlmasını arzulayır və ümumiyyətlə, Allaha yaxınlaşmağı xəyalından belə, keçirmir. Deməli, Peyğəmbər (s) və ya digər məsumlardan yardım diləmək o zaman təvəssül hesab oluna bilər ki, təvəssül edən şəxsin əsas məqsədi "Allaha yaxınlaşmaq" olsun. Məsələn, Peyğəmbərə (s) təvəssül edərək gecə namazı qılmağa müvəffəq olmasını Allahdan istəsin. Məlum məsələdir ki, burada Peyğəmbərin (s) vasitəçi təyin edilməsinin məqsədi "Allahın razılığını qazanmaq və ona yaxınlaşmaq" olduğu üçün bu əməl "təvəssül" hesab olunacaq. Gündəlik həyatlarında dünyəvi problemlərini həll etmək üçün insanların biri-birlərindən yardım diləməkləri qətiyyən təvəssül hesab olunmur, çünki qeyd olunan yardımlaşmada Allaha yaxınlaşmaq nəzərdə tutulmur. Əgər təvəssülü bu qəbildən olan davranışlardan ayırd etməsək, o zaman insanların biri-birlərinə yardım etmələri və vasitəçi olmalarını istəmələri təvəssül hesab edilməlidir. Fikrimizcə, heç bir İslam alimi bu işlərin "təvəssül" olduğunu söyləməz. Qeyd olunanlardan bu nəticəyə gəlirik ki, bir işin təvəssül hesab olunması üçün həmin işdə Allaha yaxınlaşmaq niyyətinin olması şərtdir.

## Təvəssülün düzgün olduğunu sübuta yetirən Quran dəlilləri

Təvəssülün isbatı üçün istinad olunan ən önəmli ayələrdən biri "Nisa" surəsinin 64-cü ayəsidir. Ayədə belə deyilir: "Biz hər bir peyğəmbəri, ancaq ona Allahın əmri ilə itaət olunsun deyə, göndərdik. Əgər onlar özlərinə zülm etdikləri (Allahın əmrlərini pozduqları) zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv diləsəydi, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər". Ayədə özlərinə zülm edən insanlar üçün tövbə yolu göstərilib. Diqqət edin! Ayədə deyilir ki, özlərinə zülm edənlər gərək peyğəmbərin qapısına gəlsinlər, daha sonra Allahdan bağışlanmaq istəsinlər, bundan əlavə, bir də peyğəmbər onlar üçün bağışlanmaq istəsin. Əgər sadalanan bu şərtlər yerinə yetsə, o zaman onlar Allahın

necə mehriban olduğunu görərlər. Deməli, bağışlanmağın şərtlərindən biri və başlıcası peyğəmbərin qapısına gəlmək, Allahdan bağışlanmaq diləməsi üçün ona iltimas etməkdir. Əgər bəndənin Allahla öz arasında kimisə vasitə qərar verməsi və ondan kömək diləməsi qadağan olmuş olsaydı, o zaman Quran heç bir halda şirk məzmunlu bir əməli insanlara tapşırmazdı.

## Təvəssülün isbatına dair sünnədən hədislər

Təvəssülün isbatı mövzusunda Qurandan bir ayə qeyd etməklə kifayətlənirik. Fikrimizcə, təvəssülün isbatına dair Quranda mövcud olan ən tutarlı ayə "Nisa" surəsinin 64-cü ayəsidir. Düzdür, bəzi alimlər təvəssülün isbatına dair Quranda keçən bir neçə ayəyə istinad ediblər, lakin həmin ayələr mübahisə mövzusu olan (Peyğəmbərin özünə) təvəssül mövzusu kontekstində dəlalət baxımından tutarlı dəlillər hesab olunmadığı üçün həmin ayələri Qurandan dəlil qismində qeyd etməyə lüzum görmədik. Burada əsas məqsəd dəlaləti möhkəm olan və heç bir mübahisəyə yer qoymayacaq dəlillərə istinad etməkdir. Önəmli olan şey istifadə olunan dəlilin möhkəmliyidir. Dəlil möhkəm və tutarlı olduqdan sonra sayın önəmi yoxdur. Yəni müzakirə olunan mövzu barədə istinad edilən dəlil möhkəm olduğu təqdirdə dəlillərin sayının bir və ya birdən çox olması artıq ciddi önəm daşımır. Mənbə Quran olduğu təqdirdə, ona istinadən təqdim olunan dəlil bir dənə olsa belə, müddəanın isbatı üçün kifayətdir.

Təvəssül mövzusunda Qurandan sonra ikinci ən etibarlı qaynaq hesab olunan sünnədə də dəlil qismində istinad oluna biləcək tutarlı dəlillər mövcuddur. Yuxarıda qeyd etdiyimiz kimi, önəmli olan şey dəlilin sayı yox, tutarlılığıdır. Ona görə də, bu bölümdə əhli-sünnə alimləri arasında yalnız sənəd baxımından səhih olduğu qəbul edilən hədislərə istinad edəcəyik.

## Kor kişinin hədisi

Birinci qeyd edəcəyimiz hədis Peyğəmbər (s) həyatda olarkən ona təvəssül etməyin icazəli olduğunu göstərən və “Hadis əd-darir” (Kor kişinin hədisi) adı ilə şöhrət tapmış hədisdir. Əhməd ibn Hənbəl bu hədisi özünün “Müsnəd” əsərində Osman ibn Hüneyfdən səhih sənədlə nəql edib. Osman ibn Hüneyf deyir: “Bir kor kişi Peyğəmbərin (s) yanında gəldi və dedi: “Allaha dua et ki, mənə şəfa versin”. Peyğəmbər (s) buyurdu: “İstəsən dua edərəm, istəsən bu işi təxirə salaram. Bu, sənin üçün daha xeyirlidir”. Kor kişi dedi: “Dua et”. Peyğəmbər (s) ona dəstəmaz almağı, daha sonra iki rəkət namaz qılmağı və bu duanı etməyi göstəriş verdi: “Ey Allahım! Səndən istəyirəm və sənə rəhmət mənbəyi olan peyğəmbərin Muhəmmədlə (s) üz tuturam. Ey Muhəmməd! Ey Allahım, sənin vasitənlə bu ehtiyacımın qarşılanması üçün Rəbbimə üz tuturam! Onun mənim barəmdə şəfaətini qəbul et”.[1]

Bu hədis ümumilikdə təvəssülün icazəli bir əməl olduğunu göstərir. Belə ki, kor kişi şəfa tapmaq məqsədi ilə Peyğəmbərin (s) yanına gəlir və ondan kömək istəyir. Deməli, Allahdan başqasından kömək istəmək insanı heç də hər zaman şirkə salmaz. Əgər istifadə olunan vasitə Allahın icazə verdiyi vasitələrdəndirsə, o zaman belə bir vasitədən kömək istəmək şirkə səbəb olmaz. Gördüyünüz kimi, ehtiyac məqamında vasitələrə üz tutmaq və onlardan yardım diləmək hər zaman “tövhidə zidd hərəkət” olaraq dəyərləndirilməməlidir. Önəmli olan şey vasitənin icazəli olub-olmadığına diqqət yetirməkdir. İnsan yalnız Allahın qadağan etdiyi vasitələrdən kömək istədikdə şirkə düşür.

## Xəlifə Ömərin Peyğəmbərin (s) əmisi Abbas ibn Əbdülmüttəlibə təvəssül etməsi

Xilafəti dövründə baş verən qıtlıq səbəbilə Ömər ibn Xəttabın Allah rəsulunun (s) əmisi Abbas ibn Əbdülmüttəlibə təvəssül etməsi hadisəsi əhli-sünnə alimləri arasında yekdilliklə qəbul edilmiş ən

[1] Əhməd ibn Hənbəl - Musnəd, c.4, səh.138; İbn Macə - Sunəni-İbn Macə, c.1, səh.418; Hakim Nisaburi - Mustədrək ələs-Sahiheyn, c.1, səh.313

etibarlı rəvayətlərdən biridir. Hədis "Səhihi-Buxari"də Ənəs ibn Malikdən nəql olunub. Ənəs deyir: "Qıtlıq zamanı Ömər Abbas ibn Əbdülmüttəlibə təvəssül edərək dedi: "Allahım! Biz sənə Peyğəmbərimizin (s) vasitəsilə təvəssül edərdik və sən bizə yağış yağdırardın. İndi isə Peyğəmbərimizin (s) əmisi ilə sənə təvəssül edirik, bizə yağış yağdır". Və yağış yağdı.."[1] Allahdan başqasına təvəssül etməyi icazəli bilənlərin istinad etdiyi ən önəmli dəlillərdən biri də bu hədisdir. Hədisdə qeyd olunduğu kimi, Ömər ibn Xəttab qıtlıq baş verdiyi vaxt Allah rəsuluna (s) təvəssül etdiklərini deyir. Xəlifə Ömərin bu həqiqəti dilə gətirərək etiraf etməsi təvəssülün icazəli bir əməl olduğunu göstərir. Əgər bu işdə dinə zidd bir şey olsaydı, şübhəsiz ki, Ömər heç vaxt belə bir işi yerinə yetirməzdi.

### Allahdan başqasını çağırmağın qadağan edilməsi

Quran-Kərimdə aşkar sürətdə Allahdan qeyrisini çağırmağın qadağan edildiyi bildirilir. Bu barədə "Cinn" surəsində belə deyilir: "Məscidlər Allahındır. Elə isə, heç kəsi Allahla yanaşı çağırmayın!"[2] Bəziləri iddia edirlər ki, bu ayə mübahisə obyektinə çevrilmiş təvəssülü konkret şəkildə qadağan edir. Belə ki, məscidlərin Allaha məxsus olduğunu qeyd edərək orada yalnız Allaha ibadət edilməsinin icazəli olduğunu söyləyir. Buradan aydın olur ki, Allahdan qeyrisini çağırmaq istənilən halda və istənilən formada qadağandır. Bu qadağa özlüyündə mübahisə obyektinə çevrilmiş təvəssülə də şamil olunmaqdadır, çünki hansısa saleh bəndəyə (peyğəmbər və ya qeyrisinə) təvəssül etmək, uzaqdan və ya məzarının yanına gələrək ondan nəsə istəmək, müşküllərin həll edilməsi üçün onu çağırmaq qeyd olunan ayənin əhatə dairəsinə daxil olduğu üçün haramdır. Qatadə nəql edir ki, yəhudi və xristianlar sinaqoq və kilsələrə daxil olduqları zaman orada başqalarını

[1] Səhihi-Buxari, c.2, səh.16, Əbvabul-istisqa
[2] Cinn surəsi, 18-ci ayə

çağıraraq Allaha şərik qoşurlar. Bu ayə nazil olaraq müsəlmanlara bu şirkdən uzaq durmağı və yalnız Allahı çağırmağı tapşırır.[1]

**Cavab:**

Sözügedən ayədə əsas istinad mərkəzi cümlədə keçən "çağırmaq" (دعا) feilidir. Bu söz lüğətdə "çağırmaq" mənasını versə də, Quranda istifadə formalarından asılı olaraq fərqli mənalarda işlənmişdir. Bu söz Allaha aid edildikdə kontekstə uyğun olaraq "ibadət etmək" mənasını verir. Digər hallarda isə leksik mənasına uyğun olaraq "çağırmaq" mənasında işlənir. Məsələn, "Ğafir" surəsinin 60-cı ayəsində "çağırmaq" (دعا) feili Allaha aid edildiyi üçün "ibadət etmək" mənasını verir. Həmin ayədə belə deyilir: "Rəbbiniz buyurdu: Məni çağırın ki, Mən də duanızı qəbul edim". Gördüyünüz kimi, ayədə "çağırmaq" feili Allaha aid edilmiş, buna görə də ayənin davamında bu əməl ibadət kimi səciyyələnədirilmişdir: "Əlbəttə, Mənə ibadət etməyi özünə sığışdırmayanlar tezliklə xar və xəcalətli şəkildə Cəhənnəmə daxil olacaqlar".

Deməli "çağırmaq" feili Allaha aid edildiyi zaman "ibadət" mənasını ifadə edir, çünki Allahı çağıranlar onu hər şeyi yaradan, idarə edən, onlara ruzi verən və s. atributlarla yad edərək çağırırlar. Lakin insanlar başqalarını çağırdıqları zaman qeyd olunan bu xüsusiyyətlər müzakirə mövzusu olmaqdan çıxır. Məsələn, Quranın bəzi ayələrində "çağırmaq" feili Allaha, Peyğəmbərə (s) və digər insanlara aid edilərək onların müxtləlif məqsədlərlə insanları çağırıldıqları deyilir. Nümunə üçün aşağıdakı ayələrə nəzər salaq:

"O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi çağırır".[2]

"Allah əmin-amanlıq yurduna dəvət edir və istədiyini (layiq gördüyünü) doğru yola yönəldir".[3]

"Peyğəmbər sizi Rəbbinizə iman gətirməyə çağırdığı halda, nə üçün Allaha iman gətirmirsiniz?"[1]

---

[1] Təbəri - Cami əl-Bəyan, c.29, səh.145
[2] İbrahim surəsi, 10-cu ayə
[3] Yunus surəsi, 25-ci ayə

Nümunə üçün qeyd etdiyimiz ayələrdə "çağırmaq" feili işlənsə də, onların heç birində "ibadət" mənası nəzərdə tutulmamışdır, çünki bir insanın digər bir varlığı çağırması o zaman ibadət hesab oluna bilər ki, çağırdığı varlığın müəyyən fövqəladə xüsusiyyətlərə sahib olduğuna iman gətirsin. Deməli, bir insanın özü kimi bəşər olan başqa bir insanı çağırması heç zaman "ibadət" hesab oluna bilməz. Buradan aydın olur ki, "Cinn" surəsində "Allahla birgə heç kəsi çağırma" deyilərkən məqsəd ibadət niyyətilə edilən çağırışdır. Başqa sözlə desək, ayənin qadağan etdiyi çağırış yalnız ibadətə şamil olunan xüsusi növ çağırışdır. Belə olan halda, onu insanların öz aralarında biri-birlərini çağırmalarına da aid etmək yanlışdır. Ona qalsa, gərək bu dünyada heç kim hansısa ehtiyaclarını ödəmək üçün başqa birini çağırmasın və ehtiyac yaranan zaman sadəcə, əllərini ilahi dərgaha uzadaraq dua etməklə kifayətlənsin. Şübhəsiz ki, Allah belə bir şeyi bizdən heç zaman istəməz.

## Ölülər eşitmir

Təvəssülün inkarı mövzusunda istinad olunan digər bir arqument budur ki, ölülərin bu dünya ilə əlaqələri kəsildiyinə görə artıq onlar dünyadakıları eşidə bilmirlər. "Fatir" surəsinin 22-ci ayəsində bu fakta rast gəlinir. Həmin ayədə belə deyilir: "Ölülərlə dirilər də eyni deyillər. Allah öz istədiyini dilədiyinin qulağına çatdırır. Sən isə öz sözünü qəbirdə yatanlara eşitdirə bilməzsən". Təvəssül zamanı təvəssül edən şəxsin əsas məqsədi təvəssül etdiyi şəxsin onu eşitməsi və problemlərinin həlli üçün bir iş görməsidir. Əgər dünyasını dəyişmiş şəxslər Quran ayəsinə əsasən istisnasız olaraq diriləri eşitmirlərsə, deməli, edilən təvəssülün də heç bir mənası qalmır.

**Cavab:**

Ölülərin eşitməsi əhli-sünnə alimləri arasında qəbul olunmuş əsas məsələlərdən biridir. Bu məsələ xüsusilə qəbir sorğu-sualı mövzusunda aktualdır. Dünyasını dəyişmiş şəxs qəbrə qoyulduqdan sonra mələklər

[1] Hədid surəsi, 8-ci ayə

tərəfindən sorğu-sual olunur. Meyitin həmin sorğu-sualı başa düşməsi və cavab verməsi üçün əvvəlcə eşitməsi lazımdır. Deməli, meyit eşidir və sorğu-sualın baş tutması üçün bu zəruridir.

Qeyd olunan ayəyə gəldikdə, bu ayə ölülərin eşitməsini inkar etmir. Sadəcə, kafirlərin haqq sözü eşitmədiklərini izah etmək üçün ayədə həmin şəxslər ölülərə bənzədilmişdir. Maraqlıdır ki, nəyə görə həmin insanlar məhz ölülərə bənzədiliblər? Əgər ölülər eşidirlərsə, o zaman kafirləri ölülərə bənzətməyin nə mənası var? Kafirlərin ölülərə bənzədilməsi o zaman məna ifadə edər ki, ölülər eşitməsin. Yalnız belə olan təqdirdə haqqı eşitməyən kafirləri qəbirdəki ölülərə bənzətmək məntiqli görünər. Ona görə ki, qəlb qulaqları kar olduğu, buna görə də haqq sözü eşitməyənlərin dünya həyatı ilə əlaqələri kəsildiyi üçün onlar eşitməyən ölülərə bənzədiliblər.

Əslində, dünyasını dəyişmiş şəxslərin dirilərin dediklərini eşitdiklərini söyləyən çoxlu sayda hədislər var. Məsələn, Allah rəsulunun (s) ona göndərilən salavatları eşitməsi. Peyğəmbərdən (s) nəql olunan və Albaninin də səhih hesab etdiyi "Harada olsanız, mənə salavat deyin, sizin salavatlarınız mənə çatır"[1] hədisi ölülərin diriləri eşidə biləcəyini göstərir. Mənavinin də haqlı olaraq qeyd etdiyi kimi, müqəddəs ruhlar bədənin əsarətindən ayrıldıqdan sonra artıq onlar üçün dünya həyatındakı məhdudiyyətlər aradan qalxır. Bundan sonra onlar mələklər aləminə yüksəldikləri üçün hər şeyi ya birbaşa özləri görür, ya da ki, mələklər onları hər şeydən xəbərdar edirlər.

Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, ölülərin diriləri eşitmələri reallıqdır və bu məsələni inkar edəcək heç bir möhkəm dəlil yoxdur. Əksinə, bir çox faktlar ölülərin diriləri eşitdiklərini isbat edir.

[1] Əhməd ibn Hənbəl - Musnəd, 8449-cu hədis

# İSLAMDA ŞƏFAƏT

## "Şəfaət" sözünün leksik mənası

İzahlı lüğət kitablarına nəzər saldıqda dilçi alimlərin şəfaət sözünün mənasında həmfikir olduqlarını görürük. Şəfaət ərəb mənşəli söz olub "şəf" (شفع) sözündən törəmişdir. "Şəf" sözünün mənası "cüt" deməkdir. Sözün antonimi "tək" (vitr) sözüdür. Bu məsdərdən düzələn "şəfaə" feili isə "tək olanı cüt etmək, bir olanı ikiləşdirmək" mənasını ifadə edir. Ərəb dilində qarnında balası olan dəvəyə "Naqətun Şafi" ( ناقة شافع) deyilir. Buna səbəb həmin balanın öz varlığı ilə anasının varlığına şərik olaraq, onunla cütlük yaratmasıdır.

Lüğət kitablarında qeyd olunduğu kimi, şəfaət (köməklik göstərmək) bir şəxsin bəzən leyhinə, bəzən isə əleyhinə ola bilər. İbn Faris yazır: "Bir şəxs mənə ədavətlə şəfaət edir" (ان فلانا يشفع لي بالعداوة) cümləsinin mənası "mənim əleyhimə köməklik göstərir" deməkdir". Deməli, bir nəfərə qarşı düşmənçilik edib ədavət bəsləmək həqiqətdə onun əleyhinə çalışmaq, onun zərər çəkməsinə vasitə olmaqdır. Bütün bu qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, "şəfaət" sözü bir şəxsin digərinə kömək etməsi mənasını daşıyır. Sadəcə, bu köməklik bəzən həmin şəxsin leyhinə, bəzən isə əleyhinə ola bilir.[1]

## Şəfaətin terminoloji mənası

İnsanlar qiyamət günü cəhənnəm əzabından qorunmaq və ya daha yüksək dərəcələrə nail ola bilmək üçün yardım axtarışında olacaqlar. Həmin gün Allah-taala bir qrup şəxsə insanların bu ehtiyaclarını ödəmək səlahiyyətini verəcəkdir. Bu köməklik dini mətnlərdə "şəfaət" sözü ilə ifadə edilmişdir. Deməli, şəfaət insanlara fayda vermək və ya onlardan hansısa zərəri uzaqlaşdırmağa deyilir. Qazi Əbdülcabbar şəfaəti belə izah edir: "Başqasına fayda vermək və ya ondan zərəri dəf

[1] Xəlil Fərahidi - Kitabul-Ayn, c.1, səh.261-262; Cövhəri - əs-Sihah, c.3, səh.1238; İbn Faris - Mucəm Məqayis əl-Luğəti, c.3, səh.201; İbn Mənzur - Lisanul-Ərəb, c.8, səh.183

etmək üçün kömək istənilməsinə şəfaət deyilir".[1] İbn Əsir də şəfaəti oxşar məzmunda izah edir: "Şəfaət günah və yanlışların bağışlanması üçün başqasından kömək istəməkdir".[2] İbn Teymiyyənin şəfaətə verdiyi tərif isə belədir: "Şəfaət – Allah və rəsulunun razı qaldığı, fayda görməyə layiq olan şəxsə fayda vermək və zərərin dəf edilməsinə layiq olan şəxsdən həmin zərərin dəf edilməsi üçün göstərilən köməyə deyilir".[3]

## Şəfaətlə təvəssülün fərqi

Burada haqlı olaraq sual yaranır ki, əgər şəfaət də bir başqasından yardım diləmək və həmin şəxsin Allahla bəndə arasında vasitəçilik etməsi kimi izah olunursa, o zaman təvəssüllə şəfaət arasında nə kimi fərq vardır? Ümumiyyətlə, aralarında fərq varmı, yoxsa verilən tərifə əsasən, şəfaət elə təvəssüldür və aralarında heç bir fərq yoxdur?

Təvəssüllə şəfaət arasında oxşar və fərqli cəhətlər var. Oxşar cəhət budur ki, hər ikisində vasitələrdən kömək istənilir. Fərqli cəhət isə təvəssülün bu dünyaya, şəfaətin isə yalnız qiyamət gününə aid olmasıdır. Buna görə də şəfaət barədə nəql olunan hədislərdə bu hadisənin yalnız Qiyamətə aid olduğu qeyd edilmişdir.

## Quranda şəfaət

Quran ayələrinə nəzər saldıqda şəfaətlə bağlı ayələrin iki fərqli məzmunda olduqlarını görürük. Bəzi ayələrdə qiyamət günü şəfaət inkar edildiyi halda, digər ayələrdə şəfaətin müəyyən şəxslər üçün icazəli olduğu bildirilir. Əvvəlcə həmin ayələrə nəzər salacaq, daha sonra isə bu ayələrin bir-biri ilə necə uzlaşdıqlarını tapmağa çalışacağıq.

---

[1] Qazi Əbdülcabbar - Şərhu-Usulil Xəmsə, səh.688
[2] İbn Əsir - ən-Nihayətu fi Ğaribil-Hədis, c.2. səh.485
[3] İbn Teymiyyə - Məcmuul-Fətava, c.7, səh.65

## Şəfaəti inkar edən ayələr

1) Qorxun o gündən ki, heç kəs digərinin cəzasını üzərinə almır, heç kəsdən şəfaət qəbul olunmur, heç kəsdən əvəz alınmır və onlara heç bir kömək göstərilmir.[1]

2) Qorxun o gündən ki, heç kəs heç kəsi müdafiə etmir, heç kəsdən əvəz qəbul edilmir, heç kəsə şəfaət fayda vermir və onlara (heç bir tərəfdən) kömək göstərilmir.[2]

3) Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün (səadət və cəzadan xilas olmağı ala bilməyəcəyiniz, maddi dostluqların fayda verməyəcəyi və şəfaətə layiq olmayacağınız gün) gəlməzdən qabaq sizə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyin! Kafirlər özləri zalımdırlar (həm özlərinə, həm də başqalarına zülm edirlər)".[3]

4) De: "Şəfaət bütünlüklə Allaha məxsusdur. (Çünki) göylərin və yerin hökmranlığı Ona məxsusdur. Sonra sizi Ona doğru qaytaracaqlar".[4]

## Şəfaətin olduğunu ifadə edən ayələr

1) Rəhman Allahdan əhd almış kəslərdən başqaları şəfaət etməyə qadir olmazlar.[5]

2) O gün Rəhman Allahın izn verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir.[6]

3) Onu qoyub çağırdıqları şəfaət verə bilməzlər. Yalnız haqqa şahidlik edənlər və bilənlər istisnadır.[7]

4) Buna görə də şəfaət edənlərin şəfaəti onlara fayda verməz.[8]

5) Bizim nə şəfaətçilərimiz, nə də canıyanan bir dostumuz var![9]

---

[1] Bəqərə surəsi, 48-ci ayə
[2] Bəqərə surəsi, 123-cü ayə
[3] Bəqərə surəsi, 254-cü ayə
[4] Zumər surəsi, 44-cü ayə
[5] Məryəm surəsi, 87-ci ayə
[6] Taha surəsi, 109-cu ayə
[7] Zuxruf surəsi, 86-cı ayə
[8] Müddəssir surəsi, 48-ci ayə
[9] Şüəra surəsi, 100-101-ci ayə

## Ayələr arasında necə uzlaşma aparmaq olar?

Quranın şəfaətdən bəhs edən ayələrinin fərqli məzmunları ifadə etdiklərini gördük. İlk baxışda insanda belə təsəvvür yaranır ki, bu ayələr arasında ziddiyyət var və onlardan biri digərini təkzib edir, lakin Quranşünas alimlər ayələr arasında heç bir ziddiyyətin olmadığını bildirirlər. Onların qənaətlərinə görə, şəfaəti inkar edən ayələr kafirlələ bağlıdır. Yəni dünyadan kafir olaraq köçənlər üçün Qiyamətdə heç bir şəfaət və köməyin olmayacağı bildirilir, lakin Qiyamətdə şəfaət edənlərin şəfaəti bu dünyadan imanla köçənlərin dadına çatacaq. Təbii ki, fərqli qrupdan olan insanların şəfaətə olan ehtiyacları da fərqli olacaq. Günahkar möminlər öz günahlarının bağışlanması, digərləri isə dərəcələrinin daha da artması üçün şəfaət olunacaqlar. Buna görə də təkcə şəfaəti inkar edən ayələrə əsaslanıb onu mütləq şəkildə inkar etmək doğru hesab oluna bilməz. Təbəri bu barədə belə yazır: ”Onlardan şəfaət qəbul olunmaz” ayəsi yalnız kafir olaraq ölən və bu dünyadan tövbəsiz köçənlərə aiddir...” Təbərinin belə bir qənaətdə olmasına səbəb Qiyamətdə Allah rəsulunun (s) şəfaət edəcəyini söyləyən çoxlu sayda hədislərin olmasıdır. Bu cəhətdən də Təbəri ayənin ümumi məzmun daşıdığını bildirsə də, şəfaətin olduğunu təsdiq edən çoxsaylı hədislər vasitəsilə ayənin ümumilikdən çıxdığını yazmışdır.[1] Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, şəfaətin doğruluğu Quran və səhih sünnə ilə sübuta yetir. Şəfaəti inkar edən bir qisim ayə isə onu mütləq şəkildə inkar etmir. Həmin ayələrin inkar etdiyi şəfaət sırf kafirlərə aiddir.

## Tərifəlayiq məqam

İslam Peyğəmbərinin (s) qiyamət günü şəfaət edəcəyi Quranda öz təsdiqini tapmış məsələlərdən biridir. “İsra” surəsinin 79-cu ayəsində bu barədə məlumat verilib. Həmin ayədə belə deyilir: “Gecənin bir vaxtı (yuxudan oyanıb) Quran oxu (namaz qıl). Bu, sənin üçün əlavə bir

[1] Təbəri - Camiul-Bəyan, c.1, səh.382

vəzifədir. Ümid var ki, Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin”. Təfsirçi alimlər ayədə “tərifəlayiq məqam” deyilərkən Allah rəsulunun (s) qiyamət günü şəfaət hüququna malik olmasının nəzərdə tutulduğunu yazmışlar. Vahididən nəql olunduğuna görə, təfsirçilər bu məsələdə həmfikirdirlər, lakin Təbəri özünün təfsir əsərində ayəni təfsir edərkən təriflənmiş məqamın nə olduğuna dair iki rəy qeyd edir. O, yazır ki, alimlərin əksəriyyətinə görə “təriflənmiş məqam” deyilərkən “şəfaət məqamı” nəzərdə tutulur: “Elm əhlinin əksəriyyəti belə deyir: Bu (məqam), rəbblərinin insanları qiyamət günü olduqları çətin vəziyyətdən qurtarmaq üçün Peyğəmbərin (s) onlara şəfaət edəcəyi məqamdır”. Daha sonra Təbəri bu barədə bir neçə hədis nəql edir. İkinci versiyaya görə, bu ifadə ilə Allah-taalanın Peyğəmbərini (s) ərşdə oturtmasına işarə edilmişdir. Bu görüş Mücahiddən nəql olunmuşdur. O, ayənin təfsiri barədə belə yazır: “Allah onu (s) ərşdə özü ilə bərabər otuzduracaqdır”. Təbəri ayənin təfsirini ehtiva edən hər iki görüşü qeyd etdikdən sonra bu iki rəy arasından şəfaətlə bağlı izahın daha tutarlı olduğunu qeyd edir və daha sonra bu barədə bəzi hədisləri nəql edir.[1] Əksər alimlərə görə, “İsra” sürəsində “tərifəlayiq məqam” deyilərkən “şəfaət məqamı” nəzərdə tutulmuşdur.

## Razılıq məqamı

Quranda şəfaətlə bağlı istinad edilən digər bir ayə “Züha” surəsinin 5-ci ayəsidir. Həmin ayədə belə qeyd olunur: “Tezliklə Rəbbin sənə o qədər (nemət) bəxş edəcək ki, razı qalacaqsan”. Təfsir kitablarında sözügedən ayənin izahı barədə fərqli açıqlamalar verilmişdir. Həmin açıqlamalardan birinə görə, ayədə “bəxş etmək” deyilərkən şəfaət məqamı nəzərdə tutulmuşdur. Belə ki, Rəbbi Peyğəmbərə (s) öz ümmətinə şəfaət etməsi üçün o qədər icazə verəcək ki, sonda Peyğəmbər (s) razı qalacaq. Sələbi özünün təfsir əsərində yazır ki, ayədə “bəxş etmək” deyilərkən “şəfaət məqamı” nəzərdə tutulur. Daha sonra o, belə bir hədis nəql edir: “Əbu Cəfər Muhəmməd ibn Əli (İmam

[1] Təbəri - Camiul-Bəyan, c.10, səh.179-182

Baqir) öz əmisi Məhəmməd Hənəfiyyədən, o da atası Həzrət Əlidən (ə) belə nəql edir: “Peyğəmbər (s) dedi: “Ümmətimə o qədər şəfaət edərəm ki, nəhayət, Rəbbim mənə səslənərək deyər: “Razı qaldınmı, ey Muhəmməd?” Mən cavabında deyərəm: “Razı qaldım”. Sonra (Həzrət Əli) buyurdu: “Siz – iraqlılar hesab edirsiniz ki, Quranda ən ümidverici ayə “De: “Ey Mənim özlərinə qarşı həddi aşmış və zülm edən bəndələrim! Allahın rəhmətindən ümidinizi üzməyin. Allah bütün günahları bağışlayır. O, bağışlayandır, rəhmlidir!”[1] Mən (ravi) dedim: “Bəli, biz belə hesab edirik”. (Həzrət Əli) buyurdu: “Lakin biz – Əhli-beyt deyirik: “Quranda ən ümidverici ayə “Tezliklə Rəbbin sənə o qədər (nemət) bəxş edəcək ki, razı qalacaqsan” ayəsidir və bu, şəfaətdir.[2]

Qeyd olunan hədisdən məlum olur ki, Allah rəsulunun (s) razı qalacağı şey öz ümmətinə şəfaət edərək onları cəhənnəm odundan qurtarmasıdır. Şübhəsiz ki, ən əzəmətli əxlaqa sahib olan bir adam üçün bundan böyük razılıq təsəvvür oluna bilməz. Ayənin izahı ilə bağlı qeyd edilmiş “cənnət qəsrləri”, “hurilər” və s. şəfaət məqamı ilə müqayisəyə belə, gəlməz. Ariflərin də qeyd etdikləri kimi, ilahi zatda fəna məqamına çatmış kamil insan üçün cismani ləzzətlərin elə də böyük dəyəri yoxdur. Kamilliyin ən uca zirvələrini qət etmiş bu insanların razı qalacaqları əsas şey Allah-taalanın öz bəndələrinə fayda vermək, onların şiddətli əzabdan xilas olmalarına vəsilə olmaqdır. Həqiqi Allah bəndəsi üçün bundan böyük razılıq məqamı ola bilməz.

## Sünnədən dəlillər

Şəfaət Quranla yanaşı, hədis mənbələrində də öz təsdiqini tapmış məsələlərdəndir. Burada mötəbər mənbələrdən bir neçə hədis nümunəsi qeyd edəcəyik. Məqsədimiz şəfaətin həm Quran ayələri, həm də səhih hədislərdə öz təsdiqini tapmış, inkar edilməsi mümkün olmayan, dəyişməz həqiqətlərdən biri olduğunu göstərməkdir. Həmin hədislərdən bir neçəsinə nəzər salaq:

[1] Zumər surəsi, 53-cü ayə
[2] Sələbi - Təfsiri-Sələbi, c.10, səh.224

## Peyğəmbərin (s) qəbul olunan duası

Müslimin öz "Səhih" adlı əsərində nəql etdiyi bir hədisdə Əbu Saleh Əbu Hüreyrədən, o da Allah rəsulundan (s) belə nəql edir: "Hər bir peyğəmbərin qəbul olunan bir duası var, (lakin) peyğəmbərlərin hər biri öz duasında tələsdi, mən isə duamı Qiyamətdə öz ümmətimə şəfaət etmək üçün saxlamışam. O (şəfaət), inşallah, şirk etmədən ölən hər bir kəsə nəsib olacaqdır".[1]

Əbu Zərənin Əbu Hüreyrədən nəql etdiyi başqa bir hədisdə isə hədis biraz fərqli məzmunda nəql olunub. Həmin hədisdə Allah rəsulunun (s) belə dediyi nəql olunur: "Hər bir peyğəmbərin qəbul olunan bir duası var. Onunla dua edər, duası qəbul olar və (istədiyi) ona verilər. Mən duamı Qiyamətdə öz ümmətimə şəfaət etmək üçün saxlamışam".[2] Eyni hədis Buxarinin "Səhih" adlı əsərində də keçib.

Buxari və Müslimdən başqa Əhməd ibn Hənbəl,[3] İbn Macə[4], Tirmizi,[5] və Beyhəqi[6] də bu hədisi nəql ediblər.

Məlum məsələdir ki, İslam Peyğəmbəri (s) kimi uca əxlaq sahibi olan bir insan heç vaxt əbəs və lüzumsuz yerə dua etmədiyi, etdiyi duaların da hər zaman hikmət və məsləhət əsasında olduğuna görə qəbul olunmaları üçün ortada heç bir maneə yoxdur. Bundan əlavə, Peyğəmbərin (s) əsas duasını öz ümmətinin qurtuluşu üçün qiyamət gününə saxlaması, öz şəxsi çıxarları üçün istifadə etməməsi onun necə rəhmli və öz ümmətinə canyandıran biri olduğunu göstərməkdədir.

---

[1] Səhihi-Müslim, c.1, səh.131
[2] Səhihi-Müslim, c.1, səh.131
[3] Musnəd, c.2, səh.275 və 462
[4] Sünəni-İbn Macə, c.2, səh.1440
[5] Sünəni-Tirmizi, c.5, səh.238
[6] Beyhəqi - Sünən əl-Kubra, c.8, səh.17; c.10, səh.190

## Şəfaət ümmətin böyük günah sahibləri üçündür

Ənəs ibn Malik Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Mənim şəfaətim ümmətimdən olan böyük günah sahibləri üçündür".[1] Hədisdə qeyd olunan "şəfaət" böyük günah sahibləri üçündür və onların Peyğəmbərin (s) şəfaət etməsi ilə Cəhənnəmdən qurtulacaqlarına işarə edir. Təyyibi bu barədə belə yazır: "Həlak olanlara qurtuluş bəxş edəcək şəfaət böyük günah sahiblərinə məxsusdur".[2] Hədisdə şəfaətin böyük günah sahiblərinə aid edilməsi heç də kiçik günah sahiblərinin şəfaətdən məhrum olacaqlarını göstərməz. Əksinə, əgər böyük günah sahibləri Qiyamətdə Peyğəmbərin (s) şəfaətinə nail olurlarsa, deməli, kiçik günah sahibləri də şəfaətdən mütləq şəkildə paylarını alacaqlar. Sadəcə, hədisdə böyük günah sahiblərinin xüsusi olaraq qeyd olunması qiyamət gününün daha çətin olmasına görədir.

Əhli-Sünnə alimləri bu hədisə istinad edərək böyük günah sahiblərinin şəfaət olunaraq Cəhənnəmdən çıxacaqlarını sübut etməyə çalışıblar, çünki xaricilər və mötəzilə alimləri bəzi Quran ayələrinə istinad edərək böyük günah sahiblərinin Cəhənnəmdə əbədi qalacaqlarını iddia ediblər. Mötəzilə alimlərinə görə, Allah rəsulunun (s) şəfaəti yalnız təqvalı şəxslərin dərəcələrini yüksəltmək üçündür, lakin sünni alimləri sözügedən hədisdən mötəzilə və xəvaric alimlərinin iddialarının əsasız olduğunu sübuta yetirmək üçün əsas arqument kimi istifadə ediblər. Ənəs ibn Malik Peyğəmbərdən (s) belə nəql edir: "Onların alınlarına "Bunlar Allahın Cəhənnəmdən azad etdikləridir" yazılacaq. Onlar Allahın azad etdikləridir, (Cəhənnəmdən) çıxarılaraq Cənnətə daxil olar, cənnətdəkilər onlara deyərlər: "Bunlar cəhənnəmliklərdirlər". Cabbar olan Allah deyər: "Xeyr, onlar Cabbarın azad etdikləridir".[3]

---

[1] Əhməd ibn Hənbəl - Musnəd, c.2, səh.213; Əbu Davud - Sünəni-Əbu Davud, c.2, səh.421; Tirmizi - Sünəni-Tirmizi, c.4, səh.45
[2] Təyyibi - Avnul-Məbud, c.13, səh.52
[3] Musnəd, 12491-ci hədis

## Qiyamətdə ilk şəfaət edən şəxs

Müslim özünün "Səhih" adlı əsərində Əbu Hüreyrədən belə nəql edir: "Peyğəmbər (s) buyurdu: "Mən qiyamət günü insanların seyyidiyəm, qəbirdən ilk dirilən şəxsəm, ilk şəfaət edən və şəfaəti qəbul olunanam".[1] Bu hədisdə Peyğəmbərin (s) bir sıra fəzilətlərinə işarə olunub. İlk olaraq Peyğəmbərin (s) insanların ən üstünü olduğu qeyd olunur. Bu üstünlüyün qiyamət gününə aid edilməsi isə bu dünyada bəzi insanların bunu danmasının mümkün olduğu halda, qiyamət günü bu həqiqətin hər kəsə gün kimi aydın olacağı, heç kimin onu inkar edə bilməyəcəyinə görədir. Necə ki, Qurani-Kərimdə mülkün həqiqi sahibinin Allah olacağı qiyamət gününə aid edilir. Peyğəmbərin (s) özünü insanların seyyidi, yəni ən üstünü olaraq tanıtmasından sonra qiyamət günü ilk şəfaət edən şəxs olaraq təqdim etməsi arasında məntiqi bağ vardır. Belə ki, insanlara şəfaət etmək, onları qiyamət gününün çətinliklərindən xilas etmək, şübhəsiz, ən üstün insana nəsib olacaq bir məqamdır. İnsanlar arasında bu şərəfə ondan daha layiqlisi yoxdur.

Müslimə şərh yazan İmam Nəvəviyə görə, bu hədis Peyğəmbərin (s) bütün isnanlardan üstün olduğunu açıq-aşkar şəkildə sübut edir. Nəvəvi iddia edir ki, əhli-sünnə məzhəblərinin inancına görə insanlar mələklərdən üstündürlər. Dolayısıyla, Peyğəmbər (s) mələklərdən də üstündür.[2]

## Digər peyğəmbərlərin və mələklərin şəfaəti

Şəfaət barədə nəql olunan bəzi hədislərdə qiyamət günü digər peyğəmbərlərin, mələklərin və möminlərin şəfaət etdikləri qeyd olunur. Buxarinin "Səhih"ində Əbu Səid Xudridən nəql olunan bir hədisdə belə deyilir: "Mələklər, peyğəmbərlər və möminlər şəfaət edərlər. Cabbar olan Allah deyər: "Mənim şəfaətim qaldı". Daha sonra Cəhənnəmdən bir parça götürər və orada yanmış kəsləri Cəhənnəmdən çıxardar..."[3]

[1] Səhihi-Müslim, c.7, səh.59
[2] Eyni mənbə
[3] Səhihi-Buxari, c.8, səh.182

Müslimdə nəql olunan oxşar məzmunlu bir başqa hədisdə isə Cəhənnəmdən çıxarılan həmin şəxslərin dünyada heç bir xeyir əməl görmədikləri qeyd olunur.[1]

Maraqlıdır ki, Fəxri Razi mələklərin şəfaət məqamına sahib olduqlarını Quran ayələrindən çıxarış edir. "Ğafir" surəsinin 7-ci ayəsində mələklərin möminlər üçün istiğfar etdikləri deyilir. Quran deyir: "Ərşi daşıyanlar (mələklər) və onun ətrafında olanlar Rəbblərinə sitayiş etməklə yanaşı, Onu pak sifətlərlə mədh edər, Ona (öz məqamlarına məxsus) iman gətirər, (insanlardan) iman gətirmiş şəxslər üçün bağışlanma diləyər (və deyər)lər: "Ey Rəbbimiz! Rəhmət və elmin hər şeyi əhatə etmişdir. Odur ki, tövbə edərək (etiqad və əməldə) Sənin yolunu gedənləri bağışla və onları cəhənnəm əzabından qoru!" Fəxri Raziyə görə "istiğfar" bağışlanma tələb etməyə deyilir. Bağışlanma isə ancaq əzabın aradan götürülməsi üçündür. Savab qazanmaq üçün dua etməyə istiğfar deyilməz. Deməli, mələklər günahlarının bağışlanmaları və cəhənnəm əzabından qurtulmaları üçün möminlərə Allahdan bağışlanma diləyərlər. Daha sonra Fəxri Razi yazır ki, əgər böyük günah sahiblərinin də ayədə keçən möminlər sırasına daxil olduğunu sübuta yetirə bilsək, o zaman onların da mələklərin şəfaətinə nail olacaqlarını deyə bilərik.[2] Burada bir məsələ qalır ki, qiyamət günü ilk şəfaət edəcək olan kimdir? Ona görə ki, bəzi hədislərdə ilk şəfaət edənin Cəbrayıl (ə) olduğu deyilir,[3] lakin digər hədislərdə ilk şəfaət edənin İslam Peyğəmbəri (s) olduğu qeyd olunur. Hafiz İbn Həcər bu hədislər arasında uzlaşma yaratmaq üçün qeyd edir ki, qiyamət günü hədislərdə qeyd olunan bütün dəstələr şəfaət edəcək, lakin onların arasında ilk şəfaət edən İslam Peyğəmbəri olacaq.[4]

## Şəhidlərin şəfaət etməsi

Qiyamət günü şəfaət edəcək zümrənin arasında şəhidlər də olacaq. Hədislərdə Qiyamətdə şəhidlərə şəfaət etmək üçün icazə veriləcəyi qeyd olunur. Əbu Dərda Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Şəhid öz ailəsindən yetmiş nəfərə şəfaət edəcək".[5] Əbu Davud hədisin

[1] Səhihi-Müslim, c.1, səh.116
[2] Fəxrəddin Razi - Təfsiri-Razi, c.27, səh.34
[3] Hakim Nisaburi - Müstədrək, c.4, səh.496
[4] İbn Həcər Əsqəlani - c.11, səh.556
[5] Əbu Davud - Sünəni-Əbu Davud, 2522-ci hədis

səhihliyi barədə bir söz deməsə də, Albani onun səhih olduğunu yazır. Əhməd ibn Hənbəlin Əbu Bəkrdən nəql etdiyi bir başqa hədisdə isə belə deyilir: "... sonra "şəhidləri çağırın" deyiləcək və onlar istədiklərinə şəfaət edəcəklər. Şəhidlər bunu etdikdən sonra Allah deyəcək: "Mən, rəhmlilərin ən rəhimlisiyəm. Mənə şərik qoşmayan hər kəsi Cənnətə daxil edin".[1]

## Quran və orucun şəfaət etməsi

Nəql olunan bəzi hədislərdə qiyamət günü Quran və orucun şəfaət edəcəyi qeyd olunur. Abdullah ibn Amr Peyğəmbərdən (s) belə nəql edir: "Qiyamət günü oruc və Quran bəndələrə şəfaət edəcək. Oruc deyəcək: "Ey Rəbb! Gündüz vaxtı yemək və digər istəkləri qadağan etdin, mənim şəfaətimi onun barəsində qəbul et". Quran deyəcək: "Gecə vaxtı yatmağı qadağan etdin, mənim şəfaətimi onun barəsində qəbul et" və hər ikisi şəfaət edəcəklər".[2]

Şəfaət barədə hər iki məzhəbin hədis kitablarında çoxlu sayda hədis nəql olunub. Nəql olunan həmin hədisləri bir yerə toplasaq, mütəvatir həddə olduğunu söyləmək mümkündür. Qazi İyaz şəfaət barədə nəql olunan hədislərin bütünlükdə təvatür həddinə çatdığını, əhli-sünnədən olan sələfi-saleh və sonradan gələn alimlərin bu mövzuda fikir birliyində olduqlarını yazır.[3]

Gördüyünüz kimi, İslam alimləri şəfaət barədə nəql olunan hədislərin mütəvatir olduqları barədə həmfikirdirlər. Sadəcə, burada səhih olduğundan tam əmin olduğumuz bəzi hədisləri qeyd etdik. Bu mövzuda nəql olunan digər hədislərlə tanış olmaq istəyənlər hədis kitablarına müraciət edə bilərlər.

[1] Əhməd ibn Hənbəl - Musnəd, c.1, səh.5
[2] Əhməd ibn Hənbəl - Musnəd, c.2, səh.174; Hakim Nisaburi - Müstədrək, c.1, səh.740; Heysəmi - Məcmə əz-Zəvaid, c.3, səh.740
[3] İmam Nəvəvi - Şərhi-Müslim, c.3, səh.35

## Şəfaətin qəbul olunma şərtləri

İslam alimləri şəfaətlə bağlı Quran ayələrinə istinad edərək şəfaətin qəbul olunması üçün bir sıra şərtlərin olduğunu qeyd ediblər. Şəfaətin qəbul olunma şərtləri aşağıdakılardır:

1) İzn və icazə: Şəfaətin ilk qəbul olunma şərti Allahın iznidir. Allahın izni olmadan heç kim şəfaət edə bilməz. Quran bu barədə belə deyir: "Göylərdə və yerdə olanların hamısı Ona məxsusdur. İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət edə bilər?!"[1]

2) Razılıq: Şəfaətin qəbul olunması üçün lazım olan digər şərt Allahın razılığıdır. Quran "Taha" surəsində ilahi icazə ilə yanaşı razılığı da şərt olaraq qeyd edir: "Həmin gün Rəhman Allahın icazə verdiyi və danışığını bəyəndiyi şəxslərdən (peyğəmbərlər, mələklər və əməlisaleh insanlardan) başqa heç kəsin şəfaətinin xeyiri olmaz". İlk şərtdə olduğu kimi, burada da razılıq həm şəfaət edən, həm də şəfaət olunana aiddir. Təkcə şəfaət edənin layiqli və Allahın razı qaldığı bəndələrdən olması kifayət etməz. Şəfaət olunanın da Allahın razı qaldığı bəndə olması şərtdir. Buna görə də kafir və müşriklər üçün şəfaət yoxdur, çünki onlar, küfr və şirk əhli olduqları üçün ilahi qəzəbə məruz qalıblar.

3) Əhd: Şəfaətin qəbul olunması üçün lazım olan son şərt əhddir. "Məryəm" sürəsində bu barədə belə deyilir: "Həmin gün Rəhman olan Allahın yanından (peyğəmbərlər, övliyalar və mələklər kimi) əhd-peyman almış şəxslərdən başqa (insanlardan heç kəsin) şəfaət etmək ixtiyarı olmaz".[2] İbn Abbas "əhd" deyilərkən ayədə "la ilahə illəllah" cümləsinin nəzərdə tutulduğunu bildirmişdir.[3] Bu təfsirə əsasən, qiyamət günü yalnız bu dünyadan müsəlman olaraq köçənlərə şəfaət olunacaq.

Qeyd olunan bu şərtlər bir daha onu göstərir ki, şəfaət heç də bəzilərinin yanlış anladığı kimi, oyunbazlıq deyildir. İstər şəfaət edən, istərsə də şəfaət olunan üçün dinimizdə müəyyən şərtlər qoyulub.

---

[1] Bəqərə surəsi, 255-ci ayə
[2] Məryəm surəsi, 87-ci ayə
[3] Təbəri - Camiul-Bəyan, c.9, səh.128

Həmin şərtlər bir yerə toplanmadığı təqdirdə kim olur olsun, şəfaətdən öz nəsibini ala bilməyəcək.

## Şəfaət barədə yaranan şübhələrin cavabı

İslam alimləri şəfaətin İslamda qəbul olunmuş təməl inanc əsaslarından biri olduğunu yekdilliklə qəbul etmişlər. Buna baxmayaraq, şəfaətin növləri barədə fərqli görüşlərin olduğunu görürük. Mötəzilə və xəvaric şəfaətin yalnız iman əhlinə şamil olunacağını qəbul edirlər. Onların qənaətinə görə, şəfaətin kafirlərə, həmçinin günahkarlara şamil olunması Quranın təməl prinsipləri ilə ziddiyyət təşkil etdiyi üçün imkansızdır. Mötəzilə alimlərinin şəfaət barədə belə bir qənaətə gəlmələrinə səbəb onların günahkarlar haqda olan "vəd" (əl-vəid) barəsindəki inanclarıdır. Bu inanca görə, Quranda cəhənnəm əzabına dair verilən vədlər kafirlər və müşriklərlə yanaşı, iman əhlindən böyük günah edib tövbə etmədən dünyasını dəyişənlərə də şamildir. Tanınmış mötəzilə alimi Qazi Əbdülcabbar bu barədə belə yazır: "Peyğəmbərin (s) öz ümmətinə şəfaəti edəcəyi məsələsi ümmətin yekdilliklə qəbul etdiyi məsələlərdəndir. Sadəcə, bu məsələdəki ixtilaf şəfaətin kimə şamil olunmasıdır. Bizə görə, şəfaət tövbə edən möminlər üçündür".[1] Qazi Əbdülcabbar başqa bir yerdə belə yazır: "Buradan şəfaətin namaz qılan fasiqlər yox, möminlər üçün olduğunu öyrəndin".[2] Bu görüşə əsasən, şəfaətin əsas məqsədi möminlərin dərəcə və savablarını artırmaqdır, bundan savayı heç bir faydası yoxdur. Xəvaricə gəldikdə, məlum olduğu kimi, böyük günah sahiblərini təkfir etmək onların qəbul etdikləri təməl inanc əsaslarından biridir. Bu etiqada əsasən, böyük günah sahibləri üçün heç vaxt şəfaət olmayacaq və onlar belə bir lütfdən yararlana bilməyəcəklər. Lakin mötəzilə və xəvaricdən fərqli olaraq, digər məzhəblərin nümayəndələrinə görə, Quran və hədislərdə öz təsdiqini tapmış şəfaət təkcə bu dünyadan tövbə ilə köçmüş möminlərə yox, həmçinin böyük günah sahiblərinə də şamildir. Belə ki, onlar

[1] Qazi Əbdülcabbar - Şərhu Usulil-Xəmsə, səh688
[2] Eyni mənbə, səh690

şəfaət edənlərin şəfaətləri sayəsində bir müddət Cəhənnəmdə qaldıqdan sonra oradan xaric olaraq Cənnətə gedəcəklər. İbn Teymiyyə yazır: "Mötəzilə məzhəbi böyük günah sahiblərinin Cəhənnəmdə əbədi qalacaqlarını, şəfaət və ya qeyrisi ilə oradan çıxmayacaqlarını deyir. Bu görüşlər yanlışdır, Qurana, mütəvatir sünnəyə, səhabələrin, digər əhli-sünnə və camaat nümayəndələrinin, din alimlərinin icmasına xilafdır".[1] Gördüyünüz kimi, şəfaət mövzusu ümumilikdə qəbul olunmuş bir məsələ olmasına baxmayaraq, onun təfərrüatı barədə fərqli qənaətlər var.

## Zalımların şəfaətçisi yoxdur

Qurani-Kərimin "Ğafir" surəsinin 18-ci ayəsində qiyamət günü zalımların heç bir köməkçi və şəfaət edəninin olmayacağı bildirilir. Həmin ayədə belə deyilir: "(Həmin gün) zalımların nə qohumları, nə də sözü qəbul edilən (itaət olunan) şəfaətçiləri olar". Mötəzilə alimləri bu ayəyə istinad edərək böyük günah sahiblərinin qiyamət günü şəfaətdən heç bir nəsibi olmayacaqlarını söyləyirlər. Quran zalımlara şəfaət olunmayacağını açıq-aşkar deyir. Məlum məsələdir ki, "zalım" zülm edənə deyilir. Böyük günah sahibi də etdiyi günahların nəticəsində özünə zülm edərək Cəhənnəmə düşəcək. Deməli, böyük günah sahibi özünə zülm etdiyi və Cəhənnəmə düşdüyü üçün zalımdır. Quran da zalımlara şəfaət olunmayacağını deyir. Mötəzilə alimi Qazi Əbdülcabbar yazır: "Allah-taala bu ayədə Peyğəmbərin (s) zalıma şəfaət etməyəcəyini və şəfaətin yalnız möminlərə aid olduğunu bəyan edir".[2]

### İradın cavabı

Bəzi alimlər bu irada cavab verərkən yazırlar ki, ayədə "qiyamət günü şəfaətdən məhrum edilən zalımlar" deyilərkən kafirlər nəzərdə tutulur, çünki küfr və şirk zülmün ən son həddidir. Allah zülmdə bu həddə çatanlara şəfaət edilməsinə icazə verməyəcək. Küfr və şirkin zülmün ən son mərhələsi olması isə Quranda öz əksini tapıb. "Loğman"

---

[1] İbn Teymiyyə - Məcmuul-Fətava, c.3, səh.453
[2] Qazi Əbdülcabbar - Mütəşabihul-Quran, c.2, səh.600

sürəsinin 13-cü ayəsində belə deyilir: "Həqiqətən, şirk ən böyük zülmdür".[1] Deməli, Quran zalımların şəfaət olunmayacağını deyərkən bütün zalımlar nəzərdə tutmur. Bunun ən böyük dəlili ayənin kontekstidir. Sözügedən ayədən əvvəl gələn ayələrə nəzər saldıqda kafirlərin cəhənnəm əzabı ilə təhdid olunduqlarını görürük. Buradan aydın olur ki, ayədə "zalımlar" deyilərkən böyük günah sahibləri yox, yalnız kafirlər və müşriklər nəzərdə tutulur. Belə olan halda, nəzər nöqtəsi olan ayəyə istinad edərək böyük günah sahiblərinin şəfaət olunmayacaqlarını söyləmək yanlışdır. Lakin bu cavab da əvvəlki cavab kimi tutarlı deyil, çünki ayədə keçən "zalım" sözünü yalnız zülmdə ən zirvə nöqtəyə çatmış kafir və müşriklərə aid etmək üçün möhkəm dəlillər təqdim etmək lazımdır. Ayənin konteksti isə qeyd olunan müddəa üçün yetərli dəlil hesab olunmur. Ola bilər ki, həmin surədə əsas nəzər nöqtəsi kafirlərdir, lakin şəfaətlə bağlı hökm qeyd olunarkən xüsusi təbəqə yox, zülm edənlərin hamısı nəzərdə tutulub. Məlum məsələdir ki, böyük günah edənlər zalımdırlar, əksi-təqdirdə onların Cəhənnəmə düşməsi heç bir məna kəsb etmir. Onlar özlərinə düçar olduqları günahlarla zülm etdikləri üçün sonda Cəhənnəmə düşüblər. Bundan əlavə, əgər sözügedən ayədə məqsəd təkcə kafirlər olsaydı, o zaman ayədə "zalımlar" yerinə "kafirlər" ifadəsinin işlənməsi daha münasib olardı.

Fikrimizcə, bu ayə barədə ən ideal təfsiri Fəxri Razi verib. O, özünün təfsir əsərində "zalım" sözünü "zülm edən" kimi izah edərək bu sözün təkcə kafirlərə yox, zülm edən hər təbəqəyə aid olduğunu yazır, lakin bununla yanaşı ayənin bütün zalımların şəfaətdən məhrum edilməsini nəzərdə tutmadığını yazıb. Fəxri Razi burada oxucunun diqqətini ayədə keçən "itaət olunan şəfaətçilər" hissəsinə yönəldir. Yazır ki, bu ifadə onu göstərir ki, ayədə "inkar olunan şəfaət" xüsusi növ şəfaətdir. İzahı budur ki, "itaət olunan şəfaətçilər" ifadəsi həmin şəfaətçilərin hər kəsin fövqündə dayanan, sözləri hamı tərəfindən dinlənən, əmr və göstərişlərinə sözsüz itaət edilən adamlar olduğunu göstərir. Şübhəsiz ki, Allahın fövqündə heç kim olmadığı üçün qiyamət

[1] Alusi - Ruhul-Məani, c.24, səh.59

günü belə bir şəfaət heç zaman baş tutmayacaq. Deməli, ayədə duası qəbul olan şəfaətçilər yox, itaət olunan şəfaətçilər inkar olunur.[1] Bu cavabdan aydın olur ki, mötəzilə alimlərinin ayədə keçən "zalım" ifadəsinə istinad edərək böyük günah sahiblərinin də şəfaət olunmayacaqlarına dair iddiaları tutarsızdır.

## Əzab görməsi vacib olan şəxslər

"Zumər" surəsinin 19-cu ayəsində bir qrup insana əzabın vacib olduğu qeyd edilir. Ayə belə deyir: "(Ey Peyğəmbər!) Məgər sən haqqında əzab sözü (hökmü) vacib olmuş kimsəni (qoruya bilər-sənmi)?! Məgər sən Cəhənnəmdə olanı qurtara bilərsənmi?" Bu ayənin zahiri məzmunundan belə anlaşılır ki, Cəhənnəmə daxil olan adam bir daha oradan çıxmayacaq. Üstəlik ayədə açıq şəkildə deyilir ki, hətta Peyğəmbər də (s) Cəhənnəmdə olanı qurtara bilməz. Halbuki şəfaətin böyük günah sahiblərinə də şamil olunduğunu qəbul etsək, o zaman bu məsələ Quran ayəsi ilə ziddiyyət təşkil edəcək. Quran aşkar şəkildə Peyğəmbərin (s) belə, cəhənnəmdəkiləri qurtara bilmədiyini dediyi halda, şəfaəti qəbul edənlər ayənin əksinə olaraq, Cəhənnəmdə olan bir dəstəni oradan qurtaracağına inanırlar. Qazi Əbdülcabbar yazır: "Ayə Allahın əzab verəcəyini xəbər verdiyi şəxsin Cəhənnəmdən çıxmayacağını göstərir. Əgər Allahın kafir və fasiqlər barədə belə bir xəbər verdiyi doğru olsa, o zaman bu (Cəhənnəmdən çıxmamaq), onların barəsində vacib olacaqdır. Həmçinin, (bu ayə) Peyğəmbərin (s) onlara şəfaət etməyəcəyinə dəlalət edir. Əgər Peyğəmbər (s) onlara şəfaət edəcəksə, o zaman onları Cəhənnəmdən qurtarması vacib olacaq, lakin Allah bunu açıq şəkildə inkar edir".[2]

### İradın cavabı

Bu irad şəfaətə qarşı iddia edilən iradların arasında ən tutarsızıdır, çünki ayədə barələrində əzab hökmü vacib olmuş kəslərin şəfaət olunmayacaqları qeyd olunur. Bunlar yalnız kafirlər və müşriklərdir.

[1] Fəxri Razi - Təfsiri-Razi, c.3, səh.57
[2] Qazi Əbdülcabbar - Mütəşabihul-Quran, c.2, səh.593

Böyük günah sahibləri isə bu hökmdən müstəsnadırlar, çünki Quran Allah-taalanın şirkdən başqa bütün günahları bağışlayacağını açıq şəkildə deyir: “Şübhəsiz, Allah Ona şərik qoşulmasını (bu günahı) bağışlamaz və ondan başqasını istədiyi şəxs üçün bağışlayar. Allaha şərik qoşan kəs, həqiqətən, böyük bir günah uydurmuşdur”.[1] Gördüyünüz kimi, ayədə yalnız şirk qoşmağın bağışlanmayacağı, yerdə qalan istənilən günahın bağışlana biləcəyi qeyd olunur. Böyük günah sahibləri şirk qoşmadıqları üçün onlar da bağışlana bilərlər. Əgər bağışlanma ehtimalı varsa, deməli, əzab hökmü onların barəsində vacib deyildir. Bu da onu göstərir ki, sözügedən ayə heç bir şəkildə böyük günah sahiblərinin şəfaətdən məhrum olduqlarına dəlalət etmir.

### Günahkarların şəfaət olunmağa layiq olmamaları

Mötəzilə alimlərinin böyük günah sahiblərinin şəfaət olunmayacaqlarına dair təqdim etdikləri arqumentlərdən biri də budur ki, etdiyi pis əməllər nəticəsində əzab görməyə layiq olan bir adamın şəfaət olunaraq Cənnətə düşməsi əqli cəhətdən imkansızdır. Belə ki, əgər Peyğəmbər (s) belə bir adama şəfaət edəcəksə, o zaman bu şəfaətin nəticəsi iki haldan xaric deyildir: a) Peyğəmbər (s) şəfaət edəcək, lakin şəfaəti qəbul olunmayacaq. Bu versiya mümkün deyil, çünki belə bir hadisənin yaşanması Peyğəmbərə (s) qarşı hörmətsizlik və onun hörmətinin sınması deməkdir; b) Peyğəmbər (s) şəfaət edəcək və şəfaəti də qəbul olunacaq. Bu versiya da mümkün deyil, çünki əzaba layiq olan bir adamın əzab görməyərək Cənnətə daxil olması qəbahətli bir işdir. Allah mütləq kamal sahibi olduğu üçün heç zaman qəbahətli iş görməz. Buradan belə nəticə alırıq ki, böyük günah sahiblərinin şəfaət olunmaları əqli cəhətdən imkansızdır.[2]

### İradın cavabı

Qeyd olunan bu irad digərlərindən fərqli olaraq sırf rasional iraddır. Digər iradlarda Quran ayələrinə istinad olunduğu halda, bu irad

[1] Nisa surəsi, 48-ci ayə
[2] Qazi Əbdülcabbar - Şərhu Usulil-Xəmsə, səh.689

birbaşa ağıl və məntiqə əsaslanır. Mötəzilənin bu iradı, əslində, onların əməl və onun nəticəsi arasındakı əlaqənin tamamilə ontoloji olduğuna dair inanclarından qaynaqlanır. Belə ki, mötəzilə alimlərinə görə, insanın axirətdəki mənzili, Cənnət və ya Cəhənnəmə gedəcəyi tamamilə bu dünyada gördüyü əməllərdən asılıdır. Əgər bu dünyada yaxşı işlər görübsə, qiyamət günü mütləq şəkildə Cənnətə gedəcək. Yox, əgər dünya həyatı başdan-ayağa günahla keçibsə, o zaman mütləq şəkildə Cəhənnəmə düşəcək. Başqa sözlə desək, yaxşı işlər görəni Cənnətə, pis işlər görəni isə Cəhənnəmə daxil etmək Allaha vacibdir. Əks təqdirdə onun ədalət sifəti haqqında ciddi iradlar yaranacaqdır.

Mötəzilədən fərqli olaraq digər İslam alimlərinə görə, insanın Cənnətə düşməsi üçün onun yaxşı işlər görməsi kifayət etmir. Burada ilahi rəhmət və mərhəmət faktoru önəmli rol oynayır. Belə ki, əgər ilahi lütf və kərəm olmasa, insan yaxşı işlər gördüyü halda, Cənnətdən məhrum ola bilər. Buna görə də bəzi Quran ayələri və hədislərdə ilahi lütf amili ciddi şəkildə vurğulanmaqdadır. Məsələn, "Fatir" surəsinin 35-ci ayəsində belə deyilir: "Elə bir Allah ki, Öz lütf və kərəmi ilə bizə daimi iqamətgah olan mənzillərdə yer verdi. Orada bizə nə bir əziyyət yetişər, nə də bir yorğunluq üz verər". Sözügedən ayədə cənnət əhli bu qurtuluşlarını ilahi lütf və kərəmə bağlayırlar, gördükləri yaxşı əməllərdən heç bir söz açmırlar. Əhməd ibn Hənbəlin Əbu Hüreyrədən nəql etdiyi bir hədisdə isə Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Sizdən heç kimin əməli onu (Cəhənnəmdən) qurtarmaz". Soruşdular: "Səni də, ey Allahın elçisi?" (Peyğəmbər) buyurdu: "Hətta məni də! Allahın məni öz rəhmətinə qərq etməsi istisnadır".[1] Deməli, insanların Cənnətə düşmələri ilahi lütf və kərəmə bağlıdır. Dünya həyatında gördükləri xeyir əməllər isə bu lütfün onlara şamil olunmasına vəsilə olur. Nəyinsə Allaha vacib olmasına gəldikdə isə, məlum məsələdir ki, Onun fövqündə dayanan heç bir varlıq olmadığı üçün kiminsə ona nəyisə vacib etməsi imkansızdır. Bütün bu qeyd olunanlardan aydın

[1] Əhməd ibn Hənbəl - Musnəd, c.2, səh.514

olur ki, mötəzilənin şəfaətə qarşı ortaya atdıqları şübhə onların əməl və onun nəticəsi barədə olan yanlış düşüncələrindən qaynaqlanır.[1]

Qeyd olunan bu cavab yaxşı olsa da, bir qədər anlaşılmazdır. Belə ki, "dünya həyatında görülən yaxşı əməllərin ilahi lütfün əməl sahibinə şamil olunmasına səbəb olacaq" deyilərkən konkret olaraq nə nəzərdə tutulur? Görülən bütün yaxşı əməllər bu lütfün bəndəyə şamil olunmasına səbəb olacaq, yoxsa, ortada müəyyən maneələr olacaq və bəndənin yaxşı əməl sahibi olması bu maneələri aradan apara bilməyəcək? Məsələn, yaxşı əməl sahibi olan nasibi Qiyamətdə şəfaət olunacaq, yoxsa şəfaətdən məhrum olacaq? Əgər desək ki, olunmayacaq, o zaman sonsuz lütf sahibi nəyə görə yaxşı əməl sahibi olan bəndəsini öz lütfündən məhrum edəcək? Yox, əgər desək ki, şəfaət olunacaq, o zaman hədislərdə nasibilərin bu qədər təhdid olunması nə məna daşıyır? Belə olan təqdirdə həmin hədislərin yenidən izah edilməsi zərurəti yaranır.

Fikrimizcə, burada ortaq məxrəc yaratmaq mümkümdür. Belə ki, yaxşı əməllərin şəfaət olunmaq üçün səbəb olduğunu deyərkən burada əməllər arasında fərq qoymaq lazımdır. Elə əməllər var ki, heç bir maneə ilə üzləşməyəcək və bəndə ilahi lütfdən öz nəsibini alacaq, lakin bəzi günah əməllər var ki, şəfaət üçün maneçilik törədəcək.

Bundan əlavə, Quranda bəzi ayələr Cənnətə daxil olmağın ilahi lütfdən asılı olduğunu ifadə etdiyi halda, bəzi ayələr də var ki, bunun birbaşa görülən əməllərin təbii nəticəsindən asılı olduğunu deyir:

"Onlara: "Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!" – deyə xitab ediləcəkdir".[2] "Etdiyiniz yaxşı əməllərin müqabilində mükafat olaraq yeyin və için, sizə nuş olsun!"[3]

Qeyd olunan bu ayələr arasında uzlaşma və ortaq məxrəc yaratmaq yalnız yuxarıda qeyd etdiyimiz izah əsasında mümkündür.

[1] Əvvad ibn Abdullah Mütiq - əl-Mutəzilə, səh.245
[2] Əraf surəsi, 43-cü ayə
[3] Mürsəlat surəsi, 42-ci ayə

# QEYB ELMİ

Tarix boyu İslam alimləri arasında müzakirəsi heç zaman bitməyən aktual mövzulardan biri də "qeyb" mövzusudur. Bu məsələ təkcə alimlərin deyil, sadə inanclıların da diqqətini özünə cəlb etmiş və fərqli fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Mövzu ilə bağlı yanaşmalar fərqli olduğu üçün qənaətləri də fərqlidir. Bir qrup alimin fikrincə, qeyb elmi yalnız Allaha aiddir və ondan savayı heç kim qeybi bilə bilməz. Allahdan qeyrisinin qeybdən xəbərdar olduğunu söyləmək insanın Allaha şərik qoşmasına gətirib çıxaracaq, lakin digərlərinə görə Allah qatında razı qalınmış kəslərin Onun izni ilə qeybi bilmələri mümkündür və bu inancda insanı şirkə aparacaq heç bir şey yoxdur. Ona görə ki, bu inancda olan birisi qeybi bilmənin yalnız Allahın izni və iradəsi ilə mümkün olduğunu söyləyir. Hansısa insanın qeybi bildiynə inanmaq insanı o zaman şirkə aparar ki, kimsə həmin şəxsin bu elmi müstəqil şəkildə əldə etdiyinə inansın. Maraqlısı budur ki, hər iki dəstə də öz fikirlərini əsaslandıran zaman Quran ayələrinə istinad edirlər. Buradan belə anlaşılır ki, Quranın qeyb haqqındakı ayələri mütəşabihdir, tam şəffaf deyildir. Doğru nəticəni almaq üçün əvvəlcə qeyb haqqında danışan möhkəm ayələri araşdırıb tapmaq, daha sonra isə mütəşabih ayələri həmin möhkəm ayələrin rəhbərliyi altında təfsir etmək lazımdır. Yalnız bu metodla qeyb haqqında düzgün və obyektiv nəticə əldə etmək mümkündür, lakin bu mövzulara keçməmişdən əvvəl müqəddimə olaraq "qeyb" məfhumunun leksik və terminoloji mənalarına açıqlama gətirmək lazımdır.

## "Qeyb" sözünün leksik mənası

Ərəb dilinin izahlı lüğət kitablarında "qeyb" sözünün insanın hiss üzvlərindən gizli olan şeyləri ifadə edən bir məfhum olduğu qeyd edilmişdir. Lüğət alimlərinin "qeyb" sözünə verdikləri müştərək tərif belədir: "Səndən gizli qalan hər şey qeydbir".[1] İbn Faris də "qeyb"

[1] Cövhəri - əs-Sihah, c.1, səh.196; İbn Mənzur - Lisanul-Ərəb, c.1, səh.654; Firuzabadi - əl-Qamus əl-Muhit, c.1, səh.112; Zübeydi - Tacul-Arus, c.2, səh.295

sözünün “bir şeyin gözlərdən gizli qalması”nı ifadə etdiyini yazır.[1] Xəlil Fərahidinin “qeyb” sözünə verdiyi tərif isə bir qədər fərqlidir. Müəllif öz kitabında qeyd etdiyi ilk məna “şəkk”dir. Bəzi lüğət alimlərinin Xəlil Fərahidinin bu izahını əsas götürərək öz kitablarında “qeyb” sözünün sözügedən mənasına üstünlük verdiklərini görmək olar. Məsələn, Zübeydi “Tacul-Arus” adlı kitabında “qeyb” sözünü izah edərkən ilk olaraq “şəkk” sözünü qeyd etmişdir. Maraqlısı budur ki, Zübeydi bu mənanın dilçi alimlər arasında mübahisə obyektinə çevrildiyini yazır. Onun sözlərinə görə, bir qrup dilçi alim bu mənanı həqiqi hesab etdikləri halda, digərləri həmin mənanın məcaz olduğu qənaətindədirlər.[2] Əgər bu mənanın doğru olduğunu qəbul etsək, o zaman qeyd olunan məna üçün məntiqli izah gətirmək, fikrimizcə, elə də çətin olmayacaqdır. Belə ki, digər lüğət alimlərinin qeyd etdikləri mənanı əsas götürsək, o zaman gözlərdən gizli qalan şeylərin hər zaman şəkk və şübhə doğurduğunu söyləyə bilərik.

## “Qeyb” sözünün terminoloji mənası

“Qeyb” sözünün leksik mənası aydın olduqdan sonra növbə onun terminoloji mənasının açıqlamasına çatdı. Qeyd olunduğu kimi “qeyb” sözü lüğətdə bir şeyin gözlərdən gizli qalmasına deyilir, lakin bu gizlilik bəzi hallarda nisbi xarakter daşıya bilir. Yəni müəyyən şəxsə nisbətdə gizli olan bir şey başqasına nisbətdə aşkar ola bilər. Buradan aydın olur ki, qeyb həqiqətləri nisbi və mütləq olmaqla iki hissəyə ayrılır. “Mütləq qeyb” dedikdə barəsində məlumat əldə etməyin heç bir şəkildə mümkün olmadığı şeylər nəzərdə tutulur. Məsələn, Allahın zatı mütləq qeyb üçün ən gözəl nümunədir. İslam alimləri yekdilliklə Allahın zatı haqqında məlumat əldə edilməsinin imkansız olduğu barədə həmfikirdirlər. Əlbəttə, burada Allahın zatı barədə məlumat əldə edilməsinin imkansız olduğu deyilərkən varlığın özünü birbaşa əhatə edərək məlumatı əldə etməsini imkansızlığı nəzərdə tutulur. Allahın yaratdıqlarına nəzər salaraq Allahın zatı barəsində əldə olunan ümumi – Allahın alim, qadir,

[1] İbn Faris - Mucəm Məqayis əl-Lüğəti, c.4, səh.403
[2] Zübeydi - Tacul-Arus, c.2, səh.295

hikmət sahibi, lütf sahibi, rəhman, rəhim olması kimi – məlumatlar nəzərdə tutulmur, çünki bu qəbildən olan məlumatlar birbaşa yox, dolayı yolla əldə edilir. Deməli, mütləq qeybi bilmək bəşər övladı üçün mümkün deyil, lakin nisbi qeybdə vəziyyət bir qədər fərqlidir. Burada artıq insanların sahib olduqları imkanlardan asılı olaraq nisbi qeyblər haqqında məlumat əldə etmələri mümkündür, lakin bu imkanlar da insanların mənəvi və fiziki tutumlarından asılı olaraq bir-birindən fərqlənir. Elə şeylər var ki, onun haqqında məlumat əldə etmək hamı üçün mümkündür. Məsələn, 100 il bundan əvvəl insanlığa məlum olmayan o qədər şeylər var idi ki, hal-hazırda elmi inkişaf sayəsində həmin şeylərdən xəbərdarıq, lakin bəzi şeylər də var ki, sahib olduğumuz normal imkanlarla onların barəsində elm əldə etmək mümkün deyildir. Buna Cənnət və Cəhənnəmi misal göstərmək olar. Elm nə qədər inkişaf etsə də, Cənnət və Cəhənnəm haqqında məlumat əldə edə bilməz. Ona görə ki, insan övladının sahib olduğu elm sahələri bu barədə məlumat əldə etmək iqtidarında deyil. Bunun üçün başqa bir elmi mənbəyə ehtiyac vardır. Həmin elmi mənbə dində "vəhy" adlanır. İnsanlar yalnız vəhyin köməkliyi ilə Cənnət və Cəhənnəm haqqında məlumat əldə edə bilərlər.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar: "Qeyb, haqqında normal vasitələrlə məlumat əldə edə biləcəyimiz mümkün olmayan və haqqında yalnız vəhyin köməyi ilə məlumat əldə edə biləcəyimiz həqiqətlərə şamil olunur" .

## Qeybin növləri

İslam alimləri qeybin mütləq və nisbi olmaqla iki qismə bölündüyünü yazmışlar. "Mütləq qeyb" dedikdə insanların sahib olduqları idrak vasitələri (hiss üzvləri və ağıl) ilə dərk edilməsi imkansız olan həqiqətlər nəzərdə tutulur. Məsələn, Qiyamətin vaxtı, bərzəx aləmi, Cənnət və Cəhhənnəm, sirat körpüsü və s. kimi həqiqətlər haqqında normal vasitələrlə məlumat əldə etmək mümkün olmadığı üçün onlar "mütləq qeyb" hesab olunur, lakin dünya həyatında bir qrup insana məlum olduğu halda, digərlərinə gizli qalan həqiqətlər "nisbi

qeyb" adlanır. Məsələn, İsa peyğəmbərin (ə) insanların evlərində yedikləri yeməklərdən və yığıb saxladıqları şeylərdən xəbər verməsi[1] "nisbi qeyb" hesab olunur, çünki onun xəbər verdiyi məlumatlar digər insanlar üçün qeyb hesab olunsa da, evin içində yaşayan insanlar üçün qeyb hesab olunmur. Bundan əlavə, digər insanlar da sahib olduqları normal idrak vasitələri ilə həmin şeylər haqqında məlumat əldə edə bilərlər. Qeyd olunan bu bölgüdə insanların sahib olduqları idrak vasitələri (hiss üzvləri və ağıl) ilə məlumat əldə edib-edə bilməmələri əsas meyar hesab olunur.

## Qeybi Allahdan başqası bilə bilərmi?

Qeyd olunan sual barədə İslam alimlərinin görüşləri birmənalı deyildir. Bir qrup alimə görə, qeybi yalnız Allah bilir, ondan qeyrisi heç vaxt qeybi bilə bilməz. İnsanların qeybi bildiklərini iddia etmək Quranın açıq-aşkar ayələrini inkar etməkdir ki, bu da sonda insanın kafir olması ilə nəticələnir. Lakin digər bir qrup alimlərə görə, Allahın seçdiyi xüsusi şəxslərin qeybdən xəbərdar olmaları mümkündür. Bu müddəanın leyhinə əqli və nəqli dəlillər var. İndi isə növbə ilə hər iki qrupun öz iddialarını necə əsaslandırdıqlarına nəzər salaq:

## Qeybi Allahdan başqasının bildiyini iddia edənlərin dəlilləri

Qeybi bilməyin yalnız Allaha aid olmadığını, Onun dərgahında xüsusi məqama sahib olan bəzi insanların qeyb məlumatlarına yiyələnə biləcəklərini söyləyənlərə görə, bu iddianı həm əqli, həm də nəqli dəlillərlə əsaslandırmaq mümkündür. Əvvəlcə qeyd edək ki, burada "qeyb məlumatları" dedikdə "mütləq qeyb" nəzərdə tutulmur, çünki mütləq qeybi bilmək yalnız Allaha aiddir. Deməli, saleh bəndələrin məlumat sahibi ola biləcəkləri qeyb "nisbi qeyb"dir. "Nisbi qeyb" dedikdə isə qeybin qisimlərinə dair əvvəlki bölümdə qeyd etdiyimiz məna nəzərdə tutulur. Yəni Allahın zatından savayı hər bir şey nisbi qeyb hesab olunur.

[1] Ali-İmran surəsi, 49-cu ayə

## Əqli dəlil

Kimliyindən asılı olmayaraq bütün insanlar üçün normal şərtlər daxilində qeybi bilməyin qeyri-mümkün bir hal olmasına baxmayaraq Allahın bildirməsi ilə qeyb həqiqətləri haqqında məlumat əldə etmək özlüyündə mümkündür. Deməli, ağıl qeyb haqqında məlumat əldə etməyin özlüyündə mümkün olduğunu söyləyir. Lakin qeybi bilməyin özlüyündə mümkün bir hal hesab olunması hər kəsin qeybi bildiyini söyləməyimizə əsas vermir, çünki bu iki məqam arasında heç bir məntiqi bağlılıq yoxdur. Bir şey özlüyündə mümkün olması ilə həyata keçməsi arasında yerdən göyə qədər fərq vardır. Məsələn, hər bir insan potensial olaraq Marsa uça bilər və bu hal özlüyündə mümkündür, lakin bu işin mümkün olduğunu söyləmək heç vaxt “bütün insanlar Marsa uçur” nəticəsini doğurmur.

## Nəqli dəlil

Qeybi bilməyin yalnız Allaha aid olmadığını, Allah tərəfindən seçilmiş xüsusi şəxslərin də Onun bildirməsi ilə qeybdən xəbərdar ola biləcəklərini iddia edənlərin istinad etdikləri digər dəlillər nəqli dəlillərdir. Nəqli dəlillər dedikdə Quran və Peyğəmbərdən (s) nəql olunan səhih hədislər nəzərdə tutulur. Biz burada Quran ayələri və Peyğəmbərin (s) dilindən nəql olunan səhih hədislərdən tədqiq etdiyimiz mövzunun leyhinə tutarlı dəlil hesab oluna biləcək bir sıra nümunələri qeyd edəcəyik.

**Qurandan ayələr:**

1) “Cinn” sürəsinin 26, 27 və 28-ci ayələri.

“Cinn” sürəsinin 26, 27 və 28-ci ayələrində belə deyilir: “(Allah) qeybi biləndir və öz qeybinin sirlərindən heç kimi agah etməz. Yalnız seçdiyi rəsuldan başqa! (Allah onları agah edər) Allah onun önündən və arxasından gözətçilər göndərər ki, rəsulları şeytanların əziyyətlərindən qorusun və onların öz Rəbbinin risalətlərini (peyğəmbərlərə və peyğəmbərlər də insanlara) çatdırdığını bilsin (və əzəli elmi həyata keçsin). Allah onlarda olanları (öz elmi ilə) ehtiva etmişdir. O, hər şeyin

sayını bilir”. Ayələrdə qeyd olunduğu kimi Allah seçdiyi elçiləri qeybdən xəbərdar edər. Ayələrin məzmunu o qədər aydın və şəffafdır ki, fikrimizcə, burada əlavə yozuma ehtiyac qalmır. Quranşünas alimlərin həmin ayələri təfsir edərkən verdikləri izahlara nəzər saldıqda elçilərin qeybdən xəbərdar olduqlarına dair qeyd olunan iddianın danılmaz fakt olduğu məlum olur.

Allahın razı qaldığı və seçdiyi şəxsləri istədiyi qədər qeybdən xəbərdar etməsi Quranla öz təsdiqini tapmış həqiqətdir. Fəxri Razi bir sıra dəlillərə istinad edərək “Cinn” surəsində keçən ayələrin hətta seçilmiş elçilərlə məhdudlaşmadığını iddia edərək bir qədər da irəli gedir və başqa insanların da qeybdən xəbər verdiklərini söyləyir. Bəğəvi isə qeybdən xəbər verməyin ilahi elçilik iddiasında olan şəxsin peyğəmbərliyini sübuta yetirən möcüzələrdən biri olduğunu yazır.

**2) “Ali-İmran” sürəsinin 179-cu ayəsinin təfsiri**

Peyğəmbərlərin qeybi bildiklərini göstərən digər bir ayə “Ali-İmran” surəsinin 179-cu ayəsidir. Ayədə belə deyilir: “Allah pisi yaxşıdan ayırmadan möminləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildi. Allah sizi qeyb sirlərindən xəbərdar edən də deyildi (Bu şəkildə möminlərlə münafiqlər məlum olardı. Bu, isə ilahi qanunauyğunluğa ziddir). Lakin, Allah öz elçiləri arasından istədiyi şəxsi seçər (ona rəhbərlik vəzifəsini yerinə yetirmək üçün lazım olan bəzi qeyb sirlərini bildirər). Buna görə də Allaha və Onun peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir!” Ayənin məzmunundan belə anlaşılır ki, Allah-taala insanları qeybin sirlərindən agah etmir, lakin öz elçilərini bu haldan istisna edir. Ayədə keçən istisnanın mənası budur ki, ümumi insanlardan fərqli olaraq həmin elçiləri qeybin sirlərindən xəbərdar edir. Əks təqdirdə istisnanın heç bir anlamı qalmazdı. Qeyd olunan bu istisnanın, yəni digərlərindən fərqli olaraq peyğəmbərlərin müəyyən qədər qeybdən xəbərdar olmalarının mahiyyəti və fəlsəfəsi aydındır.

Qeyd olunan nümunələrdən aydın olur ki, Quran peyğəmbərlərin qeybdən xəbərdar olduqlarını açıq-aşkar şəkildə təsdiqləyir. Ayənin mənası o qədər şəffaf və aydındır ki, heç bir şübhəyə yer qoymur.

**3) Keçmiş peyğəmbərlərin başlarına gələn hadisələrdən xəbər vermək**

Quranın bir çox ayələrində keçmiş peyğəmbərlər və ümmətlərin başlarına gələn hadisələrdən söhbət açılır. Məlum məsələdir ki, Quranın bu hekayələri nəql etməkdə məqsədi insanlara tarix danışmaq deyildir. Quranın özünün də qeyd etdiyi kimi, bu hekayələri nəql etməkdə məqsəd ibrət və öyüd-nəsihətdir. Quran bir ayədə bu həqiqəti belə bəyan edir: "Şübhəsiz, onların (peyğəmbərlər və onların ümmətlərinin) başlarına gələnlərdə ağıl sahibləri üçün bir ibrət vardır".[1] Quranda yer almış tarixi məlumatlar ibrət xarakteri daşımaqla yanaşı, həm də Quranın səmavi kitab və İslam Peyğəmbərinin (s) də haqq peyğəmbər olduğunun əyani sübutudur, çünki keçmiş ümmətlərin başlarına gələn hadisələr qeyb hesab olunduğu üçün bu barədə yalnız vəhy vasitəsilə məlumat əldə etmək mümkündür. Buna görə də Quran bu məzmunda olan hekayələrin "qeyb" olduğunu və yalnız vəhy vasitəsilə bilinə biləcəyini xüsusi olaraq vurğulayır.

"Qeyb" məfhumuna verdiyimiz tərif və izahdan aydın olduğu kimi, bu qəbildən olan hadisələr qeybin əhatə dairəsinə daxil olmaqdadır, çünki keçmiş zamanlarda baş vermiş hadisələri müşahidə etmək mümkün olmadığı üçün dolayısı ilə bu barədə məlumat əldə etmək imkansızdır. Belə olan təqdirdə, həmin hadisələr "qeyb" hesab olunduğu üçün bu barədə yalnız vəhyin köməkliyi ilə məlumat əldə etmək olar. Buna görə də Quran bu hekayələrin "qeyb xəbərləri" olduğunu israrla vurğulamaqdadır.

**4) Saleh bəndə ilə Musanın (ə) hekayəsi**

Quranın "Kəhf" surəsinin 60-82 ci ayələrində Musa peyğəmbərlə (ə) saleh bəndə arasında cərəyan edən hadisələr nəql olunur.

Quranda nəql olunan bu hekayədə saleh bəndənin hətta Musa peyğəmbər (ə) kimi ülul-əzm peyğəmbərin bilmədiyi qeyb

---

[1] Yusuf surəsi, 111-ci ayə

həqiqətlərindən necə xəbərdar olduğu vurğulanır. Məlum məsələdir ki, saleh bəndənin gördüyü işlər insanların normal vasitələrlə heç zaman dərk edə bilməyəcəkləri növdən olan xəbərlərdir. Bu həqiqətlər yalnız xüsusi təlimlə öyrədilə bilər. Məhz buna görədir ki, Allah həmin bəndəyə öz dərgahından xüsusi rəhmət və elm verdiyini deyir: "Beləliklə, Bizim Öz tərəfimizdən bir rəhmət verdiyimiz və Öz yanımızdan elm öyrətdiyimiz, vasitəsiz ilham verdiyimiz bəndələrimizdən birini tapdılar". Ayədə qeyd olunduğu kimi, saleh bəndə həmin sirli məlumatlara digər insanlardakı kimi adi vasitələrlə yiyələnməmişdi.

Beləliklə, saleh bəndənin sahib olduğu elm "qeyb elmi" olmuşdur, çünki həmin elmə adi vasitələrlə yiyələnmək mümkün deyildir.

## "Vaqiə" sürəsinin 78-79-cu ayələrinin təfsiri

"Vaqiə" surəsi Məkkə surələrindəndir və onda adəti üzrə inancla bağlı məsələlərin izahına geniş yer verilib. Həmçinin, surədə müşriklərin Quranla bağlı irəli sürdükləri ittihamlar rədd edilərək onun pak və Allah dərgahından enən müqəddəs bir kitab olduğu qeyd olunur. Surənin 78 və 79-cu ayələrində Quranla bağlı maraqlı bir fakta işarə olunur: "(78) (O,) örtülü bir yazıda (və hər bir dəyişiklikdən qorunmuş) kitabdadır. (79) Ona (həmin yazılmış lövhəyə günah tutqunluğundan) paklanmış kəslərdən başqa heç kəs toxunmaz". Bu iki ayə üzərində diqqətlə və dərindən düşünsək, bir sıra önəmli məlumatlar bizim üçün aydınlaşar. Qeyd olunan bu iki ayədə təfsirçi alimlərin diqqətini cəlb edən və geniş müzakirələrin yaranmasına səbəb olan bir neçə məsələ var: 1) "Qorunmuş kitab" deyilərkən nə nəzərdə tutulur? 2) Paklanmış (mütəhhər) insanlar kimlərdir? 3) "Kitaba toxunmaq" dedikdə hansı növ toxunmaq nəzərdə tutulur?

### 1) "Qorunmuş kitab" deyilərkən nə nəzərdə tutulur?

Təfsirçi alimlər "qorunmuş kitab" ifadəsinin mənası ilə bağlı müxtəlif fikirlər səsləndirmişlər. Bir qrup alim həmin kitabın Quran

olduğunu, digər qrup isə lövhi-məhfuza işarə olunduğunu bildirmişdir. Fəxri Raziyə görə, burada "Lövhi-məhfuz" nəzərdə tutulmuşdur. Fəxri Razi bu iddiasını "Buruc" sürəsinin 21 və 22-ci ayələri ilə əsaslandırır: "Bu kitab sehr və əfsanə deyildir, əksinə o, oxunmalı, şanlı – şövkətli bir kitabdır. O, yalan, təhrif, şeytan və cinlərdən qorunmuş Lövhdə (Lövhi-Məhfuzda) yazılmışdır".[1] Qeyd olunan iki ayədə Quranın mənşəyinin lövhi-məhfuz (qorunmuş lövhə) olması heç bir şübhəyə yer qoymayacaq şəkildə bildirilib. Hətta bu iki ayə olmasaydı belə, "Vaqiə" surəsində keçən "qorunmuş kitab" ifadəsindən lövhi-məhfuz mənasını anlamaq mümkündür. Belə ki, "Vaqiə" surəsində keçən "qorunmuş kitab"ın lövhi-məhfuz olduğunu deməyə əsas verir.

**2) Paklanmış şəxslər kimlərdir?**

Ayədə "paklanmış şəxslər" deyilərkən kimlərin nəzərdə tutulduğu alimlər arasında müzakirə və mübahisələrə səbəb olmuşdur. Təbəri özünün təfsir əsərində bu barədə üç fərqli rəyin olduğunu qeyd edir. Bir qrup təfsriçi alim "paklanmış şəxslər" deyilərkən yalnız mələklərin olduğunu yazır. Səid ibn Cübeyr və Mücahid bu fikirdə olanlardandır. Digər bir qrup isə həmin şəxslərin Tövrat və İncili bilən şəxslər olduğu görüşündədirlər. Bu görüş Əkrəmədən nəql olunub. Üçüncü qrup isə pak olunmuş şəxslərin yalnız mələklər olmadığı, insanların da bu zümrəyə aid ola biləcəyini söyləyir və peyğəmbərlərin bu dəstədən olduğunu iddia edirlər. Təbəri Əbülaliyə Riyahi və İbn Vəhəbin bu görüşdə olduğunu qeyd edir. Təbəri ayənin təfsirinə dair fərqli fikirləri qeyd etdikdən sonra öz nəzərində doğru olan rəyin üçüncü rəy olduğunu yazır. Təbəriyə görə, ayədə qeyd olunan paklanmış şəxslər ifadəsi insan və mələklər arasında paklanmış hər şəxsə şamil olunur.[2]

3) "Kitaba toxunmaq" dedikdə hansı növ toxunmaq nəzərdə tutulur?

Ayədə keçən "toxunmaq" (yəmssuhu) feilini cismani və mənəvi olmaqla iki fərqli formada izah etmək mümkündür. Digər ayələrdə

---

[1] Təfsir ər-Razi, c.29, səh.192
[2] Təbəri - Camiul-Bəyan, c. 27, səh. 269

olduğu kimi, bu ayənin izahında da fərqli fikirlərin olduğunu görürük, lakin belə nəzərə çarpır ki, doğru olan görüş ayədə keçən toxunmağın mənəvi olduğudur. Bunun ən böyük dəlili ayədə qeyd olunan lövhi-məhfuzun cismani bir şey olmadığı, mənəvi və ruhani bir həqiqətə sahib olmasıdır. Məlum məsələdir ki, lövhi-məhfuz Allahın sonsuz və nəhayətsiz elminin simvolika ilə ifadə olunmuş formasıdır. Allahın varlığı maddi olmadığı üçün onun elmi də maddi deyildir. Belə olan halda, onun sonsuz elminə yol tapmaq, şübhəsiz ki, mənəvi bir prosesdir. Deməli, ayədə "toxunmaq" deyilərkən "həqiqətdən xəbərdar olmaq" mənası nəzərdə tutulub. Tanınmış Quranşünas alim Alusi də özünün təfsir əsərində "toxunmaq" deyilərkən elm və agahlıq mənalarının nəzərdə tutulduğunu yazmışdır.[1] Deməli, ayədə paklanmış şəxslərin lövhi-məhfuza toxunacağı istisna edilərkən, həqiqətdə, onların həmin lövhədən agah olduqları məcazi şəkildə ifadə edilmişdir.

## Yuxu yozumu

Quranda qeyd olunduğu kimi, Allahın bəzi insanlara öyrətdiyi xüsusi elmlərdən biri də yuxu yozumudur "Yusuf" sürəsinin üç yerində (6, 21 və 101-ci ayələrdə) Allahın Yusuf peyğəmbərə (s) yuxu yozumunu öyrətdiyi və onun da bu elmin Allah tərəfindən ona öyrədildiyini söylədiyi qeyd olunur: "Və beləcə, Rəbbin səni (gələcəkdə) seçəcək, yuxuların və (səmavi kitablarda, peyğəmbərlərin sözlərində gəlmiş) hədislərin yozumunu sənə öyrədəcək və səndən əvvəl atalarıın İbrahim və İshaqa tamamladığı kimi, sənə və Yəqub ailəsinə (də) nemətini tamamlayacaqdır. Həqiqətən, Rəbbin bilən və hikmət sahibidir". "Və beləcə Biz, Yusufa həmin diyarda imkan və məqam verdik. (Əlbəttə, hikmətlər və məsləhətlər əsasında belə etdik) və (həm də) ona görə ki, ona hədislərin yozumunu (mələklərin danışığı olan yuxuların yozumunu və peyğəmbərlərin hədislərinin mənalarını) öyrədək. Allah (varlıq aləminin idarə olunmasında) Öz işinə qalibdir və lakin insanların çoxu bilmir". "Ey Rəbbim, Sən mənə səltənət və

[1] Alusi - Ruhul-Məani, c. 27, səh. 154

hökümətdən pay verdin və yuxuların yozumunu və hədislərin (səma kitablarının və peyğəmbərlərin kəlamlarının) təfsirini öyrətdin! Ey göyləri və yeri yaradan! Sən dünyada və axirətdə mənim yardımçım və başçımsan...”

Hər üç ayədən də göründüyü kimi, burada yuxu yozumu öyrədilməsi Allaha aid edilir. Ayənin zahiri məzmunundan belə anlaşılır ki, Yusuf (ə) bu elmə adi vasitələrdən istifadə edərək yiyələnməmişdi. Əgər belə olsaydı, o zaman bunun Allaha aid edilməsinin heç bir mənası olmaz, həmçinin, Yusuf (ə) üçün heç bir imtiyaz hesab olunmazdı. Buradan aydın olur ki, yuxu yozumu adi vasitələrlə öyrəniləcək bir elm deyil və bu elmə yiyələnmək üçün qeybi yardıma ehtiyac var. Elə həmin surədə Yusufun (ə) zindan yoldaşlarının gördükləri yuxuları yozması, daha sonra fironun yuxusunu yozması və yozumlarının hamısının düz çıxması Yusufun (ə) bu elmdən necə mükəmməl şəkildə xəbərdar olduğunu göstərir. Yozduğu yuxuların məzmunlarına nəzər saldıqda xəbər verdiyi hadisələrin hamısının gələcəklə bağlı olduğunu görürük. Qeybin mənasını izah edərkən gələcəkdə baş verəcək hadisələrin qeybin əhatə dairəsinə daxil olduğunu qeyd etmişdik. Dolayısı ilə Yusufun (ə) yozduğu yuxuların və xəbər verdiyi hadisələrin hamısı qeyb hesab olunur. Tanınmış Quranşünas alim Alusi də özünün təfsir əsərində Yusufun (ə) yozduğu yuxuların qeyb xəbərləri olduğunu yazır. Alusi yazır: “Ayədə “hədislərin yozumu” deyilərkən “yuxu yozumu” nəzərdə tutulur. Bunlar bir sıra qeybi xəbərlərdir ki, Allah onların vasitəsilə yuxu görənin qəlbində Öz istədiyi müəyyən inancları formalaşdırır”.[1]

[1] Alusi - Ruhul-Məani, c.12, səh.185

## Həzrət Məryəmin (s.ə) qeybi bilməsi

“Ali-İmran” sürəsinin 45-ci ayəsində mələklərlə Həzrət Məryəm (s.ə) arasında baş verən dialoqdan danışılır. Ayədə belə deyilir: “(Yada sal) o zaman(ı) ki, mələklər dedilər: “Ey Məryəm, həqiqətən, Allah sənə Öz tərəfindən, adı “Məryəm oğlu İsa Məsih” olan bir kəlmə (övlad) ilə müjdə verir ki, o, dünya və axirətdə cəlal və ehtiram sahibi və (Allah dərgahına) yaxınlardandır”. Ayədə qeyd olunduğu kimi, mələklər Məryəmə (s.ə) gələcəkdə dünyaya gələcək övladı haqqında müjdə verirlər. Bundan əlavə, doğulacaq uşağın gələcəkdə necə bir adam olacağı, hansı insani keyfiyyətlərə yiyələnəcəyi barədə də qabaqcadan Məryəmi (s.ə) xəbərdar edirlər. Məlum məsələdir ki, bu məlumatların hamısı qeyb xəbərləridir. Belə ki, heç kim adi vasitələrdən istifadə etməklə qabaqcadan onun uşaq dünyaya gətirəcəyini, həmin uşağın cinsinin oğlan olacağını, gələcəkdə xeyirli və hörmətli bir adam olacağını bilməz. Elm və texnikanın bu qədər inkişaf etdiyi bir dövrdə dünyaya gələcək uşağın cinsi yalnız hamiləliyin müəyyən mərhələsindən sonra müəyyən oluna bilir. Nəzərə alsaq ki, mələklər Məryəmə (s.ə) övlad müjdəsi verdikləri zaman o, hələ hamilə deyildi, o zaman gələcəkdə baş verəcək hadisələrə dair verilən bu xəbərlərin qeyb həqiqətləri olduğu heç bir şübhəyə yer qoymayacaq şəkildə aydın olur. Bundan əlavə, ayəyə diqqətlə nəzər saldıqda məlum olur ki, Məryəmin (s.ə) təkcə gələcəkdə baş verəcək hadisələrdən xəbərdar olması deyil, eyni zamanda mələklərlə dialoq qurması da qeyb həqiqətlərindən hesab olunur, çünki mələklərlə söhbət etmək ümumi kütlənin imkanları xaricində olan bir şeydir. Bu hal yalnız qeyb sirlərindən xəbərdar olmaqla mümkün ola bilər.

Buradan belə bir nəticəyə gəlmək olar ki, bəzi insanların qeybdən xəbərdar olduğunu söyləmək, həqiqətdə, Quranın sözünü təsdiq etmək, əksini iddia etmək isə Quranın sözünü inkar etməkdir.

## Sünnədən dəlillər

Qeyd edəcəyimiz hədislər əhli-sünnənin ən etibarlı qaynaqlarındandır. Müddəanın isbatı üçün Qurandan qeyd olunan ayələrin kifayət etməsinə baxmayaraq, məsələnin daha da aydın olması və inkarçılar üçün heç bir üzr yeri qoymamaq üçün sünnədən də lazımi sayda dəlillər qeyd edilməsinin vacib olduğunu düşünürük.

### 1) Ömər ibn Xəttabın hədisi

Buxari özünün "Səhih" əsərində Tariq ibn Şihabın Ömərdən belə eşitdiyini nəql edir: "Ömərdən eşitdim ki, deyir: "Peyğəmbər minbərə çıxdı və bizə yaranışın başlanğıcından başlamış cənnət əhlinin Cənnətdəki, cəhənnəm əhlinin isə Cəhənnəmdəki mənzillərinə qədər baş verəcək hadisələrdən xəbər verdi. Bunları yadda saxlayan saxladı, unudan isə unutdu..."[1]

Buxarinin tanınmış şərhçilərindən olan Bədruddin Eyni hədisi şərh edərkən Müslim və Əhməd ibn Hənbəlin Əbu Zeyd Ənsaridən oxşar məzmunda nəql etdikləri digər bir hədisi qeyd edir. Əbu Zeyd Ənsari deyir: "Peyğəmbər (s) bizə sübh namazını qıldırdı, daha sonra minbərə çıxdı və namaz vaxtı yetişənə qədər bizə xütbə oxudu. Sonra minbərdən endi və bizə zöhr namazını qıldırdı, sonra yenə minbərə çıxdı və xütbə oxudu. Sonra əsr də belə oldu. Bu hal məğribə qədər davam etdi. Günəş batdı, bizə keçmişdə və hazırda olanlardan danışdı. Bizim ən elmlimiz ən çox yadda saxlayanımız idi". Bədruddin Eyni daha sonra Ömərin hədisi haqqında deyir: "Bu hədis onu göstərir ki, Peyğəmbər bir məclisdə əvvəldən sonadək yaranmışların bütün hallarından xəbər verib. Bütün bunları bir məclisdə demək qeyri-adi bir hadisədir..."[2]

Buxarinin Ömər ibn Xəttabdan nəql etdiyi hədis və hər iki şərhçinin hədisə verdikləri izahdan aydın olur ki, Peyğəmbər (s) öz səhabələrinə yaranışın əvvəlindən tutmuş Qiyamətədək bütün hadisələrdən xəbər verib. Əlbəttə, Peyğəmbərin (s) verdiyi xəbərlər ümumi məzmun daşımışdır, çünki bir neçə saat ərzində bu barədə

---

[1] Səhihi-Buxari - Kitabu Bədil-Xəlq, 3192-ci hədis
[2] Bədrəddun Eyni - Umdətu-Qari, c.15, səh.110

təfsilatı ilə danışmaq qeyri-mümkündür. Keçmişdə və gələcəkdə baş verəcək hadisələr haqqında yalnız ümumi şəkildə məlumatlar vermək mümkündür. Hədisdən də aydın olduğu kimi, Peyğəmbərin (s) danışdıqları yaranmışların başlanğıcından tutmuş Qiyamətə qədər baş verəcək hadisələri əhatə edirdi. Qeyb barədə izah verərkən qeyd etdik ki, bu qəbildən olan hadisələr haqqında adi vasitələrlə məlumat əldə etmək mümkün olmadığı üçün bu mövzular qeyb həqiqətlərindən hesab edilir. Deməli, Peyğəmbərin (s) bu mövzular haqqında verdiyi məlumatların hamısı qeybin əhatə dairəsinə daxil olur.

**2) Hüzeyfə ibn Yəmanın Qiyamətədək baş verəcək hadisələrdən xəbərdar olması**

Bəzi hədis kitablarında Hüzeyfə ibn Yəmanın Qiyamətə qədər baş verəcək hadisələr haqqında necə geniş bir məlumata sahib olduğunu ifadə edən hədislər nəql olunub. Hətta Peyğəmbərin (s) Hüzeyfəni bəzi sirlərdən xəbərdar etdiyi də məşhur hadisədir. Buna görə də Hüzeyfə səhabələr arasında Peyğəmbərin (s) sirdaşı kimi tanınmışdı, çünki Peyğəmbər (s) münafiqlərin hamısının adlarını Hüzeyfəyə söyləmişdi. Peyğəmbərin (s) vəfatından sonra bəzi məsələlərdə Hüzeyfənin bu barədə Peyğəmbərdən (s) nə isə öyrənib-öyrənmədiyi soruşulardı. Hüzeyfənin bu barədə çox şey bilməsinin səbəbi çox sual verən bir adam olması və Peyğəmbərdən (s) gələcəkdə baş verəcək hadisələrə dair eşitdiklərini yazmasıdır. Hüzeyfə özü etiraf edir ki, elə zaman olur ki, bəzi şeyləri unudur, lakin qələmə aldığı yaddaş kitabçasına nəzər saldıqdan sonra həmin məsələni dərhal xatırlayır. Müslim özünün "Səhih" əsərində "Fitnələr və Qiyamətin Şərtləri" kitabında "Peyğəmbərin Qiyamətədək baş verəcək hadisələrdən xəbər verməsi" fəslində Hüzeyfədən belə bir hədis nəql edir: "Peyğəmbər (s) bizim aramızda dayandı və öz dövründən başlayaraq Qiyamətədək baş verəcək hadisələrdən danışdı. Yadda saxlayan yadda saxladı, unudan da unutdu. Elə olur ki, onlardan bəzilərini unuduram, daha sonra ona (yaddaş kitabçasına) baxdıqdan sonra xatırlayıram. Bu, bir insanın

başqa bir insanı görmədikdə simasını unudub sonra təkrar gördükdə xatırlamasına bənzəyir...”[1]

Qeyd olunan hədislərdən belə məlum olur ki, Peyğəmbər (s) Qiyamətədək baş verəcək hadisələrdən, fitnə və müsibətlərdən xəbərdardır. Yeri gəldikdə bu haqda öz səhabələrini də məlumatlandırmışdır. Bu hadisələr təfsilatı ilə Quranda yer almadığı üçün artıq həmin hadisələrdən xəbər verilməsinin qeybin müəyyən sirlərindən xəbərdar olmağın əyani göstəricisi olduğu da məlum olur. Bu qədər faktdan sonra kimsə durub qeybin yalnız Allaha məxsus olduğunu və heç bir insanın bundan xəbərdar ola bilməyəcəyini söyləməsi təəssübkeşlikdən başqa bir şey deyildir.

## Qeybin yalnız Allaha aid olduğunu iddia edənlərin dəlilləri

Bu bölümdə qeybin yalnız Allaha aid olduğunu iddia edənlərin istinad etdikləri dəlillərə toxunacağıq. Bu görüşdə olanlar öz iddialarını sübuta yetirmək üçün Quranda qeybin yalnız Allaha məxsus olduğunu, ondan savayı heç kimin qeybi bilməyəcəyini, qeybin açarlarının yalnız Allahın yanında olduğunu söyləyən ayələri əsas gətirirlər. Burada həmin ayələri bir-bir təhlil edib onların qeyd olunan iddialar üçün nə qədər tutarlı dəlil olub-olmadığını göstərməyə çalışacağıq.

## Qeybi bilmək yalnız Allaha məxsusdur

“Yunus” surəsinin 20-ci ayəsində qeybin yalnız Allaha aid olduğu bildirilir. Həmin ayədə belə deyilir: “Və “nə üçün Rəbbi tərəfindən ona bir möcüzə nazil olmayıb?” – deyə soruşurlar. De: “Qeyb yalnız Allahın ixtiyarındadır. Buna görə də, gözləyin ki, mən də mütləq sizinlə birgə gözləyənlərdənəm”. Təfsirçilər ayəni şərh edərkən yazırlar ki, bir qrup müşrik Peyğəmbərin (s) digər peyğəmbərlər kimi möcüzə göstərməsini tələb edir. Quran isə onların cavabında bildirir ki, möcüzənin göstərilməsi Peyğəmbərə (s) aid məsələ deyil. Bunun elmi yalnız Allah qatındadır, çünki möcüzə qeybdir və qeybin elmi də yalnız Allaha

---

[1] Səhihi-Müslim, 2789-cu hədis

aiddir. Dilçi alimlər bildirirlər ayədə işlənmiş "innəma" ədatı "məhdudlaşdırıcı" məna ifadə edir. Deməli, ayədə qeyb elminin əhatə dairəsi məhdudlaşdırılaraq yalnız Allaha aid edilir. Bu da onu göstərir ki, qeyb elmi yalnız Allaha aiddir və ondan başqa heç kim qeybi bilə bilməz.

**Cavab**

Qeyd olunan ayədə qeybin yalnız Allaha aid olmasının buyurulması bəzi insanların da qeybdən xəbərdar ola biləcəklərinə dair verdiyimiz izahlarla heç bir ziddiyyət təşkil etmir. Əksinə, biri digərini təsdiq etməkdədir. Belə ki, bu ayədə qeybin yalnız Allaha aid olduğu bildirilir. Əvvəlki bölümdə nümunə olaraq qeyd etdiyimiz ayələrdə isə bəzi insanların da qeybdən xəbərdar ola biləcəkləri və bu agahlığın yalnız Allahın bildirməsi ilə baş verməsi təfsilatı ilə izah edildi. Bu aspektləri ifadə edən ayələri yanaşı qoyub üzərində diqqətlə düşündükdə ortada heç bir ziddiyyətin olmadığı məlum olur. Qeybə dair lap əvvəldə verdiyimiz açıqlamada xüsusilə qeyd etdik ki, qeyb adi vasitələrlə dərk oluna bilməyən şeylərə deyilir. Allahın bəzi şəxsi qeybdən xəbərdar etməsi, əslində, bir ilahi sünnə və zərurətdir. Əks təqdirdə heç kim qeybin sirlərinə yol tapa bilməz. Deməli, qeybin yalnız Allaha məxsus olduğunu ifadə edən "Yunus" surəsinin 20-ci ayəsi qeybin mahiyyətinə işarə edir və qeybi müstəqil şəkildə, heç bir vasitə olmadan yalnız Allahın bildiyini izah edir. Bəzi insanların qeybdən xəbərdar olduqlarını ifadə edən digər ayələr isə həmin adamların bu məlumatları Allahın bildirməsi ilə bildiklərini göstərir. Deməli, bu ayə bəzi insanların izah olunan formada və şərtlər daxilində qeybdən xəbərdar olduqlarını inkar etmir.

Ayədə keçən "innəma" ədatının məzmununa gəldikdə isə, əgər bu ədatın mütləq "məhdudluq" bildirdiyini söyləsək, o zaman ayədə qeybin yalnız Allaha aid edilməsi ilə həqiqətdə qeybin birbaşa və vasitəsiz şəkildə Allaha aid olduğu başa düşülür. Əgər ayədəki "innəma" ədatının nisbi məna daşıdığını desək, o zaman qeyd olunan ayənin qeyb elminin

həqiq və mütləq mənada yox, sadəcə, nisbi şəkildə Allaha aid etdiyi məlum olacaq.[1] Nəticə isə hər iki versiya da eynidir.

### "Ənam" surəsinin 59-cu ayəsinin təfsiri

Qeybi yalnız Allahın bildiyini iddia edənlərin istinad etdikləri digər bir ayə "Ənam" sürəsinin 59-cu ayəsidir. Həmin ayədə belə deyilir: "Qeyb xəzinələrinin açarı (və onların həqiqətləri) Onun yanındadır. Onları Ondan başqa heç kəs bilmir. (Varlıq aləminə qədəm qoyanlardan) quruda və dəryada olanı bilir. Yerə elə bir yarpaq düşmür ki, O, onu bilməsin. Həmçinin, (Onun əzəli elmində və) aydın olan kitabda mövcud olmadan yerin qaranlıqlarında (altında) bir toxum və (meyvə və dənli bitkilərdən) heç bir quru və yaş yerə düşmür". Ayədə qeyd olunduğu kimi, qeybin açarları yalnız Allah yanındadır, onları Allahdan başqa heç kim bilə bilməz. Yerdə və göydə baş verən elə bir hadisə yoxdur ki, Allah ondan xəbərsiz olsun. Bu ayədən belə anlaşılır ki, qeybi Allahdan başqa heç kim bilmir, çünki qeybin sirlərinə yol tapmaq üçün ilk növbədə onun açarlarını bilmək lazımdır. Qeybin açarlarını Allahdan başqa heç kimin bilmədiyi üçün dolayısı ilə ondan başqa heç kim qeybdən xəbərdar deyildir.

**Cavab**

Ayədə işlənmiş "qeybin açarları" ifadəsi ilə hansı mənanın nəzərdə tutulması alimlər arasında ciddi müzakirə mövzusu olmuşdur. İbn Qəyyim Covzi bu barədə yeddi fərqli rəy qeyd edir. Həmin rəylər aşağıdakılardır:

1) "Qeybin sirləri" deyilərkən "Loğman" surəsinin sonuncu ayəsində qeyd olunan beş hadisə nəzərdə tutulur. Quran deyir: "Həqiqətən, Qiyamət (qopacağı vaxt) barəsində elm Onun yanındadır (Qiyamətin qopacağı vaxtı yalnız O bilir). Yağışı (göydən) O yağdırır. O, (balası olan canlıların) bətnlər(in)dəkini (balanın bir, ya bir neçə olmasını, gələcək xüsusiyyətlərini, ruhi vəziyyətini, gələcək əməllərini və son

[1] Bəzi ayələrdə bu ədat nisbi mənada işlənib

mənzilini) bilir. Heç kəs sabah nə qazanacağını (nə elm, əməl və mal-dövlət əldə edəcəyini), harada öləcəyini bilməz. Həqiqətən, Allah (isə bunların hamısını) bilir və hər şeydən xəbərdardır". İbn Ömərin nəql etdiyi hədisə görə, Peyğəmbər (s) qeybin açarlarını bu beş hadisə ilə izah edib.

2) "Qeybin açarları" deyilərkən qədər və ruzilərlə bağlı olan səmavi qeyblərdir. Bu görüş İbn Abbasa məxsusdur.

3) Ətaya görə, "qeybin açarları" deyilərkən insanlardan gizlin qalan savab və günahlar nəzərdə tutulur.

4) Müqatil isə bunu əzabın nə zaman enməsi ilə açıqlayıb.

5) Zəccaca görə, ayədə "qeybin açarları" deyilərkən qeybdən xəbərdar olmaq istəyən şəxsin öz istəyinə çatıb-çatmayacağı nəzərdə tutulur.

6) "Qeybin sirləri" deyilərkən ömürlərin və əməllərin sonu nəzərdə tutulur.

7) "Qeybin sirləri" deyilərkən hələ baş verməmiş bir hadisənin gələcəkdə baş verib-verməyəcəyi nəzərdə tutulur? Əgər baş verəcəksə necə baş verəcək?[1] İbn Qəyyim son iki görüşün kimə aid olması barədə heç bir məlumat verməmişdir.

Qeybin açarları barədə qeyd olunan görüşlərlə tanış oldunuz. Qeyd olunan görüşlərdən hansını qəbul etsək, yenə də qeyd olunan ayə qeyb elminin yalnız Allaha aid edilməsi üçün tutarlı dəlil hesab olunmayacaq. Əgər 1-ci görüşü qəbul etsək, məsələ aydındır. Belə ki, İbn Ömərin də nəql etdiyi hədisə əsasən, "qeybin açarları" deyilərkən "Loğman" surəsinin sonunda qeyd olunan beş hadisə nəzərdə tutulur. Yəni Allaha aid olan qeyb yalnız bu beş hadisədən ibarətdir. Dolayısı ilə digər hadisələrdən xəbərdar olmaq mümkündür. Məlum məsələdir ki, qeybin sirləri yalnız beş hadisə ilə məhdudlaşmır. Bundan əlavə, İbn Qayyim İbn Məsudun belə dediyini nəql edir: "Peyğəmbərinizə (s) qeybin açarlarından savayı hər şeyin elmi verilib" (eyni mənbə). Bu hədis qəbul edildiyi təqdirdə, bu ayədən nəinki qeybin yalnız Allaha aid olması, hətta Peyğəmbərin (s) də bu beş hadisə istisna olmaqla qeybdən xəbərdar olması öz təsdiqi tapmış olur.

---

[1] İbn Qəyyim Covzi - Zadul-Məsir, c.3, səh.38

Yerdə qalan 6 görüşə gəldikdə, bu izahlardan heç biri qeyb elminin mütləq şəkildə Allaha aid edilməsi üçün yetərli deyil. Əvvəlki bölümdə Allahın bəzi bəndələrini qeydbən xəbərdar etdiyinə dair Qurandan ayələr təqdim edildi. Həmin ayələri bu ayələrlə tutuşdurduqda belə nəticə əldə edirik ki, qeybin sirləri yalnız Allaha aiddir və ondan başqa heç kim bu sirlərdən birbaşa xəbərdar ola bilməz, lakin bəzi hallarda Allah məsləhət bildiyi bir qrup insanı həmin sirlərdən xəbərdar edir. Deməli, bu ayə qeybin mütləq şəkildə Allaha aid olduğunu sübuta yetirmək üçün yetərli deyil.

## Peyğəmbərin (s) qeybi bilmədiyini etiraf etməsi

Quranda qeyd edilir ki, Allah rəsulu (s) müşriklər tərəfindən irəli sürülən bir sıra tələblərin qarşısında aciz qaldıqda bunu açıq şəkildə etiraf edir. "Ənam" surəsinin 50-ci ayəsində bu barədə belə deyilir: "De: "Mən sizə "Allahın xəzinələri mənim yanımdadır" demirəm, qeyb elmini də bilmirəm və (həmçinin) sizə "mən mələyəm" demirəm. Mən yalnız mənə edilən vəhyə tabe oluram..." "Hud" surəsinin 31-ci ayəsində də oxşar sözlər keçir: "Və mən sizə Allahın xəzinələrinin mənim ixtiyarımda olmasını demirəm, mən qeybi də bilmirəm, mən mələyəm demirəm və gözlərinizin xarlıq və həqirliklə baxdığı insanlar haqqında "Allah onlara heç vaxt bir xeyir verməyəcəkdir" də demirəm. Allah onların batinlərində olanı daha yaxşı bilir. Əgər elə desəm, mütləq şəkildə zalımlardan olaram". Qeyd olunan bu iki ayədə İslam Peyğəmbəri (s) açıq-aşkar qeybi bilmədiyini etiraf edir. Əgər Peyğəmbər (s) qismən də olsa, qeybdən xəbərdar olsaydı, o zaman ayədə deyildiyi kimi, qeybdən mütləq şəkildə xəbərsiz olduğunu deməsi yanlış olardı. Deməli, qeybi bilmədiyini etiraf edərkən bu barədə heç bir istisna gətirməməsi onun qeybdən heç nə bilmədiyini göstərir.

**Cavab**

Fikrimizcə, təfsirçilər arasında bu məsələyə ən ideal və tutarlı cavab verən şəxs Əllamə Təbatəbaidir. Əllamə qeyd edir ki, ayədə peyğəmbər barəsində inkar olunan qeyb arada heç bir vasitə olmadan

birbaşa bilinən qeybdir. Yəni Allaha məxsus olan qeyb, çünki qeybi birbaşa və heç bir vasitə olmadan bilən yalnız Allahdır. Bu mənada qeybi Allahdan başqa heç kim bilməz. Peyğəmbərin (s) sahib olduğu qeyb məlumatları isə birbaşa deyil, Allahın bildirməsi və xəbərdar etməsi ilə mümkün olmaqdadır. Deməli, ayədə Peyğəmbərin (s) barəsində inkar edilən qeyb vasitəsiz şəkildə bilinən qeybdir. Əllamə Təbatəbaiyə görə, ayənin ardı bu iddianın ən gözəl sübutudur. "Ənam" surəsində Peyğəmbər (s) qeybi bilmədiyini etiraf etdikdən sonra belə deyir: "Mən yalnız mənə nazil olan vəhyə tabe oluram". Əllaməyə görə, vəhy və onun vasitəsilə Peyğəmbərə (s) nazil olan məlumatların hamısı qeybdir, çünki Quranın özü digər ayələrdə vəhy vasitəsilə Peyğəmbərə (s) nazil etdiyi məlumatların qeybi xəbərlər olduğunu deyir.[1] "Cin" surəsinin 26-cı ayəsində Allahın öz elçilərini qeybdən xəbərdar etmələri, "Yusuf" surəsinin 102-ci, "Ali-İmran" surəsinin 44-cü və "Hud" surəsinin 49-cu ayəsində Peyğəmbərin (s) danışdığı hekayələrin qeyb xəbərləri olduğu qeyd olunur. Bu ayələr barəsində əvvəlki fəsillərdə geniş məlumat verildi. Əbu Cəfər Tusi də özünün təfsir əsərində Əllamənin verdiyi izaha oxşar açıqlama verir. O qeyd edir ki, əgər ayədə qeyb deyilərkən vasitə olmadan bilinən qeyb nəzərdə tutulursa, o zaman bu növ qeyb elmi yalnız Allaha məxsusudur.[2]

## "Əraf" sürəsinin 188-ci ayəsinin təfsiri

Allahdan başqa heç kimin qeybi bilməyəcəyinə dair təqdim edilən dəlillər arasında fikrimizcə "Əraf" surəsinin 188-ci ayəsi dəlalət baxımından ən güclüsüdür. Həmin ayədə Peyğəmbərin (s) dilindən belə deyilir: "De: "Mən özüm üçün Allahın istədiyindən başqa heç bir xeyir və ziyana malik deyiləm. (Qeyb elmim də yoxdur) və əgər qeybi bilsəydim, özüm üçün mütləq şəkildə hər bir xeyirdən çoxlu tədarük görərdim və mənə heç bir zərər-ziyan dəyməzdi. Mən iman gətirən dəstə üçün yalnız bir qorxudan və müjdə verənəm". Ayədə qeybdən xəbərdar olmaqla xeyirdən tədarük görmək və zərər-ziyanı özündən

---

[1] Əllamə Təbatəbai - əl-Mizan, c.7, səh.95-96
[2] Əbu Cəfər Tusi - ət-Tibyan, c.5, səh.476

uzaqlaşdırmaq arasında qırılmaz bağların olduğu qeyd olunur. Tarixdən məlum olduğu kimi, Peyğəmbərin (s) başına olmazın müsibətlər gəlib və İslam dinini insanlara təbliğ edərkən müxalif qüvvələr tərəfindən çoxlu əziyyətlərə məruz qalıb. Ayənin irəli sürdüyü məntiqə əsasən, əgər Peyğəmbər (s) qeybdən xəbərdar olsaydı, mütləq şəkildə bu problemləri özündən uzaqlaşdırardı. Uzaqlaşdıra bilmədiyi üçün dolayısı ilə qeybdən xəbərdar olmadığı aydın olur. Ola bilər oxucunun ağlına üçüncü bir ehtimal da gəlsin. O da budur ki, Peyğəmbər (s) qeybi bilirdi və İslamı təbliğ edərkən üzləşdiyi problemləri də özündən uzaqlaşdıra bilərdi. Lakin bütün bunların ilahi sınaq və imtahan olduğunu bildiyi üçün Allahın qəza və qədərinə razı qalmağı digər vasitələrdən üstün tuturdu, çünki bu razılıqda ruhun və insanlığın təkamülü, ucalması vardır. Deməli, Peyğəmbərin (s) bəla və müsibətləri özündən uzaqlaşdırmaması qeybi bilmədiyinə dəlalət etməz.

Fikrimizcə, qeyd olunan cavab tutarlı deyil və ayənin zahirindən anlaşılan məna ilə uyğun gəlmir, çünki bu versiyanı qəbul etsək, o zaman ayədə qeybi bilməklə xeyir tədarük etmək və zərər-ziyanı dəf etmək arasında heç bir zəruri bağlılığın olmadığı aydın olur. Bundan daha önəmlisi isə bu ikisi arasında heç bir bağlılıq olmadığı halda, Peyğəmbərin (s) dilindən belə bir şeyi insanlara çatdırmaq söz oyunundan savayı heç nə ifadə etməmiş olacaqdır. Əgər qeybi bildiyi halda, yenə də ilahi qəza və qədərə razı olacaqdısa, onda qeybi bildiyi təqdirdə heç vaxt ona zərər toxunmayacağını təkidlə insanlara söyləməyin nə mənası var idi? Təsəvvür edin, bir nəfər insanların qarşısına keçib belə bir cümlə işlədir: “Ay camaat! Əgər əlimdə pulum olsaydı, mütləq özümə minik alar və heç zaman miniksiz çölə-bayıra çıxmazdım”. Halbuki hamı sənin minikdən istifadə edə bilmədiyini yaxşı bilir. Belə olan halda, bu məzmunda cümlə qurmaq əbəs bir işdir və insanların başını qatmaqdan savayı heç nəyi ifadə etmir.

Düşünürük ki, qeyd olunan şübhəyə obyektiv cavab tapmaq üçün ayənin kontekstinə diqqətlə nəzər salmaq lazımdır. Belə ki, ayənin əvvəlində Peyğəmbərin (s) özü üçün Allah istəyəndən başqa heç bir xeyir və ziyana malik olmadığı qeyd olunur. Yəni Peyğəmbər (s) özü

üçün heç bir xeyir və zərər yetirmə qüdrətinə sahib deyildir. Görəsən, həqiqətən də, belədirmi? Peyğəmbər (s) özünə heç bir xeyir və zərər yetirə bilməzmi? Görəsən, Quranın bu sözü reallıqla nə qədər üst-üstə düşür? Məlum məsələdir ki, Peyğəmbər (s) həyatda ikən bir çox xeyirlərə nail olub. Onun qazandığı ən böyük xeyir isə Allaha olan bəndəliyi və bunun nəticəsində peyğəmbərlik məqamına yüksəlməsidir. Əgər Peyğəmbərin (s) bu məqama öz ixtiyarı ilə gəlib çatdığını qəbul etməsək, o zaman Allahın ədaləti sual altına düşəcək. Hamının təsəvvüründə avtomatik olaraq belə bir etiraz yaranacaq ki, niyə mən yox, məhz o? Bir halda ki, hər ikimiz də imkanlar baxımından eyni səviyyədəyik. Buradan belə aydın olur ki, Peyğəmbərin (s) özü üçün heç bir xeyir və zərərə malik olmadığını qeyd edən ayə bir qədər fərqli məzmunda izah edilməlidir. Fikrimizcə, ayədə Peyğəmbərin (s) bu işə müstəqil sahib olmadığı çatdırılmışdır. Yəni Peyğəmbərin (s) özü öz ixtiyarı ilə xeyir və zərər işlər görməyə qadir olmağına baxmayaraq, malik olduğu bu qüdrət Allahın iradəsindən asılıdır. Yəni Allah ona bu imkanları verməsəydi, qətiyyən bir iş görə bilməzdi. Deməli, ayədə Peyğəmbərin (s) xeyir və zərər işlər görə biləcəyi mütləq surətdə inkar edilmir. Sadəcə, bu qüdrətin mənbəyinə işarə edilir və həmin mənbə olmasaydı, o zaman hər hansı işi görməyə qadir olmayacağı vurğulanardı.

Ayədə Peyğəmbərin (s) birbaşa, heç bir vasitə olmadan qeybdən xəbərdar olması inkar edilir. Məlum məsələdir ki, Peyğəmbər (s) qeyb sirlərinə birbaşa yiyələnsəydi, o zaman bir çox zərərləri çox rahat bir şəkildə özündən uzaqlaşdıra bilərdi, amma Peyğəmbərin (s) qeybdən birbaşa xəbərdar ola bilməməsi və yalnız Allahın bildirdiyi qədər agah olduğunu desək, o zaman nəyə görə bəzi zərərləri də özündən uzaqlaşdıra bilmədiyi də məlum olacaq. Buradan belə nəticəyə gəlmək olar ki, ayədə Peyğəmbərin (s) qeybdən xəbərdar olması mütləq şəkildə inkar edilmir. Əgər qeyd olunan bu cavab oxucunu qane etməsə, ən azından peyğəmbərlərin qeybdən xəbərdar olduqlarına dair qeyd etdiyimiz digər ayələri nəzərə alaraq, bu ayənin həmin ayələrin işığında və onların məzmunları ilə ziddiyyət təşkil etməyəcək bir şəkildə

yozulmasına diqqət yetirsin. Əks təqdirdə Quranda ziddiyyətli ayələrin olduğunu qəbul etmək məcburiyyətində qalacaq. Halbuki Quran bu ehtimalı qətiyyətlə inkar edir: “Onlar Quran haqqında düşünmürlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar”.[1]

[1] Nisa surəsi, 82-ci ayə

# MÜNDƏRİCAT

GIRIŞ ........................................................................................ 3

QURANIN TƏRCÜMƏ VƏ TƏFSİRİ.............................................. 10

METODİKASI ............................................................................. 10

VƏHDƏT VƏ SEVGİYƏ ÇAĞIRIŞ EDƏN “MƏVƏDDƏT” AYƏSİ ...... 15

PEYĞƏMBƏRLƏRİN MƏSUMLUĞU ............................................ 26

PEYĞƏMBƏRLƏR GÜNAH EDIBLƏRMI?...................................... 36

İSLAMDA SEYİDLİK .................................................................... 55

İSLAM NÖQTEYİ-NƏZƏRİNDƏN ÖLÜLƏRƏ QURAN OXUMAQ .... 66

İSLAMDA TƏVƏSSÜL................................................................. 114

ŞİRK NƏDIR? ............................................................................. 116

İSLAMDA ŞƏFAƏT .................................................................... 126

QEYB ELMİ ................................................................................ 145